

Professor Fikrət Seyidov 1930-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1946-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Xarici Dillər fakültəsinə daxil olmuş və 1950-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Orta məktəbdə və daha sonra APİ-də müəllim işləmişdir. 1962-ci ildən Xarici Dillər İnstitutunda fəaliyyət göstərir. İşlədiyi dövrdə iki illik Xarici Dillər Kursunun ilk direktoru, Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinin dekan müavini, dekanı və kafedra müdiri vəzifələrində çalışmışdır.

-ci ildən elmlər namizədi, dosent, 1987-ci ildən Pedaqogika ının professorudur. Professor Fikrət Seyidov 100-dən çox elmi əsərlərin müəllifidir.

"Azərbaycan müəllimlərinin hazırlanmasında Qori seminariya-ı", "Qori seminariyası və onun məzunları", "Qazax seminariyası məzunları", "Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair", ycan Pedaqoji fikir tarixindən səhifələr", "Aslanbəylidən başla-rələr" monoqrafiyaları pedaqoji fikir tarixini öyrənmək, soy ːə qayıtma və gənc nəslin tərbiyəsi baxımından son dərəcə fay-lərdir. Professor Fikrət Seyidov C.Məmmədquluzadə, F.Köçərli, lacıbəyov, R.Əfəndiyev, M.Kaşkari, Yusif Xas Hacib, N.Tusi və aşqa görkəmli şəxslərin pedaqoji görüşlərini araşdırmışdır.

ssor Fikrət Seyidovun baza təhsili ingilis dili müəllimi olduğun-ı sahədə də xeyli iş görmüşdür. Azərbaycan məktəbləri üçün ilk ların hazırlanmasında yaxından iştirak etmiş və V, VI, VII, VIII üçün ingilis dili dərsliklərinin və Avropa standartlarına müvafiq ildə çapdan çıxmış 6-cı sinif üçün dərsliyin və müəllim üçün müəlliflərindən biridir. Professor Seyidov eləcə də Azərbay-ırici dil üzrə ilk texniki vasitələr mövzusunda "Xarici dil dərs-liafilm", "Texniki vasitələr və şifahi nitqin inkişafı yolları" əsər-nüəllifi, eləcə də 8 illik məktəbdə "Xarici dillərin tədrisi meto-itabının müəlliflərindən biridir. Professor Fikrət Seyidov Ümum-ərsliklər probleminə həsr olunmuş seminarın iştirakçısı olmuş, Moskva, Alma-Ata, Tbilisi və bir çox başqa ölkələrdə elmi ərlə çıxış etmişdir.

# Soy kökümüzdən gələn pedaqoji fikir




## Fikrət Seyidov

SOY KÖKÜMÜZDƏN GƏLƏN PEDAQOJİ FİKİR

**Seyidov F.Ə.**

# Soy kökümüzdən gələn pedaqoji fikir
**(V kitab)**

Bakı - 2004

**Elmi redaktor:**

pedaqoji elmlər namizədi dosent,
yazıçı-publisist Allahverdi Eminov

**Texniki redaktor:**

pedaqoji elmlər namizədi
İnqilab Xəlilov

**Rəyçilər:**

1. Gürcüstan Pedaqoji Elmlər Akademiyasının üzvü, pedaqoji elmlər doktoru, professor Əmrulla Paşayev

2. Pedaqoji elmlər doktoru, əməkdar müəllim, professor Əjdər Ağayev

3. Pedaqoji elmlər doktoru, professor Fərahim Sadıqov

4. Pedaqoji elmlər doktoru, Beynəlxalq Pedaqoji Akademiyanın akademiki Fərrux Rüstəmov

Əsər Azərbaycan Dillər Universitetinin Elmi Şurasının "27" fevral 2004-cü il tarixli 1 saylı iclasında müzakirə edilmişdir.

## MÜNDƏRİCAT

**MÜQƏDDİMƏ** ........ 6

**FİKRƏT SEYİDOV MÖCÜZƏSİ** ........ 8

**ORXON YENİSEY ABİDƏLƏRİNDƏ TƏRBİYƏ İMKANLARI** ........ 20
*Gültəkin abidələrində tərbiyə məsələləri* ........ 21
*Bilgə Xaqan abidəsində tərbiyə məsələləri* ........ 25
*Tonyuk abidəsində tərbiyə məsələləri* ........ 27
*Alp Ər Tunqa daş abidəsi* ........ 28
*İlteriş Kutluq Kaqan daş abidəsi* ........ 30
*Bilge Xaqandaş abidəsi* ........ 31
*Gül Tigin daş abidəsi* ........ 31

**ORXON YENİSEY ABİDƏLƏRİNDƏN QİDALANAN TÜRK ƏNƏNƏLƏRİNİN TƏRBİYƏ İMKANLARI** ........ 35
*Uşaqlara ad qoyma* ........ 37
*Salamlaşma* ........ 38
*Qəbristanlıq və türbələrə hörmət* ........ 38
*Evlənmə mərasimi* ........ 39
*Ramazan bayramı* ........ 40
*Qurban Bayramı* ........ 41

**TÜRK DASTANLARININ TƏRBİYƏ İMKANLARI** ........ 41
*Türk dastanlarının Əxlaq tərbiyəsi imkanları* ........ 42
*Manas dastan* ........ 51
*Alpamış dastanı* ........ 55
*Ural Batur dastanı* ........ 57
*Şu dastanı* ........ 57
*Dədə Qorqud dastanı* ........ 57
*Koroqlu dastanı* ........ 75
*Tahir və Zöhrə dastanı* ........ 78
*Alı-Xan Pəri dastanı* ........ 79
*Məhəmməd və Güləndam dastanı* ........ 82
*Abas və Gülqəz dastan* ........ 88
*Valeh-Zərnigar dastanı* ........ 93
*Soltan-Qəndab dastanı* ........ 95
*Vanlı Göyçək dastanı* ........ 98

-6748-

- OYU -
KİTABXANA

*Qaraoğlu dastanı* ........ 101
*Molla Nur dastanı* ........ 107
*Şəhri və Mehri dastanı* ........ 111
*Mahmud və Ağcaquş dastanı* ........ 114
*Əzəmətli Əmrah dastanı* ........ 117
*Məhəmməd Xan və Səlbi xanım dastanı* ........ 120
*Məhəmməd və Gürcü qızı dastan* ........ 120
*Yaxşı və aşıq dastanı* ........ 122
*Vaqifin dastanı* ........ 124
*Hüseyn və Reyhan dastaı* ........ 129

**İSLAMIN PEDAQOJİ FİKRİN İNKİŞAFI VƏ ZƏNGİNLƏŞMƏSİNƏ TƏSİRİ** ........ 134
*Quranda əxlaq tərbiyəs* ........ 137
*Quranda əqli tərbiyə* ........ 148
*Quranda əmək tərbiyəi* ........ 155
*Quranda estetik tərbiyə* ........ 157
*Quranda fiziki tərbiyə* ........ 158
*Quranda ekoloji tərbiyə* ........ 161

**İMAN QƏZZALİNİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ** ........ 164

**İBN QAFİLİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ** ........ 169

**YUSİF XAS HACİBİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ** ........ 170
*Yusif Xas Hacibin əsərlərindən parçalar* ........ 174

**MAHMUD KAŞKARİNİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ** ........ 178

**NİZAMİ GƏNCƏVİNİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ** ........ 182
*Nizami Gəncəvinin əsərlərindən parçalar* ........ 183
*Söz və Şərhçi* ........ 183
*Sirlər xəzinəsi* ........ 184
*Xosrov və Şirin* ........ 185

*Leyli və Məcnun* ........ 186
*Yeddi gözəl* ........ 188
*İskəndarnamə* ........ 189

**ABBASQULU AĞA BAKIXANOVUN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ** ........ 191
*Nəsayeh (nəsihətnamə)* ........ 192
*Hikmətin fəziləti* ........ 199
*Ümüdin boşa çıxması* ........ 200
*Xeyirli işin faydası* ........ 205
*Məlamət Əlaməti* ........ 206

**SEYİD ƏZİM ŞİRVANİNİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ** ........ 208
*Mir Cəfərə Xitab* ........ 208
*Oğluma Nəsihət* ........ 210
*Alimlərə hörmət haqqında moizə* ........ 211
*Oğluma xitab* ........ 212

**HACI SƏİD ƏFƏNDİ ÜNSİZADƏNİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ** ........ 214
*Ana* ........ 214
*Ata* ........ 215
*Övladın Ata və anasına itaəti* ........ 215
*Ata və anasının sözünə qulaq asmayan uşaqlarda neçələri, neçə-neçə bəlalara qiriftar olmaqları barəsində bəzi əhvalatlar* ........ 218

*Təlim və tərbiyə* ........ 220
*Bir para nəsihətlər* ........ 221

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ........ 223

# MÜQƏDDİMƏ

Bu əsəri yazmaqda məqsədimiz soy kökümüzə qayıtmaq, mənəviyyatımızın bir çox itmiş səhifələrini yenidən bərpa etmək, Türk mentalitetinə uyğun vətən torpağını sevmək, onun ərazi bütövlüyünü saxlamaq, itib batmış adət-ənənələrimizə yenidən qayıtmaq, gənc nəslə halallıq, düzlük, doğruluq, əcdadlarımıza ehtiram, ailə möhkəmliyini və şərəfini saxlamaq kimi məsələlər olmuşdur.

Əsərdə eləcə də gənc nəslə bayramlardan tərbiyə vasitəsi kimi istifadə etməyi bacarmaq məqsədi güdülmüşdür. Türk abidələrimizdə xüsusən də, ən qədim abidələrimizdən olan Orxon-Yenisey tərbiyə məsələlərinin müxtəlif tərəfləri elə sadə, dolğun şəkildə əks olunmuşdur ki, onlardan bu gündə tərbiyə kitablarımızda istifadə etmək, soy kökümüzə qayıtmaq yolunda bizə yaxından kömək edə bilərdi.

Kitabda Orxon-Yenisey abidələrindən qidalanan qədim və müasir türk xalqlarının ənənələrinə, dastanlara xüsusi diqqət yetirilmişdir. Əsərdə verilən ənənə və dastanlardakı, tərbiyənin ayrı-ayrı sahələri bir daha göstərir ki, onlar pedaqoji elmin inkişafı və zənginləşməsində böyük rol oynamışlar.

Əsərdə eləcə də Qurani Kərimin elm və əxlaqa necə böyük yer verdiyi göstərilir. Qurandakı əqli, əxlaqi, fiziki, əmək, ekoloji tərbiyə məsələləri aydın və insan qəlbinə yatan şəkildə verilir. Onu oxuyan hər bir şəxsdə mütləq, Məhəmməd Peyğəmbərin bu yüksək tərbiyəvi kəlamlarını öz əməli fəaliyyətinə daxil etmək arzusu doğacaq.

Qurani Kərim pedaqoji məsələləri elə sistemləşdirdi və onun insan mənəviyyatında böyük rolunu elə göstərdi ki, Quranın nazil olunmasından sonra gələn Şərqin, xüsusən də Türk xalqlarının böyük ədib, yazıçı və maarifpərvərləri

tərbiyəvi xarakter daşıyan nəsihətnamələr, kəlamlar yazdılar. Elə bir türk şair və yazıçılarının əsərini tapmaq olmaz ki, orada tərbiyə məsələləri özünün əksini tapmasın. Bu məqsədlə biz əsərdə əvvəlki “Türk xalqlarının tərbiyə və məktəb tarixi” kitabında verdiyimiz İmam Qəzzali, İbn Qafil, Mahmud Kaşqari, Yusif Xas Hacibin nəsihətamiz kəlamları və pedaqoji fikirlərini bir daha təkrar etməyi məqsədə müvafiq hesab etdik. Bunlardan əlavə əsərdə Nizami Gəncəvi, A.A.Bakıxanov, S.Ə.Şirvani və Ünsüzadənin yazdıqları nəsihətamiz kəlamlardan parçalar verməklə Qurani Kərimin nə dərəcədə pedaqoji elmin sistemləşməsinə və təkminləşməsinə təsir etdiyini göstərməyə çalışmışıq. Bizə elə gəlir ki, əsər gənc nəslin əxlaq tərbiyəsində böyük əhəmiyyət kəsb edəcəkdir.

Bir məsələni də qeyd etmək istərdik. Əsəri diqqətlə oxumuş və öz iradlarını bildirmiş rəyçilərə, texniki redaktor İnqilab Xəlilova və əsərin elmi redaktoru, görkəmli Azərbaycan pedaqoqu və publisisti Allahverdi Eminova, əsərin kompyuterdə yığılması və sistemləşdirilməsində xüsusi rolu və əməyi olan Yusifova Sədaqət və Abasəliyeva Vüsaləyə dərin minnətdarlığımızı bildiririk.

***Müəllifdən: Professor F.Ə.Seyidov***

## FİKRƏT SEYİDOV MÖCÜZƏSİ...

Mən yeni ilimizin yeni ayında qəti qərara gəldim ki, professor Fikrət Əhmədoğlu barədə monoqrafiya yazım. Düzü, belə bir qərar fikrimdə yoxuydu və səbəbini onda görürdüm ki, dahi pedaqoq Əhməd Seyidova həsr olunmuş "Əhməd Seyidov fenomanı" (2003) monoqrafiyasını çap etdirmişəm. Və bu kitabda tanınmış professor Fikrət müəllim haqqında da məqalələr yox deyil. Keçmiş və indiki müəllimim, tanınmış ziyalı, məhsuldar alim, zəngin yaddaşlı, həssas təbiətli bir insandan nəsə bir kitabın hasilə gəlməsini niyə qərarlaşdırmamışam, hələ ki, naməlumdur... Üç-dörd aydır ki, o, soy-kökümüzdən, təkrarsız dərin xəzinəmizdən əsər yazdığını dilinnən qaçırmışdı. Və demişdi ki, Allahverdi, bu o silsilədən beşinci kitabdır. Məmnunluqla qəbul elədim, sevindim ki, onun araşdırmaları hələ bitib-tükənməmişdir. Üstəgəl, "Aslanbəylidən başlanan xatirələr" (2000) xatirə-epopeyasını nəzərdə tuturam - nəşr etdirdikdən sonra yaradıcı insan yorulur, qələmi səngiyir, vaxt qazanır. Əslində belə olmadı; pedaqoji fikir tariximizin nurlu səhifələrindən bəhs eləyən dörd əsər ortaya qoydu və... (bu haqda sonra). Xoşbəxtəm ki, bu əsərlərin əlyazmalarını ilkin mən oxumuş, hisslərimi cilovlamağı bacarmamış, ön söz yazmışam. Müəllif də tələbəsinin xətrinə dəyməmiş və bu qeydləri kitablarda vermişdir!...

Mən yaradıcılıq psixologiyası məsələləriylə lap çoxdan məşğulam, eyni zamanda alimlərin (o cümlədən pedaqoqların) də hisslərinə biganə qalmamışam. Professor Fikrət Seyidovun fəaliyyətiylə bilavasitə tanışam, bəzi əsərlərin yazılma sferalarını yaxşı xatırlayıram. Mən belə düşündüm ki, müdriklik yaşında o, öz elmi dünyasını "istirahətə göndərər", özü isə auditoriyalarda tələbələri arasında olar, həmkarlarıyla maraqlı söhbətlərin müəllifinə çevrilər. Bunları hərçənd, istisna etmirəm. Lakin mən deyən alınmadı; sanballı monoqrafiyalar ortaya gəldi, həcmcə də, tematika-

ca da, məzmunca da... Bütün ömrünü hərəkətdə, sanki harayasa tələsməkdə... keçirən Fikrət Seyidov əslində xalqına, torpağına dəyərli işlər, xəzinlər qoymaq fikrini götürmüşdür - son qənətimdir bu. Mən ötəri mülahizələr aparmaq zorunda qaldım: O, niyə asan, əzabsız, ötəri mövzulardan yapışmır. Bu gün bu yol dəbdədi və illərin çiynində hətta nisbətən cavan pedaqoqları da bürümüşdür - elmi xəstəlik timsalında. Professorlar, bu gün-sabah elmlər doktorları olacaq pedaqoqlar da ucuz dairədən çaxmağı bacarmırlar, istəmirlər yox! Axı, bir məmləkətdə alimin dəyərli tədqiqatı və erudik qələmiylə belələrinin işi bir tutulur, nə lazım? Fikrət Seyidov elmi inadıyla streotip, əslində çoxdan elmi həllini tapmış mövzulardan, anlayışlardan uzaqlaşmışdır. Çünki o, böyük Əhməd Seyidovun varisidir, onun qələminə xəyanət etməyi bacarmayan pedaqoqdur... Mən bu məsələyə dəfələrlə toxunmuşam, əslində ünvanıma "alqış" yol almayıbdır, amma deyəcəyəm, gələcək nəslin obyektivliyinə inanıram. Bəlkə də F.Seyidovla isti münasibətimdir ondan çəkinirəm. Deməsə də, ürəyinnən keçir ki, Allahverdi Eminov, sən də... Vallah bu da mümkündür... Elm əslində müəllifindən tələskənliyi, yüngüllüyü, kəmiyyəti sevmir, oxucusunu, faydalığını daxilən təmin etməyi sevir. Əlbəttə, onun iki üzü yox deyil: işığı və kölgəsi, rəğbəti və nifrəti. Yadıma Qrove Uilyamın sözü düşdü: "Əsil elm rəğbəti tanımır, onun yeganə məqsədi hikmətdir" hərçənd, o da haradasa nəticə çıxarmağa tələsmişdir. Məsələ hər bir sözlə oynayan şəxsin qələminə və oxucusuna hörmət bəsləməsi hissindən gedirsə... Bu da "və"nin açması...

Professor Fikrət Seyidovun portret-cizgilərini cızmaq əlimdən gələr, amma onun bütöv, tam obrazını xırdalıqlarına qədər rəsm etməyi bəlkə də bacarmaram. Ona görə ki, doğuluşundan, yeniyetməliyindən, cavanlığından və yetkinliyindən başlayaraq, dolğun ömür yaşadığının şahi-

di çox-çoxdu və haradasa bu müşahidənin cüzi parçasında mənim də payım var. Bu yalnız 1959-cu ildən başlayır, yəni 45 ilin tamamıdı. Oxuculara da qəribə gələ bilər ki, məgər bir yazıçı, pedaqoq həssaslığında bu rəqəm azmıdır? Suala iki müxtəlif cavab verəcəyəm; biri dahi şair V.Göteyə məxsusdur: "Ağıllı cavab almaq istəyirsənsə, ağıllı sual ver", digərini bir surətim dilimnən qaçırmışdır: "İnsan uzun ömür sürəndə hər şeyi itirir". Vallah, şairdə yaxşı deyibdir. Fikrət Seyidov yaşa dolduqca müdrikləşibdir, həyatın görünməz tərəflərinə varıbdır. Yuxarıda vurğulamışdım ki, o, sanki bir yerdə rahat oturmur, hey tələsir və kim üçün, nə üçün? Anlamaq elə sadə olmasa da, məntiqi nəticə odur, Fikrət müəllim evdən çıxanda məqsədsiz qapını açmır. Ailə qayğılarından başlayaraq vəzifə, peşə-sosial məsələlərədək yaddaşında yerbəyer eləyir. Öz işinə son dərəcə məsuliyyətlə yanaşır; qəribəsi, bəlkə də maraqlısı odu, hansı vəzifəni tutubsa, rəhbərlik onnan tələb etməyib, kağız-kuğuzları ələk-vələkdən keçirməyib, amma o, sənədləri səliqə-səhmanla öz yerinə qoyubdur. Bu "mənim aləmimdə tərbiyənin müdriklik nöqtəsidir. Ona görə ki, evdə atasının məsuliyyətə davranışını görübdür. Haşiyə çıxım ki, Fikrət müəllimin böyük qardaşı böyük psixoloq İsmayıl Seyidovda da bu keyfiyyət qorunur. Bunu 80-cı illərdə "Pedaqogika" televerilişinin müəllifi və aparıcısı olanda onu iki dəfə dəvət eləmişdim. Başqa çıxışlarımda görmədiyimi məsuliyyəti, səliqəni İsmayıl müəllimdə gördüm... Sözümün canı odu, Seyidovların soy-kökündə belə məziyyətlər ətə-qana hopubdur... Deyəsən azca kənara çıxdım. Bəli, Fikrət Seyidov mənən, ruhən tələsəndi, hamımız bilirik ki, o çox iti yeriyəndi, lap bizə dərs deyəndə də beləydi, zəng vurulanda artıq o, auditoriyada zabitəli baxışlarıyla "sözünü" deyirdi. Və deyək ki, haradasa əyləşdi, xüsusilə, doğma xarici dillər institutunda, tələbələrinin (keçmiş), dost-tanışlarının nəzəri ona dikilir və

ovqatla əhvalatmı, misalmı gözləyirlər. O isə bir stəkan armudu çayının ömrü qədər oturur, ya kafedraya gedir, ya da maşına əyləşib dənizkənarına üz tuturuq. Bir maraqlı detal da odu, maşının "bardoçoku" qalaq-qalaq elmi, poetik kitablarla doludu. Ya avtoqraflıdılar, ya da alınandılar. Bir gün mənə dedi ki, bizim İsmayıl (onun qardaşına daimi müraciətidi) sən demə, şer yazırmış, özü də möhkəm xəstələnəndən sonra (Arada o, ürək ağrısından dərman qoxulu çarpayının "qonağı" olmuşdu, iradəsi və bir də Göydəki Allah ona yaşamaq qüvvəti verdi). O şerləri də kitab halında nəşrdən çıxarıbdır. Dedim ki, Fikrət müəllim, o poetik duyğular onun hafizə-yaddaşında əzəldəndi, yağılıb-yığılıb və xəstəlik o poetik informasiyaları şerə çeviribdir. Fikrət müəllim özünəməxsus ştrixlə gülümsədi, duydum bu eyhamı: - hələ 15 il əvvəl siz mənə bir geniş həcmli hekayənizi əlyazma nüsxəsiylə vermisiniz, dedim. Arxivimdə saxlayıram. Memuar-əsərinizdə bədii-publisist janrda yazılmışdır. Bədii hiss, bədii söz demək nəslinizdə var.

Bu dəfə də gülümsündü və etiraf elədi ki, son günlərdə kiçik xatirə-hekayələr qələmə alıram. Xahişimlə onlardan bir neçəsini oxudu. Nə əsasdı? Şirin və obrazlı dil, həyatın ibrətli faktlarını ümumiləşdirmək, ata-baba kəlamlarını yerində işlətmək! Daha nə lazımdı? Bəli, belə yazı üslubu onun monoqrafiyalarına da hopubdur. Vay bizim bir sıra pedaqoqlarımıza ki, hər sözü bir ağır daş parçasıdır, haradan qoparıb, Allah bilir, düzüb cümlələr düzəldir və hey bu minvalla neçə-neçə məqalələr yazır, kitablar hazırlayırlar. Bəlkə də bu tiplilərin arasında olduğu üçündür Fikrət Seyidov başqa yazı meyarını seçibdir. Sualsız "bəlkə"dir!

...Salyandan yenicə evə gəlmişdim, bildirdilər ki, Fikrət müəllim zəng eləmişdi, səni soruşurdu. İlk sevincimdi və bilirdim, sabahı işim alınacaq (Bunu sınamışam). Dərhal telefonun dəstəyini götürdüm, həyat yoldaşım dedi ki, telefon birtərəflidi, borcumuza görə kəsiblər. Fəhm var və bunu da

sınaqdan keçirmişəm. Telefon zəng çaldı, dəstəkdə Fikrət müəllimin ötkəmli və kövrək səsini eşitdim. Onun telefonda danışıq tərzi də özünəxasdır, heç vədə qabaqlaya bilməzsən. Yeni il təbriklərində bu, mənim başıma gəlibdir. Hal-əhvaldan sonra görüşmək üçün vədələşdik. Və görüşdük də. Adəti naminə masasının üstündə qalaqlanan kağızlar, sənədlər, kitablar yerbəyer edilir. Fikrət müəllimlə son illərdə hər söhbətimizdə yaradıcılıq məsələləri, yaxşı insanların qıtlığı, pedaqoji mühitdəki təmiz havanın çatışmazlığı ayrıca yer tutur, yəni fikrim rəsmi səslənməsin və hüquqi qiymət də verilməsin. Buna səlahiyyətimizdə imkan vermir. O, eynəyini taxdı, beş-on vərəq ağ qrankaları götürdü: -Allahverdi dedi. -Bizim soy-kökümüzdən olan cavan hərbi komissar, polkovnik Oqtay Seyidovun qəzaya uğramasını xatırlatmışdım. Gözümüzün qabağında böyümüşdü. Oxumuşdu, hərb sənətinə yiyələnmişdi. Dünən onun vəfatının ildönümüydü. - Susdu, eynəyini çıxardı, xəyala daldı. Bilirdim, xatirələrə gedir, vaxtsız solmuş bir ömrün faciəsi yaşanır. - Hə, belə qərara gəlmişik. Onun barəsində yadigar kitab buraxaq, tanıyanlar onunla bağlı ürək sözlərini desinlər. Fikrət müəllim eynəyini taxdı: - Məncə bir-iki vərəqə yazmışam. Oxuyum, ürəyimi boşaldım. Və yumşaq, aydın səslə, templə oxudu.

Bu arada fikrim ani dağılardı ki, Fikrət müəllim sönmüş bir igid ömrünün necə yaşayıb, hisslər keçirib. - Son cümləni oxudu və nəyisə axtarırmış kimi vərəqləri yığışdırdı: - Allahverdi, - xırıltılı səslə astadan dilləndi. - Bir aşağıya düşüm, imtahanların vəziyyətini nəzərdən keçirim. Mən gələnə qədər al oxu bunları. Yox, vərəqlə. - Elə bil səhvini düzəldirdi. Evdə rahatlıqla nəzərdən keçirərsən. Və getdi…

"Soy-kökümüzdən gələn pedaqoji fikir" əsəri. Xəyalımı institut illərinə apardı. Dilçi-alim, müəllimimiz Abasqulu Məhərrəmovu xatırladım. Mərhum bizə "Orxon Yenisey abidələri"nin dilindən mühazirələr oxuyurdu. Maraqlı

açıqlamalar verirdi, qəribə yazıların, daş kitabələrin fotoşəkillərini göstərirdi. Təbii ki, başa düşmürdük lazımınca; onda bunun səbəbini izah edəmməzdik, ola-ola dilçilik savadımızın zəifliyilə də bağlayırdıq. Bəlkə də haradasa haqlıydıq. İndi anlayıram ki, ali məktəbin tədris planlarından gəlmə qüsurlardı. Birinci kursda, 17-18 yaşlı orta məktəb məzunlarına ən ulu, mürəkkəb türk abidələrinin dilini tədris etmək qeyri-mümkündü... Bu ötəri qayıdışdı... Hə, "Müqəddimə - müəllifdən" oxuyuruq. "Qurani-Kərim pedaqoji məsələləri elə sistemləşdirdi və onun insan mənəviyyatında böyük rolunu elə göstərdi ki, Quranın nazil olmasından sonra gələn Şərqin, xüsusən də Türk xalqlarının böyük ədib, yazıçı və maarifpərvərləri tərbiyəvi xarakter daşıyan nəsihətnamələr, kəlamlar yazdılar. Elə bir türk şair və yazıçılarının əsərlərini tapmaq olmaz ki, orada tərbiyə məsələləri özünün əksini tapmasın. Bu məqsədlə biz əsərdə "Türk xalqlarının tərbiyə və məktəb tarixi" kitabında verdiyimiz İmam Qəzzali, İbn Qafil, Mahmud Kaşkari, Yusif Xas Hacibin nəsihətamiz kəlamları və pedaqoji fikirləri bir daha təkrar etməyi məqsədə müvafiq hesab etdik.

Mən bu sitatı təsadüfən gətirmədim. Adı çəkilən monoqrafiya pedaqoji fikir tarixinin tədqiqində ilk mənbə kimi artıq rəsmiləşmiş, geniş istifadə olunmaqdadır. F.Seyidov dərin erudisiya və əhatəli tematika seçimində böyük bir türk epoxasında tərbiyə məsələlərini durultmuşdur. Vaxtilə qoyulan qadağaların acığına bu xeyirxah işi genetik baxımdan ardıcıllıqla araşdırmışdır. Və V kitabda hələlik toxdamışdır. "Hələliyi" ona görə işlətmişəm ki, bu kitabların ilkinləri hər dəfə başa gələndə Fikrət müəllim deyirdi ki, hələlik kifayətdir, bir az fasilə verim, yorulmuşam. Başqa işlərim də var. Bu son sözü realist planda qəbul eləyirdim, çünki ilkin oxucusu, redaktoru gözündə hər kəs tərəfindən ortaya qoyulan kitablar deyildi, axı! Üstündən çox ötmüşdü:

- Allahverdi, bir ideya başımda dolanır, - deyib sözünə davam eləyir. - Güney Azərbaycanımızda görkəmli elm, sənət adamlarımız yaşayıb-yaradıbdır, lazımınca tanıtmamışıq. Nə yazılıbdırsa az-çox Şəhriyarın poeziyasıdır. Cavab verirəm. - Fikrət müəllim, elə duyuram ki, təzə mövzu üzərində işə başlamısız. - Tərəddüdlə üzünə baxıram. O isə məni anlayır və etiraf edir. - "Güney. Azərbaycanda pedaqoji fikir" kitabımı nəzərdə tuturam. - Araya söz salmaq istəyir. Bilirəm, bu təvazökarlığından irəli gəlir. Alim tanıyıram, sısqa məqaləsini, arıq kitabını qoltuğuna vurub qapı-qapı gəzir, sifarişli təqdimat keçirir, resenziya yazdırır. O isə… Bu hissi qəbul eləməsəm də, baxıb görürəm ki, Fikrət Seyidov müdrikliklə yaradıcı zəhmətini birləşdirən möcüzəli pedaqoqdur. - Kitabın adı da dediyimdir. - Dənizdən əsən meh onun sifətinə toxunur, titrəyib dağılır. Əlyazması qarşımdadı. Salyanda, yataqxana tipli otağımda oturub vərəqləri çevirirəm.

"Gültənkin"də deyilir: "Qoy xalq, türk bəyləri eşitsin ki, üstən tanrı basmasa, altda yer dəlinməsə, türk Xaqanın elini, qanununu kim dağıdar? Ayıl! Türk xalqı bil ki, ona görə qul, kəniz oldun ki, bəylərin ağılsız hərəkət elədilər. O Türk xalqınm adı, şöhrəti yox olmasın deyə ata və anamı yüksəltmiş tanrı, türk xalqının adı və şöhrəti yox olmasın deyə Allah məni xaqan elədi"…

"Gültəkin"də çox-çox bu cür hikmətli sözlər, çağalaşır əbədi həkk olunmuşdur: Lap məişət maraqlarından doğan sözlər. Bunlar da bizimçin gərəklidir. Amma Xalqa üzünü tutub min-min illərdən sonra doğulacaq və vəzifə tutacaq, lap adi həyatını yaşayacaq xələflərinə o sözləri demək - ibrətlidir. Məhz Fikrət Seyidov? O hikməti seçmişdir ki… - Biz o azəri-türkük, bizi basmaq, yenmək hər xalqa nəsib olmamışdır, olub məğlubiyyətlə barışmışıq, sonra basmışıq, gözləri tavana zilləmişik. Bəs nə oldu ki, oğraş ermənilər torpağımızı əlimizdən aldı? Ona görəmi torpağımızı xristianlaşdırsın? Çox belə-belə bizə yaraşmayan suallar ortaya çıxır.

Və bu məqamlarda o türk basılır ki, ona Allahın özü rəvac verir. Yaxud, xəcalətdənmi, zəlzələdənmi məhvə məhkum oluruq. Nə Allah bunu elədi, nə də Yer. Pul, vəzifə hərisliyi Qarabağı oğurladı. Məhz Fikrət Seyidov da Gültəkinin hələ yerinə yetirmədiyimiz tənəsini nümunə verməklə barı, yeni nəsli vicdana, qeyrətə çağırmaq istəmişdir. Və beləcə türk xaqanları silsiləli şəkildə hökmdarlığını davam etdirirlər; qəhrəmanlıqla, yüksək əqli təcrübəylə, insani keyfiyyətiylə. Tonyuk abidəsində cəsurluq ön plana keçir: "Allah onlara qələbə bəxş edib. Biz sayca az olsaq da, cürətli, namuslu, heysiyyətamizi qoruyub saxlaya bilən bir xalqıq. Elə bu keyfiyyətlərə görə də Tonyukun ordusu od kimi qızıb döyüşə girir, düşmənləri qırır". Abidə müəllifləri (olmuşları yazıya köçürənlər) yenə mənsub olduğu xalqın qəhrəmanlığını tarixin yaddaşına həkk eləyir, daş mənbələrlə. Burada da Fikrət Seyidovun vətəndaş mövqeyini gördüm: Sayca çox olduğumuz halda, niyə məğlubiyyətlə barışdıq? Həqiqətənmi, barışmağımız müvəqqətidir? Amma mənə xanın əsabələrinə dediyi sözləri oxuyanda ürəyim sancdı, barmaqlarım titrədi və qorxdum bu gecənin vahiməsində. Bir hovur bayıra çıxdım, hava sis-dumanda-qaranlıqda can verirdi: "At öz malım idi verdim... Qadın öz cavabdehiliyimdə idi, millətimin dincliyi üçün verdim. Amma istənilən torpaq dövlət torpağıdı. Bu torpaq mənim deyil, bütün bunlarındı. Şoran da olsa, Vətən torpağı verilməz".

Fikrət Seyidovun əsərində Vətənpərvərlik səhifələrinə geniş yer verməsi təsadüfi deyil. Əvvələ, onun soy kökü Qaranilər nəslində torpağına, el-obasına bağlılıq güclüdür. Tez-tez Qazağa, doğma kəndləri Aslanbəyliyə gedib-gəlməsinin şahidiyəm. İkincisi, atası, şərqin çağdaş tanınmış pedaqoqlarından birincisi, professor Əhməd Yusif oğlu Seyidovun ömrünün son illərində təkidlə Aslanbəylidə yaşaması və uşaqlığı, gəncliyi keçən, Qorili ömrünün romantik xatirələrini yaşadığı kənddə gözlərini ədəbi yum-

ması və dədə-baba qəbristanlığında dəfni. Üçüncüsü, bu familyanın şərəflə xalqa, Vətənə xidməti... Müəllif Londonda olarkən Sovet xəfiyyəsinin azərbaycanlı heyətini daban-dabana izləməsi onda acı təəssüf hissi doğurur, Moskvaya qayıdanda fikrini cəsarətlə rəsmi ifadə eləyir: "Hörmətli mayor, xaricdə biz azərbaycanlıları izləmək lazım deyil, çünki biz Vətənə, el-obaya, ata yurduna dərindən bağlıyıq. Bu bizim xəlqimizin əsas əlamətlərindən biridir... Professor F.Seyidov bu yönümdən türk abidə-dastanlarında: Manas, Alpamış, Ural Batur, Dədə-Qorqud, Koroğlu, Qaraoğlu, Məhəmməd və Gürcü və s. tarixi mənbələrimizə müraciət etmişdir. Bu dastanlardan ədəbiyyatımızda məlumları az deyil və hətta gənc nəslə öyrədilir. Lakin elələri var, demək olar ki, unudulmuşdur. Şifahi xalq ədəbiyyatında adları çəkilməklə kifayətlənmir. Fikrət Seyidov diqqətlə o tarixi abidələri ortaya qoymuş, sərf-nəzər etmiş, türk xalqlarına məxsus tərbiyəvi fikirləri araşdırmışdır. Əqli və fiziki, ekoloji tərbiyə, ana dilini sevmək, qonaqpərvərlik, habelə ən qədim adət-ənənələrimizi qorumağı bacarmağımız və sair də öz yerini tutmuşdur. Əsərdə fiziki tərbiyəni qabarıq verən müəllif yazır ki, türk xalqları gənclərlə ancaq fiziki tərbiyəni vermək yox və həm də fiziki hazırlıq səviyyəsini yoxlamaq üçün də iş aparmışlar. "Dədə-Qorqud" dastanlarını tədqiqata çəkən professor F.Seyidov mühüm bir detalı nəzərdən qaçırmamışdır: Türk xalqları özlərinin dövlət başçılarının ancaq ağıllı, tədbirli olması ilə kifayətlənməmiş, həm də onları qüvvətli, cəsarətli, ordunun birinci cərgəsində dayanıb düşmənə həmlə edəcək qəhrəman kimi təsəvvür etmişlər. "Qaraoğlu dastanı"nı araşdıran Fikrət Seyidov mənbədəki vətənpərvərlik motivlərinə üstünlük vermişdir. Belə ki, ərazi bütövlüyünü qorumaq, silah istehsalı (ox türklərin əsas müharibə aləmi olmuşdur) və sairdən danışır: Uşaqların fiziki tərbiyəsində dözümlülük, qorxmazlıq, fərasətli-

lik, düşmənlə üzləşəndə əqillə hərəkət etmək və ilaxır keyfiyyətləri sıralamışdır: "Qaraoğlu dastanı" başdanayağa, vətənpərvərlik duyğusu, dövlətin ərazi bütövluyünü saxlamaq üçün verilən nəsihətamiz kəlamlardan ibarətdir", - yazır.

"Molla Nur" dastanı onun qəhrəmanın adı ilə məşhurdur. Şeyx Şamil hərəkatların qəhrəmanı idi və rəşadət göstərmişdir. Müəllif bu kontekstdən abidəyə yanaşmışdır. İnsanlığa, igidliyə düzgün münasibət, əzəmətlilik: "Rus generalı da Qafqaz mərdliyini yüksək qiymətləndirərək Qafqazdan çıxıb gedərkən Molla Nurun qarşısında baş əyib deyir ki, sən igidsən, igid düşmən namərd dostdan yaxşıdır. Padişaha deyəcəyəm ki, Molla Nurları yox, Çuğul insanları yer üzündən götürmək lazımdır" - Fikrət Seyidovun son münasibətidir bu.

Professor Fikrət Seyidov son illər yaradıcılığında İslam dini mədəniyyətinə, islam əxlaqına və təhsilinə ayrıca yer verməkdədir. "Soy-kökümüzdən gələn pedaqoji fikir" monoqrafiyasında da məqsədinə sadiq qalmışdır. VI əsrdə Məhəmməd peyğəmbərin bəşər elminə və mədəniyyətinə bəxş elədiyi Qurani-Kərimlə milyarrdlarla insanın əqidəsi kökündən dəyişməli oldu və bu xalqların yaşadığı ərazilər sivil təkamülə doğru irəlilədilər. İnsanlığı ülviliyə, təmizliyə, düzlüyə, xoşbəxt həyata çağıran bu müqəddəs kitab bu gün də hətta xristian dinin təbliğatçılarının müsbət mənada diqqət mərkəzindədir. Müəllif çox haqlı şəkildə islami dəyərləri çeşidləmiş, təhlil eləmiş və əxalaqa istiqamətdə ümumiləşdirmişdir: "Qurani Kərimdə əxlaq və elmlə əlaqədar söylənmiş fikirlər bütün İslam Dünyasının, xüsusən də türk bölgələrinin şair və yazıçılarının əsərlərinin əsas mövzusu oldu". - müəllifin qənaətidir bu. Belə bir "avansdan" sonra professor F.Seyidov bir çox dahi şəxsiyyətlərin əxlaqi-dəyərli fikirlərindən danışır. O cümlədən, İmam ibn Qəzzali, İbn Qabil, Yusif xas Hacibin, Mahmud Kaşkari, Nizami Gəncəvi və nəhayət XIX-XX əsrlərdə yaşa-



- OYU -
KİTABXANA

yıb yaratmış maarifçi-demokratlarımızla əsərini yekunlaşdırır. Bu simalar arasında Qəzzalinin, Xas Hacıbin, Mahmud Kaşkarinin elmi və bədii irsləri zəngindir və bu mənbələri araşdırmaqla bir daha türk dünyasının təkrarsız əxlaqi-pedaqoji fikirlərə malikliyini əyaniləşdirir. Əslində bunun özü, Fikrət müəllimin özünün vətənpərvər alim olduğunu bir daha sübuta yetirir.

Professor Fikrət Əhməd oğlu Seyidovun heç şübhəsiz pedaqoji fikir tariximizin daha bir hücrəsinə işıq salacaq bu kitabını elektrik işığında da oxudum. Səhərin bakirə çağında, hansı ki, hava xoş, ilğım olanda yaşadığım evdən 20-30 addım aralıdan axıb keçən Kür çayını seyr eləyirəm. Qəribədir, harayasa-əlbəttə ki, dənizə qovuşmağa tələsəe çayın tərtəmiz üzünə dan şəfəqləri çilənirdi və su quşları yem dalısınca üstündən qanad açırdı. Bilirdim bu zavallı quşcuğazlar qorxub-çəkindikləri insanların da yeməyinə şərik çıxacaqdılar. Kür bunnan xəbərsizdi, işığa doğru gedirdi. O işığa, ta işıqlı insanlarla qovuşanadək. Qayıdanda yazı masamın arxasında yazdıqlarımı birdə vərəqlədim və kitabın müəllifi, görkəmli pedaqoq-ziyalı, öncə mənim ədəbi müəllimim, işıqlı və xeyirxah Fikrət Seyidovun xarakterini xəyalımda canlandırdım. Yazı üslubunda bir qədər də kövrək olmayan, elmi mühakimələrində və şərhində "sərt" təsiri bağışlayan professor, davranışında, xeyirxahlığında, fikir və düşüncəsində işıqlıdı, xeyirxahdır. Saatlarla həyatın gözəlliyinən, təkrarsızlğınnan danışar, başına gələn maraqlı əhvalatları xatırladar, hansısa nəticə çıxarmağa çağırar. Fikrət Seyidov həyatı sevən, ona qiymət verməyi bacaran insandır, sədaqətli ərdir, qayğıkeş atadır. Belə məqamlarda heyfslənirəm ki, yaş niyə bu qədər tələsir, işıqlı ömrün çiyinlərinə qonur? Niyə bu qədər tez? Suallar təngə gətirir ki, məni və istər-istəməz kövrəlirəm. Və özümün də yaş yükünü daşıdığımı xatırlayıb təsəlli alıram. Son görüşümdə Fikrət müəllim bəlkə də özünnən xəbərsiz, vaxtsız itirdikləri cavan polkovnik-hərbçi əmisioğlu barədə

yazdığı mənə oxuduğu üçün kövrəlirdi, gözü yol çəkirdi. Və nəyəsə bağlamaq üçün sənətdən söz saldı: - Allahverdi, - dedi - həyatı tutub saxlamaq yaxşı ki, mümkünsüzdü. Qocalmaq, yaşa dolmaq da hünərdir. Həyat yoldaşım bir tablo-şəkil alıb, neçəsinin arasından seçib: Ağaclardı, yoldu. Sap-sarı yarpaqlar taqətsiz, əzgin yollara səpələnib. Sonsuz yola pənah gətirib. Bir qoca isə əlində çəlik sarı rəngə bələnmiş bu yolla uzaqlara-sonsuzluğa gedir. Və susdu. - Nə üçün bu şəkli xatırladım? - sual kövrək səsləndi. - Hə, indi gedək, hava xoşdu. - Astadan dilləndi. - Gedək, Allahverdi. Həyat var, var ki, yaşayırıq, yazırıq. Onun simasında yaxşı ki, təbəssüm gördüm. Gözlərində işıq gördüm və sevindim.

Başqa nə axtara bilərdim, axı!

***Azərbaycan Mİ-nun Salyan filialının direktoru, dosent Allahverdi Eminov***

***23.01.04. Salyan.***

# “ORXON YENİSEY” ABİDƏLƏRİNİN TƏRBİYƏ İMKANLARI[1]

Türk xalqlarının qəhrəmanlıq səhifəsinə nəzər saldıqda mütləq onun tarixi köklərinə diqqət yetirməliyik. Bu köklər qədim Orxon Yenisey abidələrində elə dəqiqliklə ifadə olunmuşdur ki, ona heç bir komentariya lazım deyil. Neçə yüz illər türk xalqlarının gənc nəsli bu abidələrdən qidalanaraq vətənini, onun sərhəddini, ərazi bütövlüyünü qorumuşlar. Həqiqətən, bu tarixi abidələrdəki yazıları oxuduqca bir daha belə qənaətə gəlirik ki, bizim ulu babalarımız bizə ancaq var-dövlət deyil, həm də yüksək namus, milli qürur, vətən eşqi qoyub getmişlər. Bu hiss bu həyəcan, bu tərbiyə nümunəsi yüzillikləri addımlayaraq bizim zəmanəyə qədər gəlib çıxmışdır. Orxon Yenisey abidələrindən qidalanan böyük şairimiz Abbas Səhhət deyirdi:

*Könlümün sevgili məhbubi mənim*
*Vətənimdir, vətənimdir vətənim.*
*Vətənim verdi mənə nanu nəmək,*
*Vətəni məncə unutmaq nə demək.*

Belə vətənpərvər şerlərə türk bölgələrinin demək olar ki, hamısında rast gəlirik. Məsələn, böyük türk şairi Arif Nihat Asya yazır:

*Ey indi şüzgün ruzigarlarda dalğalı;*
*Barışın göyərçini, savaşın qartalı!..*
*Yüksək yerlərdə açan çiçəyim,*
*Sənin altında doğuldum,*
*Sənin dibində öləcəyəm*

Orxon Yenisey abidəsində yazılmışdır. Əjdadımız Bumık xaqan dörd tərəfi sıxışdırmış müqavimət göstərmişdir. Orxon vəfat etdikdən sonra, el yurd yuvasından köçmüş və şimala doğru Tabığaça gəlmişdir. Türk xalqınm

[1] Rəcəbov və Y.Məmmədovun “Orxon Yenisey” abidələri. Bakı, “Yazıçı” nəşriyyatı 1993-cü il.

adı az qala yox olmuşdu. Fateh Eltəris xaqan xalqa bəxş olunduqdan sonra türk bölqələrinin qəbilələrini başına yığıb, oğuzlar arasında yeddi qəhrəmanla böyük əmək sərf edib, ordu düzəltmiş və yürüş etmişdir.

Abidənin sağ tərəfində yazılır ki, bütün şəhərlərə hücum etdim, axın etdim və onları aldım. Qara camaatı yığdım, düşmən bəyləri qaçdı, Qavğaç xalqı qalıb gəldi. Düşmən dağılana qədər dağıtdım, basqın etdim. Qələbə qazandıqdan sonra oğluma nəsihət etdim ki, türk birliyini, xalqın ərazi bütövlüyünü qoruyub saxlasın. Ölüb qedənlər şöhrət qoyub qetdilər. Onlar vəsiyyət etdilər ki, bir daha ərazi bütövlüyümüzü itirməyək. Mən elə bir dövlət yaratdım ki, orada su, yer, tanrı taxta Tavğaca tabe edildi.

### *Gültəkin abidələrində tərbiyə məsələləri*

Başqa bir Gültəkin abidəsinin Cənubi şərq tərəfində yüksək tərbiyəvi motivlərlə dolu olan yazı vardır. Bu yazıları Gültəkinin, qardaşı oğlu Yoluğ Tikin yazmışdır. Bu abidə türk şahzadəsi İltəris Xaqanın oğlu Bilğə xaqanın kiçik qardaşı Gültəkinin şərəfinə qoyulmuşdur. Burada Gültəkinin türk xaqanlarına oğullarına və qohumlarına nəsihəti həkk edilmişdir.

Bu nəsihətlərdə deyilir ki, şərqə-gündoğana cənuba-günortasına, qərbə-gün batana, şimala-gecə ortasına qədər xalqları mən birləşdirib özümə tabe etdirdim. İndi bu xalqlar arasında ixtilaf yoxdur. Türk xalqı Ötürən (göy türk xaqanlarının paytaxtının yerləşdiyi yerdir) meşəliyində otursa xalq kədər çəkməz Meşəsi çox olan xalqın məzarı da az olar. Mən şərq düzünə qoşun çəkdim. Dənizə azacıq çatdım. Tibetə çatmağa az qaldı, qərbə, İnci çayını keçib dəmir qapıya qədər çatdım və gördüm ki, ən oturmalı yer Ötruqən meşəliyi imiş. Bu yerdə məskən salıb Tabğac xalqı ilə uyğunlaşdım (düzəlişdim). Gültəkin abidəsindən məlum olur ki, türk xalqları ipək istehsal etməklə yanaşı şirin dilli

və qonaqpərvər xalq olmuşdur. Abidədə yazılır ki, türk xalqları çoxlu qızıl, gümüş, taxıl, ipək istehsal etməklə yanaşı, onun dili şirin, hədiyəsi incə olmuşdur. Türklərin bu keyfiyyətləri ondan uzaq olan xalqları özünə yaxınlaşdırmaqda böyük rol oynamışdır. Abidədə yazılır ki, türk xalqları gənc nəsli pis əməllərdən uzaqlaşdırarkən onları yaxşı müdrik, cəsur adamlara yaxınlaşdırmışlar. Abidədən məlum olur ki, hər kəs doğru yoldan çıxsa onu doğrayarlarmış. Belə bir tərbiyənin nəticəsində türk xalqı heç vaxt şirin sözə, yüksək hədiyyələrə aldanıb torpağına xəyanət etməmişdir. Bir çox bədxah ermənilər türk xalqının köçəri olduğunu sübut etməyə çalışmışlar. Halbuki, Gültəkin abidəsində göstərilir ki, türk xalqı oturaq həyat tərzi keçirdiyi üçün də onun böyük karvanları olmuşdur. Abidədə məsləhət verilir ki, türk xalqı doğru yolla getsə onun heç bir dərdi olmaz, aclıq bilməz və həmişə tox olar. Abidədə deyilir ki, əgər xaqanın sözünə əməl etməsəniz çox məsafə qət edib əldən düşərsiniz yürüşünüz müvəffəqiyyətsiz olar. Gültəkin deyirdi Allah mənə xaqanlığı bəxş etdi ki, yoxsul xalqı toplayıb onları varlandırım və az xalqı çox edim. O deyirdi ki, mənim bu sözlərimdə şişirtmə yoxdur. Əgər türk xalqı səhvə yol versə o dağılar. Mən bu nəsihətləri rəssam çağırıb daşlara ona görə həkk etdirdim ki, türk bəyləri yanılmasın.

Gültəkin abidəsinin şərq tərəfində isə yazılır ki, əcdadımız bumik və istəm xaqanların taxta oturmasından sonra türk xalqlarının qanunları yaradıldı. Bu xaqanlar türk ərazilərini genişləndirərkən yüksək müdriklik cəsurluq və ağıllı siyasət yürütmüşlər. Onlar ətrafına müdrik əyanlar, doğrucul halal bəylər toplamışlar. Ona görə də bu xaqanlar ölərkən Qabğac, Tibet, Ağac, Qirğız, Oğuz Qatar, Kitay, Qatabı xalqları onları təntənə ilə basdırmışlar. Abidədəki yazılardan məlum olur ki, Xaqan öldükdən sonra onun biliksiz, ləyaqətsiz kiçik oğlu xaqan oldu və ətrafına ləyaqətsiz adamlar topladığı üçün qardaşlar arasında dava-dalaş əmələ gəldi. Birləşmiş xalqlar arasında

münaqişə yarandı və türklərin yaratdığı böyük türk xalqı dağıldı. Tabğac xalqının bəylik nəslini davam etdirəcək oğulları qul, bakirə qızları kəniz oldu. Türk xalqı bu müvəffəqiyyətsizliyi belə ifadə etdi: “Elli xalq idim, elim indi hanı? Xaqanlı xalq idim, Xaqanım hanı? Abidədə yazılır ki, türk xalqı yox olmasın, mütəşəkkil bir xalq olsun deyə atam İltəris xaqani, anam İlbilqə xatunu tanrı ucaltdı. Atam17 igidlə sərhəddi pozulmuş düşməni qoyun kimi qovaraq xaqansızlaşmış xalqı kəniz, qul olmuş qızlarımızı və türk qanunu pozmuş xalqı əcdadımızın qanunlarına gətirib çıxartdı. Atam türklərə düşmən olan müxtəlif xalqları birləşdirib dostlaşırdı və ölkədə qanun yaratdı. Atam öləndə mənim 8-yaşım oldugundan əmim, xaqan oldu və türk xalqına ləyaqətli başçılıq edərək onu yüksəltdi, yoxsulu varlı, azı çox etdi. Əmim Şərqdə bir çox yerləri zəbt edib Qərbə doğru gedib Kögümən dağlarını aşaraq Qırqızıstana qədər gedib çıxdı. Gültəkin abidəsində gələcək nəsillərə nəsihət olaraq deyilirdi: “Qoy xalq, türk bəyləri eşitsin ki, üstən tanrı basmasa altda yer dəlinməsə türk xalqının elini, qanununu kim dağıdar? Ayıl! Türk xalqı bil ki, ona görə qül, kəniz oldun ki, bəylərin ağılsız hərəkət etdilər. Türk xalqının adı, şöhrəti yox olmasın deyə ata və anamı yüksəltmiş tanrı,  türk xalqının adı və şöhrəti yox olmasın deyə Allah məni xaqan etdi: Mən gələndə xalq ac və çılpaq idi. Kiçik qardaşım Gültəkin ilə məsləhətləşdik ki, atamızın qazandığı ad və xalqımızın şöhrəti yox olmasın deyə onu ucaltmalıyıq. Onun üçün gecələr yatmadım. Bəxtim gətirdi ki, ölməyə düçar olan xalqı diriltdim. Atam öləndə kiçik qardaşım Gültəkinin 7-yaşı var idi. Kiçik qardaşım Gültəkin 16-yaşında xaqan oldu. 1000-nəfərlik düşmən ordusu ilə piyada vuruşaraq çoxlu əsir aldı. Girğız xaqanını öldürərək türkişlərə qarşı vuruşdu və İrtiş çayını keçib onları özünə tabe etdirdi. Çox maraqlıdır ki, Gültəkin abidəsində hələ o zaman yaş dövrləri və onlara müvafiq tərbiyə üsulları, döyüş forması seçmək də açıqlanmışdır. Bu abidənin Şimal tərəfində Gültəkinin hər yaş dövründə göstərdiyi qəhrəmanlıq səhifələri izah edilir və orada yazılır ki,

Gültəkin olmasaydı analarımız, bacılarımız kəniz olaraq qalmalı, ölülərimiz isə düşmən tapdağı altında əzilməli idi. Abidədən görsəndiyi kimi ana, bacı qeyrəti çəkmək, ölülərinin qədr, qiymətini bilmək kimi gənc nəslin tərbiyəsi üçün çox lazım olan məsələlər hər zaman türklərin diqqət mərkəzində durmuşdur. Bu gün öz torpağı, vətəni üçün özünü şəhid edən oğulların cürətinin, namusunun və qüdrətinin haradan yarandığını bilmək istəyənlər onların kökünün Gültəkin abidəsində olduğunu görə bilər. Orada yazılır ki, allah necə yazıbsa elə də olmalıdır. İnsan anadan ölmək üçün yaranmışdır. Gültəkin 47-yaşında öldü. O, bütün gözünün, ağını-qarasını, biliyini və qəhrəmanlığını türk xalqına verdi. Xalq onu son mənzilə böyük təntənə ilə yola salarkən qardaşı deyirdi ki: Gültəkinə yas saxlamaqla dövləti idarə etmək olmaz. Xalqın halı fəna olar. Qardaşım o qədər hörmət qazanmışdı ki, bütün türk bölgələrinin başçıları minnətdarlıq əlaməti kimi dəfndə iştirak etməklə yanaşı çoxlu pul, qızıl, gümüş gətirdilər. Ancaq mən (qardaşı) Gültəkinin qızılının, gümüşünün hamısını türk yoxsullarına payladım. Çin dilində yazılmış Gültəkin abidəsində də onun xeyirxah əməlləri mədh olunur. Əcdadımız türklər öz mənəvi atalarına minnətdarlıq hissi ifadə edərək onları həmişə, hər yerdə şöhrətləndirməyə çalışmışlar. Abidədə deyilir ki, Gültəkinin şöhrəti, ata-anasına hörməti və sədaqəti yaxın və uzaq ölkələrdə məlum idi. Onda olan bu xüsusiyyətlər ulu babası və atasından keçmişdi. Gültəkin abidəsində yazılır ki, o bizim mənəvi evladımız idi. O, ailə tərbiyəsində, oğul-ata arasında ən təmiz, ən ülvi münasibətlər yaratmışdı. Onda xalqa, ailəsinə böyük məhəbbət hissi var idi. Bu hisslərin hər ikisinə görə də Gültəkinə xalqdan eyni dərəcədə, eyni miqdarda məhəbbət payı düşür. Bu abidədə yazılırdı ki, gələcək nəsillər ata və oğulların müştərək uğurlarını, qəhrəmanlıq nümunələrini öyrənsinlər. Ondan nümunə və ibrət götürsünlər. Bilgə Xaqan abidəsi, Gültəkin abidəsi gələcək nəsillərə nəsihət məktəbi, məqbərəsi kimi ucaldılmışdır.

Digər Bilgə Xaqan abidəsində də gənc nəslin təlim və tərbiyəsi üçün çox vacib olan elə məsələlər var ki, ondan bu gün də istifadə etmək olar.

Bilgə Xaqan iltirəs Xaqanın böyük oğlu, məşhur sərkərdə Gültəkinin böyük qardaşıdır. 716-734-cü illərdə Xaqan olan Bilgə ölkənin qüdrətini yüksəltməkdə böyük rol oynamışdır. Bilgə Xaqan abidəsi Gültəkin abidəsindən böyükdür. Abidənin türk mətnini Bilgə Xaqanın dilindən onun qohumu Yolıc Tikin yazıb daşa hək etmişdir. Abidənin mətni Ə.Rəcəbov və Y.Məmmədovun tədqiqatının tərcüməsindən götürülmüşdür.

Abidədə deyilir: atam, öləndən sonra qəhrəmanlıq nümunəsi göstərmiş şərəfli və müqəddəs türk Xaqani olmuş Bilgə Xaqanın yerinə taxta oturdum. Türk bəyləri məni sevinclə qarşıladılar. Taxta oturarkən türk xalqı üçün ətraflı və möhkəm qanun yaratdım. 17-yaşında ikən mən tunquzlara qarşı vuruşdum və onların var dövlətini əlindən alaraq, onları məhv edib qalıb gəldim. 20 yaşında basmanlara qalıb gələrək onları da müqəddəs qəbiləm etdim. 22 yaşında Qavqaca hücum çəkdim, onlara da qalib gəldim. 26-yaşında Qırgızlar mənə qarşı çıxarkən onlara da qalib gəlib, özümə tabe etdirdim. İrtış çayını keçdim və burada da qələbə qazandım. 30 yaşında Beşbalıq şəhərinə hucum edərkən onlar təslim oldu və şəhər dağılmadı.

Əgər mən bu qələbələri qazanmasaydım türk xalqı ölməli və yer üzündən silinməli idi. 34 yaşında böyük İlxılar, var-dövlət sahibi oldum. Abidənin cənub Şərq tərəfində yazılmışdı ki, yeddi gün susuz yol getdim. 17.000 tabxaclıya 2 gündə qalıb qəlib qələbə qazandım.

Bu qələbələrin sayəsində mən 19 il hörmətli Xaqan oldum. Bu hörmətimə görə Türk bəyləri mənə sitayiş etdilər. Qədim türklər turklüyünü saxlamaq üçün daim ata-baba ənənələrini

rə dözdüm, çöl heyvanları yiyərək aclığa, susuzluğa qalıb gəldim. Elmim sayəsində strateji plan cıza bildim. Abidədə xəyanətkar, saxta, dost cildinə girmiş düşmənlərdən ehtiyyatlı olmaq məsləhət görülür. Abidədə göstərilir ki, əgər biz içərimizi və xarici siyasətimizi möhkəmlətsək tək qalmarıq. Abidədə Tonyukun məharəti, ölkələri fəth etməsi, siyasətçi olması, casuslardan qorunmaq üçün söylədiyi fikir və məsləhətlərindən danışılır və göstərilir ki, Tonyukun ağıllı müdrük sərkərdə olmasını dostlar, hətta düşmənlər də etiraf etmişlər. Abidənin qərb tərəfində çox maraqlı bir kəlam vardır. Orada göstərilir ki düşmənlərin böyük ordu ilə Tonyuka hücum etdikləri və İrtış çayını türklərdən geri qaytarmaq istədikləri söylənilir. Tonyukun bəyləri, hörmətdən düşməmək, məğlub olmamaq üçün , abırla geri çəkilməyi məsləhət görərkən Tonyuk qəti etiraz edib deyir ki, türklər cəsurdur. Allah onlara qələbə bəxş edib. Azıq deyə qaçmamalıyıq. Biz sayca az olsaqda cürətli, namuslu, heysiyyətimizi qoruyub saxlaya bilən bir xalqıq. Elə bu keyfiyyətlərə görə də Tonyukun ordusu od kimi qızıb döyüşə gırır, düşmənləri qırdı. Hətta düşmənin xaqanını da əsir alır. Tonyukun abidəsinin cənub tərəfində yenə də elmə yüksək qiymət verilərək, yazılırdı ki, Tonyukdan əvvəl İltirəst xaqan ona görə məşhur, əzəmətli və qüdrətli idiki o bilik sahibi idi. Tonyuk abidəsinin şərq tərəfində yenədə Tonyukun qəhrəmanlığı, şücaəti, müdrikliyi və elmindən bəhs edilərək onun sərgüzəştlərindən danışılır.

Türk abidələri haqqında daha aydın təsəvvür əldə etmək üçün onlardan bir neçə nümunə verməyi münasib hesab etdik.

### *Nümunələr. Alp Ər Tunqa daş abidəsi*

Həqiqətən, Saka türkləri Alp Ər Tunqanın xanlığı dövründə ən gözəl günlərini yaşadılar. Alp Ər Tunqa comərdliyi ilə, savadıyla, cəsurluğuyla türk xalqlarının hafizəsində bu

günə qədər yaşadı. Onun rəhbərliyi dövründə Sakalar Asiyanın qərbində və şərqində ən böyük güc halına gəlmişdilər.

İran şahını döyüş meydanında türkə yaraşan bir igidlikdə öldürdü. Beləcə babası Alp Ər Tunqanın qanını aldı.

Yüz illər boyu Asiyanın çöllərində –ozanlarda, aşıqların sazlarında onun dastanları danışıldı:

Daş abidələrindən verilən nümunələr "Mövlüd Ulutəkin Yılmazın" Türk xalqlarının ortaq ata-babaları kitabından götürülmüşdür.

*"Alp Ər Tunqa öldümü?*
*İzsiz dünya qaldımı?*
*Zaman cinini aldımı?*
*İndi ürək paralanır.."*

Biz, bütün türk xalqları Alp Ər Tunqa babamızı hörmətlə yad edirik.

*Alp Ər Tunqa Saqusu*
*Alp Ər Tunqa öldümü?*
*Esiz oyun kaldımu?*
*Özlek öçin aldımi?*
*Emdi yürek yırtulur!*
*Özlek yarağ közətti*
*Oqri tuzak uzattı,*
*Beklerbegin azıttı,*
*Kaçsa kali kurtulur!*
*Öqreyüki mundağ ok,*
*Munda adın tiqdaq ok,*
*Atsa ayun iğrap ok,*
*Tağlar başı kertilür!*
*Beqler atın arqurup,*
*Kaqqu ani turqurup,*
*Menqzi yüzi sarqarup,*
*Körküm anqar türtülür!*
*İlşip eren börleyu,*
*Yirtup yaka urlayu,*

*Sikrip uni yurlayu,*
*Siqtar közi ört*
*Könğlüm içün örtedi,*
*Yitmiş yaşığ kartadı,*
*Keçmiş özüq irtedi,*
*Tün kün keçüp irtelür!* ***(Divani lüğət-it türk"dən)***.

Mətə xan əsabələrinə deyir:

At öz malım idi, verdim... Qadın öz cavabdehliyimdə idi, millətimin dincliyi üçün verdim. Amma istənilən torpaq dövlət torpağıdır. Bu torpaq mənim deyil, bütün bunlarındır. Şoran da olsa, vətən torpağı verilməz!

***İlteriş Kutluk Kağan daş abidəsi***

...Əsirlik türk törəsində bir qara ləkə, bir yox olmaq, bir ölümdür! Ona görə də türk bəyləri azadlıq xəyalıyla yaşayırdılar. Ötükəndə göytürk dövlətini yenidən qurmaq üçün həyəcan içində idilər.

Bu milli arzu ilk dəfə xan ailəsindən gələn Gürşadın Çin sarayını basmasıyla göstərildi. Heyif ki, Gürşad və 39 dostunun başladığı istiqlal hərəkatı uğursuzluqla başa çatdı. 40 göytürk bəyi qəhrəmançasına həlak oldu.

Gürşad və dostları şəhid oldular. Amma onların adları dastanlaşdı. Könüllərlə idi inancları. Əsir türklərin hamısı Gürşad kimi olmağa can atırdılar. Allaha yalvarırdılar:

*Ey uca Allahım, Gürşadlar kimi ölək*
*Əsir həyatı türk oğuluna yük olar.*
*Buyruq gəlsin, gecələri böləyin,*
*Nağraların çatdığı yer Türk olur!*
*Tağlar çıxsın, Çürlar, Şadlar dərilsin,*
*Dövmə qalxan, göy qılınclar verilsin,*
*Güclü biləkdə boyca yaylar dərilsin,*
*Bir türk əsgəri qırx çinliyə dəng olur!*

***Bilgə Xaqan abidəsi***

...Xatun anası, İl Blqenin beşiyini yellərkən söylədiyi laylalar şüurunun altından əzmini qamçılayırdı.

O Laylalar..O laylalar hər an onun qulaqlarında səslənirdi:

*"Yatsın ki, böyüsün ninni...*
*Mor dağların ətəkləri otlansın.*
*Balam gəzsin, novruzğülü, çiçək sevinsin,*
*Ninni.. ninni, çağam ninni, balam ninni...*
*Böyüsün ki, igid olsun dünyada,*
*Bir igid ki, yetmiş düşmən gücündə,*
*Baş gətirsin cidasının ucunda,*
*Dövlət üçün hər çətinliyə qatlansın,*
*Quyruğunda bol kütlələr sevinsin!..*
*Ninni..ninni, çağam ninni, balam ninni.."*

***Kül Tiqin Benqü Daş abidəsi*** *(Cənub cəbhəsi)*

Tanrı kimi göydə olmuş türk Bilge Kağani bu zamanda yaşadı. Sözlərimi tamamiylə eşit. Hər şeydən əvvəl kiçik qardaşım, qardaşoğlum, oğlum, bütün soyum, millətim, cənubdakı Şabapit bəyləri, Şimaldakı tarkat bəyləri, Ovuz, Tatar, doqquz Oğuz bəyləri, xalqı! Bu sözlərimi yaxşıca eşit, ağılla dinlə:

Şərqdə gün doğuşuna, cənubda gün ortasına, qərbdə gün batısına, şimalda gecə yarısına qədər onula Çindəki xalq mənə tabedir. Bu qədər xalqı hey qayda-qanuna soxdum. O indi pis deyildir. Türk Kağani Ötüken şəraitində yaşasa ölkədə sıxıntı olmaz.

Şərqə Satunq düzünə qədər ordu sövq etdim, dənizə yetişməmə az qaldı. Cənubda doqquz Ersinə qədər ordu sövq etdim, Tibete yetişməmə az qaldı. Qərbdə İnci çayını keçərək dəmir qapıya qədər ordu sövq etdim. Şimalda Yir

Bayırku yerinə qədər ordu sövq etdim. Bu qədər yerə hərəkət etdirdim. Ötükən meşələrindən daha yaxşısı yoxdur. Ölkənin yerləşəcək yeri Ötükən meşəsi imiş.

Bu yerdə oturub Çin milləti ilə anlaşdım. Qızılı, gümüşü, ipəyi, ipekliyi sıxıntısız eləcə verir.

Çin millətinin sözləri şirin, ipək parçaları yumşaq imiş. Şirin sözlərlə, yumşaq ipək parça ilə aldadıb uzaq milləti yaxınlaşdırmış. Yaxınlaşdırdıqdan sonra pis-pis şeylər düşünmüş. Ağıllı və cəsur insanları yüksəlməyə qoymazmış. Bir insan səhv etmiş olsa, qəbiləsi, milləti, qohum-əqrabası yanında gizlənməyə qoymazmış. Şirin sözünə, yumşaq ipək parçasına aldanıb çox-çox türk milləti öldürülmüş: Türk milləti öləcək, yox olacaqsan! Cənubda Çoğay meşəsinə, Toğultun düzənliyinə yerləşmək istəsən, türk milləti olaraq yox olacaqsan!

Orada pis adamlar belə öyrədilmiş: Uzaq adamlara pis mal verirlərmiş, yaxınlara isə yaxşı mal verərək bu hala öyrədilmiş! O yerə doğru getmiş olsan türk milləti olaraq öləcəksən. Ötüken meşəsində oturub qalsan əbədiyyət ölkə olaraq otura bilərsən.

Türk milləti, toxluğun qiymətini bil. Aclıq, toxluq düşünməzsən. Bir dəfə doyduqda aclığı düşünmürsən. Elə olduğun üçün, bəslənmiş olan xanının sözünü almadan hər yerə getdin. Həmişə orada məhv oldun, yox edildin. Orada geri qalanlarınla hər yerə hey zəyifləyərək, ölərək gedərdin. Tanrı buyurduğu üçün, özüm dövlətli olduğum üçün Kağan oldum. Kağan olub ac, kasıb milləti hey bir yerə topladım. Kasıb milləti zənginləşdirdim. Bu sözlərimdə yalan varmı?

Türk bəyləri, milləti, bunu eşidin! Türk millətini bir yerə toplayıb ölkə olacağını burada israr etdim. Hər nə sözüm var idisə daşlara yazdım. Ona baxaraq bilin. İndiki türk milləti, bəyləri, bu zamanda itaət edən bəylər olarmı yanılacaqsınız?

Mən əbədi daş yondurdum. Çin xalğından rəssam gətirdim və rəsmlətdim. Mənim sözümü qırmadılar. Çin xanlığının nəzdindəki rəssamı göndərdilər. Ona ayrı bir türbə tikdirdim.

İçinə və çölünə ayrı bir rəsm çəkdirdim. Daş yondurdum. Ürəyimdəki sözlərimi nəqş etdirdim. Onu oxu oğluna.

Sona qədər bunu görüb bilin. Əbədi daş yondurdum, il isə, belə yetişməli yerdə, yəni əldə olunması çətin olmayan yerdə əbədi daş yondurdum ki, onu görəndə biləsiniz bu daşı yazdıran qardaş oğlu Yolluq Tiğindir.

Türk xalqları türkü yaddan çıxarmamaq, türkü varlı, arxalı etmək üçün türkə istinad etməyi, türklə yol getmək, türk ilə yoldaşlıq etməyi məsləhət görürdülər. Böyük türk şairi aşıq Veysəl. "Türkük, türkü çağırırıq biz" şerində deyirdi

*Dünya dolsa şərqi ilə*
*Türkük, türkü çağırırıq.*
*Yol getmərik qorxu ilə*
*Türkük, türkü çağırırıq.*

*Türkük, türklər-yoldaşımız,*
*Hesaba gəlməz yaşımız,*
*Harada olsa savaşımız*
*Türkük, türkü çağırırıq.*

*Türklərdir bizim adımız,*
*Xalis türkük, qanı təmiz,*
*Şərqi-qəzəldir zatımız,*
*Türkük, türkü çağırırıq.*

*Bayramlarda ,düyünlərdə*
*Toplantıda, yığınlarda*
*Sığılınca, dar günlərdə*
*Türkük, türkü çağırırıq.*

*Yaylalarda, yataqlarda,*
*Odalarda, otaqlarda ,*
*Qoyun kimi koytaqlarda*
*Türkük, türkü çağırırıq.*

*Bulaqlarda, sulaqlarda*
*Türkün səsi qulaqlarda,*
*Beşiklərdə, bəbəklərdə*
*Türkük, türkü çağırırıq.*

*Bərabərdir gəlin-qızlar,*
*Belə coşar o ulduzlar.*
*Qoşulunca o cüt sazlar*
*Türkük, türkü çağırırıq.*

*İnlər Veysəl arı kimi,*
*Bülbüllərin zarı kimi,*
*Durnanlar qatar kimi*
*Türkük, türkü çağırırıq*

Qeyd etmək lazımdır ki, qədim türklər qəhrəmanlıq nümunələri ilə bərabər yuxarıda qeyd etdiyimiz kimi elmə yüksək qiymət vermişlər. Məsələn Uyğur Türklərinin abidəsində elm yüksək qiymətləndirilərək kahinlərin 7 kitabı mükəmməl bildikləri, onların dərya qədər dərin-dərin, dağ kimi uca bilikləri, uca bir yaylağa axan çay kimi nitq qabiliyyəti olduğu söylənilir. Türk xalqlarının tarixindən və onun yazılı abidələrindən gətirdiyimiz misallar türkün əzəmətini böyüklüyünü sədaqətini, yoldaşlığını dostluğunu, elmliyini, yüksək əxlaqı sifətlərini göstərən ən bariz nümunədir. Türk xalqları özünün yüksəkliyini, əzəmətini itirməmək üçün əjdadlarımızın bizə qoyub getdiyi nəsihətləri dastan, epos, nağıl, tapmaca deyimlər vasitəsi ilə gələcək nəsillərə çatdırmağa çalışmışlar.

# “ORXON YENİSEY” ABİDƏLƏRİNDƏN QİDALANAN TÜRK ƏNƏNƏLƏRİNİN TƏRBİYƏ İMKANLARI

Qədim Türklərin gənc nəslin tərbiyəsinə əsaslı təsir göstərən çox maraqlı adət və ənənələri olmuşdur. Orxon Yenisey abidələrində deyildiyi kimi, bu ənənələr gənc nəsli, vətəni, qorumağa, təmiz və möhkəm ailə həyatı qurmağa, zəhməti sevməyə, təmizliyə, düzlüyə, sədaqətə, ülvü dostluğa, yüksək insani duyğulara yönələn adət və ənənələr olmuşdur. Məsələn. Qədim türklər uşağlarına toy qabağı beşik düzəltmişlər ki, türklərin nəsli çoxalsın. Övladları oğul, uşaq sahibi olsunlar. Qədim türklərin ən gözəl adət ənənələrindən biridə uşaqlarına rahat yaşamaq, iqtisadi cəhətdən özünü tutmaq məqsədilə övladlarına yorğan, döşək düzəltmək, qab-qacaq yığmaq və xeyli mal-qara hədiyyə etmək olmuşdur. Türk-xalqlarının bu adət – ən ənələri nəsildən – nəslə keçərək cehiz adi ilə bu gün də yaşamaqda davam edir. Türklər dədə-babalarınm təmiz, səliqəli yaşamaq ənənəsinə sadiq qalaraq yaz qabağı paltarlarını, evlərini səhmana salmaq, ev əşyalarını təmizləmək, evdə olan çirkli hər nə varsa onu yumaq, palazları çırpmaq ənənəsini bu gündə davam etdirirlər.

Türk xalqlarının ən gözəl ənənələrindən biri də kollektiv məsləhətləşmə olmuşdur. Onlar ağsaqqalların başçılığı ilə iqtisadi cəhətdən yaxşı yaşamaq, bol məhsul əldə etmək məqsədilə əkin işlərinə nə vaxt başlamaq, harada və hansı gündə arpa, çəltik əkməyin vaxtını kollektiv yığılıb məsləhətləşmişlər. Bu məsləhətləşmə zamanı eləcədə bağlara, zəmilərə arx çəkmək, arxları təmizləmək, ağacları budamaq şabalıd ağacı əkmək və övladları üçün ev himi qoymaq məsələlərini də kollektiv müzakirə etmişlər . Bu səbəbdən də Türk xalqları möhkəm yenilməz və torpağının qədir-qiymətini bilən xalq olmuşdur.

Türk xalqları torpağı qorumağı, ona ehtiyyatla yanaşmağı, millətin möhkəmliyi, iqtisadi cəhətdən varlı yşamasını lazım bilərək gənc nəsli torpağa dərindən bağlamaq üçün deyirdilər. "Torpağın sevinməsi üçün onu şumlayın, torpağın rahat olması üçün onun yanan sahələrini sulayın."

Bütün dünya xalqları içərisində ən zəhmətkeş xalq hesab edilən türklər torpaqda işləyənləri daima şöhrətləndirmək üçün onu şumlayan cütçülərə süfrə apararaq, bayram günlərində onlara xonça bəzəyirdilər. Belə ənənələrin nəticəsidir ki, türk milləti məğrur olmuş, iqtisadi cəhətdən özünü təmin edərək heç kəsdən asılı olmayıb torpağın qədir-qiymətini bilmiş və bu məhəbbəti uşaqlarına da sirayət etdirmişlər. Türklərin saydığımız ənənələri ilə bərabər Orxon Yenisey nəsihətlərindən gələn çox maraqlı və torpağının bütövlüyünü saxlmaq üçün hərbi döyüş ənənələri də olmuşdur. Bu məqsədlə uşaqlarına ox atmaq, qılınc oynatmaq, cıdıra çıxmaq kimi tərbiyə nöqteyi-nəzərindən qiymətli olan ənənələri aşılamağa çalışmışlarr. Bu ənənələr bu gün də yaşamaqda davam edir. Oxon Yenisey abidələrinin ucalması türklərin əcdadlarına olan hörmət və məhəbbətinin bariz nümunəsidir. Türklər bayramlarda əcdadlarının məzarlarını ziyarət edib Quran oxutmaqla onları yad etmişlər. Türklər bu yolla gənc nəsildə tarixinə, əcdadına, ata və anasına hörmət və məhəbbət hissi tərbiyə etmişlər. Bayramlarda eləcədə bir-birinin evinə getmək, xəstələri yoluxmaq, kimsəsizləri yad etmək, böyükləri, qonşuları yoluxmaq, küsülüləri barışdırmaq, millətdə birlik hissi tərbiyə etmək üçün çox böyük rol oynamışdar. Qədim Türk adətlərinə görə Ramazan ayında oruc tutanları gecə iftarına qaldırmaq üçün hər məhlənin barabanda çalan uşaq dəstələri olur.

Onlar orucluğun son günündə

*Biz gəldik, sizə gəldik,*
*İnci, mərcan, dizə gəldik.*
*Başlar tacı iki düzüm,*
*Arzuladıq sizə gəldik.*

*Barabançı qapıya gəldi,*
*Cümlənizə salam verdi.*
*Darıxmayın iki gözüm ,*
*Bəxşiş almağa gəldik.*

*Bu aya sultan ayı deyirlər,*
*Qaymaq ilə bal yeyərlər.*
*Əzəldən adət salınmış,*
*Barabançıya bəxşiş verirlər.*

Uşaqlar bu yol ilə əmək haqlarını alarlar. Bu adətlərin tərbiyəvi cəhəti uşaqların tezdən durması, ritm ilə çalmağı öyrənməsi və s. Bu işlərin icrasi zamanı uşaqlar ələ baxımlıq etməyib öz zəhmətləri ilə əmək haqqı qazanırlar. Türk xalqlarında elə bir adət ənənə tanımaq olmaz ki, o tərbiyənin bütün məsələlərinə toxunmasın. Bu gün biz tərbiyə məsələrini həll edərək uşaqlara cümə nədir? Cümə gününün gözəlliyi nədir? Ramazan bayramı hansı gündə olur və bu gün nələr olur? Qurban bayramı nə zaman başlamışdır? və s. kimi məsələləri öyrətsək, təmizlik, paklıq, insanlıq, insanlara məhəbbət, zəhmət, hörmət və s. kimi məsələləri həll etmiş olarıq. Bu adətlərdən bir neçəsinin üzərində dayanaq.

***Uşaqlara ad qoyma***

Qədim türklər uşaq anadan olduqdan bir gün sonra böyük bir ziyafət düzəldərdilər. Uşağın atası, əmisi və babası və yaxud qadınların ən yaxşısından birinə uşağa ad qoymağa müraciət edərmişlər. Onlar da müraciəti, məmnuniyyətlə qəbul edib özləri üçün şərəf sayarlarmış. Uşağa qoyulan ad müvəqqəti olurmuş. Ad qoyma mərasimində hər kəs beşiyinə hədiyyə qoyarmış. Uşağın əsl adı ox atıb, yay çəkməyə başladığı, bir qəhrəmanlıq göstərdiyi zaman qoyularmış. Bu adlar ərazi, yer adı və ya türk xalqlarının ən cəsur adamlarının adları olarmış. Məsələn: Bucra, Qorxmaz, Altay, Oğuz

və s. övladları durmayan, olub ölən ailələr son uşaqlarına Dursun, Yaşar, və s. adlar verərmişlər. İslamın qəbulundan sonra uşağın doğulduğu gün dini bayramlara rast gəldikdə ona uyğun da İsmail, Mövlud ,Oruc, Qədir kimi, adlar verərmişlər. Türklər əsasən Məhəmməd Peyğəmbərin adını uşaqlarına daha çox qoyarmışlar. Türklər hörmət əlaməti kimi digər peyğəmbərimizin də adlarını uşaqlarına qoyarmışlar. Məs: Əli, Həsən, Hüsen, və s. Uşağa ad verilən zaman uşağın ağıllı, uzun ömürlü, ailəsinə, millətinə, dövlətinə sədaqətli olması üçün Quran oxunarmış[1].

### *Salamlaşma*

Salam İslamdan çox-çox qabaq olan adətlərdən biridir. İnsanların sülhdə, mehribanlıq şəraitində yaşamaları üçün allahın buyurduqlarından biri də salamdır. Türklər nahaqq yerə salam verməyən adama "Allahın salamıdır, niyə vermirsən? deyirlər. Salamlaşma adamların bir-birinə olan dostluq, sevgi, məhəbbət münasibətlərini göstərən əlamətdir. Qurani Kərim deyir ki, sizə salam verildiyi zaman, siz də ona daha nəzakətli formada və ya eyni şəkildə cavab verin. Salama imana xeyir diləyən bir vasitə kimi baxan türklər sonralar salamın müxtəlif formalarını ixtira etmişlər. "İşin xeyirli olsun", "Mərhaba", "gün aydın", "axşamın xeyir", "sabahın xeyir" və s. Allahın yer üzərinə bəxş etdiyi bu salam bu gün də xeyir əlaməti kimi davam etməkdədir.

### *Qəbristanlıq və türbələrə hörmət*

Orxon Yenisey abidələri göstərir ki, türk xalqlarının ən önəmli adətlərindən biri də ölülərə hörmətdir. Bir çox xristianlar başa düşə bilmirlər ki, nə üçün müsəlmanlar

---

[1] Dr. Ethem Ryhefqğlali İstanbul 1993.

ölülərinə böyük təmtəraq düzəldirlər. Üç, yeddi, qırx, il verirlər. Türklərdə ölünü basdırma mərasimi çox təntənəli keçir. Şərəf əlaməti kimi adamlar ölünü qəbristanlığa çiyinlərində aparırlar. Mərasim başa çatdıqdan sonra ölünün yaxınlarına "başınız sağ olsun" "son qəminiz olsun" deyirlər. "Allah səbr versin" "balaları sağ olsun" deyə onlara təskinlik verirlər. Türbələrə hörmət əlaməti kimi vaxtaşırı bu türbələri ziyarət edirlər.

### *Evlənmə mərasimi*

İnsan mövcud olduğu gündən insan nəslini artırmaqda mövcuddur. Lakin ailəni yaratmaq islamın tarixində böyük bir hadisə olmaqla yanaşı, evlənmə adətinin qanun şəkli almasında da İslam  böyük rol oynadı. Türklər deyirlər ki, ailənin quruluşu nə qədər sağlam olsa millətdə bir o qədər sağlam olar. Sağlam ailə qurmaq üçün evlənmə prosesinə xüsusi diqqət yetirmək lazımdır. Evlənmə ənənəsi tarixən uzun yol keçərək ildən-ilə, əsrdən-əsrə dəyişərək yeni məzmun kəsb etmişdir.

Bu adətlərin bir çoxu özünə vətəndaşlıq hüququ qazanıb indiyə qədər də yaşamaqdadır. Türk xalqlarında evlənmə mərasimi 3 yolla həyata keçirilir:

1. Ata-anasının iradəsi ilə evlənir. Gənclərin arzusu nəzərə alınmır. Ancaq oğlanla qızın bir-birini görmələri yolu ilə icazə verilir. Peyğəmbər deyirdi: "Qızını göstər, çünki görmək ailənin möhkəmliyi üçün əsas şərtdir".
2. Evlənmə gənclərin ailələrinin razılığı ilə gənclərin bir-biri ilə görüşməsi ilə.
3. Evlənən gənclərin ailələri uşaqların razılığını nəzərə almaq yolu ilə .

Türk xalqlarının adəti üzrə ərə gedəcək qıza baxmaq üçün oğlan evinin adamları qız evinə gedir. Qızı bəyəndikdən sonra, yəni qızın artıq oğlan evinin olacağı barədə "söz kəsirlər",

yəni hərisini alırlar. Nişandan sonra toy mərasiminin vaxtı müəyyənləşdirilir. Toydan 3 gün əvvəl nigah hazırlığı başlayır. Hazırlığın ilk günündə gəlin hamama aparılır. 2-ci gündə qız evindən oğlan evinə cehiz aparılır. Həmin günün axşamı qız evində " xına gecəsi" düzəldirlər. Bu hazırlıq zamanı həm qız, həm də oğlan, evinin qadınları işqıran edir və gəlin olacaq qızın əlinə "xına" qoyurlar. Həmin gecə oğlan evində də bəyin yoldaşları əylənirlər. 3-cü gün "nigah" günüdür. Bu gün gəlini və bəyi bəzəyirlər.

Qız ata evindən çıxarkən ata-anası və qohumları ilə vidalaşır. Qızı arabaya mindirib aparırlar, yolda dualar oxunur, zurna çalınır və oyunlar olur. Gəlin evə gəlir. Oğlan evinin ata-anası ona hədiyyələr verir və başına bolluq rəizi kimi buğda, darı, səpilir. İndi də yuxarıda saydığımız toy mərasimləri rayon və kəndlərimiz də eyni qaydada həyata keçirilir. Ancaq mərkəzi şəhərlərdə evlənmə təntənəsi nigahdan sonra axşam evdə və restoranlarda keçilən şənliklə yekunlaşır. Ailənin belə təntənəli şəraitdə qurulması, ailəni möhkəmliyi üçün əsas zəmin olur.

### *Ramazan bayramı*

Müsəlman ayı aləmində Ramazan ayı 11 ayın sultanı hesab olunur. Ona "şəkər" ayı da deyilir. Bu ayda Qurani Kərim Nazil olduğu üçün hörmətli ay sayılır. Ramazan bayramı 3 gün davam edir. Bu bayram tərbiyə nöqteyi nəzərindən olduqca qiymətli bayramdır. Bu ayda insanlar fiziki sağlamlıq üçün çox vacib olan oruc tutur. İftar zamanı bütün ailə üzvləri süfrə arxasında oturub ləziz xörəklər yeyir, imkanı olmayanları süfrə arxasına dəvət edərlər. Qonaqlar gedərkən böyüklərin əlini öpər və ev sahibi də qonaqlarına hədiyələr verər. Bu gün hər kəs uşağına təmiz, təzə paltar geyindirib uşağının əylənməsinə çalışır. Ramazan bayramı günü hər kəs ailəliklə ölüsünü xa-

tırlamaq məqsədilə onun məzarı üzərinə gedər, quran oxudar. Bu vasitə uşaqlara keçmişə hörmət və ehtiramla baxmağı öyrədir. Ramazan bayramının ən gözəl əlamətlərindən biri də bu gündə küsülülərin barışmasıdır.

### *Qurban Bayramı*

Bu bayram bütün müsəlmanların bayramdır. Bütün müsəlman ölkələrində bu bayram keçirilir. Qurban bayramı 4 gün olur. Bu bayram Həzrəti İbrahimdən gəlir. Ancaq bu bayramın böyük sosial və ictimai əhəmiyyəti var. Qurbanm ilk günü qurban kəsilir. Qurban ətindən ailə, qohum və yaşayış yerinin sakinlərinə qurban payı göndərilir. Ramazan bayramında olduğu kimi Qurban bayramında da həyatdan getmiş ata-babaları yad etmək üçün qəbristanlığa gedirlər.

## TÜRK DASTANLARININ TƏRBİYƏ İMKANLARI

Qeyd etməliyik ki, Orxon Yenisey daşlarındakı yazıların əksini "Dədə Qorqud"da "Manas" və digər dastanlarda da görə bilərik .

Çox qəribədir ki, türk xalqlarının hamısında qonaqpərvərlik, igidlik, at minmək, silah oynatmaq, qadına, elmə, alimə hörmət, vətənə dərin məhəbbət göstərmək və s. kimi xüsusiyyətlər türk dastanlarının əsasını təşkil edir.Vətən həsrəti, torpağa bağlılıq türk xalqlarında Orxon-Yenisey abidələrindən başlamış bu günə qədər davam etməkdədir. Bir misal gətirmək istəyirəm. Sovet hakimiyyəti dövrründə Londonda bir qrup yoldaşlarla ezamiyyətdə idim. Bu qrupun içərisində dövlət təhlükəsizlik komitəsinin də nümayəndəsi var idi. O, adamları izləyir, onların danışıqları, hərəkəti, xarici dövlətə münasibəti barədə məlumat toplayır və ezamiyyətin sonunda, hər bir

şəxsin həyatının pis və yaxşı, hökümətə yararlı və yararsız, şübhəli və şübhəsiz şəxs olduğu barədə hesabat verirdi. Bununla ezamiyyətə gedənlərin hər birinin sonrakı həyatının necə olmasına ömürlük möhür vurulurdu. Həmin DTK-nın işçisi rus olmadığımız üçün nə aldığımız, kimlərlə söhbət etdiyimizi addım-addım arxamızca gəzib izləyirdi. Mən bu hadisədən çox mütəəssir olmuşdum. Bu narazılığımı Moskvada ezamiyyətdən sonrakı yığıncaqda belə ifadə etdim: "Hörmətli Mayor, Xaricdə biz Azərbaycanlıları izləmək lazım deyil, çünki biz vətənə, eləobaya, ata yurduna dərindən bağlıyıq. Bu bizim xəlqiliyımizin əsas əlamətlərindən biridir. Bizim kənddə susuz həyatyanı sahəsi olan bir qadın yaşayırdı. Hamı istəyirdi ki, onun da torpaq sahəsi olsun. O, da əkib-bicsin. Nəhayət şəhərə köçən qonşulardan biri sahəsini o qadına verdi ki, orada yurd salsın, yeri genişlənsin. Qadın köçmədiki mən ata yurdundan heç yana gedən deyiləm, Burada da öləcəyəm. Uşaqlarıma da vəsiyyət etmişəm ki, ata yurdunu buraxmasınlar. Bax biz azərbaycanlılar beləyik. Çünki bizim atalar bizə təkcə var dövlət deyil, həm də yüksək tərbiyə mənbəyi olan namus-qeyrət qoyub getmişlər".

### *Türk dastanlarının əxlaq tərbiyəsi imkanları*

Türk xalqlarının tarixində Orxon-Yenisey abidələrindən başlamış və sonrakı əsrlərdə yaranan dastan, nağıl, əfsanə, atalar sözləri və deyimlərdə əqli tərbiyəyə yüksək qiymət verilərək ağıl, hadisələri düzgün qiymətləndirmək, müvafiq nəticə çıxarmaq, bilikdən yerində istifadə etmək kimi insan şəxsiyyətinin formalaşmasına xidmət etdiyindən onlara xüsusi əhəmiyyət verilmişdir. Məsələn, türk dastanlarında ağılla əlaqədar "Atı vurmaq, vurub keçmək, açıb oxumaq kişidə olmalıdır" deyilir.

Məhşur Türk tədqiqatçısı Mövlüd Uluqtəkin Yılmaz yazır: "Biz türklər dastanlarda böyüdük, dastanlarla yoğrulduq"[1].

Dastanlarımızda ağılın nişanəsi kimi bilik almaq, aqıllı qocaların sözünü dinləmək, özünü düşdüyü vəziyyətdən çıxarmaq, döyüşdə fürsəti əldən verməmək, fərasətli, ehtiyatlı, tədbirli olmaq, silahla alına biləcək şeylərin çoxunu tədbirlə əldə etmək, dərin mühakiməyə malik olmaq, hay-küydən kənar olmaq, dostluğa sadiq qalmaq, başqalarının başına gələn fəlakətlərdən müsbət nəticə çıxarmaq, sənət öyrənib yaxşı ad çıxarmaq, hər işdə kamil olmaq kimi səçiyyələnir. Xalq ağlı dastanlarımızda belə ifadə etmişdir:

*Elə mi şanəsidir,*
*Bu zülfün şanəsidir.*
*Hər işdə kamil olmaq,*
*Ağlın nişanəsidir.*[2]

Dastanlarda deyilir ki, "paltarı zinətləndirməkdənsə ağlı zinətləndir". "Qüvvə hər şeyi, ağıl qüvvəni sındırar". "Dəvəcə boyun olunca, düyməcə ağlın olsun". Türklər demişlər: "Baba malından nə fayda, başda ağıl olmasa", "Kitabın qədrini bilənlər-bilər, ağılsız adamdan nə gözləyirsən"[3]. Türk dastanların da təkcə kişilər deyil, qadınlar da əqilli, tədbirli adamlar kimi təsvir edilir. Məsələn Koroğlu dastanında Ruqiyyə xanım haqqında belə deyilirdi. O, bütün elimləri əzbərləyib, açarını qoymuşdur cibinə"[4] .

Eləcə də Məhbubə xanım haqqında deyilirdi: "Ağılda, kamalda Əflatuna loğmanlıq edərdi, loğmana əflatunluq"[5].

---

[1] Türk xalqlarının ortaq ata - babaları, Bakı, "Göy türk" nəşriyyatı, səh. 37.

[2] Ə.Həşimov , Azərbaycan Xalq. Pedaqogikasının bəzi məsələləri, Bakı, "Maarif" nəşriyyatı 1970, səh. 187.

[3] Yusif Xas Hacib,Bakı, 1962-cü il səh 446-447

[4] Koroğlu dastanı səh Bakı, "Azərnəşr", 1962, səh 285

[5] Yenə orada, səh 285

Türk dastanlarında biliklərin mənimsənilməsində, insanlar arasında doğru münasibət yaratmaqda, xalqı, vətəni sevməkdə dilə, ondan dürüst doğru istifadə etməyə böyük əhəmyyət verilmişdir. Ana dilinin yüksək tərbiyəvi əhəmiyyəti türk dastanlarımızın ana xəttini təşkil edir. Hələ vaxtı ilə K.D.Uşunski yazırdı: "Xalqın dili onun mənəvi həyatının heç bir vaxt solmayan və daim çiçəklənən tarix sərhədlərindən çox uzaqlarda başlanmış boyasıdır. Dil nəinki həyatiliyi özündə ifadə edir, o eyni zamanda həyatın özüdür. Ana dili məhv olarkən xalq artıq yox olur".[1] Dilin məğzini təşkil edən danışıq nitqi insanın bilik səviyyəsini, mədəniyyətini, qabiliyyət və mərifət dərəcəsini bildirən bir vasitə olduğundan türk dastanlarında düşünüb danışmaq, çox bilib az, məzmunlu, rəvan, yerində danışmaq məsləhət görülür. məsələn Koroğlu dastanında deyilirdi:

*Mən aşıq lənqəlidi;*
*Qəmidi, ləngəlidi*
*Çox bilib az danışmaq*
*İğidin lənqəlidir.*

Türk dastanlarında əqli tərbiyəyə yüksək qiymət verildiyindən orada bilik almaq, əqilli olmaq üçün müəllimlərin fəaliyyəti, məktəbin rolu, dərs və dərs kitablarının adı çəkilir. "Qurbani" dastanında deyilir ki, elə ki uşaq 7 yaşa çatdı, bir kamil molla tapıb uşağı ona tapşırmaq lazımdır. Molla dedikdə müəllim nəzərdə tutulur. Türk dastanlarında eləcə də ağıllı olmağın şərtlərindən biri adamları dinləmək hesab olunur və bu münasibətlə deyilir, "ulu sözünə baxmayan ulaya-ulaya qalar." Dədə Qorqud dastanlarında da deyilirdi ki, olmuş bir hərəkəti, görüləcək bir işi Qorqud ataya danışmayınca qərar qəbul etməzlər. O, hər nə buyursa onu qəbul edərlər. Türk dastanlarında elmə, alimə, ağıllı adamlara yüksək qiymət verildiyindən valideyinlər müəllim və alimləri

---

[1] K.D, Uşinski, seçilmiş pedaqoji əsərləri Azərnəşr 1953 səh 113

öz toylarına, şənliklərinə dəvət edərdilər. Türk dastanlarının birində deyilir ki, 6 gün aş verib alimlərin qəmini dağıtdım və mərəkəmi şənləndirdim. Türk dastanlarında ümumi bilik almaqla yanaşı əmək prosesində əməli fəaliyyət üçün lazım olan biliklərin verilməsi məsləhət görülür. Daha doğrusu əğlı tərbiyə ilə əmək tərbiyəsinin qarşılıqlı əlaqəsindən bəhs edilir.

*Günləri bir-bir sana,*
*Yar verdi bir sir sana.*
*Bir elm , bir də sənət*
*Xəzinədir insana.*

Bu münasibətlə türklər deyirdilər : "İgidin əli işdə gərək", "Yayda işləyən qışda dişləyər", "Kamil bağban çəkər bağın səfasını". Türk xalqları hələ eramızdan əvvəl əqli tərbiyəyə yüksək qiymət verdiklərindən dəmirdən, misdən istifadə edərək silah və məişət əşyaları düzəltmişlər. Türk dastanlarında əməyin insanı müstəqil, heç kəsdən asılı olmayan, mənəvi cəhətdən zəngin insanları tərbiyə etdiyi söylənilir. Bununla yanaşı tənbəlliyin, ələ baxımlığın insanları ac, dilənçi və bədbəxt etdiyi göstərilir. Xoşbəxt olmaq üçün zəhmətdən qorxmamaq, ağır işdən boyun qaçırmamaq, zəhmət zamanı ağılı işə salmaq vacib hesab edilərək tənbəllik və bekarçılıq dastanlarda canilik kimi qiymətləndirilir. Türk dastanlarında deyilir ki, tənbəl, avara, başqaları hesabına yaşayan müftəxor adamlar ən qiymətli sərvət olan vaxtını itirir vətən və cəmiyyət arasında müqəddəs borcunu oğurlamış olur. Türk dastanlarında ata malına göz dikənlər də məzəmmət edilir. Dastanlarda əmək məsələsindən bəhs olunarkən kollektiv əmək də məth olunur və deyilirdi : "El gücü sel gücü", "Birlik harada dirilik ordadır".

*Güllərin həşəm olsun,*
*Gün vursun həşəm olsun.*
*Var-dövlətin olunca,*
*Sənətin, peşən olsun.*

*Yay olanda dağa yolla!*
*Yaz olanda onu nallat!*
*Qış olanda məxmər çullat!*
*At igidin qardaşıdır.*[1]

Türk bölqələrindəki təbiət gözəlliyi özünün ifadəsini türk dastanlarında , aşıq ədəbiyatında bayatı və atalar sözlərində, nağıl və məcaralarında da tapmışdır. Ona görə də türk dilində gözəl sözü ilə yanaşı "Qöyçək", "Qəşəng", "Yaxşı", " Ecazkar", "Əntiqə", "Nəfis", "İncə", "Zərif", "Yaraşıqlı", "Məlahətli", "Xoş", "Şirin" kimi sözlər işlənir. Dastanlarda estetik tərbiyə ilə əlaqədar "Könül sevən göyçək olar", "Könül sevən nə ağa, nə qaraya baxar", "Gözü gözəl dağlara gün döyəndə", "Gözü göyçək qızlar,gəlinlər", "Qələm qaş altından piyalə gözlər". Türk dastanlarında gözəllik əlamətlərinin bir hissəsi insanın zahiri görkəminə, digər qismi isə insanın mənəvi aləminə aid edilir. Dastanlarda zahiri gözəllik: "sağlamlıq", "uca boy", "çəldlik", "zəriflik", "xoş xasiyyət", "xoş sifət", "gözəl sifət", "gözəl yeriş", "ritmik hərəkət", "təmiz və yaraşıqlı geyim", Daxili gözəllik isə "həyalı", "ismətli", "ağıl və kamallı", "mərifətli", "mehriban", "insanpərvər", "xeyirxah", "bilikli" olmaq kimi qələmə verilir.Türk dastanlarında kişilərlə qadınların gözəlliyi arasında da belə fərqlər vardır. Kişilərdə gözəllik "Qəhrəmanlıq", "Mərdlik", "Şücaət" olduğü kimi qadınların gözəlliyi, "Boy-buxun", "Qəddi-qamət", "Cazibəli" olmasıdır. Məsələn: dastanlarda "Aya deyir sən çıxma mən çıxım", "Gül camalına xətti xalına heyran oldum" kimi ifadələr qadın gözəlliyini vəsf edir. Mənəvi gözəlliyə yüksək qiymət verən türklər deyirdilər: "Üzün qaralığı eyib deyil, qəlbin qaralığı eyibdir". Ona görə də mərd, igid ağıllı, mərifətli qəhrəmanların zahirən gözəl olmaması o, qədər

---

[1] Koroğlu. Azərbaycan.SSR EA "nəşriyyatı", 1959, səh 124

də nöqsan hesab edilmirdi. Dastanlarda deyilir "gözəllik ondur, doqquzu dondur". Dastanlarda gənc nəslin tərbiyəsində ana təbiətin insana verdiyi sonsuz zövq və məhəbbət qüdrətli vasitələrdən hesab edilir. Dastanlarımızda "gül-gülü", "bülbül-bülbülü",çağıran çəmənlər "Başı qarlı uca dağlar", "quş qonmaz qayalar" elə təsvir edilmişdir ki, bunu oxuyan hər bir kəs vətənin gözəlliyini dərindən sevməyə bilməz. Koroğlu dastanında ana təbiətin gözəlliyi belə təsvir edilir: "Rövşən baxdı ki, bura elə cənnətizar, elə laləzər bir yerdir ki, daha nə deyim gül-gülü çağırır, bülbül-bülbülü çağırır. Elə bil ki, bu sıldırım qayaların üstünə bir bağça şəkili çəkilib. 72-qələmlə, 72-rəng vurulub. Ortalıqda uca bir ağac altında da qoşa bulaq durna gözü kimi qaynayır, göz yaşı kimi axıb ətrafı su gölünə döndərir".[1] Türk xalqları təbiət gözəlliyinin insan mənəviyyatına təsirini düzgün başa düşərək təbiət gözəlliyinin insan gözəlliyi ilə ahəngdar qurulmasına çalışmışlar. Məsələn, təbiət gözəlliyini maral, ceyran, tərlan, sona, gül, bülbülə, insan qamətini isə sərv ağacına, dişləri inciyə, dürrə, dodağı qönçəyə, dili bala oxşatmışlar. Təbiətdə olan bu gözəlliklərin növlərini öz uşaqlarının adlarında da yaşadaraq onlara "şahin", "şəfəq", "lalə", "yasəmən", "maral", "Ceyran", "nərgiz", "bənövşə" kimi adlar vermişlər. Türk xalqları dastanlarında estetik tərbiyə nöqteyi nəzərdən böyük əhəmiyyət kəsb edən zəhmətkeş xalqın yaratdığı qəsrlər, möhtəşəm hasarlar, heyrətamiz, bəzəkli xalçalar vasitəsi ilə də gənc nəslin zövqünə təsir etməyə çalışmışlar. Türk dastanlarında aşıq yaradıcılığı və bu yaradıcılığın gənc nəslin estetik zövqünün formalaşmasına təsir edən bir çox məqamlar da var. Dastanlarda göstərilir ki, qılınc ən qədər qüvvətli, kəsərli silah olsa da saz, tar, kaman bir o, qədər də qüvvətli vasitədir.Türk qəhrəmanları düşmən üs-

---

[1] Koroğlu. Azərbaycan.SSR EA "nəşriyyatı", 1959, səh 36

tünə gedərkən sazla oxuya-oxuya getmişlər. Bir məsələni də qeyd etmək lazımdır. Türk dastanları adətən "Ustadnamə" ilə başlanır. Bu ustadnamələr başdan ayağa tərbiyəvi xarakter daşımaqla yanaşı, aqsaqqal məsləhəti olmuşdur. Məsələn Azərbaycan xalq dastanlarında olan ustadnamələrin birində deyilir:

*Bir məsəldir: Hər ağacda bar olmaz,*
*Tur dağı tək hər dağ laləzar olmaz.*
*Cəfa çəkmə bivəfadan yar olmaz.*
*Gedib bir doğru yol tutsan a bülbül.*

Və yaxud dostluq və mərdlik haqqında ustadnamələrin birində deyilir:

*Bir adam ki, sənə dostluq eylər,*
*Bil ki, onun səxavəti yaxşıdır.*
*Namərd sənə yağlı plov yedirsə,*
*Mərdin quru məhəbbəti yaxşıdır.*

*Sallabaş adamdan, bir ağır daşdan,*
*Dəng olduq qulaqdan, kəsildik başdan.*
*Bədnəzər qonşudan, yaman yoldaşdan,*
*Qədir bilənlərin iti yaxşıdır.*[1]

Türk dastanlarında tərbiyənin bir çox sahələri ilə yanaşı iqtisadi tərbiyə məsələsinə də xüsusi diqqət yetirilir. Düzdür iqtisadi məsələlər dastanlarda sistemli şəkildə şərh olunmasa da onlar əmək intizamını gözləmək, əldə edilmiş gəlirdən səmərəli istifadə etmək, vaxt büdcəsini düzgün bölüşdürmək, torpağa qulluq etmək, məhsulu vaxtında dərib toplamaq, ilin hansı fəslində hansı növ bitkini yetirmək şəklində öz əksini tapmışdır.

Türk dastanlarında gənc nəslə iqtisadi tərbiyə ilə verilən məsləhət budur ki, çörəyə xüsusi hörmət və məhəbbət göstərilsin. Dastanlarda göstərilir ki, xalq yerə düşən çö-

---

[1] Azərb xalq dastanları Bakı, "Yazıçı" nəşriyyatı 1983, səh15-16

rəyi, torpağa tökülən taxılı qaldırarkən öpüb gözünün üstünə qoyur. Türk xalqları bolluq yaratmaq məqsədi ilə bir sıra mahnılar və nəğmələr də yaratmışlar. Koroğlu dastanında deyilir:

*Kal qoşub kotan əkməyən,*
*Nanın süfrəyə tökməyən,*
*Arının qəhrini çəkməyən,*
*Balın qədrini nə bilər.*[1]

Türk dastanlarında hüquq tərbiyəsindən də bəhs edilir. İnsan ləyaqətinə qarşı çıxan, oğurluq, canilik edən, namussuzluğa yol verənlərə qarşı haqq-ədalət divani qurulur və cinayətkara əməlinə görə cəza tədbirləri müəyyən edilir. Hüquq tərbiyəsində haqq-ədaləti, gözləməyi və ədaləti pozmamağı məsləhət görən türk babalarımız demişlər: "Qanı-qan ilə yumazlar". Xalq həmişə ədalətin, həqqin bərqarar olmasını arzulamışdır. Bu münasibətlə "Qaçaq Kərəm" dastanında deyilir:

*Bilərəm ki, haqq yolunu tapacaq,*
*Kasıb-küsub yoxsulluğu atacaq.*
*Vaxt gələcək el murada çatacaq,*
*Kərəm mərdliyini, atarmı indi.*[2]

İndi də islamın ilk dövrlərindən başlamış Məhəmməd Peyğəmbərin kəlamlarını əks etdirən və bu günə qədər qəlib çıxan, tərbiyə nöqteyi nəzərində zəngin olan bir neçə xalq dastanlarına diqqət yetirək.

### *Manas dastanı*

Türk xalqlarının çox əsirlik təcrübəsi görüş və etiqadları, həyat və məişəti, əxlaqi və dünya görüşü, qəhrəmanlığı və məhəbbəti xalq ədəbiyyatının digər janrlarına nisbətən öz

---

[1] Koroğlu dastanı, Bakı "Azərnəşr" nəşriyyatı 1962 səh 128.
[2] Azərbaycan dastanları Bakı, "Gənclik" nəşriyyatı, 1977 səh 66

əksini dastanlarda daha geniş tapmışdır. Türk xalqlarının həyat və məişəti, tərbiyə prosesli şifahi xalq ədəbiyyatının dastan, nağıl, əfsanə kimi nümunələrində müfəssəl şərh olunmuşdur. Məsələn, dastanlarda gənc nəslə mənəvi zənginlik, əxlaqi saflıq, fiziki kamillik kimi tərbiyə üçün çox vacib olan məsələlər şərh olunur. Türk xalqlarının bizə məlum olan e.a. yaranmış "Oğuz xaqan", "Manas", "Su", "Alp ər Tunqa", "Ural Batur" kimi dastanlarda türk xalqlarının qəhrəmanları, onların mərdliyi, dosta vəfalı olması, qadının kişilərlə bərabər vuruşa getməsi kimi tərbiyəvi cəhətlər gənc nəslin məqsədyönlü formalaşma və inkişafında çox qiymətli vasitə kimi istifadə edilmişdir. Məsələn Qirğızların mifik qəhrəmanı olan Manas eyni adlı "Manas" dastanında 40 həmkarı ilə bərabər böyük qəhrəmanlıq nümunəsi göstərir. Manas lap körpəlikdən görünməmiş gücə malik olmuşdur.

Manasın doğulma tarixi də maraqlıdır. Onun atası Çakin və anası Çiyırdı sonsuzluqdan xəcalət çəkir və gecə-gündüz uşaqlarının olması üçün dua edirlər.

*"Ey Xuda, Taala mənə yar olsun!*
*Çiyricinin qarnında*
*Bir oğlan vücud tapsın!"*
*Diləyi yerinə gəlir Çakip xanın...*
*"Çakip xan arvadı Çiyriçidan*
*İndi bir oğlan doğdurdu.*
*Oğlunun üzünə baxdı,*
*Ağ əti pambıq kimi,*
*Sümükləri mis kimi,*
*Bir ağ madyan kəsdirdi*
*Çakip xan doğulan oğlunun adını*
*Dörd ulu peyğəmbərə*
*"Manas" qoydurdu".*[1]

[1] Mövlud Uluğtəkin Yılmaz –"Türk xalqlarının ortaq ata-babaları" Bakı "Göytürk" nəşriyyatı 1997 səh 34

Ata və ana uşağın həyata gəlməsi ərəfəsində gözəl yuxular görür və nəhayət qeyri-təbii doğuş, günü Manas əlində qan parçaları ilə həyata gəlir. O, hələ beşikdə ikən öz gücünü göstərib özünü bələməyə də imkan vermir. Hətta bir neçə arvad onu yedizdirib doydura bilmir. Dastanda deyilir:

*"Manas beşikdə yatarkən danışdı:*
*"Ağsaqqal atam, Çakip xan,*
*Müsəlman yolunu açacağım,*
*Kafiri sürərək qaçırıb,*
*Müsəlmana nicat salacağım!"*
*Çakip xan bu sözü eşidincə*
*Müxtəlif başlı çakip rahvanı (at yürüyüşü)*
*Gətirib əgər vurdurdu.*
*Yaxası qızıl, yeni mis,*
*Deşikləri quş gözü qədər*
*Kiçik ağ zirehinin*
*Altından naxışlı düzəltdirdiyi,*
*Gümüşdən naxışlar tökdürdüyü*
*Zirehini geyincə*
*Çakip xan belə qışqırdı:*
*"Bəyin oğlu Bakay xan!*
*"Bəri gəl böylə qarşıma*
*Sənə deyəcəklərim var .*
*Mənim ər Manas oğlum*
*"Ata minəcəyəm" dedi,*
*"Uzaq səfərə gedəcəyəm" dedi,*
*"Mədinədən sıyırıb,*
*Ulu Buxaradan dolanıb*
*İt-keçüyüdən keçəcəyəm! dedi,*
*"Beş-tərəkdən də aşaraq*
*Beynçindəki konur-Bəyə*
*Çatıb vuracağam!" dedi"*[1]

---

[1] Mövlud Uluğtəkin Yılmaz -Türk xalqlarının ortaq ata-babaları Bakı "Göytürk" nəşriyyatı 1997səh 35-36

Rəvayətə görə bütün silahlar Manasın qarşısında aciz olduğundan ona heç bir silah təsir göstərə bilmir, çünki Manasın əynində qeyri adi hərbi paltar olmuşdur. Hələ uşaq ikən Manas Allaha müraciət edib, ondan güc istəmiş və uşaq ikən insanları vahiməyə salan dəhşətli bir heyvanı öldürmüşdür. Dastanda deyilir ki, Manas hələ 6-9 yaşlarında olarkən Qırğızları mütəmadi qarət edən Kalmık və kitaylara qarşı mübarizə aparmışdır.

14 yaşında orduya sahib olub, xan olmuşdu. Manasın birinci qələbəsi ölkənin müxtəlif tərəfinə yayılmış və xalq onu özünün xilaskarı hesab edərək ətrafında birləşmiş və Manası Qırğızların xanı seçmişlər. Manas ətrafına topladığı qəhrəmanlarla bərabər bir neçə yürüşlər edərək bütün orta Asiyanı özünə tabe etdirmişdir. Dastandan məlum olur ki, bu yürüşlər zamanı Manas nəhənglər, təpəgözlər, sehrbazlar kimi çoxlu qüvvətli pəhlivanlarla rastlaşsada onlara qalib gəlmişdir. Ancaq Manasın yaxın qohumları ona qarşı çıxır və onu hakimiyyətdən uzaqlaşdırmaq üçün öldürmək qərarına gəlirlər. Qohumlarından biri onu bərk yaralayır. Dastanda Manasın ağıllı, tədbirli vəfalı arvadı onu ölümdən xilas edir.

Hələ çox qədimlərdə 4 min il bundan əvvəl türk dastanlarında qadın yüksək mənəviyyatlı bir şəxs kimi qələmə verilir. Dastanda eləcədə yaxşı dost, qardaş kimi təsvir edilmişdir. Manasın yaxın dostu Almanbet ona qardaşlıq edərək dostu ilə birlikdə yürüşlərə gedir və Manası hər yerdə müdafiə edir, müxtəlif bəlalardan qurtarır. Dastanda aqil, müdrik adamlar qocaların obrazı verilmişdir. Bu qocalardan biri də Bakay olmuşdur. Bakay, Manas, Çubak, Sırqak, Aribəy və bir sıra başqa qəhrəmanlara doğru yol göstərərək onları düşünülməmiş hərəkətlərdən çəkindirir.

Yuxarı da qeyd etdiyimiz kimi, Manasın müdrik arvadı Kanikey xalqı idarə edir, Manasa məsləhət verir, Manasın qardaşlarının üsyanını yatırır.

"Manas" və ümumiyyətlə türk dastanlarında pəhlivanların hamısının yanında vəfalı at onların ayrılmaz dostu və silahdaşi olub. Deyilənə görə Manas öz atı ilə bir vaxtda doğulub. Bu at güclü, yel kimi uçan, nalından qığılcım qalxan döyüşkən bir at olmuşdur. Manas dastanında türklərin qəhrəmanlıq səhifələri maraqlı lövhələrlə verilmiş və bu qəhrəmanlıq nümunələri gənc nəsli xalqını, vətənini, ərazi bütövlüyünü qorumağa təhrik edən lövhələr olmuşdur.

Qeyd etmək lazımdır ki, Manas dünyanın ən iri dastanlarından biri olmuşdur.

O, yarım milyondan çox tərbiyəvi kəlamlarla dolu olan misralardan ibarətdir. Bu dastan türk xalqları arasında geniş yayıldığından onun 18-dən çox türk variantı qələmə alınmışdır. Dastanda tateizm ünsürləri, sehrli əfsanələr və əsatir obrazları onun çox qədim köklərə malik olduğunu göstərir. Manas dastanında olan qəhrəmanların adı ilə bağlı "Manas" dastanı. Manas dastanı, "Manasın oğlu Sentey" və "Manasın nəvəsi Seytek" kimi bir biri ilə bağlı olan 3 hissədən ibarətdir.

### *"Alpamış" dastanı*

Alpamış dastanı da tərbiyə baxımından türk xalqlarının olduqca qiymətli pedaqoji abidəsidir. Bu dastan türk xalqları arasında geniş yayıldığından onun müxtəlif özbək, qazax, qaraqalpaq, başqır, tatar, altay variantları da var. Alpamış əsərin baş qəhrəmanıdır. Alpamışın da doğulma tarixi Manas dastanında olduğu kimi macaralıdır. Dastanda, göstərilir ki, Kunqrat başçısı övladsız olduğundan dua edir və peyğəmbər uşağa qeyri-adi qüvvə və ölməzlik bəxş edir. Alpamış anadan

olan gündən Barçin adlı gözəl bir qızla dehlənir (nişanlanır). İş elə gətirir ki, Barçının və Alpamışın ataları bir-biri ilə küsülüşürlər. Bundan xəbər tutan Kalmık pəhlivanlarından biri Barçinin ona ərə getməsini məcbur edir. Əhvalatın nə yerdə olduğunu bilən Alpamış qıza kömək edib, onu azad etməyə gedir. Toy zamanı keçirilən yarışda birinci yerə çıxan ərə gedən qızı almalı idi. Alpamış bu yarışda iştirak edərək birinci yerə çıxır və Barçını alıb evə gətirir. Alpamışa xəbər çatdırırlar ki, Kalmiklar onun qaynatasına təzyiq göstərir, onu incidirlər. Alpamış qaynatasını müdafiə etməyə gedərkən əsir düşür və 7 il yeraltı zirzəmidə qalır. Nəhayət əsirlikdən qaçır. Evə gəldikdə xəbər tutur ki, onun yerinə qələn yeni dövlət başçısı Alpamışın ailəsini dilənçiliyə məruz qoyub və hətta arvadı Barçini də almaq istəyir. Türk xalqlarında belə bir adət olmuşdur. Toy günü cavanlar yarışa çıxmalı və bu yarışda kim qalib gəlsə qızı o almalı idi. Alpamışda bu toydakı yarışda qələbə çaldığı üçün nişanlısı Barçini alıb evə qayıdır. Alpamış yenidən dostlarının köməyilə hakimiyyətə gəlir, düşmənləri qırıb məhv edir və xalqı öz rəhbərliyi altında birləşdirir. Bu dastan 2 hissədən ibarətdir. I-ci hissədə Alpamışın nişanlısının dalınca getməsi, rəqibləri ilə yarışması və evlənməsi, II hissədə isə Alpamışın zülmkar Kalmı hakimi Paytaxana qarşı yürüşü, 7 il əsirlikdə qalması və müxtəlif sərgüzəştlərdən sonra qələbə ilə vətənə qayıtmasıdır. Dastanın əsas ideyası xalqı zülmdən azad etmək, ədalət uğrunda mübarizə aparmaq, əmin-amanlıq yaratmaq, yüksək insanı duyğular və sairədir. Dastanda nəciblik alicənablıq göstərən Alpamışın sevgilisi Barçin, bacısı Galdırqac, sadiq dostları Qaracan, Keykubad kimi obrazlar verilmişdir.

Türk xalq dastlarındakı əxlaqi fikirlər sırasında mərkəzi yeri şərə və onun hər cür təzahür formasına qarşı mübarizə motivləri təşkil edir.

Belə mübarizə azad həyat, ədalət, bərabərlik uğrunda aparılan mübarizədir.

### *Ural Batur dastanı*

Başqırd xalq qəhrəmanlıq dastanı olan "Ural Batırda" xeyirlə şərin mübarizəsi, xeyirin şərdən həmişə qorunması, ehtiyatlı, ayıq-sayıq olması fikri vurğulanır. Dastanda göstərilir ki, şərq ölkəsinə düşən Ural öz nəcib məqsədi uğrunda bir çox sınaqlardan çıxdıqdan sonra möhkəmlənir, inamlı olur. Getdiyi yolun çətinliklərindən yorulmur və gündəlik gözəllik uğrunda mübarizə onun amalı olur. Batırın qardaşı Şurqin isə ədalətli ölkəyə düşsə də şər qüvvələrə qoşulur. Xeyr işlərə düşmən kəsilir və hətta qardaşının xoşbəxtliyinə də paxıllıq edir.

Qeyd etmək lazımdır ki, türk dastanlarında əsas ideya zülmə, şərə qarşı mübarizə aparan qəhrəmanların obrazında cəmləşir və gənc nəslə göstərir ki, xeyirli işlər uğrunda inamla mübarizə aparan adamlar həmişə qələbə çalmalıdır.

### *Şu dastanı*

4-cü əsrdə Saxa türklərinin yaratdığı "Şu" dastanında da Hun, hökmdarlarının savaşlarından, qəhrəmanlıq və vətənpərvərliyindən danışılaraq orda olan nəsihət və dövlət başçısılarının qəhrəmanlıq nümunələri gənc nəsldə torpağa bağlılıq, vətənə sədaqət və mübariz olmaq ruhu aşılayır.

### *Dədə Qorqud dastanı*

Bir Amerikan mütəxəssisi Novruz bayramını görüb təəccübləndi və dedi: "Çox qəribədir. Gör siz necə böyük xalqsınız ki, 70 il Sovet diktaturası şəraitində öz milli heysiyyatınızı, milli qurur, adət və ənənələrinizi unutmamısınız". Bu amerikanlı başa düşə bilmir ki, biz türklərin qədim tarixi,

ənənələri var və onlar zamandan, ictimai quruluşdan, siyasi hadisələrdən asılı olmayaraq öz adət ənənələrini dəyişməmişlər. Bir də ki, qədim türklərin bizə yadigar qoyub getdikləri dastanlar, folklor nümunələri, xalq pedaqogikası incilərində elə qiymətli tərbiyə məqamları var ki, onlar bu gün də özünün əhəmiyyətini itirməmişdir. İlk türk qəbilələrində gənc nəslin tərbiyəsi, əmək alətləri düzəltmək böyüklərin nümunəsini təqlid etməklə başlamışdır. Sonrakı dövrlərdə tərbiyə daha planlı səciyyə daşımış və tərbiyə işi ilə xüsusi adamlar məşğul olmuşlar. Bu prosesdə şifahi xalq ədəbiyyatının dastan, nağıl, əfsanə kimi nümunələrindən geniş istifadə edilmişdir. Bu ədəbiyyat gənc nəslin qəhrəmanlıq, vətənpərvərlik, humanizm kimi yüksək əxlaqi sifətlərdə tərbiyə etməklə yanaşı, uşaqlara həm də qədim türk adəti, mənşəyi, dövlət üsul-idarəsi haqqında da geniş məlumat vermişdir. Belə türk dastanlarından "Oğuz xaqan", "Manas", "Alp ər Tunqa" və "Dədə Qorqudu" misal gətirmək olar. Bu dastanlar içərisində "Kitabı-Dədə Qorqud" dastanı gənc nəslin tərbiyəsində olduqca böyük əhəmiyyətə malikdir.

"Dədə Qorqud" dastanı köçəri patriarxal qəbilələrin dağıldığı və feodal münasibətlərin yarandığı bir dövrə təsadüf edir. "Dədə Qorqud" dastanlarında bu dünyanın müvəqqəti və o biri əbədi dünyanın olması ideyası vurğulanır. Dastanda deyilir ki, bu dünya karvan kimi bir şeydir, gəldi, getdi. Əcəl öldürdü, yer gizlədi, fani dünya yenə qaldı. Gəlimli, gedimli dünya, son ucu ölümlü dünya deyilir. Lakin Dədə Qorqud insanlara bu fani dünyada əl-ayağını uzadıb axirət dünyasını gözləməyi deyil, fəal olan, əqil və yüksək əxlaqi sifətlərə malik olan insanların tərbiyə olunmasını söyləyir.

Əbədi dünya haqqında danışan Dədə Qorqud mal-dövləti artırmaq, Vətəni qorumaq, doğma torpağını müdafiə etmək, şərəfli yaşamaq, yaşadığı həyatı namusla başa vurmaq, insanlar üçün xeyirxah işlər qoyub getmək ki-

mi dünya üçün lazım olan fəal, çalışqan, əməksevər adamların tərbiyə olunmasını lazım bilirdi. "Dədə Qorqud" da real həyatı təcəssüm etdirən "Çıxan can geri gəlməz", "Ölən adam dirilməz" kimi kəlamlarla yanaşı, andiçmə və dualar da insanları axirət dünyasına tabe edən ifadələr olmayıb, adamları qəhrəmanlığa, torpağı müqəddəsləşdirməyə, zəfərləri uğurlu etməyə vurğulayan ifadələrdir. Məsələn: "qılıncımla doğranım ki", "sağ gəlib çıxmayım ki", "uğurun açıq olsun", "qarlı dağlardan aşanda, yolun açıq olsun", "hayqıran sulardan keçəndə sənə yol verilsin", "çaparkən boz atın büdrəməsin" və i.a. Dədə Qorqud allahın yaratmış olduğu ölümə qarşı çıxır. Əsərdə Domrul Əzrailə üsyan edən, onun hökmünə tabe olmayan bir şəxs kimi təsvir edilir: "Mərə, Əzrayıl dediyiniz nə kişidir ki, adamın canını alır? Göstərin! Savaşım, çəkişim, dirəşim, yaxşı igidin canını qurtarım. Bir də yaxşı igidlərin canını almasın". Bir tərəfdən allahın varlığına inanan Dədə Qorqud, digər tərəfdən, bir sensualist kimi hissi idrakla dərk etməyin mümkünlüyünü vurğulayaraq deyirdi:

*Ucalardan ucasan,*
*Kimsə bilməz necəsən.*
*Körklü tanrı,*
*Göydə axtardı,*
*Yerdə istədi.*

Bu əsərdə daha çox yerli köçərilərin həyatından, sadə adamların mənəvi aləmindən məlumat verilir. Əsərin əsas qəhrəmanı Qazan xandan və dastandakı başqa oğuz bəyləri: Bozatlı Beyrək, dirsə xan oğlu Buğac kimi igidlərdən danışılır.

Dədə Qorqud dastanında əxlaq tərbiyəsinin tərkib hissəsi olan vətənpərvərlik əsərin başlıca ideyasıdır. Bu ideya qədim türklərdən süzülüb gəlmişdir.

Bu dastanda qəhrəmanlıq ruhu vətən məhəbbəti ilə vəhdət təşkil edir. "Dədə Qorqud"da olan türk tayfaları gənc nəsildə vətənə məhəbbət və hörmət tərbiyə etmək üçün Vətəndə hər nə yaxşı varsa, onu gənc nəslə göstərməyə, Vətənin dağları, bulaqları, al-əlvan,çəmənləri, onun əzəmətli qala və abidələrini sevdirməyə çalışmışlar. Məsələn, dastanda həyata can verən təbiəti yaşadan su haqqında belə deyilir:

"Şırıl-şırıl qayalardan axan su, böyük ağacları yerindən oynadan su, bağ və bostanm zinəti su. Ağ qoyunlar, dəvələr çörəsidə yatdığı su". və yaxud dağlar haqqında: Ağaclı dağlar, gözəl dağlar, gün doğan dağlar, qarlı dağlar, otlu-yaylaqlı uca dağlar-deyə onu vəsf edərkən mərd, qoçaq, qəhrəman, namus, qeyrət, sahibi olan oğulları bu təmiz su və dağlarla müqayisə edərək "Dağın yüksəyi oğul", "Suyun daşqını oğul" demişlər. Dastanda bu dağları qorumaq, onun əzəmətinə sığınmaq, onun gözəlliyini müdafiə etmək üçün deyilir:

*Qarşı yatan dağını aşmağa gəlmişəm,*
*Axıntılı, qorxulu suyunu içməyə gəlmişəm.*
*Gen ətəyinə, dar qoltuğuna sığınmağa gəlmişəm*[1].

Türklər vətənə məhəbbət təzahürünü "Vətəni gedənin, imanı da gedər, inamı da", "vətənin qara torpağı da kəfəndir", "Vətən üçün əziləni vətən əzizlər", "Vətənsiz ölən kəfənsiz ölər", "Vətənin bir günü-qəribliyin min günü" kimi ifadə etmişlər.

"Kitabi-Dədə Qorqud" dastanlarında qədim Azərbaycanın yaşayış yerləri olan Dərbənd, Gəncə, Bərdə, Əlincə qalası, Şərur və s. yerlərin adı çəkilir. Bu yerlər oğuz qəhrəmanlarının doğma vətəni, yurdu olduğundan onlar bu torpaqlar uğrunda daxili və xarici düşmənlərə qarşı mübarizə aparmışlar. "Dədə Qorqud" dastanlarında türk

---

[1] Kitabi Dədə Qorqud Bakı, 1962 səh

anaları Vətəni müdafiə edən oğullarını tərbiyə edərək deyirdilər: Oğul dağdan uçmasın, oğul suda axmasın. Oğul azğın düşmənə əsir düşməsin[1]. Ümumiyyətlə bu fikir türk dastanlarının hamısına xasdir. Məsələn, "Bilqamıs" dastanında əsir düşmək ən dəhşətli rüsvayçılıq, ölümə bərabər olan bir hadisə kimi səciyyələnir.

*Ölüyə bənzəmirmi, söylə, əsir olanlar,*
*Ölümün sifətini məğər göstərmir onlar?*

"Kitabi-Dədə Qorqud" da Qaraca çobanın döyüş meydanı belə təsvir olunur: Onun sapandının içi üç yaşar daha dərisindən toxunmuşdu. Hər atanda 12 batman daş atır, atdığı daş yerə düşmür, düşəndə toz kimi ovulur, daş düşən yerdə üç il ot bitmir. Qaraca çoban ağasının malını, sürüsünü düşməndən qoruduğunu Qazan xana belə deyir: "İki qardaşım şəhid oldu, 300 kafir öldürdüm, üç yerdən yaralandım, tək qaldım, ancaq sənin bir arıqtoğlunu da düşmənə vermədim. İndi qonur atı, qalxanını, polad qılıncını ox və yayını mənə ver ki, düşmənin üstünə gedib, onu öldürüm və sənin uğrunda ölüm". Qədim türk tayfaları uşaqlarını dözümlü, qüvvətli tərbiyə etmək üçün onlara güclü adamların, qorxmaz, cənqavər qəhrəmanların obrazını nümunə göstərməyə və onları təqlid etməyə çalışmışlar. Məsələn, "Dədə Qorqud" dastanlarında Qanlı qoca oğlu Qanturalı evləndirmək istərkən üç vəhşi heyvanla vuruşmalı idi. Əgər onlara qalib gəlsə, sevdiyi qızı ona verəcəklər, ölsə şəhiddir. Əsərdə Qantural qalib gəlir.

"Dədə Qorqud" dastanlarında uşaqlarını dərin məhəbbətlə sevən, övladlarını dağların yüksəyi, belinin gücü, qüvvəti,canı hesab edən Oğuz bəyləri döyüş meydanmda yoldaşını tənha qoyub qaçan oğullarını öldürməkdən belə imtina etməmişlər. Məsələn, Qazan xan oğlunun döyüş meydanından qaçdığını zənn edib deyir: "Onu altı bölük

[1] Kitabi Dədə Qorqud Bakı 1962 səh 76.

edib, altı yolun ayrıcına tullayacam ki, bir kimsə döyüşdə yoldaşını qoyub qaçmasın"[1]. Bəli əgər xan öz uşağına belə tələbkarlıqla yanaşırsa, xalq balalarından on qat artıq tələb etməyə haqqı vardır. Oğuz bəyləri öz uşaqlarını Vətən naminə, vətən yolunda başqalarından seçmədiyi üçün türk yaşayıb, doğma torpaqlarını qoruyub və bu gün də onu saxlaya bilmişdir.

Dədə Qorqud dastanlarında qəhrəmanlar dəvə kimi kükrəyən, aslan kimi nərildəyən, nərə çəkib hayqıran, qalxanını qaldırıb ölümün gözünə düz baxan, düşmənə qılınc çalan kimi təsvir olunmuşdur:[2] Oğuz bəyləri vətəni qoruyarkən təhlükədən qaçmaq üçün ehtiyatlı, sayıq olmağı məsləhət bilərək deyirdilər: "İgidə nə bəla gəlsə, yuxudan gələr"[3]. Oğuz bəylərinin ən məziyyətli cəhətlərindən biri də humanizmdir. "Dədə Qorqud"da "Qazan bəy qaçanı qovmadı, aman deyəni öldürmədi" kimi gözəl məqam vardır.

Türk xalqları özlərinin dövlət başçılarının ancaq ağıllı tədbirli olması ilə kifayətlənməmiş, həm də onları qüvvətli, cəsarətli, ordunun birinci cərqəsində dayanıb düşmənə həmlə edəcək qəhrəman kimi təsəvvür etmişlər. Dədə Qorqud dastanında bu münasibətlə çox maraqlı bir məqam vardır. Qazan xanın oğlu 16 yaşına çatdıqda atası ona deyir: "Oğlan yeməklə böyüməz. O, həm də qılınc oynatmağı, ox atmağı, düşmənə qalib gəlməyi bacarmalıdır. Sən isə heç ox atmağı, qan tökməyi, yay çəkməyi bilmirsən? Qorxuram öləm, taxtı –tacı idarə etməyi sənə verməyələr". Oğlu cavabında deyir: "Ata! Oğul hünəri atadan öyrənər, yoxsa atalar oğuldan?"

Qazan xan bu cavabdan razı qalıb oğlunu düşmənlə vuruş meydanına aparır. Düşmən Qazan xana hücum çə-

---

[1] Kitabi Dədə Qorqud Bakı 1962 səh 74.
[2] Kitabi Dədə Qorqud Bakı 1962 səh 8.
[3] Yenə orada səh 72-73

kərkən oğlu deyir. "Ata qorxma, ətrafda erkək quzu qurban üçün, baba oğul qazanar ad üçün, oğul da qılınc vurar baba qeyrəti üçün"[1].

Dədə Qorqud dastanında qadınlar da kişilər qədər mübarizdirlər. Dastanda Beyrəyin evlənmək vaxtı çatdıqda deyir ki, "Ata, mənə elə qız al ki, mən yerimdən durmamış o dursun, mən atıma minməmiş o minmiş olsun. Mən düşmənin üstünə gedənə qədər, o mənə baş gətirsin". Dastanda qadınlar əxlaqlı, namuslu, ismətini qoruyan, cəsur, qorxmaz, kişilər qədər hünərli, at minib silah işlədən şəxslər kimi təsvir olunmuşlar.

Qazan xanın arvadı oğlunun ovdan geri dönmədiyini gördükdə atını minir, qırx qızla axtarışa çıxır, yaralanmış oğlunu tapır və yaxud Qazanın oğlu Uruz əsir düşdükdə Burla xatun silahlanır, oğlunu qurtarmaq üçün döyüşə yollanır. Selcan xatun əri birlikdə vuruşarkən, "yağının bir ucu sənin, bir ucu mənim"[2] deyib yaralanmış ərini ölümdən xilas edir. Banıçiçək gələcək nişanlısı Beyrəyin cürətini sınamaq üçün özünü başqa adla təqdim edərək "Gəl səninlə ova çıxaq, əgər sənin atın mənim atımı keçsə, ox atsaq, məndən yaxşı atsan, səninlə güləşək, məni yıxsan onda Banınçiçəyi sənə alaram".Dədə qorqud dastanında qızlar ancaq qəhrəman kimi deyil, həm də evin dirəyi, nəsli artıran, incə, məlahətli, nəvazişli, yüksək mənəviyyatlı adamlar kimi təsvir edilmişdir. Orada deyilir:

*Topuğuna sallanan qara saçlım!*
*Evdən çıxıb yüyürəndə sərv boylum.*
*Qurulu yaya bənzər çatma qaşlım.*
*Qoşa badam sığmayan dar ağızlım!*
*Payız almasına bənzər al yanaqlım*
*Qadınım, dirəyim, soyum.*

---

[1] Kitabi Dədə Qorqud Bakı 1962 səh72-73
[2] Yenə orada səh 103

Dastanlarda qadın tərbiyəsini səciyyələndirən dörd qadın obrazı verilir.

*Birincisi solduran soydur.*
*Birisi doyduran toydur.*
*Birisi evin dayağıdır.*
*Birisi, necə söylərsən, bayağıdır.*

Bunlardan birincisi solduran, yəni nəsli zay edən, ikincisi evində otura bilməyən, qapıları gəzib qiybət edən, üçüncüsü evin dayağı, ailəsinin qayğısı ilə yaşayan, qonaqpərvər, evdar,

Ayişə və Fatimə kökündən yaranmış, dördüncüsü isə ərinə məhəl qoymayan, qonaq yanında onu rüsvay edən həyasız kimi təsvir edilir.

Bu çox ibrətamiz türk ailə tərbiyəsinin nümunəsidir. Qızları ailəyə bağlı, ədalətli, zəhmətkeş, söz-söhbətdən və qapı-qapı gəzib qeybətdən uzaq adamlar kimi, türk mentalitetinə müvafiq tərbiyə etmək Dədə Qorqud dastanında qadın tərbiyəsinin əsas ideyasıdır.

Qeyd etmək lazımdır ki, türk xalqlarının bütün dastanlarında qadın tərbiyəsinə xüsusi diqqət yetirilir. Onlara kişilərlə birlikdə üzüaçıq işləyib çalışmalarına, birgə fəaliyyət göstərmələrinə icazə verilməsinə baxmayaraq, türk qadınları heç vaxt əxlaqi pozğunluğa yol verməmişlər. Türk xalqlarının Tomris, Nigar, Telli, Ruqiyyə, Məhbubə, Həcər kimi bu gün təqlid edilə biləcək, ağıllı tədbirli, yüksək mənəviyyalı qadın obrazları olmuşdur.

Dədə Qorqud üzünü ana qədri bilməyən, anasına ehtiramsız yanaşan övladlara tutub deyirdi: “Ana rəhmi ilə doğulana qədər, doğulmasa yaxşıdır”.Yəni hələ siz həyata gəlməmişdən əvvəl, ananızın sizə rəhmi gəldi ki, siz bu həyatın gözəlliyini duyasız, ancaq siz bu hörmət və ehtirama layıq deyilsiniz.

Dədə Qorqud tələbi yalnız övladlar qarşısında deyil, həm də qadınlara analıq borcunu yerinə yetirərkən də

riayət etməyi lazım bilərək deyirdi: "Ac südünü doya əmizdirsə, ana körklü". Yəni südünü doyunca əmdiyin qadın yalnız doğma ana ola bilər.

Dastanda "mərd" sözü kişi, adam, insan, igid, qəhrəman mənasında işlənir. Bu mənalar içərisində bu gün də tərbiyə işimiz və elmimiz üçün çox vacib olan səxavətli olmaq, dostluğu bacarmaq, qarşıya qoyulmuş məqsədə nail olmaq uğrunda çalışmaq, əqidəsindən dönməmək, gözü tox, süfrəsi açıq. Könlü geniş, ürəyi təmiz olmaq kimi tərbiyəvi məsələlər var. Bu barədə Dədə Qorqud lastanlarında deyilir:

*Ölümdən qorxmasan, mərdlik yaxşıdır,*
*Bərk yüyürən ata namərd minə bilməz.*
*Çalıb-kəsən iti qılınc müxənnətə qalınca*
*Qalmasa yaxşıdır[1].*

Dədə Qorqud dastanlarında mərdliyi səciyyələndirən sifətlərdən biri də əqidəsinə sadiq olmaqdır. Bu dastanda təsvir olunan adamların əsas xüsusiyyəti öz andlarına, verdiyi sözə, məhəbbətlərinə və sevgilərinə sadiq qalmaları, əzab-əziyyətə düçar olarkən, dara düşərkən əqidələrindən dönməmələridir.

Məsələn: Düşmən Qaraca çobana öldürməyəcəyini və ya ona bəylik verəcəyini vəd edib tabe olmasını təklif edərkən Qaraca çoban deyir:

*Boş-boş danışma itim kafir!*
*İtimlə bir yalaqda yuyunan, yaliçən kafir!*
*Mindiyin alaşa atını nə öyərsən?*

Bü gün alaçıqlarda qalmış qaçqınlarımıza bəzi imkanlı adamların münasibətini gördükdə soy-kökümüzdəki mərdlik nişanəsi olan səxavətlilik məfhumunu yaddan çıxardığımızın şahidi oluruq. Bu böyük hissdir və bu günkü gənclərimizə bu hissi aşılamalıyıq. Görün, Dədə Qorqud-

[1] Kitabi Dədə Qorqud Bakı, 1962 səh 12.

da səxavəti göstərən nə gözəl məqam var. "Qazan xanın adəti idi, üç ildə bir evini talan(yağma) etdirərdi.Təkcə arvadının (halalınm) əlindən tutub evdən çıxar, nəyi varsa, malını, xəzinəsini talan edib aparardılar.

Dədə Qorqud dastanlarında övlad ailənin möhkəmliyinin rəhni kimi qiymətləndirilir. Ümumiyyətlə, türk xalqlarında uşaqsızlıq, övladı olmamaq ən böyük bəla, dərd hesab edilirdi. Türklərdə nə qədər çox uşaq olsa, onu bir o qədər xoşbəxtlik hesab etmişlər. Türklər özlərini başqalarında yaşatmağı, özündən sonra övlad qoyub getməyi şərəf, şan-şöhrət bilmişlər. Ona görə də türk bu gün də yaşayıb artır. Mərdlik türk xalqlarının əxlaq tərbiyəsinin ayrılmaz hissəsi olmuşdur. Türk qəhrəmanlarının hansı birinin mübarizə yoluna diqqət yetirsək, onların tarixdə kişilik, mərdlik ənənəsi qoyub getdiyinin şahidi oluruq. Onlar döyüşü üzbəüz, mərdi-mərdanə, hiyləsiz döyüş kimi təsəvvür etmişlər. Türklər tələ qurmağı, hiylə yolu ilə şöhrət qazanmağı namərdlik, kişiliyə sığmayan bir iş hesab etdiklərindən, türk sərkərdəsi və başçısı Alp ər Tunqanın xəyanətlə ölümünü ağır qəbul edərək ağlayıb onun haqqında ağılar söylətmişlər. Məsələn:

*Uçmağa varınca ol ulu Xaqan*
*Yıxıldı göylərdən üstünə zindan.*
*Xalqı adət üzrə dəfn etdi onu,*
*Göz yaşı selinin yox idi sonu.*

Mərdlik nişanəsi "Bilqamış" dastanın da əsas məqzidir. Dədə Qorqudda övladı olmayan, "qara qayğılar" içərisində qəhərlənən Baybura deyirdi: "Qorxuram bir gün olar, düşəm öləm, yerimdə-yurdumda kimsə qalmaya. Və yaxud Dirsə xanın arvadı ərinə belə deyir: "ac görsən doydur, çılpaq görsən geyindir, borclunu borcundan qurtar. Təpə kimi ət yağdır, göl kimi qımız sağdır, bəlkə ağzı dualının alqışı ilə allah bizə bir övlad verə".

"Kitabi-Dədə Qorqud da ailə tərbiyəsinə böyük yer verilir. Türk dastanlarında ailə üzvlərinin hər birinin öz mövqeyi və həmin mövqe ilə uzlaşan nüfuzu, hörməti vardır. Bayburanın oturduğu mərəkədə tacirlərdən biri atanın yanında oğlunun əlindən öpdüyünü, gördükdə ata deyir: "əbləh oğlu, məqər ata durarkən, oğul əlini öpərlərmi?"

Qədim türklərin ailə əxlaqi , gözəllik ədəb, böyüklərə hörmət, sözünü yerinə yetirmək, sədaqət, igidlik, mərdlik kimi sifətlər olmuşdur. Türk ataları uşaqlarını tərbiyə edərkən. Sizə ancaq atanızın malı deyil, həm də onun şərəf və ləyaqəti qalır" demişlər. Türklərdə atalar uşaqları üçün namus, qeyrət, cürət və gözəllik nümunəsi olmuşlar. Ona görə də, onların uşaqları atalarına layiq olmağa, onların adını əbədiləşdirməyə çalışmışlar. Dədə Qorquddda deyilir: "Ata qazanar ad üçün, oğul da çalışar-vuruşar ata qeyrəti üçün".

Qədim türk ailələrində ata nüfuzu nə qədər böyük olsa da, heç vaxt ana haqqı tapdalanmamışdır. Ailə ənənəsini nəsildən-nəslə tərbiyə edib saxlamağa çalışmışlar.Bu münasibətlə Dədə Qorquddda deyilir: "Qız anadan görməyincə öyüd almaz, oğul atadan görməyincə süfrə salmaz"[1].

Və yaxud analar uşaqlarını əzizləyərkən, layla çalarkən, müraciət edərkən mərdlik, qoçaqlıq, qəhrəmanlıq kimi ən yüksək əxlaqi sifətləri aşılamağa çalışmışlar. "Kitabi-Dədə Qorqud"da Burla xatun oğluna deyirdi:

*Oğul, ortağım oğul,*
*Başımda tacım oğul,*
*Qarşı Yatan dağım,*
*Gül yaraşığım oğul!*
*Qaralan gözlərimin*
*Nuru , işığı oğul.*

---

[1] Kitabi Dədə Qorqud Bakı, 1962 səh 12.

Türk anaları uşaqlarını tərbiyə edərkən lovğa olmamağı, zəfərdə, döyüşdə qazandıqları adla, xeyirxah əməlləri ilə yüksəlməyi lazım bilirdilər. Dədə Qorqudda Selcan xatun deyirdi: "Öyünərsə ər (qəhrəman) öyünsün, aslandır. Öyünməlik övrətlərə böhtandır. Öyünməklə övrət ər olmaz"[1].

Türk ailələri tərbiyə prosesində uşaqlara ad verib, vətəndaşlıq hüququnu almağa hazırlamışlar. Bu vətəndaşlıq hüququnu almaq üçün gənclər bir qəhrəmanlıq nümunəsi göstərməli və bu hüququ onlara ağsaqqallar verməli idi. Dədə Qorqudda belə bir məqam var. Bir gün Dirsə xanın oğlu uşaqlarla meydanda oynayırmış.Birdən zəncirli, açıxmış bir buğanı dəvə ilə vuruşmaq üçün meydana buraxırlar.

Uşaqlar qaçır, amma Dirsə xanın oğlu qaçmır. Buğa oğlanın üstünə cumduqda oğlan yumruğu ilə buğanın alnına zərbə endirib geri oturdur. Bu hadisə bir neçə dəfə təkrar olunur. Və nəhayət, Dirsə xanın oğlu buğaya elə zərbə endirir ki, buğa yıxılır. Uşaq bıçağını çıxarıb buğanın boğazını kəsir. Bu işdən fərəhlənən Oğuz bəyləri oğlanın yanına gəlib onu mədh edirlər. Onlar Dədə Qorqudu oğlana ad vermək üçün çağırırlar. O, belə tərif söyləyir: "Dirsə xanın oğluna bəylik, hünərli olduğu üçün taxt, boynu uzun cins at verirəm, minsin, çünki hünərlidir".

Dədə Qorqud dastanlarında türk qəbilələrində olan kimi, ailələrdə də uşaqlara yüksək insanı hiss, vəfa qeyrət, ailə namusunu qorumaq, doğrucul olmaq kimi əxlaqi keyfiyyətlər aşılanırdı. Bu prosesdə anaya məhəbbət tərbiyəsi ən müqəddəs iş hesab edilirdi. Çox qəribədir, tərbiyə kitablarında yazılır ki, İsveçrə pedaqoqu Pestolotsinin pedaqoji müddəalarmın əsasını uşağın anaya məhəbbəti təşkil edir.Halbuki bu fikir Restalosihdən 10 əsr öncə

[1] Kitabi Dədə Qorqud Bakı, 1962 səh 104.

"Dədə Qorqud" da daha dolğun şəkildə ifadə olunmuşdur. Lap kiçik yaşlarından anaya məhəbbət ruhunda tərbiyə olunan Qazan xan düşmənə deyir: "Tövlə dolusu atları gətirmisən, sənin olsun, qatar-qatar dəvələri gətirmisən, sənin olsun, anadan dünyada əziz nə var ki? Anamı qaytar!" Dastanda ananın oğula, oğulun anaya məhəbbəti ilə əlaqədar olduqca çoxlu maraqlı məqamlar var. Məsələn: Qazan xanın oğlu Uruz və qırx qızla anası düşmən əsirliyinə düşərkən düşmən ələ keçirdiyi qırx qızdan hansının Qazan xanın arvadı olduğunu soruşur.

Qızların hamısı "mənəm" deyir. Düzgün cavab almayacağını yəqin edən düşmən Qazan xanın oğlunu öldürüb ondan kabab çəkdirib qızlara yedirməyi qərara alır. Belə düşünür ki, ana yeməyəcək. Hadisədən xəbərdər olan ana ağlayır və ölümə məhkum olmaması üçün Qazan xanın arvadı olduğunu etiraf edəcəyini oğluna dedikdə oğlu hirslənib: ""Sən belə namussuz sözü danışma! .. Qadm anam! Mən ölərsəm düşmən yanında mənim üstümə gəlmə, mənim üçün ağlama. Qoy məni kabab etsinlər.Sizə mənim ətimi verəndə qızlar bir yeyəndə sən iki ye ki, düşmən yatağına düşməyəsən. Atam Qazanın namusunu itirməyəsən. Qadın anam! Ağlama, ürəyimi bağlama, keçmişimi yada salma", "Ay ana, məgər ərəb atları olan yerdə bir qulunun (dayça) ölümü nədir ki? Qızıl dəvələr olan yerdə, bir dəvə balasınm nə qiyməti ola bilər? Tağ qoyunlar olan yerdə bir quzunun nə dəyəri ola bilər? Təki sən sağ ol. Mənim qadın anam, atam sağ olan yerdə mənim kimi bir oğulun ölümü nədir ki?" Belə yüksək insanı sifətə, mənəvi yüksəkliyə, namus və fədakarlığa ancaq və ancaq türk dastanlarında türk tərbiyə sistemində rast gəlmək olur.

"Dədə Qorqud" dastanlarında tərbiyə məsələləri üçün çox vacib əhəmiyyət kəsb edən bir məsələyə də toxunmaq istərdik. Bu, dostluqdur.

Dastanda uşaqların bir-biri ilə dost olmalarına, qonşularla dostluq münasibəti yarada bilməsinə xüsusi diqqət yetirilir. Dastanda uşaqların dostluğunun hörmətə, ideya birliyinə, mənafe ümumiliyinə, qarşılıqlı yardıma əsaslanması tərbiyə edilir. Dədə Qorqud dostluğu yalnız güc göstərməkdə deyil, yüksək insanlıqda, mənəvi paklıqda, sədaqətdə, qədir bilməkdə görürdü.

Dastanda deyilir:

*Mən Qazanın nemətini çox yemişəm.*
*Bilməzsəm,gözümə dursun.*
*Onun atını minmişəm,*
*Bilməzsəm, mənə ölüm olsun .*

Və yaxud düşmən Bamsı Beyrəyi ölümlə hədələdikdə o deyir:

*Dönmərəm Qazandan, bunu bəlli bil!*
*Çörəyi tapdalamaq kişilik deyil!*

Dədə Qorqud bu nəcib keyfiyyətləri sədaqət və xoşbəxtliyin açarı, insan üçün böyük var-dövlət hesab edirdi. Dastanda deyilir:

*Doğrucul adamlar yüz yaşasa yaxşısıdır,*
*Yalan söz bu dünyada olunca olmasa yaxşıdır.*

"Dədə Qorqud" dastanlarında insanı yüksəldən, onu nəcibləşdirən sadəlik və təvazökarlıq kimi keyfiyyətlər də mədh edilir. Dastanda özünü aparmaq, çox bilmək, mənəvi zənginlik yüksək qiymətləndirildiyi halda, mənəmlik iddiası, axmaqlıq, ikiüzlülük, xəbərçilik, lovğalıq mənəvi şikəstlik kimi qələmə verilir. Bu münasibətlə "Dədə Qorqud" da oxuyuruq:

*Təkəbbürlük eləyəni tanrı sevməz,*
*Özünü üca tutan lovğa adamda ağıl olmaz.*

Qeyd etmək lazımdır ki, türk xalqları uşaqlarının əqli tərbiyəsində qılıncla alına bilməyəcək şeylərin çoxunu tədbirlə, biliklə əldə etmək, başqalarının səhvindən özü üçün düzgün nəticə çıxarmaq, çətin işlərini düşüncə ilə

tapmağa xüsusi diqqət yetirmişlər. Hələ vaxtı ilə türk alimlərinin görkəmli nümayəndəsi Yusif xas Hacıb "Kudatku Bilik" əsərində yazırdı.

*Harda idrak olsa , orda ululuq olar,*
*Kimdə bilik olsa, böyük olar.*

Türklər "Dədə Qorqud" dastanında bir az da irəli gedərək deyirdilər:

*Ağıllı oğul, ocağın gözüdür,*
*Ağılsız oğul olsa ocağın külüdür,*
*Ağılsız adamın şərindən Allah saxlasın*[1].

"Kitabi-Dədə Qorqud"da dövlət mənasında işlədilmişdir. Məsələn: "Baba malından nə fayda, başda dövlət, olmasa".

"Dədə Qorqud"da göstərilir ki, çətin dəqiqələrdə ağıla müraciət etmək lazımdır. Çünki doğru tədbiri ancaq ağıl yarada bilər. Dastanda Qaraca çoban düşmən mühasirəsində qalarkən, oradan necə çıxmaq, düşmənə qalib gəlmək üçün deyir: "Ağılın qapısını möhkəmlətmək lazımdır".

Yəni düşünmək lazımdır. "Dədə Qorqud" dastanlarında hər işi ağılla görmək, qüvvətli şeyləri ağılla sındırmaq, paltarları zinətləndirməkdənsə, ağılı zinətləndirmək fikri qırmızı xətlə keçir.

"Dədə qorqud" dastanlarında əmək tərbiyəsinə də xüsusi diqqət yetirilir. Burada əqli tərbiyə ilə əmək tərbiyəsi paralel gedir. Əmək Dədə Qorqud personajlarmın həyatının, məişətinin ayrılmaz hissəsini təşkil edir.

Əsərdə Salur Qazan səhərdən-axşama kimi yeyib-içən, kef məclisi quran bəylərə zəhmət çəkməyi lazım bilərək deyir: "Yata-yata yanımız ağrıdı, dura-dura belimiz qurudu. Gedək ov ovlayaq, ceyran vuraq qayıdaq"[2]. Das-

---

[1] Kitabi Dədə Qorqud Bakı, 1962 səh 12.
[2] Yenə orada səh 28.

tanda göztərilir ki, əmək insanı yüksəldir, nəcibləşdirir, zəhmət adamlarına hörmət və məhəbbət tərbiyə edir. Zəhmətin qədrini zəhmət çəkənlər bilir. Məsələn:

*Ağır yüklər zəhmin qatır bilir.*
*İnsanın hansı yeri sızlayırsa, onu çəkən bilir.*

Dastanda deyilir: "Zəhmət çəkməyənin yaşayışı yoxdur". "Bir xeyirli iş görməsən, zaman keçər ölüb gedərsən". Yəni mənasız həyat sürərsən. "Dədə Qorqud" dastanlarında görürük ki, türk xalqları zəhmət, əməlləri hesabına bağçılıq, üzümçülük, əkincilik, şərabçılıqla məşqul olmuşlar. Dastanda deyilir:

*Ol dağlarımızda bağlarımız olur,*
*Ol bağların qara salxımları, üzümü olur.*
*Ol üzümü sıxarlar, al şərabi olur*[1].

Türk xalqları iqtisadi çətinliyə düşüb başqasına əl açmamaq üçün mal, qoyun, dəvə, at saxlamış, onların əsas yeməkləri qovurma, kabab, süd, qatıq olmuşdur. Onlar yaxşı maldar olmaqla fəxr etmişlər. "Dədə Qorqud" da belə deyilir:

*Qaranlıq axşam olanda qayğılı çoban!*
*Qar, yağış yağanda, çaxmaqlı çoban!*
*Südü, pendiri bol, qaymaqlı çoban!*

Əmək, ümumiyyətlə, türkün əsas keyfiyyəti olduğu üçün o, bütün dünya xalqları içərisində zəhmətkeş xalq kimi səciyyələnir. Əcnəbilər türklər haqqında deyirlər ki, türkün hər biri özlüyündə birləşərkən eyni türk həm döyüşçü, həm nalbənd, həm çoban, həm əkinci, həm də maldardır. Əməyi yüksək qiymətləndirən Dədə Qorqud nəsihətlərində deyilir: "Ata malından nə fayda, başda ağıl olmasa".

"Dədə Qorqud" dastanlarında estetik tərbiyə ilə əlaqədar çoxlu məqamlar var. Bu dastanlarda "sərv boylu",

---

[1] Kitabi Dədə Qorqud Bakı, 1962 səh 86.

“al yanaqlı”, “badam dodaqlı”,”çatma qaşlı” kimi ifadələr qadın gözəlliyi, Vətənin əsrarəngiz güşələri, onun göz yaşı kimi duru çeşmələri, güllü-çiçəkli ormanları, möhtəşəm qayaları, yaşıl meşələri, durnaları, turac və kəklikləri vəsf olunur və gənc nəsli bu gözəlliyin nümunəsində tərbiyə etməyin zəruriliyi vurğulanır.

“Dədə Qorqud” da bu gün də çox zəruri olan ekoloji tərbiyə məsələsinə də xüsusi diqqət yetirilir. Dastanda Vətənin torpağını, suyunu, dağlarını, onun füsünkar gözəlliyini qorumaq belə ifadə olunur:

*Yerli qara dağlarınız yıxılmasın,*
*Kölgəli ağaclarınız kəsilməsin,*
*Axıntılı coşqun sularınız qurumasın.*

Çox təəsüf ki, türk xalqlarının məhəbbətlə sevdiyi və onu qoruyub bizim nəsillərə çatdırdığı bu təbiəti biz qoruyub saxlaya bilmədiyimizdən iqtisadi qıtlıq, vaxtsız ölüm, müalicəsiz xəstəliklər əmələ gəlir.

Türk xalqlarının möhtəşəm abidəsi olan “Kitabi-Dədə Qorqud” da görür ki, oğuz elinin ən yaxşı ağsaqqalı olan Dədə Qorqud türk xalqları içərisində ozan, başbilən, yol göstərən, keçmişdən və gələcəkdən xəbər verən elə müdrik adam olmuşdur ki, onun kəlamları xalqın tərbiyə məktəbi, məsləhət yeri kimi səciyyələnmişdir. Dastanlardan aydın olur ki, hər nə iş olsa, Dədə Qorquda danışmayınca işləməzlərdi. Hər nə ki, buyursa, qəbul edilərdi, sözünü tutub tamam edərdilər.

Türk xalq dastanlarında ifadə olunmuş əxlaqi fikirlər içərisində həmrəylik məsələsi də əsas yerlərdən birini tutur. Kitabi- Dədə Qorqud da bozoqlar və üç oqlar qəbilə “birliyi”, Manasda üçdört qəbilə birliyi, “Alpamış” da iki qardaşın başçılıq etdiyi qəbilə birliyinin olması göstərir ki, xalq xoşbəxtliyi el birliyində, həmrəylikdə görür. İnsan başqaları ilə ittifaqa girməsə, eldən kənar olsa gücsüzləşər və tez məhv olar. Atalar qovluğa daş atılmaz deyiblər.

Ona görə də igid və tədbirli dastan qəhrəmanları düşmən üzərində qələbə çalmaq, işdə və mübarizədə qalib gəlmək üçün kollektivə, xalqa, birliyə arxalanmalıdır. Dastanlardakı həmrəylik ideyası gənc nəsli hər cür fərdiyyətçiliyin əleyhinə çıxmaq və bir-birinin xeyri üçün çalışmaq ruhunda tərbiyə etmək üçün zəruridir. İnsanlar arasıdna həmrəylik və birliyin yaranması nəticə etibarı ilə humanist münasibətlərin ilkin mərhələsi olan yoldaşlıq və dostluğa gətirib çıxarır. Bu məvhumlar mahiyyət etibarı ilə bir-birinə yaxın olsa da. Yoldaşlığın nisbətən dostluğun dairəsi dar, məzmunu dərin olur.

Dastanlardan məlum olur ki, yoldaşlığın dostluğa çevrilməsi üçün insanların dünyagörüşü, maraq və ideyaları arasında yaxınlığın olması, eyni məqsəd uğrunda mübarizə aparması, bir-birinə şəxsi rəqabət və dərin inam bəsləməsi, səmimi və etibarlı olması, uzun müddət ərzində həyat sınağından çıxmaları mühüm şərtlərdəndir. Dostluq insanlar arasında dərin hörmətə, ideya birliyinə, mənafe ümumiliyinə və qarşılıqlı yardıma əsaslanan ünsiyyət formasıdır.

Türk dastanlarından çıxan əxlaqi nəticələrə görə adamın dostuna layiq olub-olmaması ən azı iki keyfiyyətə görə aydınlaşır.

1. Dara Düşən dostu həmin vəziyyətdən qurtarmaq üçün imkan daxilində heç nəyi əsirgəməmək:

2. Vəfat etmiş və ya həlak olmuş dostun ailəsinə kömək göstərmək. Lazım gəldikdə bu ailənin güzaranı və namusu yolunda ölümə hazır olmaq. Türk dastanlarında təqdir olunan qəhrəmanlar da belə dostlardır. Dədə Qorqudda deyilir:

*Dönmərəm Qazandan, bunu bəlli bil*
*Çörəyi tapdamaq kişimi deyil.*

Türk dastanlarıda xalq dostluğunun çoxlu nişanələri sayılır. Çörək dostu, məslək dostu, söz dostu, vəzifə dostu. Türk dastanlarında həqiqi dostluq, yaxşı yoldaşlıq hə-

mişə insan həyatının əsas nemətlərindən biri sayılır. Eləcədə dostlarda zülmə, zülkara qarşı mübarizə də əsas mövzulardır. (Koroğlu)

Ona görə də dastanlarımızda insanları zülmə salan, baş kəsən quldurları məhv etmək, fəzilət, əsil xeyirxahlıq kimi qələmə verilərək el içərisində deyirdilər: "Zalıma rəhm etmək, məzluma zülm etmək deməkdir.

*Koroğlu dastanı*

"Türk xalqının qəhrəmanlıq nümunəsi olan Koroğlu xalq tərəfindən çıxış edərək deyirdi:

*Koroğlu içəndə düşmən qanını*
*Mərd meydanda nərəsindən tanınır.*
*Qırın vəzirini, tutun xanını*
*Leş Leşin üstündə qalmasın gərək*[1]

Koroğlunu hiddətləndirən, onu üsyançılıqa təhrik edən, ailəsinə olan ağır zülm, rəhmsiz, bisavad kəmhövsələ başçıların mənfur hərəkətləri olmuşdur. Dastanda deyilir ki, Alı kişi adlı bir kəndli neçə illər Həsən xana mehtərlik edir. Bir gün Alı kişi ilxını sürüb dərya kənarına apararkən qəflətən dəryadan iki ayğırın çıxıb madyana yaxınlaşdığını və yenidən dəryaya qayıtdığını görür. O, madyanları nişanlayır və bu gördüklərini heç kəsə demir. Nəhayət Madyanlar doğur balaları böyüyüb qulun olur. Bir gün Toqat paşası Həsən xana qonaq gəlir və söhbət əsnasında deyir ki, sənin yaxşı ilxın və say seçmə cins atların var. O, Həsən xandan iki ayqır at verməsini xahiş edir. Həsən xan Alı kişini çağırıb səhər atları çölə buraxmamağı, paşa üçün at secəçəyini söyləyir. Alı kişi Həsən xanın başını uca etmək üçün atları çölə buraxır və dəryadan çıxan iki atın balasını saxlayır. Həsən xan ilə Toğat paşası Xalxala gələndə görürlər ki, ilxı yoxdur. Amma

---

[1] Azərb.xalq dastanları Bakı, "Yazıçı" nəşriyyatı 1983, səh. 42.

Xalxaldan iki uzun orta arıq qulunlar dirəyə bağlanıb. Paşa gülümsəyib bunlardan məndə nə qədər desən var. Ancaq eşitmişdim ki, səndə yaxşı cins atlar olur. Bərk hirslənən Həsən xan paşanın məsləhəti ilə Alı kişinin gözlərini çıxarır və dayçaları onun qoluna bağlayıb yola salır. Xəbər Alı kişinin 15-16 yaşında olan qüvvətli, qeyrətli oğlu Rövşənə çatır. Atasını ağır vəziyyətdə görən Rövşən "Ata oğlun sənin qısasını yerdə qoymayacaq" deyir. Kəndin cavanları, Rövşənə qoşulub, xandan intiqam almaq istədikdə müdrik Alı kişi hələ qısasın vaxtı olmadığını söyləyir. Vaxtı çatanda mən sizə deyərəm, sözləri ilə gəncləri sakitləşdirir. Alı kişi qulunları xüssusi yollarla böyüdür və nəhayət oğlu Rövşən atları sınaqdan çıxarır. Ata da oğluna göydən düşmüş dəmir parçasından cida və qalxan düzəltdirir. Bu silahları heç nə ilə məhv etmək mümkün deyildi. Rövşən el arasında Koroğlu adı ilə məşhurlaşır. Ətrafına yığdığı cavanlarla səfərlər edir. Xan, bəy paşaları, eləcə də varlıların karvanını qarət edib kasıblara paylayır. Koroğlunun səfərinin hər biri qəhrəmanlıq nümunəsi kimi el arasında yayılır. Bu dastanda qəhrəmanlıqla yanaşı tərbiyə elmi üçün çox vacibolan insanın öz hərəkət və işinə diqqət yetirməsi, izzət nəfsini qoruya bilməsi dostluq və yoldaşlıq kimi məsələlərdə öz əksini tapmışdır. Dastanda göstərilir ki, insan əgər öz qədrini bilmirsə o, nə cəmiyyətin, nə xalqın, nə də yaşadığı torpağın qədir qiymətini bilə bilməz.

Koroğlu deyirdi :

*Göydə uçan box sərçələr*
*Telin qədrini nə bilər ?!*
*Öz qədrini bilməyən*
*Elin qədrini nə bilər ?!*

Koroğlu dastanında da başqa türk dastanlarında olduğu kimi qadınlar gözəl, vəfalı, sədaqətli, ağıllı... Yeri gəldikdə qılınc götürüb düşmənə qarşı çıxan mərd dünyəvi adamlar kimi təsvir edilmişdir. Koroğlu dastanında da Nigar obrazı belə qadınlardandır.

Türk dastanlarında gənc nəsildə vətənə, elə, obaya məhəbbət hissi oyatmaq üçün vətənin, torpağını, onun zənginliyini, gözəlliyini, göl,çəmən, dağ, meşə və çaylarını sevdirmək üçün xalq "hər kəsə öz vətəni şirindir", "Doğma yurd şirin olar", "Hər quşa öz yuvası istidir", "Qirbətdə xan olunca vətəndə dilən gəz" kimi kəlamlar işlətmişlər. Koroğlu dastanında da bu münasibətlə deyilir:

*Qırram qayaları, Yıxaram dağı,*
*Xanlar zəhər içər, soltanları ağı.*
*Çənlibeldir qoç Koroğlu oylağı,*
*Şah da gəlsə Çənlibelə qoymaram.*

Vətən hissi, vətənə bağlılıq motivləri digər türk dastanlarında özünə müvafiq yer tutduğu kimi "Qaçaq Kərəm" dastanında da vətəndən kənarda qalmaq insan həyatını necə bədbinləşdirdiyini, vətən həsrəti xəstəliyi (nastalgiya) yaratdığını göstərir. Dastanda vətəndən ayrı Düşən Kərəm deyir:

*Atan fələk, yaranandan*
*Dünya mənə dar oldu.*
*Gəzirəm qürbət elləri,*
*Yolum boran qar oldu!*

*Mən Kərəməm çoxdur ahım.*
*Yoxdur taxsırım, günahım.*
*Bir ellərimdir Pənahım.*
*Birdə Ələmdar olubdur.*

Eyni fikir Koroğlu dastanında da təkrarlanır. Koroğlu Qır atı məhbəsdən qurtarıb yurdu Cənlibelə qayıdarkən göydə uçan durnalara müraciət edir.

*Göynən gedən boz durnalar*
*Bizim ellər yerindəmi?*
*Bir-birindən xoş durnalar*
*Bizim ellər yerindəmi!*[1]

---

[1] Koroğlu, Bakı, Azərb. SSR EA nəşriyyatı, 1959, səh. 83.

*Tahir və Zöhrə dastanı*

Məlum olduğu kimi dastanlarımız əsasən aşıqların dili ilə ifadə olunur. Əsil aşıq dastançıları şagirdlikdən əsil aşıqlığa qədər dastanı əzbər deməyi bacarmalıdırlar. Dastanların müəllifi olmadığı üçün aşıqlar öz səviyyə və dünyagörüşlərinə müvafiq onlara müəlliflik etməyə çalışmışlar. Bəzi hallarda aşıqların daha çox oxuduğu, və danışdığı dastanlar onları məşhurlaşdırmış və müəlliflik dərəcəsinə qədər qaldırmışdır. Belə dastanlardan biri də "Tahir və Zöhrə" olmuşdur. Məlum olduğu kimi bu dastan türk bölgələrinin hamısında özbək, türkmən, tatar, uyqur, Şərqi türklərdə ayrı-ayrı aşıq və səyyahlar tərəfindən toplanaraq nəşr edilmişdir. Türk dastanları özünün gözəlliyi, məzmununun zənginliyi ilə təkcə türk bölgələrini deyil eyni zamanda Qərbdə də özünə layiq yer tutmuşdur. Məsələn, "Tahir və Zöhrə" rus, ingilis, alman dillərinə tərcümə edilmişdir. Bu dastana poemalar yazılmış, ondan nağıl düzəlmiş, hətta opera və dram əsərləri kimi səhnəyə də çıxarılmışdır. "Tahir və Zöhrə" dastanı da bir sıra başqa dastanlar kimi təbiətdə baş verən hadisələrin, səma cismlərinin, səyyarə və bürclərin insan şəklindəki təsəvvürünə əsaslanır. Bu təbiət hadisələri dastanda bədii şəkildə təsvir edilir. "Tahir və Zöhrə" dastanı ictimai, elmi məzmun, fəlsəfi məna və tərbiyəvi xarakter daşıdığı üçün uzun illər, əsrləri addımlayaraq bizim zəmanəyə qədər gəlib çıxmışdır.

Məlum olduğu kimi XII-XV əsrlərdə astronomiya, nücum elmlərinə maraq artdığından Azərbaycanın görkəmli sənətkarlardan Füzuli, Nizami, Xaqani, Fələkli və s. kimi şairlər əsərlərində nücum elmi, ulduzlar və bürclərdən məharətlə istifadə edərək "Yeddi gözəl", "Leyli Məcnun", "Həft cam" kimi fəlsəfi əsərlər yaratmışlar. Şairlərin, adi xalqın ulduzlar bürclər haqqında nağıl, əfsanə, dastanlarda sölədikləri fikirlər sonralar alimlər tərəfindən bir elm kimi

inkişaf etdirilmişdir. Bunun bariz nümunəsi Nəsrəddin Tusinin yaratdığı rəsədxana və yüksək tərbiyəvi xarakter daşıyan "Əxlaqi Nasiri" və b. əsərləri oldu. "Tahir və Zöhrə" dastanında əsas qəhrəman Qaraman hökmdarı Hatəmdir. Hatəm gecənin hakimi mənasında işlənir. O öz qardaşı "Gündüzü" məhv edib hakimiyəti ələ almağa çalışır. Əsərin qəhrəmanı Zöhrə isə Hatəmin qızıdır. Zöhrə Tahirlə bir vaxtda doğulmuşdur. Bir müddət bir yerdə olduqdan sonra Hatəm onu ev dustağı etmişdir. Hatəm öldürüldükdən sonra Tahir azadlığa çıxmışdır. Zöhrə, görünən və səhərə yaxın yoxa çıxan Zöhrə ulduzunun prototipi olduğundan, bütün xalqlar onu müqəddəs sayaraq məhəbbət, bol məhsul, su, gözəllik, musiqi rəqs obrazı kimi qələmə vermişlər. Dastanda Zöhrə vəfa, gözəllik rəmzi kimi verilmişdir. Dastanda deyilir ki, Tahir sürgün edildikdən sonra Zöhrə su kənarında yaşayır və Tahir bir neçə ildən sonra qayıdıb gəldikdə Zöhrə onu sandığa qoyub gündüzlər suda gizlədir. Gecələr evinə gətirir. Bundan xəbərdar olan xan Tahiri dənizə atdırır. O, ancaq günəşi qaranlığı məhv etdikdən sonra, Zöhrəyə qovuşur Tahir və Zöhrə dastanı ona görə qiymətlidir ki, o azad məhəbbət, zülmə qarşı üsyan, qaranlıqdan aydınlığa şüarı altında hərəkət edir. Əxlaq, mənəviyyat, elm məsələləri dastanın ana xəttini təşkil edir.

### *Alı Xan-Pəri dastanı*

Alı xan Pəri dastanı da əxlaqi məziyyətli usadnamə ilə başlayır. İnsanlara mənəvi keyfiyyətlər asılayan bu ustadnamədə dosta doğru münasibət, dərin əql-kamala sahib olmaq, qabliyyətsiz, mərifətsiz qızların aqibətinin puç olacağı göstərilir.

*Qafil olma dilim,düşmə həvəsdən,*
*Hərçayı söziylə incimə dostdan,*

*Muşlar,pələng olmaz, tülkülər aslan,*
*Danalar meydanda kəl ola bilməz.*

*Ustad dərin, kamal dərin, söz dərin,*
*Qoydum sinəm üstə eşqin gözlərin,*

*Qabliyyətsiz, mərifətsiz qızların,*
*Yüzü bir dərdimənd dul ola bilməz*[1].

Ustaynamədə namuslu olmaq təbliğ edilərkən bivafa, layiqsiz adamda doğru söz, düz ilqar olmadığı , namərd də qeyrətin, arın olmadığı vurğulanır. Dastanda göstərilir ki, toxumu münbit yerə səpmək lazımdır ki, onun barı olsun.

*Söyüddən bağ saldım peyvənd eylədim,*
*Almasın, heyvasın,narın görmədim.*

Ustadnamədə elmli olmaq, sənətinə dərindən yiyələnmək, doğru danışmaq, rütbəli adamlarda ədalətlin, hər kəsin iman sahibi olması göstərilir.

Bu dastanda ailə məişət məsələlərindən çox əxlaq məsələləri ön plana çəkilir və onlar insanların yaşadığı dövrə münasib şəkildə acıqlanır. Hər dastan insanlarda bir neçə əxlaqi keyfiyyət açıqlayır.

Dastanda göstərilir ki, Alı xanla Pəri bir-birini dərin məhəbbətlə sevirlər. Alı xan Pərini axtara-axtara Nərgiz adlı bir gözələ rast gəlir. Qız Alı xanı nə qədər öz yanında saxlamağa çalışırsada o öz sevgilisinə sadiq qalır. Dastanda olan Pəri obrazı namus, şərəf, ləyaqət təcəssümüdür. Atalar demişdir ki, "Gözəllik namusun düşmənidir". Ancaq Pəri obrazında gözəllik namusluluq kimi qələmə verilmişdir. Pərinin gözəlliyi onun başına fəlakətlər gətirir, hətta iki oğlunun başını belə kəsirlərsədə öz namusunu tapdalamır. Burada verilən təmiz pak əxlaq nümunəsi bu

[1] Azərbaycan məhəbbət dastanları. Bakı, "Elm" nəşriyyatı, 1979, səh. 281.

günki gənclər üçün bariz nümunədir. Dastanda verilən sadəlövh, ağılsız, düşüncəsiz, qızına qəsd edən cahil ata ilə bərabər iradəli, təmkinli,dözümlü qız Pəri obrazı da verilmişdir. Doğma övladına qəsd edən atanın hərəkəti pul, mal, dövlətdən,cahillik, yekaxanalıq və dövrün qadına olan mənfi münasibətindən irəli gəlirdi. Dastanda verilən maraqlı məsələlərdən biri də müti övlad tərbiyəsidir. Övladın mütiliyi atanın var dövlətindən, varisliyin oğula çatıb çatmamasıdan yaranırdı.

Elə bu dastanda da ata oğluna Pəri xanımı öldürməyi əmr edir. Qardaş bacısını öldürmək istəmir. Ancaq atanın varı dövlətdən oğlunu məhrum etmək qorxusu qardaşı cinayətə sürükləyir. Dastanda qadınların hüquqsuzluğu birinci yerdə durur. Ana qızının ölümündən vahimələnir, ağlayır. Ancaq onun göz yaşlarına heç kəs məhəl qoymur. Çünki ananın kişi işinə, ər əmrlərinə qarışmağa haqqı yoxdur. "Alı Xan Pəri" dastanında yüksək əxlaqa malik olan Budan çoban və ananın gözləri önündə uşaqlarının başını kəsdirən Qara vəzir kimi ləyaqətsiz, namussuz, pozğun cani obrazı da verilmişdir. Dastançılar çalışmışlar göstərsinlənr ki, xalq içərisindən çıxmış adamlar daha ləyaqətli, səmimi, dəyanətli olur.

Qara vəzirlə Alı xan özündən getmiş Pəri xanıma rast gəlirlər. Qara vəzir deyir ki, onu aparaq saxlayaq və yaxşı adam olar yaxşıya, pis adam olar pisə verərik. Ancaq Pəri xanım çox ağıllı kəmallı bir qız çıxır. Alı xan ona vurulur.Paxıllıq edən Qara vəzir deyir. Bİz onu şərikli tapdığımız üçündə yarı bölməliyik.

Alı xan deyir ki, məhəbbəti iki yerə bölmək olmaz. Qara vəzirin öz fikirindən dönməyəcəyini görən Alı xan xalqa üz tutur. Camaatı məsləhətə çağırır. Dastanların hamısı da, elə bu dastan da xalq müdrik olduqu üçün xalqa müraciət edilir. Xalq belə doğru, əqilli məsləhət görür. İki üzük düzəldin. Pəri hansını seçsə ona getsin. Xalqın müdrik oldu-

ğunu və ən ali sifətlərin xalqda olduğunu nəzərə alaraq xalqın yaradıcı qüvvəsinə inam bəsləyib uşaqların tərbiyəsində nağıl dastan yozum və bayatılardan geniş istifadə edərək uşaqları xalq kəlamları, xalq mahnıları, xalq nağılları əsasında tərbiyə etmək lazımdır. Dastanlarda olan müsbət və mənfi obrazların əksəri bir-birinə oxşasa da onlar mövqe və rütbələrinə görə bir-birindən fərqlənir. Məsələn Şah İsmayıl obrazı dastanlarda ağıllı, müdrik, vətənpərvər bir dövlət başçısı kimi təsvir edilmişdir.

Alı xan dastanında təhsilə, elmli olmağa xüsusi əhəmiyyət verilir. Dastanda deyilir: Pəri xanım çox oxumuşdu, özüdə ağıllı qız idi. Ananın özü təhsilli olduğu üçündə uşaqlarına təhsil verməyi vacib hesab edir. Dastanda deyilir: "Ay ötdü, il keçdi, Pəri xanımın bir cüt oğlu oldu.Birinin adını Məhəmməd o birinin adını isə Əhməd qoydular. Bunlar böyüyüb səkkiz yaşa çatdılar. Məktəbdə oxumağa başladılar"[1]. Dastanın sonunda xalq adamlarının köməyi ilə Alı və Pəri evlənir və xoşbəxt olurlar.

### *Məhəmməd - Güləndam dastanı*

Məhəmməd-Güləndam dastanı tərbiyə baxımından olduqca əhəmiyyətlidir, dastanın ilk ustadnaməsində deyilir.

*Bir adam ki, ülfət eyləsə,*
*Yəqin onun əsil zatı yaxşıdı.*
*Namərd sənə quzu-plov yedirsə,*
*Mərdin quru məhəbbəti yaxşıdır*[2].

Dastanda "Deyinən qarı", "Gəzəyən qızlar", "Güləyən yüngül taxtalı gəlinlər", "Bədnəzər qonşu", "Bədcins yoldaş" tənqid edilir və göstərilir ki, belə naqis adamlardan-

---

[1] Azərbaycan xalq dastanları. Bakı, "Yazıçı" nəşriyyatı, 1983, səh. 391.
[2] Azərbaycan məhəbbət dastanları. Bakı, "Elm" nəşriyyatı, 1979, səh. 408.

sa qədirbilən it yaxşıdır. Dastanda insanın irəli getməsi, el içərisində hörmətli, şöhrətli olması üçün 3 məsələ irəli sürülür biri sirdaş, biri yoldaş, və yaxşı ad. Bü keyfiyətlərə qabil olmağı bacaran adamlara tövsiyyə edilir ki, düz danışsın, mərdi namərdə satmasın. Dastanın ustadnaməsində irsiyyətə də xüsusi diqqət yetirilir.

Bu məsələ həmişə, bütün dövrlərdə və bütün ictimai formasiyalarda diqqət yetirilən əsas məsələlərdən biri olmuşdur. İrsiyyətlə bağlı çoxlu "Soyüddən çinar olmaz", "Bədasil əsil olmaz "Quyuya su tökməklə dolmaz", "Hər oxuyan molla Pənah olmaz" kimi atalar sözü, bayatı, el məsələləri var. Qeyd etmək lazımdır ki, tərbiyə və mühüt nə qədər kəsərli qüvvəyə qadir olsa da, irsi keyfiyyətlərdən məhrum olan adamları normal tərbiyə etmək olmaz.

Usqadnamədə deyilir:

*Bədöy mənzilinə at yeriməz,*
*Nanəcibə öyüd verən götürməz.*
*Ölənətək nişanını itirməz,*
*Yaxşı əsil, yaxşı nəsil, yaxşı zat*[1].

Ustadnamədə eləcədə Qadınların vəfalı olması, məhəbbətini, izzətini şərəfini qoruması yüksək dəyərlənir. Yaxşı arvad ailəni, əri şərəfləndirdiyi, tərbiyə üçün yaxşı mühit yaratdığı kimi ləyaqətsiz qadının isə ərini tez qocaltması, uşaqlarını səfil, tərbiyəsiz böyütdüyü söylənilir.

*Bekar arvad cavan əri qocaldar.*
*Əsil arvad çox dərdini azaldar,*
*Üç şey deyim- insan başın ucaldar,*
*Yaxşı səxa, yaxşı süfrə, yaxşı ad*[2].

Usqadnamədə qohum, qardaş, yoldaşın keyfiyyətləri sadalanır və onların hansının pis və hansının insan ləyaqəti üçün əhəmiyyətli olduğu göstərilir.

---

[1] Azərbaycan məhəbbət dastanları. Bakı, "Elm" nəşriyyatı, 1979, səh. 408.
[2] Yenə orada səh. 409.

*Arsız qohum xalqı sənə güldürər,*
*Pis qardaşın dərdi adam öldürər,*

*Hüseyn deyər: yıxılsan da qaldırır,*
*İyid düşmən, ilqarlı dost, yaxşı yad!*

Türk dastanlarında elmə yüksək qiymət verildiyindən "Məhəmməd-Güləndam" dastanında uşaqların mollaxanada oxuduqları, məktəbdə onlara ədəb-ərkan aşılandığı açıqlanır. Dastanda məktəblilər şahın gəldiyini görüb, yol kənarına çıxır, ədəb ərkanla salam verib şahın suallarına çox məntiqlə cavab verdiklərindən, şah onlardan birini Məhəmmədi saraya aparır. Sarayda şah Məhəmmədin əsl nəcabəti ilə maraqlanır və görür ki, o əsilsiz bir qarının himayəsində yaşayır.

Buna baxmayaraq Məhəmədi nənəsi ilə sarayda saxlayır. Bir neçe vaxtdan sonra Şah Məhəmmədi ova göndərir. Bir neçə gün çölləri dolaşan Məhəmməd ov tapa bilmir və bir qadına rast gəlir. Yemək əldə etmək məqsədilə çadıra girdikdə, orada gözəl bir qızın olduğunu görür. Şah nökəri olmaq Məhəmməddə məğrurluq yaratdığı üçün rast gəldiyi qızla rəftarında özünü biruzə verir.Qız oğlanı çox səmimiyyətlə qəbul edir, onu yedizdirir ancaq, bunun müqabilində Məhəmməd doyandan sonra, qızı sancır, ələ salır. Məhəmmədin bu hərəkəti qızı məyus edir. Ancaq qız təmkinini pozmayaraq çadırı yığışdırıb yola düşür. Məhəmməd qızın arxasınca gedib onu hədəliyir, hətta qılıncın arxası ilə qıza bir neçə zərbə endirir. Bundan hirslənən Güləndam Məhəmmədə dərs vermək üçün qılıncı ilə ona güclü bir zərbə endirib atdan salır. Ancaq oğlana baxıb ona məhəbbət bağlayır. Məhəmmədin yarasını bağlayıb qız ünvanını yazıb onun üzərinə qoyub yoluna davam edir. Dastanda qadınların fiziki cəhətdən qüvvətli olması və türk qızlarının qapalı saxlanmaması və onlar oxuyan, çalan, təhsil alan, at minən, qılınc çalan namus və şərəfini qoruya biləcək yüksək mənəviyyatlı adamlar kimi göstərilir. "Güllən-

dam xan qızı idi". Həkimlik dərsi oxumuşdu, tanınmış həkimlərdən biri idi. Qızın "Əlvan" dağına gəlməyinin səbəbi də, dərman otları yığmaq idi. Belə otlar əlvan dağında çox olurdu. Buradan çiçək dərib, aparıb Kişmirdə dərman düzəldirdi. Hər dərdin dərmanını öz buxçasında gəzdirirdi". Güləndam Məhəmmədin başı üstünə 3 günlük dərman yaxdı və sonra da müalicə etmək üçün 7 dənə də ehtiyat üçün dərman məktub yazıb Məhəmmədin üstünə qoyur. Məktubda yazır ki, gəl məni Kəşmir şəhərindən apar. Məni aparmasan mənim yaylığım sənin başına, sənin papağın mənim başıma. Türk aləmində ən qorxulu, faciəli şey; ən ağır söyüş, "Yaylığım sənin başına" deməkdir.Yəni sən arvadsan, sən qorxaq, aciz bir məxluqsan. Türk xalqlarının tarixində elə ağır, faciəli ölüm hadisələri və qan davası olub ki, bir yaylığı ayağı altına atmaqla barışıq başlayır, ölüm hökmü ləğv edilir. Məhəmməd ayılanda üzərinə qoyulmuş məktubu oxuyur. Atına minib güclə evə qayıdır. Məhəmməd Güləndamın qayğıkeşliyindən və yüksək insanlığından mütəssir olur. Bu hadisə ona həya dərsi verir və onda şah saray tərbiyəsinin aşıladığı dikbaşlıq və həyasızlıq yoxa çıxır.

Məhəmməddə Gülandama qovuşmaq, hissi onda baş qaldırır. Necə olursa olsun bütün maniələri qırmaq, öz məhəbbətilə bu maniələrə qalib gəlmək ümüdü doğrur. Bu cür yüksək mənəviyyatlı və dünyavi adamlar kimi tərbiyə olunan Güləndam və yüzlərlə Güləndamlar heç bir döyüşdən, zərbədən, fiziki cəzadan qorxmadığı halda, onlar dövrünün kölə tərbiyəsi qarşısıda acizdir. Güləndam qız olduğu üçün valideynlərinin bütün tələblərini ödəməlidir. Dastanda Güləndamın iradəsi əleyhinə onu əmisi oğlu Heydər bəyə nişanlayırlar. Heydər Güləndamdan qat-qat həm zahiri görnüş, həm də mənəviyatça aşağıda durduğundan Güləndam Məhəmmədə qoşulub qaçmağı qərara alır. Ancaq o təkdir. Onu qoruyan, onu müdafiə edən yoxdur. Bir balaca Güləndama həyan duran olsa

o,öz etiraz səsini ucaldar və hərəkətlərində dövrün kölə tərbiyəsinə öz haqlı səsini qaldıra bilər. Adətən dastanlarda nökərlər çoxbilən, nadan, avam, sadəlövh, hiyləgər insanlar kimi təsvir edilir. Burada nökər Nazı hər işin yolunu, hər yolun istiqamətini bilən, hadisələrə vaxtında ağıllı tədbir görməyi bacaran bir insan kimi xarakterizə edilir.

Sevgi dərdinə duçar olan Məhəmməd belə qərara gəlir ki, Şahın yanına getsin, onun xeyir duasını alıb Güləndamın arxasınca yollansın Şah Məhəmmədi qəbul edir. Məhəmməd deyir:

*Başına döndüyüm, ay ulu şahım,*
*Güləndamı Kişmirdə məni istəyib.*
*Sənnən qeyri yoxdu pənahım,*
*Güləndam Kişmirdə məni istəyib.*

*Bir çox sual verdi, cavabım aldı,*
*Zərbinən qılıncı kəlləmə çaldı.*
*Atımın ustundən bil yerə saldı,*
*Güləndamı Kişmirdə məni istəyib*[1].

Məhəmməd fikrini şaha izah etdikdən sonra Şah izn verir və uşağı böyüdüb ərsəyə çatdıran nənə, valideynləriin yolunu gözləməyi, onlara hörmət və ehtiramla yanaşmağı məsləhət görərkən Məhəmmədə deyir: *"Oğul, mən sənə rusğat verirəm, amma sənin nənən var, onun sənin üstündə çox haqqı var, gərək ondan da icazə alasan. Get nənən rusgat versə, mən də rusğat verərəm"*[2].

Dastanda soy kökümüzdə olan və bütün millətlər tərəfindən rəğbətlə qarşılanan və bu günə qədər davam edən qonaqpərvərlik də mədh edilir. Qonaqpərvərlik yüksək insanlıq, insanlarla irqindən, mənsəbindən, görünüşündən asılı olmayaraq bütün millətlərlə, qonşu və qohumlarla doğru münasibət

---

[1] Azərbaycan məhəbbət dastanları. Bakı, "Elm" nəşriyyatı, 1979, səh. 415.
[2] Yenə orada, səh. 416.

yaratmaq üçün olan bir vəsiqədir. Qonağı bol olanın evi həmişə şən olar. Belə ailədə uşaqlar gümrah, həyat eşqi ilə dolu, şən, məsud böyüyər. Ona görə də bizim xalq ədəbiyyatında folklor nümunələrimizdə qonaqpərvərlik mədh edilib. Məhəmməd-Güləndam dastanında nökər Nağı kasıblıq içərisində köhnə daxmada yaşayan nənəsinə qonağı gələcəyini söylədikdə qarı hirslənib evdə nə var ki, qonaq gəlsin. Nağı cavabında deyir:

*Canımın yeyəsi, ay gözüm nənə,*
*Qonağın könülü xoş gəldin söyər*
*Sana nəsihətdi bu sözüm, nənə*
*Qonağın könülü xoş gəldin söyər.*

*Cavankən ağzında qalmamış dişin*
*Vədəsiz, kamalsız ağarmış başın*
*Qonaq neynər aşı, bozbaş, lavaşı*
*Qonağın könülü xoş gəldin söyər.*

*Pis sözünən diksindirmə qonağı,*
*Qaş qabaq tökəndə pozar damağı,*
*Nəsihət verməkdən yoruldu Nağı,*
*Qonağın könülü xoş gəldin söyər*[1].

Dastanda, nəhayət Məhəmməd Güləndamla, Qara bəyin təqibindən yaxa qurtarıb, öz şahının yanına qayıdır. Burada yenə də onu başqa bir bəla gözləyir. Şah Güləndamın gözəlliyini görüb ona vurulur və qızı onun yanına gətirməyi əmr edir. Güləndam məsələdən agah olduqda şahın qarşısına çıxıb onu belə töhmətləndirir.

*Şah oğlu şah Abbas, ay cənnətməkan,*
*Mən gələndə Məhəmmədə gəlmişəm*
*Şahlarda olmazmı heç namus çəkən,*
*Mən gələndə Məhəmmədə gəlmişəm.*

---

[1] Azərbaycan məhəbbət dastanları. Bakı, "Elm" nəşriyyatı, 1979, səh. 425.

*Hökmü-ədalətsən, divani-şəriət.*
*Şəriət heç vaxtı söyləməz xoryat,*
*Papaxda namus var, yaylıqda qeyrət,*
*Mən gələndə Məhəmmədə gəlmişəm*

*Bənna olan tikdiyini yıxarmı?*
*Ömründə heç çay tərsinə axarmı?*
*Qaynata da gəlinə kəc baxarmı?*
*Mən gələndə Məhəmmədə gəlmişəm.*

Şah Abbas bu əqilli, müdrik sözlərdən və Güləndamın qüvvəsindən çəkinib səni sınağa çəkirdim deyib Məhəmədlə Güləndama, nökəri Nağı ilə Gözələ qırx gün, qırx gecə toy etdirir.

Dastanda şahların əzazilliyi ilə mərhəməti, qəddarlığı ilə həlimliyi kimi bir-birini əvəz edən keyfiyətlər verilir. Ağıllı məsləhətə yatan, doğru sözü dinləyən müdrik adamların hərəkəti gənc nəsil üçün böyükləri dinləmək, ağıllı məsləhətdən nəticə çıxarmaq üçün nümunədir. Dastanların əksəriyyətində Şah Abbasa geniş yer verilir,onun əqli, kamalı, rəhmli, adilliyi, xeyirxahlığı tərənnüm edilir. Onun Məhəmmədi əqlinə görə qəbul etməsi, hətta qoca qarılar, kimsəsiz aqil adamlarla hesablaşması gənc nəsil üçün tərbiyə məktəbidir.

### *Abbas və Gülgəz dastanı*

Abbas və Gülgəzə dastanının ustadnaməsində dastanın bütün gedişi boyu dövranın insanları saldığı ağır vəziyyət, və bu vəziyyətin evlad valideyin arasında münasibətləri necə pozduğu, hər kəsin öz yorğanına görə ayağını uzatmadığı göstərilir. Dastançı özünü yalandan mədh edən, mənəvi zənginliyi, əqil kamalı olmayan, ancaq özünü alim, aqil adam göstərən, pis əməllərlə qazanılmış varın dövlətin nəticəsində al geyib şalı bəyənməyən, çox işləyib

ağır həyat sürən, adamları göstərir. Dastançı insanlarda olan mənfi keyfiyyətləri tənqid edərkən nəsihətini belə yekunlaşdırır.

*Özündən kiçiyi buyurma işə,*
*Sözün yerə düşər, heç miqdar olmaz,*
*Hər nəki, iş tutsan öz əlinlə tut,*
*İnsan öz işində cəfakar olmaz.*

*Özündən böyüyün saxla yolunu!*
*Düşən yerdə soruş ərz-halını*
*Amanat, amanat, qonşu malını,*
*Qonşu yox istəyən özü var olmaz.*

*Soruşun, qul Abbas, halın necədi*
*Gündüzlərin ay qaranlıq gecədi,*
*Sərv ağacı hər ağacdan ucadı*
*Əsli qıtdı, budağında bar olmaz*[1].

Ustadnamədə deyilir ki, bədasil, nanıkör evlad çör – çöp yığar, özgə odunu yandırar, belə adamlar ar namus gözləməz, suyu tökər öz ağacını söndürər. Dastanda deyilir ki "Köpükdən yağ olmaz, soyud bar gətirsə ondan bağça olmaz", "Yığılan zibildən təpə, küllükdən dağ olmaz". Çünki, yel əsəndə onları dağıdacaq. Tərbiyə binadan doğru verilməlidir ki, onu sonralar müdhiş mühit, zalım zaman, ətraf mühitin mənfi amilləri poza bilməsin. Ustadnamədə deyilir ki, arxı elə qazın kİ, suyu dərindən gəlsin. Tərbiyənin əsaslı vermək, tərbiyədə vahidlik prinsipini gözləmək vacib hesab edilərək deyilir.

*El bir olsa, dağ oynadar yerindən.*
*Söz bir olsa, zərbi kərən sındırar*[2].

---

[1] Azərbaycan məhəbbət dastanları. Bakı, "Elm" nəşriyyatı, 1979, səh. 262.
[2] Yenə orada, səh. 262.

Abbas və Gülgəz dastanında təhsil almaq, sənət öyrənmək mədh edilir. Bir gün Xoca Mayıl bərk xəstələnir. Arvadını çağırıb deyir ki, oğlum Abbas çox qabliyyətlidir. O hansı sənətə getsə etimadı doğruldar. Xoca mayıl dünyasını dəyişir. Arvadı uşağı yeddi gündən sonra şəhərə aparır. Anası ona hansı sənəti təklif etdirsə də o bəyənmir. Mədrəsəyə gələndə o, oxumaq istədiyini bildirir. Anası onu Mollanın yanına aparır və uşağının dərs almaq istədiyini bildirir. Molla razı olur və bir gün molla iş dalınca gedərkən Abbas uşaqları başına yığıb yanıqlı bir şikəstə oxuyur. Məlum olduğu kimi Mollalar oxumağı, çalmağı haram hesab etmişlər. Onu müsəlman dininin ehkamlarına qarşı çıxmaq kimi qiymətləndirmişlər. Molla qayıdanda sinifdə oxumaq səsini eşidir və oxuyanm Abbas olduğunu müəyyənləşdirib onun ayağını falaqqaya salır və ayağının qabığı çıxana kimi döyür. Abbas evə qayıdıb o gündən məktəbə getməyəcəyini söyləyir.

Hələ vaxtı ilə C.Məmmədquluzadə yazırdı ki Molla fallaqqasının ağrıları indiyə qədər yadımdan çıxmır. Bu köhnə məktəblərdə verilən cəza üsullarından biri idi. Ancaq bu üsul uşaq şəxsiyyətini təhqir edən, onun elmə, savada meyl və həvəsini öldürən, müəllimə qarşı kin, nifrət hissi aşılayan bir üsul idi. Nəhayət Abbas məktəbdən yayınır. Dostu ilə bağda oynadıqdan sonra yatanda ona buta verilir və o aşıq olur. Evdən çıxıb Təbrizə gedəndə yolda qəribə bir hadisəyə rast gəlir. Görür ki, bir dəstə adam Qənbər adlı bir oğlanı döyür. Soruşur ki nə üçün oğlanı döyürsünüz. Məlum olur ki, oğlan borcunu ödəyə bilmədiyi üçün döyülür. Abbas borcun əvəzində atını verib oğlanı azad etdirir. Abbas xeyirxah, dünya malında gözü olmayan, insanlara məhəbbətlə yanaşan, onların dərdlərinə şərik olan bir gəncdir.

Dastanda sənət, sənətkara hörmət və ehtiram çox məharətlə verilmişdir. Abbas bir şəhərdə saz düzəldənin ya-

nına gəlib bir saz almaq istəyəndə usta deyir ki, mənim əhdim var. Kim sazı könlüm istəyən kimi çalsa sazı ona peşkəş edəcəyəm. Abbas məlahətli səsi ilə ustanın könlünü ələ ala bilir. Usta oxumaqdan məmnun olub sazı Abbasa bağışlayır. Burada sənət yüksək qiymətləndirilir. Dastanda qapıdan girəndə salam verməк, evə girdikdə başmağını çıxartmaq, oxumaq üçün izn almaq kimi ədəb qaydaları təqdir edilir. Dastanda şagirdin aşıqlıq edə bilməyəcəyini güman edənlər onu lağa qoyub gülürlər ki, ağzından süd iyisi gələn uşaq nə oxuya bilər. Abbas ağıl yaşda deyil, başdadır deyib qiybət edənlərin cavabın belə verir.

*Zalım bəndə, uyma bunca qiybətə,*
*Qiybət edən tez düşəcək zillətə,*
*İskəndəri kim göndərdi zülmətə,*
*Hər kim ondan xəbərdar isə gəlsin!*[1].

Dastanda dostluq da mədh edilir. Abbası ölümlə hədələyərkən onun dostu Qənbər istəyir Abbasın yerinə getsin, İrəli durub deyir "Ölüm nədi ki? Ondan ötəri dostdan əl çəkmək olar? Onda mən də səninlə gedəcəyəm. Mən səni tək buraxmaram. Dost dostnan axıracan olmalıdır.

Dastanda əqilli vəzirlər, padişah və çobanlar mədh olunduğu kimi, dünya görmüş el obanın bütün işlərindən xəbərdar olan müdrik qarılar da mədh edilir. Abbas Pərixanıma bənd olarkən qarı Abbasa deyir: "Qərib ölkədə qız sevən oğlan ondan-bundan soruşar, qızın halına, xasiyyətinə bələd olar. Sən bilirsənmi ki, Pəri xanımın gözləri kor, ayağı topal dili də laldır. Abbas qarını qovmaq istəyəndə deyir: "Oğul mən sənə pis demədim. Dedim ki, Pəri xanımın gözləri kordu, yəni naməhrəmə baxmır. Dili laldı, yəni danışmır, söz gəzdirmir. Ayağı topaldı, yəni sarsaq-sarsaq gəzmir". Abbas gördüki qarı ağıllı danışır.

---

[1] Azərbaycan məhəbbət dastanları. Bakı, "Elm" nəşriyyatı, 1979, səh. 270.

Ona hədiyyə verib yola saldı. Abbas və Gülgəz dastanında tərbiyənin bir vacib məsələsi mənəviyyat tərbiyəsinə də toxunulur. Abbas Pəri xanıma müraciət edərkən deyir ki, insan ki, şux, nikbin oldu o ağlamaz, bir insan ki, dərd bilən, yəni ağıllı mənən zəngin, bir sözdən qanan oldu, belə adamlara qaş göz oynatmaq, zahiri dəbdədə lazım deyil. O onsuz da hər şeyi biləndir. Belə adamlara mal, dövlət, sərvət lazım deyil, onun mənəviyyatı onun üçün böyük sərvətdir. Dastanda gənc nəsli insanların naqis hərəkətlərindən ehtiyatlı olmağa çağırarkən Abbas deyirdi

*Şeytan qalib olub, şeytanat artsa,*
*Dəyər bir-birinə kəc adam oğlu,*
*Bir kimsənə haqq yolunda düz olsa,*
*Qoymaz düzəlməyə bic, adam oğlu.*

*Bir söz deyim sənə, qəzəbə dolma,*
*Namərdin əlindən heç badə alma,*
*Seyrağıb adamla oturub-durma,*
*Bir gün elər səni puç, adam oğlu*[1].

Dastan hər iki gəncin xoşbəxtliyi ilə qurtarır. Qəribə burasıdır ki, bütün türk dastanlarının sonu facİə ilə deyil, xoşbəxtlik, səadət, yeni həyat uğrunda mübarizə ilə qurtarır. Abbas-Gülgəz dastanı eybəcər adətlərə qarşı güclü etirazdır. Dastanda zəmanə və onun qayda-qanunlarından, ağaların özbaşınalığından, camaatın hüquqsuzluğundan, qoluzorlu, qözüqanlıların qadın, azadlığı yolunda ki, zorakılıyından və tərbiyənin bir çox başqa məsələlərindən bəhs edilir.

---

[1] Azərbaycan məhəbbət dastanları. Bakı, "Elm" nəşriyyatı, 1979, səh. 296.

*Valeh - Zərnigar dastanı*

Bu dastan da ustadnamə ilə başlayır. Ustadnamədə dövrün zamanın ziddiyyəti, həyatın sirlərlə dolu, tarixin yenilməz müəllim olduğu göstərilir. Ancaq təssüflə qeyd edilir ki, Tarix inkişaf etdikcə ölkələr qanla dolur, bu tarix zalıma, cəllada qüvvə verir, fağır-fuqaralar can verir, elə bil ki zamana, devran yoxsula düşmən kəsilmişdir. Bu dövranda zalım şah olur, insan insana zülm edərək qoymayır insanlar insan kimi yaşasın. Bu tənqiddən sonra Ustadnamədə deyilir ki yaxşı olar yüzlərlə ibadətə pul mal töküb gedənlər bir yetimi sevindirsin. Hələ vaxtı ilə C.Məmmədquluzadə yazırdı ki, əgər küçədə bir ac, çıplaq dilənçi uşaq görsən bil ki, onun atası ya "Hacı" yada "Kəlbalayıdır". Ustadnamədə deyilir ki, mən bilirəm ziyarətə uzun yollar qət edib şöhrət üçün gedirlər, sonrada qayıdıb fağır-fuqaranı qarət edirlər. Ustadnamədə deyilirdi ki, heç vaxt bəd əsil üçün işləmə, zəhmət çəkmə, o səni avam hesab edəcək, səni heç vaxt bəyənməz, özü kasıblıqda yavan çörək yeyər, əlinə bir vəzifə, qulluq düşsə yağı, balı bəyənməz. Həyat belədir balaca bir çeşmə çayı bəyənməz, dəli ağıla möhtac deyil, alçaqdan yuxarı qalxan, alçağı bəyənməz. İndi elə zamana gəlib ki tülkü şirə, aslana hücum edir, yabılar arpa yeyir, köhlənlər ah çəkir samana, kiçik təpə dağı bəyənməz.

Dastanda deyilir ki, Dəmirqapı Dərbənddə Xacə Yaqub adlı bir tacir və bu tacirin Zərnigar adlı bir qızı var imiş. Bütün türk dastanlarında olduğu kimi burada da təhsilə böyük qiymət verilir. Qızların dünyəvi adamlar kimi tərbiyə olunmasına xüsusi diqqət yetirilir. Dastanda Zərnigara nəinki, elm, eləcə də müxtəlif dillər öyrədilir, qızın ailə həyatı qurmasında heç bir asılılıq, ata hökmü yoxdur. O bu məsələdə azaddır və atası Zərnigara kimə istəsə ona getməyə icazə verir. Ancaq Zərnigarı çoxlu is-

təyənlər var. O heç kəsələ ailə həyatı qurmaq istəmir. Atası bir gün qızından soruşur ki, nə üçün bu qədər elçilər gəlir, sən heç birinə söz vermirsən: Dastanda mənəvi zənginlik, ərlə arvadın eyni səviyyəli olması vurğulanır. Qız, atasına, ata mən şairəm. Əhd etmişəm kim məni sözlə, sazla bağlasa mən ona gedəcəyəm. Zərnigarın atası sevincək qızı ilə deyşəcək aşıq axtardığını elan edir və deyir ki, kim qızıma qalib gəlsə qızım ona ərə gedəcək.

Valeh adlı qarabağlı məşhur aşıq bu hadisəni eşidib yollanır Zərnigarın yanına. O yolda çoxlu gözəllərə rast gəlir. Onların hamısı Valehi əql və kəmalına, yüksək sənətkarlığına görə öz yanında saxlamaq istəyirlər. Bu yolda o tərbiyəli, ata hörmətini saxlayan, yüksək bədii zövgə malik olan qızlarla rastlaşır və onları sazla şerlə mədh edir. Ancaq onların heç biri aşıq Valehin iradəsini qıra bilmir, onu Zərnigara qovuşmaq fikrindən çəkindirə bilmir.

O yolda gördükləri xanımları həyat eşqilə yaşamağa , dərdi-qəmdən uzaq olmağa, çalıb, oxuyub oynamağa, əbədi həyat üçün deyil, bu həyat üçün yaşamağı məsləhət görür və deyir “mənim sözümün mənası budur ki ,sən eyibsiz gözəlsən. Ancaq, hayıf ki, viran olub qocalacaqsan. Bir tərəfdən gül yanağın solacaq, digər tərəfdən də öləndə bütün vicudun xalq içində çürüyəcək. Mən ona heyfslənirəm”.

Nəhayət aşıq Valeh Zərnigara çatır və onunla deyişməyə başlayır. Qeyd etmək lazımdır ki, dastanlarımız təkcə maraqlı-macara xarakteri daşımayıb, elmi həqiqətlərdən danışmaq, qarşısındakının məna zənginliyin yoxlamaq, dünyagörüşünün genişliyi, dünya hadisələrindən necə baş çıxardığını müəyyənləşdirmək və qiymət vermək kimi məziyyətləri aydınlaşdırmaq istiqaməti daşımışdır. Aşıqların deyişməsi bir növ müasir dövrümüzdə olan sual-cavab gecələrinə bənzəyir. Məsələn, aşıq Valeh ilə Zərnigarın deyişməsi bunun bariz nümunəsidir.

*Zərnigar:* *Zərnigarın bilmək olmaz sanını,*
*O kim idi yumadılar qanını,*
*Kimdən ki, alacaq özü canını,*
*O kim idi, öldü, dirildi canı?*

*Valeh:* *Valehəm, ulduzun bilməzlər sanın*
*Şəhid olanların yumazlar qanın,*
*Əzrail alacaq özü öz canın*
*O cərcisdi öldü, dirildi canım.*

*Zərnigar:* *Mən səni salıram xaki-turaba,*
*Sualından aciz qaldın cavaba,*
*Boy verməm hər kəştiyə-quraba,*
*Ba Validə mən dəryayam ,sən nəsən.*

*Valeh:* *Ustadım Səməddi, sakini-Abdal,*
*Onu görən kəsin dili olur lal,*
*Kəmalda Hafizə verməzdi macal,*
*Valeh der: mən o əzayam, sən nəsən.*

Dastanın sonu bütün dastanlarda olduğu kimi, aşıq Valeh ilə Zərnigarın toyu ilə qurtarır. Bu dastanda elə məqamlar var ki, ondan bu gün də məktəblilərin tərbiyəsində istifadə etmək olar.

### *Soltan-Qəndab dastanı*

Dastanlar həyatımızın, məişətimizin, tərbiyəmizin elə tərəfləri yoxdur ki, ona toxunmasın. Türk dastanlarında elm, ədəb, mərifətlə yanaşı dilə, dildən çıxan sözlərin çəkisinə, vəzninə, onun insan ləyaqətini və şərəfini necə qoruduğuna da çox obrazlı şəkildə diqqət yetirilir. Hələ vaxtı ilə Seyid Əzim Şirvani sujetini xalq dastanlarından, xalq nağıllarından götürüb, bir hadisəni nəzmə çəkərək yazırdı ki, bir gün padşah yuxuda görür ki, dişləri tökülüb. Münəc-

cimi çağırdıb əhvalatı ona danışır. Münəccim deyir: "Sən öləcəksən uşaqların ömrü uzun olacaq". Bərk hirslənən padşah onu zindana saldırır və ikinci münəccimi çağırtdırır. Əhvalatı yenidən danışır. Münəccim cavabında "Şah sağ olsun uşaqların ömrü hamımızdan uzun olacaq". Padişah deyir "Ona bəxşiş verin" əyanlar təəccüb içərisində padişah sağ olsun bu münəccim də əvvəlkinin fikrini təkrar etdi. Nə üçün buna xələt, o birisinə zindan? Padişah deyir dildən insanları sakitləşdirmək üçün istifadə etmək lazımdır. Birinci münəccim qırmızı üzümə dedi ki, sən öləcəksən, ikincisi isə uşaqların ömrünün çox olacağını, yəni biz öləcəyik onlar çox yaşayacaqlar deyərək dildən məharətlə istifadə etdi. Elə Soltan və Qəndab dastanında da dildən doğru istifadə etmək, onunla məhəbbətin qapısını açmaq, ağızdan ləli kövhər saçmaq üçün istifadə etmək lazım olduğu deyilir. Ustadnamədə deyilir ki, dil var Ləl bitirər, dil var zəbərcədən tikdirər qala, dil var insanlarda ikrah hissi oyadar, dil var ki, zəhərdən də acıdır, dil də var ki, başdan ayağa bala yağa bəzənib, dil var ki, yolu dağa döndərir, dilvar ki, dostunu, yaxınını xəbərçilik etməklə bəlaya sala bilər, dil var ki, insan üçün xoşdur, dil var ki, şərab kimi sərxoşdur və o boranlı qışdır, qılıncdan betərdir, dil var insanı qurtarar dardan, dil var ki, dumanlı çillə kimidir.

Soltan və Qəndab dastanında ətir saçan məhəbbətdən, ədəb qoxusu qələn baxçanın meyvəsini dərmək, dost ilə düşmənini bir–birindən ayırmaq və tərbiyəli, mərifətli adamlara üz tutmaq məsləhət görülür.

*O güllü, gülşənli bağın, baxçanın,*
*Yetişən meyvəsin dərsən yaxşıdı.*
*Bu dünya fanidir, heç kimə qalmaz,*
*Dost ilə düşmənin bilsən yaxşıdır*[1].

---

[1] Azərbaycan məhəbbət dastanları. Bakı, "Elm" nəşriyyatı, 1979, səh. 458.

Dastanda bir sifətli olmaq. Əqidəsindən dönməmək, ömrünün sonuna kimi, əhdi-peymanı pozmamaq vurğulanarkən deyilir.

*"İnsan bir ilqarda qalsa yaxşıdı.*

Dastanda təvazakar olmaq, havalanmamaq, hər yetən məclisə çaxmamaq, çox danışıb özünü hörmətdən salmamaq, dava-dalaşdan uzaq olmaq, hərəkətlərini ağıl və kəmalla tənzimləmək söylənilir. Göstərilir ki, kamallı adamlar mərifətli olur, ağılsüz isə özünün düşünülməmiş hərəkətləri, sözü, söhbəti, oturuşu və duruşu ilə ətrafdakılarda gülüş doğurur. İnsan etdiyi hərəkəti ölçüb biçməli, hər sözə aldanmamalıdır.

*Yadda saxla, məndən sənə əmanət,*
*Çox da havalanıb yellənmə könül,*
*Hər yetən məclisə salma özünü,*
*Hər kəlmə başında dillənmə, könül.*

*Yaxın durmaginən qovğaya, qala,*
*Hörmətdən düşərsən qalarsan yana*
*Gəl tabe olginən, ağla, kamala,*
*Hər deyilən sözə inanma, könül.*

*Aşıq Soltan sözün doğrusun söylər*
*Kamallı adamdan mərifət dilər,*

*Ağılsız insana hər yetən gülər,*
*Hər sözə uğrayıb aldanma, könül*[1].

Tərbiyə baxımdan çox dəyərli olan Soltan və Qəndab dastanında bunlardan əlavə vətənpərvərlik hissi aşılanır.

*Dilimdə əzbərdi adın*
*Mənim vətənim, vətənim.*

---

[1] Azərbaycan məhəbbət dastanları. Bakı, "Elm" nəşriyyatı, 1979, səh. 459.

*Bütün bəşərin muradı,*
*Mənim vətənim, vətənim*[1].

Dastanda eləcə də əmək və əmək adamları tərənnüm edilir.

*Bağları bol gətirib bar*
*Sağ ol bağban, Hacı Murad*
*Sənin çox-çox zəhmətin var*
*Ay mehriban Hacı Murad*[2].

***Vanlı Göyçək dastanı***

Vanlı Göyçək dastanında da gənc nəslin tərbiyəsi məsələlərinin müxtəlif sahələrinə toxunulur. Burada düzlük, doğruluq, namus, qeyrət, qonşularla mehriban dolanmağ və fiziki, estetik tərbiyə məsələlərindən bəhs edilir və soy kökümüzə qayıtmaq yolunda tariximizdə olan bu keyfiyyfətlərin gənc nəslə aşılanması vacib olduğu vurğulanır. Dastanda göstərilir ki, bir məclisə düşəndə acı dildə danışmamaq, boş-boş lağ-lağı edib, məzmunsuz yersiz gülüb mərəkədəkiləri özünə güldürməmək lazımdır. Dastanda göstərilir ki, ləyaqətli alim, molla, aşıq məclisdə sayılmalıdır. Onun nəsihətamiz sözlərini dinləyənlər başa düşüb ayılmalıdır. Elə danışmaq lazımdır ki, söz məlhəm kimi cana yayılsın. Bu günki pedaqogikamız da gənc nəslin nitqini sahmana salmaq, danışıqda dərin məzmunun, olması tələbini irəli sürur. Dastanda deyilir ki, əgər mərəkədə hansı bir sərsəri səni acılayarsa, ona diqqət yetirmə, etdiyin yaxşılıqları üzə vurma və onu başa qaxınc etmə. Əgər özündə hansı bir eyib varsa başqalarına gülüb danışma. Dastanda düz danışan, düz yol ilə gedənin heç vaxt yeri dar olmadığı göstərilir və deyilir ki, sirrini, ürəksözünü hamıya açma, avara adamlardan sənə kömək olmaz. Belə adamlar bir azda yara-

---

[1] Azərbaycan məhəbbət dastanları. Bakı, "Elm" nəşriyyatı, 1979, səh. 450.
[2] Yenə orada səh. 463.

nın üstünə düz tökəcəklər. İgid o adamdır ki, ortaya məkrli söz atmaya, halal mayasına haram qatmaya

*Halal ilə haram bil ki, alışmaz,*
*Qaynayıban bir-birinə qarışmaz,*
*Cəsədə nuş olub, cana yapışmaz*
*Rizasız tikənin ləzzəti olmaz[1].*

Dastanda bir qəribə pedaqoji məsələyə də toxunulur, irəliyə getmək, inkişaf etmək, paxıllıq, həsəd aparmadan, rəqibindən irəliyə getmək mədh olunur və deyilir.

*Bir oğul ki, rəqibinə çatmaya*
*O oğulda namus, qeyrət, ar olmaz[2]*

Dastanda gənc nəslin əmək tərbiyəsinə xüsusi diqqət yetirilir. Göstərilir ki, hər kəs öz əməyinin bəhrəsini yeməlidir. Qonşu, qohum köməyi daimi ola bilməz, yad bağından insan üçün məhsul olmaz.

*Öz süründən qurban desən deyərsən,*
*Öz yunundan şal toxuyub geyərsən,*
*Bəslədiyin bağın barın yeyərsən,*
*Yad bağından sənə heyva, nar olmaz[3].*

Dastanda hər kəsin özünün işləməsi, özgəyə ümüd olmaması söylənilərkən, deyilir ki, başqalarını işlətmə, özün oturub özündən aşağı olanları buyurma çünki, sözün yerə düşər, başqasınm tutduğu işin xeyri az olar. Özün işləsən, özün əkib biçsən, özün zəhmətə qatlaşsan cəfası çox olsa da minnəti olmaz.

Dastanda eləcə də doğru, az danışmaq, boş-boş gəzib dolanmamaq, doğru yol tutana bələdçinin lazım olmadığı, hər igidin el arasında hörmətdən düşməməsi üçün öz qədr-qiymətini bilməsi, tələsik qərar çıxarıb adamları cəzalandırmaması kimi tərbiyə baxımdan vacib bir çox məsələlər şərh olunur. Dastanda ürəyi açıq, süfrəsi bol, dün-

---

[1] Azərbaycan məhəbbət dastanları. Bakı, "Elm" nəşriyyatı, 1979, səh. 18.
[2] Yenə orada səh. 17.
[3] Yenə orada səh. 18.

ya malına susamamağı da gənc nəslə tərbiyə etməyin lazım olduğu söylənilir. Çünki, ac göz, namərd, xəsis adamlarda namus, qeyrət olmaz. Vanlı Göyçək dastanında qadın tərbiyəsinə xüsusi diqqət yetirilir. Ümumiyyətlə Türk dastan və nağıllarının demək olar ki, hamısında qadın yüksək qiymətləndirilir. O kişilərə məsləhət verən, tilsimləri qıran, döyüşə gedən, ərini, uşaqlarını, xalqını düşməndən azad edən bir şəxsiyyət, dövlət başçısı kimi xarakterizə olunur. Dastanlarda qadın ana kimi də yüksək qiymətləndirilir. Oğullar, ərlər "səyahətə gedərkən ana və arvadlarından icazə alırlar.

"Vanlı-Göyçək" dastanıda deyilir ki, Unas şəhərinin padişahı ölmüşdü, yerinə isə onun ay parçası kimi gözəl qızı Pərzadı padişah seçmişdilər. Ancaq padişahın yerinə göz tikən vəzir-vəkil qızdan nə padişah olar?, o ölkəni necə idarə edər? deyə söz-söhbət gəzdirib paxıllıq edirdilər. Padişahın qoca vəzirlərindən biri bunu eşidib, xəlqi yığır və deyir ki, ay camaat bizim əzəl başdan şəhərimizin başçısı qadın olub. Şəhərimizin adı da Unas- qadın şəhəri adlanır. Lazım gəlsə Pərizada mən kömək göstərərəm. Hələ yazılı xalq ədəbiyyatımız olmadığı bir vaxtda Dədə-Qorqudda BurlaXatun, Selcan, və s. kimi qadın obrazları sonra ki xalq ədəbiyyatına xüsusən də dastan janrına güclü təsir göstərmişdir. Lakin qadın hökmranlığı ilə bərabər, Vanlı Göyçək dastanında ana olmaq hissi padişahdan da yüksək qiymətləndirilir. İllər keçir Pərizad dövləti, atasından da yaxşı idarə edir.

Ancaq onu ana olmaq kimi şirin xəyallar dünyası qoynuna alır. Ölkəni başlı başına buraxır, hərcmərclik baş alıb gedir. Qoca vəzir Pərizadın yanına gəlib ölkədəki vəziyyəti ona danışır və deyir ki, bunun səbəbi Pərizadın ərə getmək xəyallarıdır. Nəhayət Pərizad qoca vəzirlə qərara gəlir ki, elan etsinlər ki, kim Pərizad xanımı sözdə, fikirdə, deyişmədə bağlasa ona ərə gedəcək. Burada vəzir dövlətin başı-

na gələcək ərin ağıllı mənəviyyatlı adam olması üçün əqilli, kamallı bir kəsin Pərizadla deyişməsini istəyir. Bu, o zaman üçün bir növ imtahan idi. Vanlı Göyçək adlı bir aşıqın şagirdi elanı eşidib üz tutur Unas şəhərinə. Lakin burada Pərizad xanımın qəzəbinə dücar olur. Nəhayət dastanın sonunda Vanlı Göyçək əql-kamalı ilə Pərizad şahzadəni deyişmədə udur. Pərizad ona getmək istəməsədə qoca vəzir deyir ki, el, xalq, adətidir. Padişah verdiyi sözü dana bilməz. Nəhayət toy olur, Pərizad ilə Vanli Göyçək evlənir və Vanli Göyçək Unas şəhərinin padişahı olur. Dastan əqlli, kamallı olanların sonda xoşbəxtliyə çatacağı ilə qurtarır.

*Qaraoğlu dastanı*

Dastanm girişində (ona dastançılar dastan qabağı deyirlər). Qədim Dərbənddə Dədə Çalmaqan adlı güclü bir pəhlivan aşıq yaşadığı deyilir. O ölkəsinə gələn bütün aşıqlarla güləşər və onları küskün yola salarmış. Bir gün Düşmən ulus üstə yeriyəndə Dədə Çalmaqan qoşun yığıb onun üstinə cumur və düşməni qovur. Dədə bu döyüşü belə təsvir edir: “Zülm edib, torpaq almaq istəyən, özgə malına göz tikənin aqibəti məzardır. Ona əmdiyi süd halal olmaz”. Dədəm döyüşəndə irəlidə gedən və qəhrəmanlıq nümunəsi göstərən aşıqları yüksək qiymətləndirərək “Söz qılıncdır, başlar kəsməz, düşmən öldürər, onu qorxuya, vahiməyə salar” deyirdi: Dədəm düşmənə müraciətlə deyirdi: “Evlər yıxma, xalqı didərgin salma, öz evin yıxılıb didərgin düşərsən. Ər igidin arvadına göz tikənin gözü tökülər”. Dədəm deyir: “Duz çörəyə, düz çörəyə İlqar bağla , tapdalama qadınların örpəyini. 3 şeyə müqəddəs ol. O ağ, qoyunlu və qaraqoyunlular süsaləsini yüksək mənəviyyatlığını misal çəkərək 1) qoyunlular qeyrətinə, 2) Ana, 3) bacı ismətinə. Dədəm nəsihət edirdi ki, əlsizləri, qəribləri qovmaq, öldürmək əzmək olmaz. Ər igidin

həyat yoldaşı onun namusu olduğu üçün onu göz bəbəyi kimi qorumalıdır. Dədəm hücum çəkdi, torpağının bir qarışınnı da yadlara vermədi. Bir əsgəri öləndə 40 gün yas tutdu, qəmli nəğmələri ilə onu yad etdi. Bütün xalqı Vətən yolunda şəhid olmuş igidlərə nəğmə yazmağa, onların şərəfli işini təbliq etməyə çağırdı. Vətən yolunda şəhid olanlara min bir rəhmət dilədi.

Dastanın Qaralı bəy bölməsində deyilir ki, Qədim Dərbənd diyarında şöhrət-şanı dünyada yayılmış qoyunlular adlı bir tayfa var imiş. Bu tayfa çox zəhmətkeş, halallıqla, sürü, ilxı saxlar və onların varı dövləti aşıb daşarmış. Bu tayfaya Turan xatun adlı bir qadın başçılıq edərmiş. Turan xanım çox əqilli, namuslu, hamıya bir gözlə baxan yüksək mənəviyyatlı bir qadın imiş. Bir gün qırx incəbelli qaravaşlar Turan xanıma yaxınlaşıb deyirlər ki, Kuzə xanım bağda yuxulu ikən boylu olur. Ondan olan uşaq təpəgöz doğulub (bir gözlü). Onu öldürək ya saxlayaq. Turan xanım uşağı saxlamağı məsləhət görür. Dədəm çalmağanı bir gün uşağa ad qoymağa çağırırlar. O uşağa baxıb deyir ki, onun adı anadan olandan qoyulub. Təpəgözdürsə təpəgözdə qalsın. Bu təpəgöz böyüyür ətrafına xeyli igid toplayıb Turan xanımı oğurlayıb öldürür. Ölkənin igidləri təpəgözü öldürmək istəyirlər. Ancaq o, qeyb olur. Qoyunlular təpəgözü gizlətməkdə bir-birindən şübhələnir ciddi çəkişmə başlayır. Qəbilələr bir-birini döyməyə, qanı su yerinə axıtmaga başladılar. Dədəm Qorqud gördü ki Kəlləgözün qurduğu hiylədən günahsız insanlar bir-birini qırır. O bu qəbilələr arasında barışıq yaratmaq məqsədilə Turan xanımın şərəfinə nəğmə qoşdu. Nəğmədə deyilirdi: Ay ağ qoyunlular anamız Turan xanımın ruhuna hörmət edin, nahaq qan axıtmaym. Ağ qoyunu olan kəslər başına ağ papaq qoymalıdır, sülhə can atmalıdır. Qara qoyunlarda qara papaq qoyub kişiliklərini göstərsinlər. Turan xanımın vəsiyyətini unutmayın. Şimalı məskən edin,

elə başçı seçin ki, xalqa ata olsun, ana evinin dirəyi olsun, qardaş qardaşa düşmən olmamalıdır, bir-birinizə acı söz deməyin, bu kin, nifrət ədavət yaradar. Vətən ərazisini qorumaqda əzilən igidlər, gün doğanda məskən salın, silin göz yaşlarınızı, sizə ağlamaq yaraşmır. Turan xanımın xatirinə özünüzə toxdaq verin, atlanın ancaq bir-birinizi qırmayın. Turan xanımın vəsiyyətinə əməl edin. O bizim anamız idi. Ana sözü haqq sözüdür. Dədəm böyük hünər göstərdi və ağ papaq qoyana ağ qoyunlu, qara papaq qoyana qaraqoyunlu adını verib onları barışdırdı. Dedi ki, hər iki tayfa bir ürəkdir, bir ürəyi parçalamaq olmaz. Lənət olsun şəri ortaya atana.

*Qoyunlular xatunudur, Turan xatun*
*Xan xatunlar Turan xatun*
*Qoyunlular ulusunu binə edən*
*İgidlərin sinəsini sinə edən*
*Nəğmələrə qopuz tutan*
*Tamtamları icad edən*
*Ox kamanı ayan xatun*
*Ər sinələr oyan xatun*
*Qoyunlular xatunudur, Turan xatun,*
*Xan-xatunlar xatunudur Turan xatun.*
*Haqdan bəla endi yerə*
*Ad qoymadım Kəlləgözə*
*Anamızı çapdı getdi*
*Haqdan gələn bir bəladı*
*Qoyunlunu tapdı getdi.*
*Xan - xatunun ana ruhu*
*Fəryad edir aman-aman*
*Axıtmayın bir beylə qan*
*Ağ qoyunu olan kəslər,*
*Ağ papaqlar qoysun başa.*
*Xan xatunun hörmətinə*
*Oxlar ucun sürmə daşa*

*Qara qoynu olan kəslər*
*Qara papaq qoysun başa*
*Xan xatunun hörmətinə*
*Kamanını qoysun boşa.*
*Ağpapaqlı igidlərim,*
*Dağ papaqlı igidlərim,*
*Xatun deyir məskəniniz olsun Şavar*
*İgid seçin, olsun ata*
*Ana qalsın ev dirəyi.*
*Qardaşının bağrını sən*
*Dəlmə bir də kaman ilə*
*Söyləyəndə söylətməyin bir-birinizi*
*Acı ilə, yaman ilə.*
*Qara papaq igidlərim,*
*Yara papaq igidlərim,*
*Məskən salın gilavarda*
*Torpaq çəkin gözünüzə*
*Toxtaq verin özünüzə*
*Ər igidin dəstəsində*
*Turan xatun hörmətinə atlanınız.*
*Dədəm dedi: bir ürəyi iki yerə ayırdılar*
*Bir övladdan iki övlad qayırdılar.*
*Lənət olsun, şər, yamana*
*İgidlərim bir-birilə*
*Həsrət ilə görüşdülər*
*Xan xatunlar göz yaşını*
*Örpəklərinə silə-silə*
*"Can", "Can" deyib öpüşdülər*
*Ağqoyunlu üzün tutdu düz Şavara*
*Qaraqoyunlu səfər etdi Gilavara*[1].
*Hər cafaya qatlanınız.*
*Dədəm dedi: igidlərim,*

---

[1] Azərbaycan dastanları. Bakı, "Gənclik" nəşriyyatı, 1977, səh. 34.

*Haqq sözüdür ana sözü*
*Haqq sözüdür xatun sözü*
*Qoyunlular xatunudur Turan xatun*
*Xan xatunlar xatunudur, Turan xatun!*
*Xan xatunun sözün tutun*
*Haqq sözüdür ana sözü,*
*Haqq sözüdür xatun sözü*
*Ağ papaqlı igidlərin,*
*Dağ papaqlı igidlərin,*
*Başı düşdü sinəsinə.*
*Qara papaq igidlərin*
*Yara papaq igidlərin*
*Gözlərindən sel tək axan*
*Yaşı düşdü sinəsinə*
*Dilə gəldi igidlərim*
*Bir ağızdan*
*Haqq sözüdür, ana sözü*
*Haqq sözüdür, xatun sözü*
*Dədəm çəkdi ox-kamanla*
*Duz çörəyi aralığa*
*Ağ papaqlı igidimlə*
*Qara papaq bir iyidim*
*And içdilər duz-çörəyə*
*And içdilər ox-kamana*
*Dədəm qoydu adlarını*
*Ağ papaqlı igidlərə:-*
*Ağqoyunlu*
*Qara papaq iyidlərə*
*Qaraqoyun*

Çox qəribədir orxon yenisey abidələrində olan tərbiyə nöqteyi nəzərindən qiymətli kəlamlar zaman-zaman türk bölgələrində yenidən təkrar olunaraq gənc nəsli bir olmağa, kin-güdirəti unutmağa, torpaq, ərazi bütövlüyünü sax-

lamağa çağırmışdır. Soy kökümüzdən qidalanan "Qaraoğlu" da bu qəbildən olan dastanlardandır.

Türk xalqlarında ərazi bütövlüyünü saxlamaq üçün silah istehsal etmiş və qoppuz ox türklərin əsas müharibə aləti olmuş və hətda vızıltılı oxlarda birinci dəfə türklər tərəfdən ixtira edilmişdir. Silahı özünün ayrılmaz hissəsi hesab edən türk tayfaları ölərkən demişlər "qopuz ilə doğulmuşam, istəyirəm qopuz ilə köç eyləyəm bu dünyadan"[1] Türk xalqları ona görə varlı, dövlətlidirlər ki, onlar özlərinə dayanacaq yerini, şəhər ərazisini oddan uzaq, yeldən kənar seldən aralı yerlərdə seçiblər. Onlar padişahlarını da əqilli, müdrik adamlardan seçməyə çalışmışlar. Dastanda deyilir ki, düşmən qara qoyunluları dağıdarkən ölkənin başına əli bərəkətli Qaralı bəy gəldi. Onun əkdiyindən beş biçdilər, çətin ağır günləri geridə qoydular və hətta qara gün üçün özlərinə ehtiyatı da etdilər. Dastanda uşaqların fiziki tərbiyəsinə xüsusi diqqət yetirilir. Dastan uşaqları dözümlü, qorxusuz böyütməyi, düşmənlə rastlaşdıqda, güclə bərabər əqil, fərasət göstərməyi öyrədir. Dastanda Qaralı bəy oğlunu gözəllik çeşməsindən su gətirməyə göndərərkən, uzaq səfərin çətinlikləri, müxtəlif mərd və namərd adamlarla qarşılaşarkən onlara münasibət, əql və fərasət göstərmək sadəlövh olub hiyləgər adamların toruna düşməmək üçün az danışıb çox iş görməyi məsləhət edir. Dastanda Qaralı bəyin oğlu Sedrək atasının verdiyi məsləhətlərə riayət etmədiyi üçün gözəllik suyunu gətirə bilmir. Ata ağlayıb deyir: "Oğul elə bilmə ki, mən su gəlmədiyindən peşiman olmuşam. Yox sən ata nəsihətinə tam riayət etmədiyindən məğmunam. Ancaq sənə son vəsiyyətim budur ki, başım altında olan kamanı götürüb düşmən üstə onunla gedəsən onda sən heç zaman məğlub olmazsan.

---

[1] Azərbaycan dastanları. Bakı, "Gənclik" nəşriyyatı, 1977, səh. 35.

"Qara oğlu dastanı" başdan ayağa Vətənpərvərlik duyğusu, dövlətin ərazi bütövlüyünü saxlamaq üçün verilən nəsihətamiz kəlamlardan ibarətdir. Hər bir uşaq kiçik yaşlarından bilməlidir ki, onun ən birinci vəzifəsi Vətəni qorumaq, onu yad elli işqalçılardan xilas etməkdir. Biz uşaqlarımıza bu hissi, bu keyfiyyəti aşılaya bilmədiyimiz üçün də ermənilərlə mübarizədə məqlub olduq. Hərə özü-özlüyündə bir sərkərdə olmaq istərkən əsirliyə ducar olduq. Ona görə də soy kökümüzdə olan belə əfsanəvi dastanlardan dərsliklərə salmaq, və yaxud uşaqlara sinifdən xaric oxu materialı kimi məsləhət görmək lazımdır. Məktəblərimizdə bu dastanlar ətrafında disputlar keçirmək fikir mübadiləsi aparmaq Vətənpərvərlik tərbiyyəsində böyük rol oynaya bilərdi.

### *Molla Nur dastanı*

Tarixdə xalq içərisində yaranan dastan və nağıllar mütləq dövrün ictimai siyasi hadisələri ilə bağlı olmuşdur. Gedən müharibələr,ərazi davaları, qəbilə vuruşmaları, azadlıq hərəkatı zamanı xüsusi şücaət, qəhrəmanlıq nümunəsi göstərən ,xalqı ağır əzabdan, qaçaq quldurdan, rüşvətxor, əzazil dövlət başçılarından, çar qaradavoylarından qoruyan elə adamlar olmuşdur ki,onların adı xalq arasında hüsn rəğbətlə qarşılanmış və xalq bu qəhrəmanlarına şerlər, nağıl, dastan qoşmuşlar. Belə qəhrəmanlardan biri də XIX əsrin əvvələrində Dağıstanda xalq azadlıq hərəkatı dövründə böyük şücaət göstərən Şeyx Şamil olmuşdur.O böyük təşkilati bacarığı və yüksək iradəsi sayəsində dağlıları birləşdirməyə nail olmuşdur. Onun şəxsi igidliyi, sərkərdəlik bacarığı və Natiqliyi geniş şöhrət tapdığından ruhanilərə, azad kəndlilərə arxalanaraq hərbi-teokratik dövlət, imamlıq yaratmışdı. O böyük ordusu olan Çar höküməti ilə mübarizəyə qalxmış 10 il vuruşmuş və bir neçə dəfə qələbə qazanmışdı. Molla Nur

dastanı da bu şərəfə həsr edilmişdi. Molla Nur Şeyx Şamil hərəkatının qəhrəmanlarından biri kimi Quba, Dərbənd, Şamaxı, Şəki, Zakatala zonalarında genişlənən kəndli hərəkatı qəhrəmanlarından biri olmuşdur.

Dastanda deyilir ki, Dərbənd Mahalında Hacı İbrahim Xəlil adlı yoxsul bir Mirzə yaşayırdı. Onun Nur adlı yeganə bir oğlu var idi. Hacı İbrahim Mirzəlik edərdi. Hamıya kağız ərizə yazar. Bir sözlə kim hüzuruna gəlsə, onun qulluğunda hazır olardı. Ancaq heç kəsdən bir qəpik də almazdı. Hamıdan xahiş edər ki, oğluna dua etsinlər ki, ağlı başında olsun, haqq yolunu azmasın, düz çörəyi tapdalamasın, əməli saleh olsun, mərdiməzarlardan uzaq və canı sağlam olsun. Elə bil Hacı İbrahim Xəlil tərbiyə elmindən xəbərdar olan, nəzəri cəhətdən hazırlıqlı pedaqoqdur. Ağıl tərbiyə etmək, dostu darda qoymamaq, sənə yaxşılıq etmiş adamın haqqını itirməmək, mərdimazarlıqdan uzaq, fiziki cəhətdən sağlam olmaq bu günki pedaqogikamızın, tərbiyə elmimizin vacib şərtləridir. Bu keyfiyyətləri uşaqlara aşılamaq üçün xalq dastanlarından geniş istifadə etmək lazımdır. Hacı İbrahim Xəlil nəhayət oğlundan qəlbi pak, təmiz, əqli başında qürurlu, qorxmaz cəsur bir igid tərbiyə edə bilmişdi. Dastanda deyilir ki, bir gün Dərbənd bəylərinin birinin qızı su götürməyə gedərkən bulağa düşüb boğulurmuş. Nur özünü paltarlı suya atıb Aysoltan qızı sudan xilas edir. Dastanda göstərilir ki, Aysoltanın atası Mahmud sonsuz, əqilli, dünya görmüş müdrik bir kişi imiş. O sonsuzluqdan qəm içərisində oturarkən qapıya bir dərvşi gəlir. Dərviş ondan nə üçün deyib-gülmək əvəzinə qəm çəkdiyini soruşduqda, dərdim sonsuzluqdur deyir. Mahmud dərvişi içəri dəvət edir. Burada çox maraqlı bir məqam var. Hələ qədim də hökmdarladan biri türkdən adət-ənənəsini dəyişməyi təkid edərkən, türk demişdir: "Bu adətlər ata babadan qaldığı üçün onu dəyişməyə mənim həqqim yoxdur". Molla Nur dastanında xalq adətlərinə sadiq qalan Mah-

mud Dərvişə deyir "keç içəri süfrəm açıqdır, qonaq gözləyirdim ye, iç, dincəl, getmək vaxtında adıma layiq payla səni yola salaram. Bizim adətlərə görə dərviş qapıdan girəndə ona bəxşeyiş verərlər. Mən də dəbimizi pozmuram, öz qızıl kəmərimi sənə verirəm. Al bağla belinə, bir tikə çörək kəs. Dərviş hədiyəni almayıb ona bir alma verir və deyir ki, almanın qırmızı tərəfini özün ye və ağ tərəfini arvadına ver. Həmin suda batan Aysoltan Dərvişin bu almasından sonra dünyaya gəlir. Aysoltanın suda boğulmasını eşidən Mahmud bəy həsrətlə tapdığı qızını itirəcəyindən qorxaraq hay-haray salır. Görür ki, qızı ölməyib, onu bir oğlan xilas edib. Mahmud bəy Nura təklif edir ki, əgər evlənməyibsə qızı alsın. Düzdü, qapısında elçilərdən imkan olmasada Nurun qeyrətinə görə onu xoşlayır. Nəhayət Nurla Ay Soltanın toyunu edirlər. Nurun atası da Mirzəlik qələmini oğluna təhvil verir. İndi Nura onun qabliyyəti, elmi və mərifətinə görə Molla Nur dedilər. Atası vəsiyət etmişdi ki, oğul dövlətin nə qədər artsa o qədər də dilin şirin olsun. Dastanda göstərilir ki, hələ var dövlət sahibi olmaq, yüksək insan olmaq deyil, insanlara yuxarıdan baxmamaq, dili şirin olmaq, kasıblara əl tutmaq, xalqdan ayrılmamaq insanı şöhrətləndirən əlamətlərdir. Bu keyfiyyətləri Hacı İbrahim Xəlil oğluna aşılaya bilmişdi. Bir gün Molla Nur Mirzəxanasında olarkən atası ilə Mahmud bəy bazarda alver edirlərmiş. Görür ki, pristav Alı adında bir yazığı döyür və onu ölümcül yerə yıxır. Üstəlikdə ona güllə atır. Ancaq güllə, Alı kişiyə deyil, Molla Nurun atası ilə qaynatası Mahmud kişiyə dəyib öldürür. Molla Nur pristavi atdan salıb xəncərlə onu doğrayır və o gündən qaçaq düşür. Dərbənd, Şəki, Zaqatala, Quba mahalından adamlar Molla Nurun dəstəsinə qoşulub mübarizəyə başlayırlar. Haqq harada tapdanırsa. Molla Nur ora yollanır. Qubernator padişaha yazır ki, Molla Nur Şeyx Şamil hərəkatına qoşulub. Əgər çoxlu qoşun gəlməsə Azərbaycan əldən gedəcək.

Bir gün Molla Nur Dərbəndə gedərkən yolda kəndlərin birində Şeyx Şamilin mühasirədə olduğunu ona deyirlər. Molla Nur xəlvəti yolla kəndə girir və dəyirmanda əsir olan Şeyx Şamili əsirlikdən azad edir. Onların hər ikisi insan azadlığı uğrunda mübarizə aparırlar. Onlar çar hökəmətini rahat buraxmır.Qubernator müxtəlif hiyləli yollarla onları tutmağa çalışır. Bir gün Molla Nurun arvadı Aysoltan lal oğlunu pirə aparmağı qərarlaşdırır. Bundan xəbər tutan Qubernator Molla Nurun da oraya gələcəyini yəqinləşdirir və onu tutmaq üçün generalı pirə göndərir. Atəş açmaq məqamı gələndə Nurun uşağı, atasının boynuna sarılıb, ata sən mənim yanımda olsan gözüm açılar. Bunu eşidən General dəstəsini geri çəkib Molla Nura dəymir. Molla Nur bu münasibətdən çox mütəssir olur. Generalın dəstəsində olan Çuğul sözə baxmayıb güllə açır və Aysoltanı öldürür. Ancaq general uşağın yanına gəlib onu öpür və Aysoltanın cənazəsi üstündə papağını çıxarıb biz günahkar deyilik deyir. Dastanda mərdlik, insanı hisslər yüksək qiymətləndirilir. Bir gün Molla Nur meşədə gəzərkən yoldaşları Generalı, onun qızı və arvadını qolu bağlı apardıqlarını görür. Yoldaşları deyir ki, bunları Aysoltanın intiqamını almaq üçün gətirdik. Molla Nur deyir ki,əvvəla Aysoltana general yox, Çuğul atəş açıb, ikincisi isə arvadı əsir etməzlər. Aparın onları hörmətlə yola salın. Belə yüksək insanlıq, mərdlik nümunəsini uşaqlara misal gətirmək heç şübhəsiz ki, onların hərəkət və sözündə vahidlik yaratmaq, insanlara doğru münasibat bəsləmək, yaxşılığa qarşı, yaxşılıqla cavab vermək əzmi yarada bilər. Rus generalı da Qafqaz mərdliyini yüksək qiymətləndirərək Qafqazdan çıxıb gedərkən Molla Nurun qarşısında baş əyib deyir: “Sən igidsən. İgid düşmən, namərd dostdan yaxşıdır. Padişaha deyəcəyəm ki, Molla Nurları yox, Çuğul insanları yer üzündən götürmək lazımdır.

### *"Şəhri və Mehri" dastanı*

"Şəhri və Mehri"dastanında övladsızlıq problemi irəli sürülür. Övladsızlıq problemi digər dastanlarda da verilir. Dastanlarda gələcək qəhrəmanın ana bətninə düşməsi qeyri adi şəkildə baş verir. Ata, ananın yaşından asılı olmayaraq dərviş, xızır, nurani qocalar tərəfindən verilən alma nəticəsində uşaq doğulur. Bu dastanda da sujet eyni şəkildə gedir. Dastanda Şəhri və Mehri böyük əziyyətlərə düçar olsalar da xeyirxah adamların köməyi ilə ədaləti tapa bilirlər. Sevgililər bir-birinə qovuşur. Dastanın pedaqoji məziyyəti ondadır ki, burada dostluq, ənənə, əmək mərasimləri, nəğmələr, əsil və zat, xəyanət və xeyirxahlıq, doğru yol göstərmək, əqidəsində möhkəmlik, əqil-kəmala, qiymət vermək kimi məsələlər var. Bu dastanda qəhrəmanlıq və məhəbbət ailə tərbiyəsi ilə bilavasitə bağlıdır. Türk xalqlarında övladı olmaq, onu yüksək amallar uğrunda mübarizəyə hazırlamaq, ədəb-ərkan vermək hər bir ata və ananın müqəddəs borcu olmuşdur. "Şəhri və Mehri" dastanı belə başlayır. Əhməd və Məhəmməd adlı iki qardaş olur. Onların böyük var-dövləti olmasına baxmayaraq övladları yox idi. Günlərin birində bir dərviş Məhəmmədin qapısında qəsidə oxuyur. Məhəmməd ona pul təklif etdikdə o, götürməyib deyir ki, mən pay alan dərviş deyiləm, pay verən dərvişəm və cibindən bir alma çıxarıb deyir: bu almanı iki yerə bölərsən, yarısını qardaşın Əhməd, yarısını da sən yeyərsən. Mütləq sizdən övlad olcaq. Qardaşlar almanı yedikdən sonra arvadları ərlərini sevindirib hamilə olduqlarını bildirirlər. Nəhayət Əhmədin oğlu, Məhəmmədin isə qızı olur. Oğlanın adını Şəhri, qızın adını isə Mehri qoyurlar. Turklər adətən yaşayış tərzində, əmək prosesində elmə yüksək qiymət verdiyindən bu dastanda da valideinlər uşaqlarını məktəbə göndərirlər. Uşaqlar məktəbdə 16-yaşa qədər oxuyurlar. Bir gün uşaqlarını gəzməyə çıxaran Əhməd və Məhəmməd dəniz kənarına gedirlər. Qəflətən dəniz-

dən bir balıq çıxıb ata, ananı udur. Yetim qalan uşaqlar bir-birinə həyan olurlar. Mehri əmisi oğluna deyir ki, daha mən məktəbə gedə bilməyəcəyəm. Sən oxu, mən isə ev işləri ilə məşqul olacağam. Dastanda qızların mütərəqqi görüşlü olduğunu vurğulayan çoxlu məqamlar var. Uşaqlar böyüyür, bir-birinə məhəbbət bəsləyirlər. Bir gün Şəhri görür ki, Mehri təklikdən xüffət edir. Bazara gedib Mehriyə həm kömək etmək, həm də həmsöhbət olmaq üçün bir keçəl tapıb gətirir. Bir gün Mehri evdə tək yatarkən keçəl bunu öpüb sataşmaq istəyir. Ağıl və kamal təcəssümü olan Mehri hay-küy qaldırmır. O, keçələ deyir ki, sənə bir neçə nəsihətim var. O, keçələ əsilli-köklü adamlarla bədəsilli adamların fərqini söyləyir. Əsilli adamlar səhv edəndə çağırıb ona deyirlər: sən mənim qardaşımsan bir də belə şey etmə. Pis hərəkət təkrar olunduqda ikinci dəfə də məsləhət verərlər. Naqis hərəkət üçüncü dəfə təkrar olunduqda onu öldürərlər. Bədəsil insanlar isə pis iş tutan, düşünmədən ehtirasalarını cilovlaya bilməyən adama şər atanı öldürərlər. İndi mən sənə deyirəm: bir də belə iş tutma. Keçəl yalvarır ki, səhvə yol verib. Ancaq onun canında olan xəbislik, pislik, əsilsizlik, onu ikinci dəfə əyri yola sövq edir. Mehri bu dəfə də ona ağır söz deyib təhnə-töhmət edir. Üçüncü dəfə keçəlin pis hərəkətini görən Mehri onun başını paralayır. Türk xalqları müdrik olduğundan yaratmış olduğu dastan və nağıllarında insanları doğru yola gətirmək üçün Mehri kimi namus təcəssümü olan adamların dili ilə məsləhəti vacib hesab edirlər. Türk xalqlarında olan bu keyfiyyət elə bil bu günki pedaqogika dərsliyimizdən çıxarılıb bura həkk edilmişdir. Səhv edəni öldürmək yox, düz yola çıxarmaq üçün müxtəlif üsullardan o, cümlədən məsləhət, töhmət, nəsihət kimi vasitələrdən istifadə etmək.. Türk el misallarında deyilir: “tanrı pəncərə qoyanda qapı da yaratmışdır. Bu dastanda göstərilən nəsihət etmək sonralar, elə indinin özündə də şair və yazıçılarımızın nəsihətnamələrinin əsas mövzusu olmuşdur. Bu nəsihətlər,

öyüdlər sonralar toplanıb pedaqoji elmin nəzəri əsaslarını müəyyənləşdirməkdə böyük rol oynamışdır. "Şəhri və Mehri" dastanında eləcə də gənc nəsildə iti düşünmək, tez anlamaq, mürəkkəb hadisələri bilik yolu ilə aça bilmək qabiliyyətini göstərən məqamlar da az deyildir. Məsələn, keçəl gedib xana ərz edir ki, mən Mehriyə xana ərə getməsini məsləhət bildim. O, isə hirslənib mənim başımı yardı. Xan Kürd oğlu qoşun çəkib Mehrinin üstünə gedir və Mehrini alacağını söyləyir. Mehri deyir ki, mən ağıllı adama ərə gedəcəyəm. Mənim qılıncım yox, qalxanım yox, bir köməksiz qızın üzərinə qoşunla gəlirsən. Mehri xan Kürd oğlunun ağlını yoxlamaq üçün deyir:

*Məndən salam olsunCəlali Kürdə:*
*Əvvəl həqiqətin neçə yolu var?*
*Üç yüz altmış altı tabaxda duran*
*Kimdi, əllərində neçə dolu var?*
*Kürd oğlu cavab verir*

*Məndən salam olsun Mehri xanıma*
*Həqiqətin otuz iki yolu var.*
*Üç yüz altmış altı tabaxda duran*
*Qırxlar idi ; əllərində dolu var.*

Xeyli deyişmədən sonra Mehri görür ki, Kürd oğlu həqiqətən iti düşünən, əqilli adamdır. Ona görə xandan ona getməsi üçün 40-gün möhlət istəyir. Mehri bütün hadisəni olduğu kimi Şəhriyə danışır. Şəhri sazla xanın yanına gedib deyir ki, sən quvvətlisən, varlısan və məni öldürüb Mehrini ala bilərsən. Ancaq

*Haqqın itirməz dostluğum*
*Mərd dəyişməz öz yastığın,*
*İgid heç kəsməz bastığın,*
*Alma Mehri Yarım mənim.*

Şəhri görür ki, xan Kürd oğlu ondan əl çəkməyəcək. Qaçır və Türkmən paşasının yanına gedib orada sığınacaq ta-

pır. Kürd oğlu qoşun çəkir ki, Mehrini öldürsün. Ancaq Türkmən paşası Kürd oğlu ilə davaya girişir və onun ordusunu darmadağın edir və Kürd oğluna məsləhət görür ki, bu sevdadan əl çəksin və gənclər xoşbəxt olsunlar. Türkmən paşası Şəhri ilə Mehrinin toyunu edib onları xoşbəxtliyə çıxarır. Türk dastanlarında zalım, qəddar, ləyaqətsiz paşa və xanlarla yanaşı ağıllı, humanist, mehriban, yüksək mənəviyyətli paşa və xanların da obrazı verilir.

### *Mahmud və Ağcaquş dastanı*

Bu dastanda da Mahmud böyük nəzir-niyazın səbəbinə anadan olmuş insandır. Məhəbbət dastanlarının hamısında olduğu kimi "Mahmud və Ağcaquş" dastanmda da "Buta" vermək əsas məsələlərdən biri kimi vurğulanır. "Buta" gözəllik bəxş etmək deməkdir. "Buta" vasitəsi ilə insanlar xoşbəxtliyə çatır. Bəzən anadan eybəcər, cansız, cılız doğulan uşaqlara "Buta" verildikdə o,gözəlləşir, qüvvətlənir və istədiyi arzuya nail ola bilir. Dastanlarda"Buta" adətən xeyirxah dərvişlər tərəfindən verilir. Çox vaxt "Buta" insanlara yuxuda nəsib olur. Bir balaca tarixə nəzər salsaq görərik ki,"Buta almaq","Buta vermək" gözəllik ilahəsi olan "Batamu" adı ilə bağlıdır. "Buta" alanlar heç vaxt məğlub olmur. Məs. "Mahmud və Ağcaquş" dastanında "Buta"alan Mahmud bütün çətinliklərdən aşaraq, böyük məhrumiyyətlərdən sonra öz sevgilisinə qovuşur. Lakin sevgilisinə qovuşmaq yolunda baş verən hadisələr aşıq mahnılarında, ustadnamələrdə və söhbətlərdə özünü əks etdirir. Burada insan əxlaqının müxtəlif sahələri ilə əlaqədar çoxlu gənc nəslə töhfə ola biləcək məqamlar vardır. Məs: "Mahmud və Ağcaquş" dastanınm ustadnaməsində mərdlik mədh edildiyi kimi , namərdlik tənqid olunur.

*Dinləyin ağalar, tərif eyləyin*
*Heç yaza çıxmasın qışı namərdin.*
*Kor olsun gözləri ,batsın oylağı,*
*Ala qara olsun quşu namərdin.*

*...İstəməz yanında yarı yoldaşı,*
*Heç gəlməz evinə qohum qardaşı.*
*Nagah gələn olsa salar təlaşı*
*Açılmaz qabağı, qaşı namərdin*[1].

Dastanda türk xalqlarına xas olan qonaqpərvərlik mədh olunur və göstərilir ki, mərd olmaq, qonağı qəbul edərkən gülər özlü olmaq lazımdır.Dastanda mərdlik, qonaqpərvərlik belə tərənnüm olunurdu

*Canımı qurban olsun, mərd oğulu mərdə*
*Mərifət dilində kamalı sərdə,*

*Nagah bir qulluğun düşşə namərdə,*
*Çal qabana dönər başı namərdin*[2].

"Mahmud və Ağcaquş" dastanında qəhrəmanlıq geniş mədh edilir və göstərilir ki, igid dediyindən dönməməlidir. Sözü mərdi-mərdanə açıq deməyi bacarmalıdır. Dastanda qorxaqlıq isə insan üçün ən çirkin əxlaqi sifət hesab edilir. Dastanda ilqarsız adamlar namussuz qadınlarla müqayisə edilir. Bu münasibətlə deyilirdi. Qəlbi düz olanın evi şən olar. Bu ev həccə bənzəyir. Hər kəs özü işləməli, zəhmət çəkməli, qonşuya ümid olmamalıdır. Ustadnamədə bu müsbət keyfiyyətlərlə yanaşı çox arvadlılıq da tənqid olunur.

*Qəlbi düz olan evi hac olu,*
*Qonşuya kəc baxan, özü ac olu,*
*İki arvadhlıq , mardan ar olu,*
*Bez geyindirsən bir canana yaxşıdı.*

---

[1] Azərbaycan xalq dastanları. Bakı, "Yazıçı" nəşriyyatı, 1980-83, səh. 33.
[2] Yenə orada, səh. 33.

"Mahmud və Ağcaquş" dastanı belə bir, əfsanə ilə başlayır. Bir padişahın uşağı olmurmuş. Neçə ildən sonra o, aqıl adamların sözünə baxdı, yoxsulluq etdi, hədiyyələr verdi. Bu xeyirxahlıq nəticəsiz qalmadı. Padşahın arvadı hamilə oldu. Bu dastanda və ümumiyyətlə türk dastanlarının hamısında xeyirxahlıq yüksək qiymətləndirilir və o, xalq tərəfindən heç vaxt unudulmur, əksinə bu xeyirxahlığın nəticəsində insan mükafatlanır. Dastan gənc nəsildə xeyirxah olmaq, dara düşənlərə kömək göstərmək hissi aşılayır və göstərilir ki, dara düşən adamlar el ağsaqqallarından məsləhət almalıdır, çünki xalqın xeyir duası, xalqın birgə səyi həmişə insanlara kömək göstərə bilər. Nəhayət dastanda göstərilir ki padşahın arvadı oğlan doğur və adını Mahmud qoyurlar. Uşaq böyüyür. O, vəzir, vəkil və padşahın əyanları ilə ova çıxır, at çapır, ox atır, nizə tullayır. Bir gün Mahmud ova çıxarkən vəzir ona sevgi məhəbbətdən bəhs edən gözəl bir nağıl söyləyir. Nağıldan məst olan Mahmud deyir: "Kaş ki mən də nağıldakı oğlan təki gözəl, azad gün keçirəydim. Ovda gecə yatarkən yuxuda dərviş ona buta verir və o, eşq alovu ilə yanır. Yuxuda Mahmud, Ağcaquş adlı bir gözəl qızı görür və bihuş olub yuxudan ayılmır. Nə qədər həkim, türkəçarə gətirirlərsə, Mahmudu ayılda bilmirlər. Nəhayət dünya görmüş bir qarı deyir ki, Mahmuda dəyməyin, ona buta verilib, o üç gündən sonra ayılacaq. Mahmud ayılanda sazı götürür və deyirki mən qəfəsdə qalmış bir quş idim. İndi uçub öz sevgilimi axtarıb tapacağam. Bu dastanda xoşbəxtliyin açarı kimi azad yaşamaq şah saraylarının qapalı, niskilli həyatına, məhəbbətsiz sevgiyə qarşı üsyan təbili vardır. Dastanda Mahmud saray məhbəsinin zəncirini qırıb azadlığa çıxmağın yolunu belə görürdü.

*Hər kim dərs alacaq gəlsin yanıma,*
*Sinəmin kitabın açıb gedirəm.*
*Bir quş idim, qalmış idim yuvada*
*İndi qanadlanıb, uçub gedirəm.*

Dastanda, böyük çətinliklərdən sonra bütün türk dastanlarında olduğu kimi, Mahmud öz sevgilisinə qovuşur və azad mehriban həyat sürür.

*Əzəmətli Əmrah dastanı*

Türk dastanlarından biri də "Əzəmətli Əmrahdır". Bu dastanda da o biri dastanlar kimi Əmraha "Buta" verilir. Bu da Əmraha osmanlı torpağında Həsən Çələbinin qızı Sayad Pərini sevdirir. Bu dastanda da yol getmək, çətinliklərlə qarşılaşmaq, öz eşqi yolunda məhrumiyyətlərlə qarşılaşmaq, dövrün zidiyyətli qanunları ilə raştlaşmaq, zamanın dəyişməsi ilə əlaqədar oğulun ataya, gəlinlərin qaynanaya münasibətindən, özündən razı olan, zahirən cəlb edici, mənəviyatca qara qəpiyə dəyməyən, az işləyib çox yeyən, müftəxor, mənəviyyatsız adamların obrazları açıqlanır. Dastandakı bu obrazların gənc nəslə müsbət təsir edəcəyi aydın görsənir. Dastanın ustadnaməsində deyilir

*Ay həzarat bir zamana gəlibdi,*
*Ala qarğa şux tərlanı bəyənməz,*
*Oğullar atanı, qızlar ananı*
*Gəlinlər də qaynananı bəyənməz.*

Daha sonra ustadnamədə insanların mənəvi keyfiyyəti acıqlanır. Yaxşıdan nümunə götürmək, pisdən nəticə çıxartmaq kimi tərbiyəvi cəhətlər göstərilir.

*Adam var ki, getməyəsən işinə,*
*Adam var ki, dolanasan başına,*

*Adam var ki, ayran tapmır aşına,*
*Dindirərsən yağı şanı, bəyənməz.*

*Adam var, dünyada gəzir sərsəri*
*Adam var, geyinər üsuru dəri,*

*Adam var, şəriyətdən yoxdur xəbəri,*
*Adam var, sultanı, xanı bəyənməz.*
*Adam var ki, adamların naxışıdı.*
*Adam var ki, yonulmayıb naşıdı.*
*Adam var ki, heyvan ondan yaxşıdı*
*Dindirərsən heç insanı bəyənməz*[1].

Dastanlarda türk bölgələrinin bərəkətli torpağı, üzümlü, heyvalı, almalı, narlı bağları, bülbüllü turaclı, ceyranlı meşələri təsvir edilərkən gənc nəsli bu gözəllikdə böyütmək və bu əsrarəngiz təbiəti qorumaq deyilir. Dastanda göstərilir ki, vətənin bol nemətləri şəhərlərə dolduqca şəhərlər gözəlləşir, insanlar arasında münasibətlər də ümumiləşir. "Əzəmətli Əmrah" dastanında vətən həsrəti çəkən Əmrahdan soruşanda ki, o necə vətəndir ki, sən onun haqqında yana-yana, ürək çırpıntısı ilə danışırsan. O, deyir

*Bahar fəsli, yaz ayları gələndə,*
*Oxur bizim elin qazalaqları,*
*Alması, heyvası, turuncu narı,*
*Doludur ölkənin qora bağları*

*Bizim yerdə bağı bostan əkərlər,*
*Əkib eyzən şəhərlərə tökərlər*
*Xanlara bəylərə məzə çəkərlər*
*Ala qovun qarpız xora tağları*[2].

Vətənin hər xırda məziyətini yüksəltmək insanın vətənə olan böyük məhəbətinin nişanəsidir. Vaxtı ilə böyük şairimiz Səməd Vurğun balaca bir təpə olan "Göyəzəni" belə vəsf etmişdir. "Göylərə baş çəkir Göyəzən dağı". Ondan soruşanda ki, nə üçün balaca təpəni dağ kimi vermisən. O cavabında deyərdi ki, vətənini sevən kişi təpəsini dağ etməlidir. Əm-

---
[1] Azərbaycan xalq dastanları. Bakı, "Yazıçı" nəşriyyatı, 1980-83, səh. 50.
[2] Yenə orada, səh. 71-72.

rah da öz vətənini yüksək məhəbbətlə dərindən sevdiyindən onu ən gözəl boyalarla təsvir etmişdir. "Əzəmətli Əmrah" dastanında, eləcə də türk xalqlarının köçəri olmadığı, onların yüksək mədəniyyətə, elmə və ləziz xörəklərə malik olduğu göstərilir.Əmrah yad ölkədə ondan soruşanda ki, sənin vətənində daha nələr var. O, deyir:

*Səhər bişirərlər turşu aşları,*
*İçinə tökərlər gövcə maşları*
*Basma motalları, ağ lavaşları,*
*Doludu ölkəsi sarı yağları*[1].

Bu dastanın tərbiyə baxımdan ən qiymətli cəhəti ondadır ki, o gənc nəsli zəhmətkeş, mübariz, etiqadlı, inamlı olmağa səsləyir. Dastan eləcə də gənc nəsli mütilikdən, tənbəllikdən, uzaq olmağa çağırır və xoşbəxt həyata qədəm qoymağın yollarını öyrədir. "Əzəmətli Əmrah" dastanında məktəbə getmək kimi elmin, biliyin təbliği məsələləri də var. Dastanda eləcə də qadınların dünyəvi adamlar kimi tərbiyə olunması, elmli, fiziki cəhətdən sağlam, döyüşdə vuruşan, at minən, qılınc çalan mübariz adamlar kimi verilməsi səhnələri də var. Əmrah sevdiyi Sayad xanımı öz ölkəsinə aparmaq istərkən onun üzərinə qoşun yeriyəcəyindən ehtiyatlandıqda Sayad xanım deyir:

*Qoşun gəlib bu dağları bürüsə,*
*Döyüşərəm qoç Əmrahım, nə dedin,*
*Şan-Şan olub Qarabağım üzülsə*
*Döyüşərəm, qoç Əmrahım nə dedin.*

*At minərəm qarğı cida bularam,*
*Ac qurd kimi təpələrdə ularam*
*Özümü öldürrəm, kəndin talaram*
*Döyüşərkən, qoç Əmrahım nə dedin.*

Bu dastandan bu gün də gənc nəslimizin tərbiyyəsində istifadə etmək məqsədə müfafiq olardı.

---

[1] Azərbaycan xalq dastanları. Bakı, "Yazıçı" nəşriyyatı, 1980-83, səh. 72.

### *"Məhəmməd xan və Səlbi xanım" dastanı*

Məhəmməd xan və Səlbi xanım dastanıda da Ağca xanımın var dövlətini paylayıb, xeyirxahlıq, etmək nəticəsində iki Soltan və Məhəmməd adlı oğlu olur. Oğullardan birinə "Məhəmmədə" "Buta" verilir və o Səlbi xanıma aşiq olur. Çox maraqlıdır ki türk dastanlarının hamısında məktəbə getmək, elm, təhsil almaq vuğrulanarkən uşaqların 8-yaşından 15-yaşına qədər təhsil almaları göstərilir. Buradan aydın olur ki, hələ qədim zamanlardan türk xalqları uşaqların inkişaf dövrləri haqqında elmi, tibbi biliklərə malik olmuşlar, "Məhəmməd xan və Səlbi xanım" dastanında göstərilir ki, Soltan və Məhəmməd məktəbdə molla yanında bir neçə il oxuduqdan və müəyyən miqdar elmlərə sahib olduqdan sonra valideynləri belə qərara gəlir ki, Məhəmməd xan və Soltanı məktəbdən çıxarıb Zər şəhərinə yeddi illik hərac olmağa göndərsinlər. Elə Məhəmməd xanın məhəbbət məcarası da buradan başlayır.

Məhəmməd Qasım Paşanın qızı Səlbini görüb ona vurulur. Qardaşlar az qala bir xəbərçinin qurbanı olsunlar. Məhəmməd bu xəbərçini vaxtında öldürür və Səlbinin atasınm hüsnü rəğbətini qazanır. Dastanda namərdlik, xəbərçilik özgə malına göz tikmək, vardan puldan ötəri qana susamaq kimi bir çox tərbiyəvi məqamlar var.

### *Məhəmməd və Gürcü qızı dastanı*

Bu dastanın ustadnaməsində də özündən razı olanlar, ağıldan kasıblar, məzəmmət edildiyi kimi gənc nəslin tərbiyəsi kimi çox vacib olan halallıq, zəhmət məqh edilir.

*Ağaclar oyanıb gül açan zaman*
*Söyüd də boy çəkib yırğalanmasın.*
*Alar çaynağına parçalar, atar,*
*Tülkü aslan üstə yorğalanmasın.*

*Bəzi kəsin ağlı başda səy olu,*
*Sənəti Hərçayı söyləmək olu,*
*Dərə xəlvət olsa tülkü bəy olu*
*Şeşəldib quyruğun dalğalanmasın*[1].

*Ləli kövhərini açma xırıdar,*
*Qurut satan deyər məndə də çox var.*
*Baxıb öz- özünə çox bixtiyar*
*Açanda xurcunun qırğalanmasın.*

*Ay Məhəmməd, meyl eləmə harama*
*Naşı təbib, əlin vurma yarama.*
*Mançılığa yaxşı sərin, barama,*
*Sapın hamar çıxsın, sırğalanmasın.*

Ustadnamədə göstərilir ki, dünyada var-dövlət toplamaqla xoşbəxt olmaq olmaz. Sərvət toplayanların varı başqalarına qismət olur. Heç kəs özü ilə heç nə aparmayıb. Dastanlarda və ustadnamələrdə var-dövlət arxasınca yox, mənəviyyat arxasınca getmək məsləhət görülür. Mənəviyyat insana var-dövlət gətirir.

*Kəsilməz mürdə karvan, qəflə işlər çaş gedər.*
*Nə imranlar nakam qoydun, didəsindən yaş gedər.*
*Yetmiş iki millət ki, var, əli səndən boş gedər*
*Yanısınca malı dövlət, pul aparan görmədim*[2].

Ustadnamədə deyilir ki, insan özünün fədakar əməyi ilə ad qoyub getməlidir. Ancaq belə adamlar xalqın sevimlisi ola bilir. Ustadnamədə heç kəsin könlünə dəyməmək, balaca bir yaxşı münasibətlə insanları ram etmək fikri açıqlanır.

*Axı fikir ilə qafil dolanma,*
*Qəlbini şeytandan yad elə insan!*

---

[1] Azərbaycan xalq dastanları. Bakı, "Yazıçı" nəşriyyatı, 1980-83, səh. 113.
[2] Yenə orada, səh. 114.

*Əməl qayır axirətdə utanma,*
*Bacar könül yıxma, şad elə, insan!*

Ustadnamədə vətənsiz nadan adamlar, yuvasız quş kimi, var-dövlət yığanların axırı isə puç kimi tamamlanır.

***Yaxşı və aşıq dastanı***

Yaxşı və aşıq dastanında da tərbiyə nöqteyi nəzərindən çox qiymətli olan yoldaşlıq, dostluq, mərdlik, vəfalı olmaq, vətənpərvərlik kimi çoxlu bayatılar verilmişdir. Dastanın girişində deyilir:

*Aşıq yarıdan keçər,*
*Gecə yarıdan keçər.*
*Namərdlə dost olanın,*
*Ömrü yarıdan keçər.*

*Aşıq biriynən gərək*
*Sədəf dürü ilən gərək*
*Dünyada gözəl çoxdu*
*İlqar biriynən gərək*

*Aşıq vətən yaxşıdı,*
*Köynək kətan yaxşıdı.*
*Qürbət cənnət olsa da,*
*Genə vətən yaxşıdır.*

*Qarşıda qürbət el,*
*Qürbət ölkə qürbət el,*
*Aşığı dərdə saldı,*
*Qarı düşmən qürbət el*[1].

---

[1] Azərbaycan xalq dastanları. Bakı, "Yazıçı" nəşriyyatı, 1980-83, səh. 135.

Bu dastanda Qara İman adlı bir kişi olur. Onun da övladı olmayan Qara İbrahim adlı oğlu var imiş. Bir gün ata və oğul mahalından ayrı yeni bir kəndə köçürlər. Orada İbrahimin bir oğlu iki qızı olur. Türk dastanlarının əksəriyyətində olduğu kimi bu dastanda da İbrahim oğlu və qızlarını dünyəvi adamlar kimi tərbiyə etmək məqsədilə məktəbə göndərir. Bir gün İbrahim oğlunu çobanlara kömək etmək üçün dağa göndərir və güman edir ki, iş qurtardıqdan sonra oğlu yenidən məktəbə davam edəcək. Oğlan dağda qəribsəyir və bir qayanın üzərinə çıxıb orada ağlayır və yuxuya gedir. Yuxuda oğlana Yaxşı adlı bir qızı sevmək "butası" verilir. Bu işdən xəbərdar olan atası oğlunun qəm güssəsinə davam gətirə bilməyib Yaxşıya elçi gedir. Qızın ata-anası razı olsalar da qardaşları razılıq vermirlər. Şəxsiyyətli və tərs adam olan İbrahim oğluna deyir ki, mən bir daha o qapıya gedən deyiləm. Sən gəl bu sevdadan əl götür. Dastanda tərbiyə baxımından çox qiymətli olan vəfalılıq, öz əqidəsindən dönməmək, əqidəsində israrlı olmaq vurğulanır:

*Mən aşıq üz mə-zəli,*
*Tellərin düz məzəli,*
*Aşıq sevgili yardan*
*Ölüncə üzməz əli.*

Oğlanı məhəbbətinə qovuşmağa qoymayan xəbis adamları o sazla belə tənələyirdi..

*Aşığam yaxşı qala,*
*Ocağı yaxşı qala,*
*İstərəm bu dünyada,*
*Pis ölə, yaxşı qala.*

İbrahimin oğlu sevgilisi Yaxşını axtara-axtara gəlib onlara çıxır. Anasından evlənmək üçün razılıq aldıqdan sonra atasının yenidən elçi getməsini xahiş edir. Atası deyir ki, əgər oğulu bu sevdadan əl çəkməsə onu öldürəcək. Yaxşının qardaşları işin nə yerdə olduğunu başa düşüb

*Qurbanı qəmlənmə kərəmkanı var,*
*Ədalət hakimin haqq divani var*
*Bu çərxi fələyin nərdivani var,*
*Yenən ağlayarmış, qalxan gülərmiş*[1].

Dastan Vaqifin həyatı ilə başlayır. Salahlı kəndində Mehdi adlı çox uşaqlı bir kişi Pənah adlı oğlunu uşaqların hamısından çox istədiyi üçün, onu Şair Mirzə Şəfinin yanına göndərir və oğlu 10 il oxuyub, elmlərə dərindən nüfuz edir hətta, ərəb, fars dillərini də mükəmməl öyrənir. Xeyli vaxt keçdikdən sonra Vaqifin atası rəhmətə gedir və böyük ailəni dolandırmaq Vaqifin üzərinə düşür. Bir gün toyların birində Pənah aşıqları lağa qoyub həcv deyir. Aşıqlar Vəli xana şikayət edirlər. Hiddətlənmiş xan Pənahı öldürmək qərarına gəlir. Bundan xəbər tutan Vaqif 14 ailə ilə bərabər Qarabağa qaçır və Tərtərbasarda müəllimlik edir. Müəllim kimi şöhrətlənən Vaqifin məktəbinə uşaqlar axın-axın gəlir. Bir gün Vaqif Cıdır düzündə gəzərkən İbrahim xan, onu görüb, vəzirindən onun kim olduğunu soruşur. Şairdir Qazaxdan gəldiyini söyləyir. Vaqif çəməndə gül toplayan bir qıza bədahətən şer dediyini eşidən İbrahim xan Vaqifi hüzuruna çaxırtdırır və nə üçün Qarabağa gəldiyini soruşur: Vaqif əhvalatı olduğu kimi İbrahim xana danışır. İbrahim xan Vaqifin şair olduğunu müəyyənləşdirir və ondan şerlə toy gecəsini vəsf etməyi əmr edir.Vaqif belə deyir:

*Vaqif, yarın belin qucmaq irasda,*
*Oynayıb gülməkdən düşəsən xəstə,*
*Üzünü qoyasan ağ üzü üstə,*
*Məst olub yanında yatasan dürüst.*

İbrahim xan şeri bəyənir lakin axırıncı bəndi çıxarmağı lazım bilir. O deyir ki, əgər bu şerin axırıncı misrası əllərə düşsə, hamı tənbəlləşər, təsərüfat dağılar. Dastanlarda mə-

---

[1] Azərbaycan xalq dastanları. Bakı, "Yazıçı" nəşriyyatı, 1980-83, səh. 172.

həbbət macəralarının içərisində əxlaqi dəyərlər gah padişahın, xanın, vəzirin, gah da dünya görmüş aqil qocaların dili ilə çox məharətlə verilir. İbrahim xan xalqın iqtisadi cəhətdən yaxşı yaşamasını arzulayarkən gənc nəslin zəhmətə qatlaşmasını tənbəl olmamasını lazım bilirdi. Çox qəribədir qeyir millətlərin nağıllarında, dastanlarında, padşahlar, ölkəni idarə edənlər əzazil, zülmkar adamlar kimi təsvir olunduğu halda bizim türk dastanlarında onlar çox vaxt mərhəmətli, ağıllı, müdrik adamlar kimi təsvir edilmişdir. Türk dastanlarında ağıl, kamal, elm, yüksək zövq, şair və şairlik mədh olunur və qızların dünyəvi adamlar kimi tərbiyə olunduğu göstərilir. Vaqif dastanda da İbrahim xanın baçısının sənətin, şerin gözəlliyini duya bilməsi, istedadlı şairi qiymətləndirməsi, qadınların yüksək elm və zövqündən xəbər verir. Mənəvi cəhətdən zəngin, İbrahim xanın bacısı ilə Vaqif evlənmək üçün xana elçi göndərir. İbrahim xan Vaqifə xəbər göndərir ki bu sevdadan əl çəksin yoxsa onu öldürər. İbrahim xan ovdan qayıdarkən görürki bir itin boğazında dua var. Hirslənir duanı açdırıb oxutdurur və məlum olur ki kağızda dua əvəzinə ləyaqətsiz sözlər yazılmışdır. Bu işi Vaqif etdiyini bilən İbrahim xan Vaqifi öldürmək istərkən Vaqif icazə istəyir ki üç söz desin:

Birincisi dünyadan Nəbilər, Süleymanlar, Nüşiravanlar kimi böyük şəxsiyyətlər gedib bunu nəzərə al.

İkincisi vara, dövlətə, pula, qızıla susama böyük ərazin dövlətin var deyə qüvənmə, bil ki, dünyanın sonu ölümdür.

Üçüncüsü Vaqifi, nəzərdən salma, "çünki qul xətasız olmaz, ağa kərəmsiz" bu nəsihətlərin üçü də insanları doğru yaşamağa, vara dövlətə susamamağa, ədaləti gözləməyə səsləyən və gənc nəslin tərbiyəsində olduqca zəruri olan kəlamlardır. Bu sözlərdən sonra İbrahim xan Vaqifin həqiqətən ağıllı adam olduğunu görüb onu bağışlayır.

Bir gün xanın baçısı Sənəm eşidir ki, Vaqif xəstələnib bağdan 2 kal şaftalı dərib xonçada Vaqifə göndərir. Çox

fikirləşəndən sonra yazır ki, bunların müqabilində mən razıyam başımı kəsib xonçaya qoyub sənə göndərsinlər.

Bu işdən xəbər tutan İbrahim xan Vaqifi yenidən öldürmək qərarına gəlir. Bütün dastanlarda olduğu kimi bu dastanda da ağıllı, mərhəmətli, düşüncəli vəzir İbrahim xanı qəzəbindən əl çəkməyə təhrik edir. Vəzir deyir ki, öldürsən bacını öldür, günah ondadır. Xan sağ olsun, varlıya, xana, padişaha hamı qız verə bilər, igid odur ki, qızını özündən aşağı adama versin və onu gətirib özünə bərabər adam etsin.

Bu ağıllı məsləhət İbrahim xanı sakitləşdirir. Vaqifi yanına çağırtdırır və nə cürətlə bacısına məktub yazdığını soruşur. Vaqif cavabında məhəbbət böyüklüyə kiçikliyə baxmır. Vaqif bu dastanda qadını yüksək mənəviyyatlı bir insan kimi təsvir edərkən yazır ki, qadın ətir saçmalı, onun nitqi, sözü, söhbəti sərrast olmalıdır. Səhər tezdən şən nəğmələrlə yaraşıqlı olmalıdır. O yazırdı:

*Oynamaqda ola şövqü həvəsi,*
*Aşığıynan ola nazu-qəmzəsi,*
*Gül kimi qoxuya nitqi ,nəfəsi*
*Ətri bənövşə , həm yasəmən gərək*

Dastanda Vaqif optimist, bu dünya üçün yaşamağı bacaran, bu dünyada fəal olan, əqli, əxlaqi cəhətdən yüksək mənəviyyatlı bir şəxs kimi təsvir edilir.İnsanda ruh düşkünlüyünü acizlik əlaməti hesab edərək Vaqif Vidadiyə deyirdi:

*Ey Vidadi ,sənin bu puç dünyada*
*Nə dərdin var ki, zar-zar ağlarsan?*
*Ağlamalı günün axirətdədir,*
*Hələ indi səndə nə var, ağlarsan*[1].

Vaqif bu şeri ilə gənc nəslə məsləhət görürdü ki, neçə ki, can bədən çıxmayıb, zəhmət çəkmək, şənlənmək, özünü bəydən də artığ bilmək lazımdır.

---

[1] Azərbaycan xalq dastanları. Bakı, "Yazıçı" nəşriyyatı, 1980-83, səh. 187.

O, bu dünyanın ağır gününü də toy bayram hesab edirdi və hər şeyin insandan asılı olduğunu yazırdı və demək istəyirdi ki, insan özü-özünə xoşbəxtlik və qəm gətirə bilər. Yazırdı.

*Takı cəsədin cida olmayıb candan,*
*Bil özünü artıq sultandan, xandan,*
*Toy-bayramdır bu dünyanın əzabı,*
*Ağlı olan ona gətirər tabı.*

Vaqif dastanında estetik tərbiyə üçün çox vacib olan vətənin gözəlliyini, meşəsini, bulağını, laləli çöllərini, dağların təmiz havasını vəsf edən lövhələr də az deyildir. Vaqif bu gözəlliyi tərənnüm edərkən deyirdi:

*Ovğanın yaylağı, gözəl ovlağı,*
*Bir zaman ovlağa gəl-hagəl düşər,*
*Ovğanın yaylağı, şah bulağı,*
*Bir zaman ağhma Maşnıbel düşər.*

*Zülm əli ilə köçürdülər binəyi,*
*Qara arxacdadır köçün eləyi*
*Alakol, ağmanal, dənizgünəyi,*
*Tökülür ellər hey, çada yol düşər.*
*Nə xoş gəlir bu dağların havası,*
*Yaylamağa gəlsə gözəllər xası,*
*Dikpilləkən, Daşkörpü, Gəlinqayası*
*İstisudan bəri bizim el düşər.*

Dastan yenə də xoşbəxtliklə İbrahim xanın bacısını almaq və İbrahim xanın qardaşının toyü ilə bitir.

***Hüseyn və Reyhan dastanı***

Bu dastanın da ustadnaməsində tərbiyə baxımından, olduqca maraqlı məqamlar var. Ustadnamədə irsiyyətə, insan şəxsiyyətinin formalaşmasında böyük əhəmiyyət verilərək göstərilir ki, müəyyən bir keyfiyyət insana irsən verilməsə onu çətin tərbiyə etmək olar.

*Vəfalıya əmək çəksən itirməz,*
*Bədasil nəsihət, öyüd götürməz,*

*Qabaq tağı tər şamama bitirməz*
*Göy söyüddə heyva olmaz, nar olmaz.*

Dastanda gənclərin ətraf mühitdə yaşayan Xəbis adamlardan, pis əməlli insanlardan uzaq olmaları tövsiyyə edilir.

*Sirr vermə nadana, üz vermə pisə,*
*Axırda qəlbində inciyə, küsə.*

*Ot bitər kök üstə əsli nə isə,*
*Yovşan bəsləməklə çəmənzar olmaz.*

Dastanda insan ləyaqətini gözləmək hər papaq qoyanı kişi saymamaq, sürüşkən, 2 üzlü, nadan adamlarla dostluq etməmək, dəvət olunmayan yerə getməmək kimi, əxlaqi dəyərlərdən bəhs edilir.

*Təklif olunmamış bir yerə varma,*
*Nər olmaz meydanda hər bığı burma,*
*Seyragıb adama heç yaxın durma.*
*Xain çıxar, onda düz ilqar olmaz.*

Dastanda göstərilir ki, mərd ailədə doğulan və bu ailədə tərbiyə alan uşaqlar mərd də böyüyür. Belə adamlar ağır vəziyyətdə özünü itirməz. Hər bir vəziyyətdən çıxış yolu tapa bilir, ancaq müxənnətlə xain adamlar dar gündə qaçıb daldalanar, və yoldaşını, dostunu tənha buraxıb gedər:

*Qoç qoyundan olan quzu qoç olur,*
*Qoçaqlardan qoçaq olur sultanım,*
*Qoç igidlər qovğa günü şad olur,*
*Muxənnətlər nacar olur, sultanım*[1].

Dastanda sadəcə qoçaq olmaq yox, qoçaqlığı əqillə birləşdirmək məsləhət görülür və deyilir ki, ağılsız qoçaq koruş

---

[1] Azərbaycan xalq dastanları. Bakı, "Yazıçı" nəşriyyatı, 1980-83, səh. 198.

baltaya bənzəyir, ağılsız qoçağın atı tez tutular, qalxanı əlindən düşər, qılıncı kəsərsiz olar.

*Tut atının kəhərindən, göyündən,*
*Qoçaq minər ürəyindən yeyindən,*
*Bir qoç igid xəbər aldı beyindən,*
*Bətər savaş haçaq olur, sultanım*

Hüseyn və Reyhan dastanının ustadnaməsində doğru yaşamağın yolunu tapmaq, el içərisində hörmət qazanmaq üçün yaxşılıq etmək, böyüyə ağ olmamaq, mala, dövlətə, vara susamamaq, əmanətə xəyanət etməmək, qonşularla mehribanlıqla dolanmaq məsləhət görülür və deyilir ki, bu əxlaqi dəyəri qiymətləndirən insanların yolu haqq yolu olmalıdır.

*Fürsət əldə ikən yaxşılıq elə*
*Həmişə əlində ixtiyar olmaz.*
*Gəl güvənmə dövlətinə, malına*
*Mala, mülkə.ömrə etibar olmaz.*

*Dörd yanımız bağça ola,bağ ola*
*Sinəm üstü düyün ola, dağ ola.*
*Bir kiçik ki, böyüyünə ağ ola*
*Düşər el gözündən bəxtiyar olmaz.*
*Özündən böyüyün gözlə yolunu*
*Soruşub xəbər al,hal – əhvalını.*
*Əmanət saxla sən, qonşu malını*
*Qonşu istəməyən özü var olmaz.*

*Ululu Kərimder, axtaran tapar*
*Bir könülü yanan, kəbəni yapar.*
*Sən çalış işini haqq ilə apar*
*Haqqdan qeyri-kimsə sənə yar olmaz*[1].

Ustadnamələrdə deyilən bu pedaqoji fikirlər əxlaqi, kəlamlar türk xalqlarının, dastanlarının əsasını təşkil edən, məsələ-

---

[1] Azərbaycan xalq dastanları. Bakı, "Yazıçı" nəşriyyatı, 1980-83, səh. 201.

lərdir.Bu dastanda Reyhan adlı bir qız aşiqlik edir və onun qarşısına çıxan tay tapılmır. O, müdrik sözü və sazı ilə bütün aşıqlara qalib gəlir və qalib gəldiyi aşıqları dustaq edir. Kəlbala adında bir xan hiddətlənir ki, necə ola bilər ki, bir qız bütün aşıqları bağlasın. O, Reyhan xanımı çağırıb deyir, ya aşıqlığı burax, ya da aşıq Hüseyni gətirərəm səni bağlayar. Xan aşıq Hüseynə məktub göndərib onu çağırtdırır. Aşıq Hüseyn məktubu alandan sonra əldən düşmüş,əli saz tutmayan, ancaq söz-saz ustası olan Şəmkirli Bağırla məsləhətləşməyə gedir. Aşıq Hüseyn əhvalatı Bağıra danışdıqda o, deyir:

*Başına döndüyüm gül üzlü oğul*
*İstəyibdi, o meydana getginən*
*Sidqini bağla şahlar şahına*
*Qorxmaginən,yekəxana getginən*[1].

Dastanda ağıllı adamlardan məsləhət almaq, məsləhətli don gen olar məsəlinə müvafiq hərəkət etmək təqdir olunur. Həyat təcrübəsi göstərir ki, çox vaxt özündən razı olan cavanlar, müəlliminə, ahıl adamlara əhəmiyyət verməyib, onlarla məsləhətləşməyi yersiz hesab etdikləri üçün müvəffəqiyyətsizliyə düçar olmuşlar. Halbuki təcrübəli, elmli, xeyirxah adamlardan alınan məsləhət insanın mənəviyyatına təsir etdiyi kimi, irəliyə hərəkət etmək meyli doğura bilər.

Hüseyn və Reyhan dastanında türk xalqlarında çox dəbdə olan ata, anaya hörmət problemi də qabarıq şəkildə verilmişdir. Türk bölgələrində həddi buluğa çatmış gənclər üçün oğul-uşaq sahibi olmuş övladlar üçün ana məsləhəti müqəddəs olmuşdur. Şərq ədəbiyyatında ana ilə bağlı belə bir əhvalatı xatırlamaq istəyirəm. Bir gün ana uşağı körpə ikən vurur, ancaq uşaq ağlamır. Ana uşağını 50 yaşına çatana qədər hətta oğul-uşaq sahibi olandan sonra da vurursa uşaq ağlamır.50 yaşına çatanda ana övladını vurduqda oğlu ağlayır. Ana təəccüblənib ağacı yerə qoyur və soruşur. "Oğul 50 ildir səni vururam ağ-

---

[1] Azərbaycan xalq dastanları. Bakı, "Yazıçı" nəşriyyatı, 1980-83, səh. 201.

lamırsan, nə üçün indi ağladın. "Oğul cavabında Ana! Ağaclar belimə zəif dəyir, deyəsən qocalmısan". Bu dastanda da ev-eşik, arvad-uşaq sahibi olan aşıq Hüseyn Naxçıvana getmək üçün anasından icazə alıb, xeyr-dua verməsini-istəyir. Səfərdən onu geri qaytarmaq istərkən Hüseyn deyir.

"Adam dilindən çıxan sözün ağası olmalıdır"[1], mən getməliyəm. Dastandakı aşıq deyişmələrində olduqca çoxlu pedaqoji psixoloji, fəlsəfi fikirlər var. Aşıq Hüseyn Bəyçobanlı aşıqla deyirşərkən abstraq dünyadan deyil konkret həyatdan bəhs etməyi, dünyanın quruluşunu araşdırmağı, yerin, göyün hərəkətini öyrənməyi söyləyib, namus, təvazökarlıq, qəhrəmanlıq, mərifətdən danışmağı vacib hesab edir.

*Məndən salam olsun duran çobana,*
*Gəl ikimiz bu cahandan danışaq,*
*Hansı gündə dünya bərqərar oldu.*
*Yerdən göydən asimandan danışaq.*

*...Kim idi dünyanı beş əlli tutdu?*
*Kim kimi cənnətdən çölə qovlatdı?*
*Kim idi dinini dindara satdı?*
*Həqiqətdən, mərifətdən danışaq*[2].

---

[1] Azərbaycan xalq dastanları. Bakı, "Yazıçı" nəşriyyatı, 1980-83, səh. 204.
[2] Yenə orada, səh. 206.

## İSLAMIN PEDAQOJİ FİKRİN İNKİŞAFI VƏ ZƏNGİNLƏŞMƏSİNƏ TƏSİRİ

Məlum olduğu kimi tərbiyə insanların ilk qəbilə halında yaşadığı dövrlərdən mövcud olmuşdur. Lakin tərbiyə ümumi şəkildə, hamıya mənsub olmaq şəraitində keçmişdir. Burada tərbiyəyə cavabdeh olan və tərbiyənin planlı aparılmasını tənzimləyən şəxsin olmaması tərbiyə prosesində pərakəndəliyin yaranmasına, plansız həyata keçməsinə səbəb olmuşdur. Tərbiyə islamdan əvvəl ki qədim türklərdə uşaqlara ov etmək, əmək alətləri düzəltmək prosesində həyata keçirilirdi. Hətta səyahətnamələrdə, səyyahların xatirələrindədə deyilir ki, türklər zəhmətkeş, tərbiyəli və qonaqpərvər bir xalqdır. Bu xalqların nümayəndələri tərbiyə prosesində öz sənətini övladına öyrətməyənləri ömürlük öz peşəsindən məhrum etmişlər.

Lakin tərbiyə prosesinin sistemləşməsi və onun daha planlı həyata keçməsi üçün insanlığa şərəf gətirən M.Peyğəmbərin ən müqəddəs kitabı Qurani Kərim oldu.

VI əsrdə Avropada və dünyanın başqa yerlərində qanlı müharibələr gedirdi. Yalnız sakit, əmin-amanlıq olan bir yer vardısa o da Ərəbistan yarımadası idi. Burada vəhşi ərəblər tək allahı danıb bütlərə sitayış edir və əxlaqa sığmaz hərəkətlər edirdilər. Belə bir çətin şəraitdə M,Peyğəmbər əxlaqi dəyərləri yüksək qiymətləndirib onu islam dini çərçivəsində təbliq etməyə başladı. Məhəmməd peyğəmbər yeni din yaratmaqla yeni mənəviyyat, yeni tərbiyə qaydaları yaratdı və göstərdi ki, bir saat elm öyrənmək altmış ilin ibadətindən xeyirlidir. (1991-1992 Təqvim səh3)

İslam dininin Ən möhtəşəm abidəsi, ilahi gözəlliyə malik olan bu kitab milyonlarla insanların beyninə nüfuz edərək onları ana ilə övladın evlənməsi, qız uşaqlarını diri-diri basdırmaq və s kimi vəhşilikdən azad edib onları təmizliyə paklığa səslədi. Qurandakı sözlər, ifadələr, kə-

lamlar səs birləşməsi baxımından bir-birinə elə qaynaq edilmişdir ki, orada heç bir sözün ifadə və kəlmənin dəyişməsi mümkün deyil. Qurani Kərimdə olan söz-ifadə və kəlamlar Şer deyil ancaq şeriyyat üslubunda yazılmış və qeyri adi ahənglə səslənib ilahi bir harmoniya yaradır. Qurani Kərim insanları elm və tərəqqiyə, ibrətlə baxıb düşünməyə çağırdı. O insanların ədalətli, doğrucul, gözütox, mərhəmətli, yaxşılıq etməyi bacarmağa, ədəbi gözləməyi , bərabərliyi bərqərar etməyi öyrətdi. Qurani Kərim eləcədə tərbiyə elmi üçün çox vacib olan sadəlik, nəzakət, hörmət, xeyirxahlıqı gənc nəslə öyrətməyi vacib hesab etmişdir.

Qurani Kərimdə pedaqogika elminin əsas müddəalarından biri olan səhvi etiraf etdikdə onu bağışlamaq məsələsinə də toxunaraq Sureyi ta-hanın 82-ci ayəsində deyilir "Tövbə eləyən, iman gətirən, saleh bir iş görən, sonra doğru yolu tutub gedən kimsəyə qarşı mən çox yumşağam, keçərəm günahlarından". Əxlaqa və elmə yüksək qiymət verən və bununlada pedaqoji elmin inkişafına əsaslı təsir göstərən Məhəmməd Peyğəmbər deyirdi: "Mən əxlaqi gözəlliklərini tamamlamaq üçün göndərildim". Həzrəti Peyğəmbər özündə olan əxlaqın ən ülvi cəhətlərini ümumiləşdirərək demişdir ki yumşaq xasiyyətli və bağışlamağı bacaran olun. O deyirdi: "Tərəzidə çəkilsə, gözəl xasiyyətdən daha ağır gələn heç bir şey yoxdur". O deyiridi ki əxlaqı süqut etmiş bir xalqla iş görmək və xalqı səadətə çatdırmaq onu xoşbəxt etmək olmaz: O deyirdi: "Valideyinlərinizi sevin, onlara hörmət edin, qəriblərə, yoxsullara kömək göstərin, xoş əxlaq olun, dikbaş, şöhrətpərəst, lövğa olmayın, girdiyiniz hər evə allahdan xeyir-bərəkət diləyin. Sizin nəsliniz-əxlaqınızdır, qohumlarımz ilə gördüyünüz yaxşı işlər, yaxşı əməllərdir". Qurani Kərimdə nəcib əxlaqlı adam haqqında deyilirdi: "o əsil adamdır", "İnsan adamdır, təbiəti, xasiyyəti yaxşıdır",

mərifət elmindən dolu insandır". "Ədəb ərkan sahibidir", "Bütöv adamdır". Həzrəti Peyğəmbər yoldaşlıq, dostluq, düzlük, doğruluq, halallıq, sadəlik və təvazökarlıq, kimi nəcib keyfiyyətləri özündə əks etdirməyən adamları "Ölmüş qardaşının ətini yeyən və qanını içən" adama bənzədirdi. "Həzrəti Peyğəmbərin tərbiyə nöqteyi nəzərindən çox qiymətli olan bu kəlamları müsəlman aləmində əxlaq tərbiyəsinin əsasını təşkil etdi. Beləliklə də islam şərq pedaqogikasınm inkişafına əsaslı təsir göstərdi. İslam insanların xoşbəxt, halal yaşamasını, səadətə çatmasını, zəhmət və əməkdə gördü. Əməyin insan şəxsiyyətinin formalaşmasında əvəzsis rolunu görən, Məhəmməd Peyğəmbər özü həddən artıq saf və təvazökar yaşamış, heç kəsə əziyyət vermədən öz işlərini öz əməyi ilə görmüşdür. O adamlara münasibətində heç vaxt ağa-nökər ayrı seçkiliyinə yol verməmişdir. Məhəmməd Peyğəmbər gənc nəslə məsləhət görürdü ki, heç kəsə möhtac olmayın, həyatda hər şeyi mübarizəli zəhmətlə özünüz qazanın. "İbadət yetmiş qapıdır (hissədən ibarət), ən üstünü halal yolla ruzi qazanmaq üçün çalışmaqdır" və yaxud "halal ruzi qazanmaq yolunu arayıb axtarmaq əslində mübarizədir və hər bir müsəlman üçün vacibdir"[1]. Məhəmməd Peyğəmbər bunlarla yanaşı tərbiyənin digər məsələlərinə də toxunaraq gənc nəsli təvazökar, mərifətli və kinli olmamaq, zəif adamlara əl qaldırmamaq, özündən tez çıxmaq kimi tərbiyə üçün çox lazım olan keyfiyyətləri hər kəsin özündə tərbiyə etməsini lazım bilirdi. Məhəmməd Peyğəmbər insanın formalaşmasında elmi biliklərin rolunu yüksək qiymətləndirərək deyirdi: "Bilik əldə etməyə çalışan adam, təhsildən əl çəkməyən dünyadan köçüb gedərkən, şəhid hesab edilir""[2]. Və yaxud "Bilik sahibi olub rahat yat-

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh. 132.
[2] Yenə orada səh 157.

maq, biliksiz olub namaz qılmaqdan yaxşıdır"[1]. Məhəmməd Peyğəmbərin elmə, əməyə, əxlaqa, əqli və fiziki tərbiyəyə necə yüksək qiymət verdiyini daha aydın təsəvvür etmək üçün onların hər birini ayrılıqda verməyi daha münasib hesab etdik.

### *Quranda əxlaq tərbiyəsi*

Orta ümumi təhsil və ali məktəblərin təcrübəsi göstərir ki, Peyğəmbərin Qurani Kərimi gənc nəsildə əxlaq tərbiyəsinin formalaşmasına böyük təşir göstərir. İslam dininin əsasını təşkil edən namaz, oruc, zəkat və həqq əslində əxlaqi keyfiyyətlərlə sıx bağlıdır. Bu ibadətləri yerinə yetirmək, hələ ləyaqətli insan olmaq demək deyil. Əgər ibadət edən Adam yalan danışaraq, qeybət edirsə, ləyaqətsiz hərəkətlərə yol verirsə, o həqiqi insan, gözəl əxlaq sahibi ola bilməz. Qurani Kərimdə gənc nəslə tövsiyə edilən məsələ ədəb ərkan qaydalarını gözləməkdir. Orada deyilir: "Sizə salam verildiyi zaman, onu daha gözəl alın və qaytarın (nisa 86) salamı almamağı hörmətsizlik etinasızlıq əlamətidir". Salam uşaqlara körpəlikdən öyrədilməlidir. Əxlaqi normalardan bəhs edilərkən peyğəmbər deyirdi: "Ey iman gətirənlər başqalarının evlərinə sahiblərindən icazə olmadan və onlara salam vermədən girməyin. Bu sizin üçün daha yaxşıdır". (nur 27).

Quranda deyilir ki, evə girərkən izin istəmək, ev sahibi xəcalət qalmasın deyə əvvəlcədən xəbərdar etmək lazımdır. Xüsusən də ata, ananın yataq otağına girdikdə icazə almalısınız. Əgər otaqda heç kimi tapmasanız, sizə icazə verilməyənə qədər içəri girməyin. Sizə geri dönün-deyilsə, göri dönün. (nur 28) Qurani Kərimdə həm də gözəl, yerində danışıq əxlaqın vacib şərtlərindən hesab edilərək deyilir: "Adamlardan təkəbbürlə üz çevirmə, yer üzərində löv-

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh 153.

ğa-lövğa danışma". (loğman 18) və yaxud "Yerişində müvazinat gözlə, səsini ucaltma". Çünki, ən çirkin səs uzunqulağın səsidir. (loğman 19) Quranda göstərilir ki, böyüklərə yer ver, məclisə gələn şərəfli adamlara təzim et, ayağa dur, yer göstər. Qurani Kərim həm insanların, həm də cəmiyyətin öz ləyaqətini saxlaması üçün ədaləti gözləməyi vacib sayaraq deyirdi: "Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etməyinizi əmr edir". (nisa 58).

Xeyirli işlər görməyi, yaxşılıq etməyi tövsiyə edən Qurani Kərimdə deyilir: "İçərinizdə yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun". (imran 104)

İslam əxlaqının ən mərkəzi yerlərindən birini də doğruluq tutur. 112-ci hud surəsində deyilir: "Sənə əmr etdiyim kimi, düz ol. Səninlə bərabər iman gətirən də düz olsunlar". Qurani Kərim riyakarlığı, ağızdan eşitdiyi bilmədiyi sözü danışanlara deyirdi: "Ey iman gətirənlər Eləməyəcəyiniz bir şeyi niyə deyirsiniz? Eşitmədiyiniz bir şeyi demək allah yanında böyük qəzəbə səbəb olur." (səf 2-3) "Onların əksəriyyəti ancaq zənnə uyar, zənn isə əsla həqiqət ola bilməz" (Yunus 36) Qurani Kərim hər işdə hətta alverdə, çəkidə də düz olmağı tövsiyyə edərkən deyirdi Ölçüdə və çəkidə düz olun. İnsanların heç bir şeydə haqqını əksiltməyin.

Qurani Kərim əxlaqın ən vacib hissələrindən birini də həya hissini, həddini aşmamağı sayırdı." Utanmadığın təqdirdə istədiyini et."

İnsanlara hörmət və ehtiramla yanaşan 15 əsr bundan qabaq nazil olan, hər dövr üçün böyük tərbiyə, əxlaq kitabı olan Qurani Kərim insanlara müraciət edərək hər kəsə öz eybləri, nöqsanları ilə mübarizə aparmağa çağırarkən, başqalarında eyb axtarmamağı, başqalarına ləqəb qoymamağı, istehza ilə yanaşmamağı məsləhət bilmişdir. O

deyirdi ki, şəxs, həqiqi müsəlman o kəsdir ki, başqasının eybini üzə vurmasın. Qurani Kərimdən gətirdiyimiz çox cuzi əxlaqi dəyərlər insanları düzgün yola çıxarmaq, düzgün tərbiyə vermək və gənc nəsli Kamil insan kimi formalaşmağa yönəldən dəyərlərdir, Qurani Kərim həm tərbiyə, həm də özünü tərbiyəyə yüksək qiymət verərək deyirdi: “Siz insanlara yaxşı işlər görmələrini əmr etdiyiniz halda özünüzü unudursunuz”.(bəçər 44)

Peyğəmbər Qurani Kərimdə insanları bir-birinə mehriban olmağa, qayğı göstərməyə, pis əməllərdən çəkinməyə çağırarkən deyirdi: “Valideynlərinizi sevin onlara hörmət edin, qəriblərə yoxsullara kömək göstərin, nə xəsis, nə də israfçı olun, xoş əxlaq olun, Adam öldürməyin, qəyyum olduğunuz yetimlərin pulunu yeməyin”. Peyğəmbər Qurani Kərimdə valideyin övlad münasibətinə xüsusi yer verərək valideynləri uca tutmağı, övladın onlara ehtiram və itaət göstərmələrini xüsusi vurğulayır. O göstərirdi ki, ana və ata yer uzundəki varlığın səbəbidir. İnsan bütün yüksək mövqe tutması üçün, yaxın tərbiyə görməsi və təhsil alması üçün valideyininə borcludur. Peyğəmbər deyirdi: “Əgər onların (ata və ana) biri və ya hər ikisi sənin yanında qocalmış və ən düşkün çağına yetərsə, onlara uf belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış (onların hər ikisinə acıyaraq mərhəmət qanadını aç) Pərvərdigara onlar məni körpəlikdən tərbiyə edib bəslədikləri kimi, sən də onlara rəhm et- de” (İsra 23-24).

Peyğəmbərin valideynlərə olan bu münasibətini təəssüf ki, heç bir tərbiyə kitablarımızda tapmadığımızdan uşaqlarla valideyin münasibəti korlanmış, uşaqlar ata-analarına çox hallarda hörmətsizlik göstərir. Peyğəmbər anaya xüsusi üstünlük verərək deyirdi: “Allah sizə analarınızı incitməyi qadağan etmişdir”.

Qurani Kərimdə nigaha böyük əhəmiyyət verilir. Nigahın qadınla kişi arasında böyük hörmət, sevgi və məhəbbətin yaranmasına səbəb olduğunu göstərərkən deyilir: "Sizin üçün onlarla unsiyyət edəsiniz deyə öz cisminizdən zözcələr xəlq etməsi, aranızda dostluq, sevgi və mərhəmət yaratması da onun qüdrət əməllərindəndir". (Ruqi -21). Peyğəmbərin bu göstərişi İslam Aləmi üçün bir model oldu. Lakin bu modeli türk xalqları yüksək mənəviyyat şəklində qəbul edib, bir çox müsəlman ölkələri kimi çoxarvadlılıq yox, tək arvad almaq və ona sədaqət, hörmət və ehtiramla yanaşmaq kimi qəbul etdi. Peyğəmbər quranda ər və arvad problemini irəli sürərkən ailənin möhkəmliyini yaratmaq məqsədilə ərin və arvadın qarşısında bir sıra vəzifələr qoyurdu. O qadınlara hörmət etməyi tövsiyə edirdi ki, İslamı doğru qəbul etmiş insanın əxlaqı da gözəl olsun. Ən xeyirlisi də qadınlarla yaxşı davranmaqdır deyirdi. Peyğəmbər deyirdi: "Kişilərin qadınlar üzərində şəriətə görə haqları olduğu kimi, qadınların da onlar üzərində haqları var. Ancaq kişilər onlardan bir dərəcə üstündür". (bəqərə 228)

Heç şübhəsiz ki, ailə həyatında müxtəlif hadisələr ola bilir. Bəzən yersiz qısqanclıq, inciklik, küskünlük və s. Belə vəziyyətdə ər və arvadın necə hərəkət etməsi barədə deyilir: "Əgər bir qadın öz ərinin qaba hərəkətindən, yaxud ondan üz çevirməsindən qorxarsa, onların öz aralarında bir növ barışıb düzəlişmələrindən ər və arvada heç bir günah gəlməz. Çünki barışmaq xeyirlidir" Qurani Kərim böyük xoşbəxtlik ümudı ilə qurulan ailənin dağılmasının qəti əleyhinə çıxır. O, hər iki, ər və arvadın güzəştə getməsini məsləhət görür ailənin dağılmasına yol verməınək üçün yaşlıların da işə qarışmasını məsləhət görür, əgər siz yaxşı dolanıb (dava dalaşdan, kobut rəftardan) çəkinsəniz yaxşıdır. (nisa: 128) "Əgər ərlə arvad arasında ixtilaf olmasından qorxsanız o zaman kişinin adamlarından bir

nəfər və qadının adamlarından da bir nəfər münsif təyin edib göndərin. Əgər bu iki vasitəçi ərlə arvadı barışdırmaq istəsə, Allah da onların köməyi olar". (nisa 95). İslamın qadın problemində ən böyük nailiyyətlərindən biri də qadına vərəsəlik hüququ verməsidir. Bununla islam qadının çölə atılması, ac qalmaması, uşaqlarını böyütmək üçün iqtisadi cəhətdən təmin edilməsinə şərait yaratmışdır. Ər və arvad probleminin doğru həlli, mənəviyyatlı ailənin qurulması üçün göstəriş verən peyğəmbər övladların da valideynlərə münasibətini yaddan çıxarmamışdır.

Məlum olduğu kimi anaya məhəbbət tərbiyə elminin ilk əlifbasıdır. Nahaq yerə deməmişlər ki, "Ana Vətən". Belə bir əhvalatı açıqlamaq istəyirəm. Sovetlər dövründə Moskvaya ezamiyəyə gedirdim. Gecə saat 3-də bir nəfər Rostov şəhərində mən yatdığım kupeyə gəldi. Səhərə az qalmış qonşumun "Ana", "Ana" qışqırığı məni yuxudan oyatdı. Qonşum duranda soruşdum: "Yəqin ki, ananızın yanından gəlirsiniz?" O cavabında dedi ki, mən doğularkən anam rəhmətə gedib. Düşündüm ki, ilahi ana nə qədər müqəddəs, nə qədər ali bir məxluqdur ki, heç anasının üzünü görməmiş bir adam yuxusunda xeyridirmi. Şəridirmi, dardamı qalib anasını çağırır. Ona görə də Peyğəmbər əsabələrinin birinin "Hər hansı bir kəsin yaxın adamı kimdir?" sualına demişdir: "Anadır". Soruşandakı bəs ondan sonra kimdir Peyğəmbər 2-ci və 3-cü dəfə də anadır demişdir. Peyğəmbər , Ana və ata eyni vaxtda səni çağırırsa əvvəlcə ananın yanına get"[1] demişdir və yaxud bir adam anasının, atasının üzünə şəfqətlə baxarsa, Allah ona qəbul olunmuş həcc savabı verər. Peyğəmbərin tərbiyəvi xarakter daşıyan ana haqqında kəlamı əsrlərlə gənc nəslin mənəvi tərbiyəsində böyük rol oynadı və zaman-zaman böyük hikmət sahibi olan aşıq, şairlərimiz bu muqəddəs anaya onlarla, yüzlərlə şer həsr etdilər. Türk şairi Orxan Seyfi yazırdı

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh. 135.

*Dizində ağlasam bir az bu axşam*
*Dünyaya gəldim də, nə buldum, ana?!*
*Varlığım əriyir necə ağlasam,*
*Bu gün lap qəlbimdən vuruldum, ana*

*Əkslər duyulur bu sözlərimdə,*
*Vadidən vadiyə axan bir Sudan*
*Dumanlar bir xəyal var gözlərimdə*
*Oyanmış kimiyəm sanki yuxudan.*

*Çoxaldı nəhayət, saçlarımda ağ,*
*Məni qəhr eləyir bu gizli dərdim,*
*Zər dürrlu əməldən, həvəsdən uzaq,*
*Leylamı bir vətən kimi sevərdim.*

*Bəxtiyar olmayır belə sevən də,*
*Hər baxış dumanlı, hər könül qarlı.*
*Bir sevinc umarkən axırda məndə*
*Bu məlun oyundan çıxdım zərərli*

*Dizində can versəm- nə var bu axşam*
*Dünyaya gəlsəm də nə buldum, ana*
*Varlığım əriyir necə ağlasam,*
*Bu gün ta qəlbimdən vuruldum, ana.*

Bu gün televizora baxdıqda və ətrafdakı adamları müşahidə etdikdə biz insanların qəlblərinin daşlaşdığını, mərhəmət hissinin öldüyünün şahidi oluruq. Darda qalana kömək etmək, xəstəni yoluxmaq Peyğəmbərə görə savab işdir. O deyirdi: xəstənin yanına gedib gələndən sonra özünü cənnətdə hiss edəcəksən". Peyğəmbər bu kəlamla insanlara həssas olmağı tövsiyə edərkən, xəstənin yanında əzab verməmək, onu narahat etməmək üçün çox oturmamağı məsləhət görürdü. O deyirdi: "Savab baxımından ibadətin ən

üstünü xəstəyə baş çəkməyə gedəndə, onun yanından tez qalxmasıdır"[1].

Gənc nəslin formalaşmasında insanpərvərliyi yüksək qiymətləndirən Peyğəmbər deyirdi ki, insan insanları sevməlidir. İnsanları sevən adamlar pis, nalayıq hərəkətlərə yol verməz, öz ləyaqətini saxladığı kimi, başqalarının da ləyaqətinə toxunmaz. Peyğəmbər deyirdi: "Bir mil get, bir xəstənin hal-əhvalını soruş, iki mil yol get, iki adamın arasını düzəlt, onları barışdır, üç mil yol get, Allah yolunda din qardaşlarından birini ziyarət et,"[2] Əxlaqi keyfiyyətlərdən bəhs edən Peyğəmbər deyirdi: "Özünə rəva bilmədiyini başqasına rəva bilmə, heç kəsi aldatma və heç kəsə yalan danışma. Yalana o zaman yol vermək olar ki, o kiminsə həyatını xilas edəsən. Belə bir əhvalat yadıma düşdü. Məktəbdə müəllim işləyirdim. Pis oxuyan bir uşağın evinə getməyi qərarlaşdırdım. Evə daxil olanda uşağın anasını dinməz çarpayıda uzanmış gördüm. Özümü itirsəm də tez əla alıb söhbətə başladım. Qadın dinmirdi, ancaq gözlərində vahimə var idi. Uşağının məktəbdə pis hərəkətindən, oxumasından narahat idi.

Xəstə yatan və necə ay gülümsəməyən anasının müəllimin söhbətindən, onun daha da pis vəziyyətə düşəcəyini zənn edib uşaq təlaş keçirirdi. Mən vəziyyəti başa düşüb başladım ki, bilirsinizmi oğlunuz necə yaxşı oxuyur və əla qiymətlər alır. Gəldim sizə təşəkkürümü bildirim. Neçə ay dinməyən ana azacıq gülümsədi. Xudafisləşib çıxanda uşaq mənə sarmaşıb dedi: "Müəllim, çox sağ olun, neçə ay idi ki, anamı heç nə şadlandıra bilmirdi. Siz bizə deyirdiniz ki, yalan ən pis əxlaqi keyfiyyətdir. Nə üçün yalan danışdınız. "Mən başa saldım ki, Peyğəmbər deyirdi

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh. 132.
[2] Yenə orada səh. 124.

ki, əgər kiminsə həyatını xilas edirsənsə yalana yol vermək olar.

İslamda yüksək qiymətləndirilən əxlaqi keyfiyyətlərdən biri də doğruçulluq, düzlükdür. Bu keyfiyyət uzun illər öz zəhməti hesabına yaşayan xalqın zəruri tələblərindən əmələ gəlmişdir. İslam isə bu keyfiyyətləri dahada möhkəmlətmək üçün deyirdi "Doğru olun, çünki doğruçul olmaqla yaxşılıq etmək bərabərdir". Peyğəmbər insanlara belə məsləhət edirdi: "Ancaq 2 şeyi, doğru sözü və doğru yolu, əsas tut". Bununla da o doğrucul düz və dəqiq olmağı insanın zinnəti hesab edirdi. Bunlarla yanaşı Peyğəmbər insanlara əl tutmağı, ziyan çəkənlərin səhvini düzəltmək, darda qalanlara kömək etmək üçün insan ürəyini sevindirmək, acları yedirtmək, əldən düşənlərin kədərlərini azaltmaq və ziyan çəkənlərin səhvini düzəltməyi lazım bilirdi. Peyğəmbər belə hesab edirdi ki, əxlaqi keyfiyətləri özündə əks etdirən hər bir kəs mənən yüksəlir, onda yüksək amal, ideallar uğrunda mübarizə aparmaq, pis şeyləri aradan qaldırmaq meyli doğur. Peyğəmbər bir kəsə pənah gətirəni qorumaq, ehtiyacı olanı, imdad diləyəni boş qaytarmamağı əxlaqın tərkib hissəsi hesab edərək deyirdi: " Allah xatirinə sizə sığınanı qoruyun, sizdən bir şey istəyəni boş qaytarmayın.Allah lənət etsin zülmə düçar olanı görüb ona kömək etməyənə"[1] və yaxud Qulun qardaşına bir günlük yardım, onun bir bucağa çəkilib bir ay ibadətlə məşqul olmasından xeyirlidir[2]. Peyğəmbər dönə-dönə özü yeyən başqalarına yardım etməyənləri tənqid edərək, sədəqənin insan üçün böyük zinət olduğunu belə ifadə edirdi: "Yararsız qalmış bir yeri cana gətirən adam bəri başdan savaba nail olur, orada nə əkib –becərsə, oradan nə gətirsə özünə sədəqə sayılır[3].

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh. 124.
[2] Yenə orada səh 131.
[3] Yenə orada səh 136.

Peyğəmbər əxlaqi keyfiyyətlərdən biri olan dostluq haqqında da olduqca dəyərli fikirlər söyləmiş və dostluğun lap kiçik yaşlarından aşılanmasını lazım bilmişdir. O uşaqlara dostluqda möhkəm olmağı, dostu darda qoymamağı tövsiyə edərkən deyirdi: "Atasının ölümündən sonra onun dostları ilə əlaqəni kəsməyənlər yaxşıların yaxşısıdır"[1]. və yaxud "Hər işdə dostuna əlini uzadan adamın yeri cənnətlikdir". Peyğəmbər deyirdi ki, qonşunun ən əzizi, yaxşısı qonşusuna yaxşı olandır. Peyğəmbər kəlamlarında dostluğun sadəcə bir-birini sevmək, hörmət etməmək deyil, həm də savaşda dostunu qorumaqda, ona arxa durmaqda görərək deyirdi: "Savaş yalnız Ulu Tanrı yolunda bir adamın qılınc çalması deyil, əsil savaş, əsil mübarizə ata-anasını təmin etməkdən, dostuna daim arxa olmaqdan ibarətdir". Yəni kim öz yoldaşını darda qoyub qaçırsa, onun bədbəxtliyinə gülürsə o lənətə layiqdir. İslam yoldaşı, dostu ilə bir il küsülü qalan, görüşməyən adamı qatil hesab edərək onu qan tökmüş adamla müqayisə edirdi.

Peyğəmbər deyirdi: "Eləki dostunuzda üç (3) həya, etibar, düzlük gördünsə ondan yapış, bu keyfiyyətlər yoxsa aralan". Yaxşı dost peyğəmbərə görə ətir satana bənzəyir. Çünki onun ətrini duyursan, həzz alırsan. Pis dost isə dəmirçiyə bənzəyir. Onun körüyündən çıxan qığılcımlar ya evinə, ya da paltarına düşüb yandırar. Ya da ondan pis qoxu gələr. Peyğəmbər dostu pis əməllərdən çəkindirməyi yüksəklik, ləyaqət hesab edərək deyirdi: "Biriniz yoldaşınızda, yaxud başqasının bir hərəkətində pis bir şeylə rastlaşdıqda, çalışıb öz hərəkətiniz ilə onun qabağını almağa çalışın, buna gücünüz çatmasa, qəlbən o şeyi pisləyin[2]. Kəlamlarda eləcə də deyilirdi: "Yoldaşına kin və həsəd, çatılan tonqalı külə döndərən atəş kimidir, nə qə-

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh 118.

[2] Yenə orada səh 96.

dər ibadət etmiş olsan da onlar puç olmuş kimidir. Əgər dostun səni darda qoyub axtarmayıbsa sən onun etdiklərinin əksini et ki, utansın, səhvini başa düşüb eybini görsün. İslamda öz nöqsanlarını görüb ondan nəticə çıxaranlar mədh olunur. İslam həsəd aparmaq, qeybət etmək, yalan danışmaq, birisinə şər atmaq, simic olmağa pis baxır. İnsan əxlaqının bu mənfi tərəflərinə qarşı mübarizə aparmaq, həqiqi insanın formalaşması üçün zəruri olan şərtlərdəndir. İslamı bir az dərindən öyrəndikdə onun tərbiyə mənbəyi olduğu meydana çıxır. Məsələn "Çəkinin başqasına həsəd aparmaqdan: çünki, atəş yeri-göyü yandırdığı kimi, həsəd edilən yaxşılıqları yandırır, kül edir. Çəkinin qeybət etməkdən, çünki qeybət etmək zinalıq etməkdən pisdir. Zinalıq edən sonra tövbə edər. Allah da tövbəsini qəbul edər, lakin qeybət edənin günahını Allah o vaxt bağışlayır ki, əvvəlcə qiybət etdiyi adam onu bağışlasın". Və yaxud "Çalış insanları şərdən xilas et, bu sənin özünə verdiyin sədəqədir. Xəbərçilikdən uzaq olun, camaat arasında söz gəzdirməyin"[1].

Əxlaq tərbiyəsində çox böyük əhəmiyyət kəsb edən səxavətlilik və xəsislik də Peyğəmbərin nəzərindən qaçmamışdır. O deyirdi: "Səxavətlilik cənnət ağaclarından biridir, budaqları dünyanm üstünə sallanmışdır, kim bu ağacın bir budağından yapışsa, həmin budaq onu cənnətə aparar. Xəsislik isə cəhənnəm ağacıdır, onun budaqları da dünyanın üstünə sallanmışdır, kim o ağacın bir budağından yapışsa həmin budaq onu cəhənnəmə aparar"[2] Peyğəmbər deyirdi: "Mömünə iki şey yaraşmaz" xəsislik və yalan danışmaq". Məhəmməd Peyğəmbər xəsisliyi xəstəlik sayır və belə hesab edirdi ki, bu keyfiyyət ancaq xəbis, aşağı səviyyəli adamlarda ola bilər. "Ulu yetkin adam

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh. 124.

[2] Yenə orada, 1990, səh 131.

xəsis ola bilməz"[1]. Məhəmməd Peyğəmbər əxlaq tərbiyəsində gənc nəsildə həya hissinin aşılanmasını lazım bilərkən deyirdi: "Həya bəzəkdir, həya edib pis işdən çəkinmək mərhəmətdir, kəramətdir[2]. Və yaxud: "Həyalılıq özü bir insan olsaydı, tər-təmiz bir insan olardı. Pislik özü bir insan olsaydı allahın yaratdığı ən pisi, ən murdarı olardı[3]. Peyğəmbər kəlamlarında eləcə də haram, halal məsələsinə toxunmuş və insan üçün lazım olan əxlaqi keyfiyyətləri insan bədəninə oxşatmışdır.

O, deyirdi: "bədəndə bir ət parçası var, o düz, təmiz olduqda bütün bədən təmiz olur, əksinə təmiz olmadıqda bütün bədən pozulur. O deyirdi ki, o ət parçası qəlbdir, ürəkdir. İslam dəyərlərində əxlaqi keyfiyyətlərdən biri hesab edilən həmrəylik məsələsinə də xüsusi diqqət yetirilir və göstərilir ki, birgə işin, birqə həyatın səmərəsi çox olur. "Güc birlikdədir".

Məhəmməd Peyğəmbər deyirdi: "Bir yerdə yemək yeyin, bir birinizdən ayrılmayın, çünki, bir adamın yeməyi iki adama yetər, 2 adamın yeməyi 3-4 adama yetər, bir yerdə yeyin; bir-birinizdən ayrılmayın. Bir –birinizdən ayrı yeməyin, çünki bərəkət topluluqdandır cəm halında olmaqdır. Başqa bir kəlamda "kütləvilik rəhmətdir, ayrılıq əzabdır" deyilir. Peyğəmbərin kəlamında olan bir qiymətli cəhətdə pis əməl olan rüşvətin tənqid edilməsidir. Kəlamda deyilirdi: "Allahın lənəti olsun rüşvət verənə də, alana da, onların arasında vasitəcilik edənə də. Başqa bir kəlamda deyilir "Rüşvətlə yoğrulan hər bir cəsədin ən layiqli yeri oddur, atəşdir". "Lənət olsun pul, paraya qul

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, 136.

[2] Yenə orada səh 118.

[3] Yenə orada səh 124-125.

olanlara"[1] və yaxud "Bir əmirin hədiyyə qəbul etməsi haramdır, hakimin rüşvət alması kafirlikdir"[2].

Peyğəmbər eləcə də əxlaq tərbiyəsindən danışarkən yalandan şahidlik edənlərin qan tökənlərin yerinin cəhənnəm olduğunu söyləyir və deyirdi: Yalandan üzə durmağı, yalandan şahidlik etməyi sizə qadağan edirəm"[3].

Beləliklə Quranda əxlaq tərbiyəsi məsələlərini yekunlaşdırarkən qeyd etməliyik ki, bu gün gənclərin yüksək mənəviyyatlı insan kimi formalaşması üçün onların həssas və qayğıkeş olmasına, valideynlərinə qarşı ədəbli və nəzakətli münasibət göstərməsinə, dostluqda və yoldaşlıqda sadiq, mərd, təvazökar, səxavətli, doğrucul, qonşuya və qohuma xoş rəftar olmasına çalışarkən Məhəmməd Peyğəmbərin yüksək mənalı kəlamlarından istifadə etmək artıq dərəcə də xeyirli ola bilərdi.

## *Quranda Əqli tərbiyə*

Əqli tərbiyə insanın inkişafında onun dünya görüşünün və əxlaqi sifətlərinin yaranmasında, həm də cəmiyyətin həyatında mühüm rol oynayır. Bəşəriyyətin hasil etdiyi bilik sərvətlərinə yiyələnmək üçün uşaqların kiçik yaşlarından əqli tərbiyəsinə diqqət etmək lazımdır. Bunun üçün ən yaxşı vasitələrdən biri islam dəyərlərindən istifadə etməkdir. İslamın elmə, biliyə münasibətinin əsasında yaradıcı şüurlu fəaliyyəti durur. Peyğəmbərin kəlamlarının birində deyilir "Mənasını bilmədən, dərk etmədən Quranı oxumağın faydası yoxdur". Biliklərin şüurlu mənimsənilməsinin elmin dərinliyinə varmaq üçün qiymətli vasitə olduğunu söyləyən peyğəmbər deyirdi: "Bilik tükənməz xəzinədir, o xəzinənin

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh. 195.

[2] Yenə orada səh 91.

[3] Yenə orada səh 95.

açarı isə soruşub öyrənməkdir. Soruşun, öyrənin, Tanrı rəhmət etsin sizə, çünki soruşduqda dörd adama savab düşür: soruşana, öyrədənə, dinləyənə , bunları sevənə"[1].

Allah talanın yaratmış olduğu həyat və sevgi kimi nemətlər olmasaydı insanın insanlığı da öz mənasını itirə bilərdi. Yüksək mənəvi keyfiyyətlərin yaranmasını məsləhət görən Peyğəmbər eyni zamanda düşünməyi dərk etməyi vacib şərt hesab etmişdir Çünki düşünüb, dərk olunmamış bir şey insanı inamsızlığa, kor-koranə itaətə aparıb çıxara bilər, Bütün ilhamların, əqidələrin əsasında dərindən dərk olunmuş elmi-biliklər durur. Əxlaqi və elmi dövləti səviyyəyə qaldıran və bununla da pedaqogika elminin zənginləşməsinə təkan verən peyğəmbər deyirdi. "Bilik sahibi olub rahat yatmaq, biliksiz olub namaz qılmaqdan xeyirlidir[2]. və yaxud "vaxtını biliklərə yiyələnməyə sərf edən adam, müsalmanlığın dirəyidir"[3].

Peyğəmbər təkcə səriət qanunlarını öyrətməklə kifayəilənməməyi, başqa elmləri də öyrənməyi tələb edərkən deyirdi "Bilik həmişə çətinlikdə əldən tutar. Qaranlıqları işıqlandırar, elm insanların etibarlı dostudur, o dar halda insana dayaqdır. Elm insanı xoşbəxt, yüksək məğrur və qüvvətli edir. Elm insanı dostlar arasında şöhrətləndirdiyi kimi, düşmənlərdən də qoruyur". (F.Seyidov Türk xalqlarının tərbiyə və məktəb tarixi səhvə 48)

Əl qəzzali Elmlərin açarı kitabında yazırdı ki, o, gün ki, Peyğəmbər biliyini artırmadı həmin günü itirmiş hesab edirdi. Peyğəmbər deyirdi: "Bir an elmlə məşğul olmaq, bir an kitaba, yazıya baxmaq, 60 il ibadət etməkdən xeyirlidir"[4].

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh. 152.
[2] Yenə orada səh 153.
[3] Yenə orada səh 153.
[4] Yenə orada səh 150.

Başqa bir kəlamda deyirdi ki, "Bilikli adamın üzünə baxmaq, onunla oturub durmaq ibadətdir"[1].

Peyğəmbər bilik alarkən onu şüurlu mənimsəməyə, bilik ətrafında mübahisə aparmağa və elmi nəticələrə qəlməyə xüsusi diqqət yetirərək deyirdi: "Bilik əldə etməyə çalışın, bir-birinizlə bəhsə girişin, çünki elm sahəsində eşitdiyiniz hər bir yeni söz, yer üzündəki qızıllardan bürüncləɔrdən daha qiymətlidir[2]. Başqa bir kəlamda deyirdi. "Elmi biliklərə yiyələnmək üçün bir an çalışmaq Allahın yanında oruc tutmaqdan da, Namaz qılmaqdan da, həccə getməkdən də, ulu tanrı yolunda cihada qoşulmaqdan da üstündür[3]. Peyğəmbər kəlamlarında göstərir ki, yalan, həsəd aparmaq pis keyfiyyətdir, lakin bilik əldə etmək üçün başqasına həsəd aparmaq yaxşı işdir. Oxumaq və yazmaq ən ğərəkli işdir. Çünki ürək və mərhəmət onunla yaranır. Oxumaq və yazmaq yaxşını yamandan ayırmağa, xeyirli və faydalı iş görməyə təhrik etdiyi kimi, gərəksiz, əxlaqsız, günah törədən işlərdən qoruyur, yaxşıyla yamanı bir-birindən ayırmaq üçün insana kömək göstərir. Peyğəmbər kəlamlarında mənəviyyatı yüksək qiymətləndirərək deyirdi ki, müsəlman o kəs olmalıdır ki, onun dili rəvan, şirin məlahətli, əqli dərin və hərtərəfli olsun. Peyğəmbər mərifətli adamın dünyada gözəl ad qoyub getdiyini, belə adların millət və vətənə xeyir gətirdiyini, valideynlərini fərəhləndirdiyini söyləyərkən elmin çətin, daşlı kəsəkli yolu olduğunu, ona sahib olmaq üçün məşəqqətli yol keçməyin vacibliyini vurğulayaraq elm qazanmaq üçün Peyğəmbər insanda səy və həvəs, zehin və diqqət mükəmməl yaddaş və qabiliyyətin olmasını vacib hesab edirdi. Elmin böyük mütərəqqi əhəmiyyətini dərin-

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh 151.

[2] Yenə orada səh 149.

[3] Yenə orada səh 149.

dən dərk edən peyğəmbər göstərirdi ki, elm hər bir müsəlmana istər kişi olsun, istər qadın vacıbdir. Quran adından görsəndiyi kimi, elmi öyrənməyi, bilik əldə etməyi, bir sözlə oxumağı əmr etmişdir. Qurani Kərimin Ruki surəsinin 50-ci ayəsində Elm ilə imanın adı bir səviyyədə çəkilir. Elm kəlməsi Quranda 779 dəfə işlənmişdir. Quranda alimlər, oxumuş insanlar yüksək qiymətləndirilir. Biliksizlərlə alimlər arasında böyük uçurumun olduğu göstərilir. "Hər bilənlərlə bilməyənlər eyni ola bilərmi? (Zümər: 9) "Kor ilə görən eyni ola bilməz (fatir 19-20) və ya "Alim öldü, Aləm öldü". Elmi, insan ömrünün sonuna qədər öyrənməlidir. Peyğəmbər deyirdi ki, elm öyrənən zaman, əgər birisi qəflətən ölərsə o şəhid sayılır. Peyğəmbər hədislərində elmi hər kəsin özü üçün deyil, vətənin çiçəklənməsinə xidmət etməsini vacib hesab edirdi. O, ən böyük sədəqə elmi özü ilə bərabər müsalman qardaşlarına da öyrətməyi hesab edirdi.

Peyğəmbər təlimin asandan çətinə prinsipini irəli sürərək, deyirdi "Bildiklərinizi başqasına öyrədin, öyrədərkən elə edin ki, sizi dinləyən dediklərinizi başa düşsün. Öyrətdiyiniz adamı çətinə salmayın, onu sevindirin şadlandırın çalışınki, sizi dinləyən biliyə nifrət etməsin, qorxub çəkinməsin[1]. Peyğəmbər əqli tərbiyə verən, bilik öyrədən müəllim və tərbiyəçiyə rəğbətlə, yüksək hörmət və ehtiramla yanaşmağı vacib şərt hesab edirdi. O, deyirdi: "Kimdən bilik öyrənirsinizsə, ona mehriban olun". Bununla da Peyğəmbər təlim prosesində uşaqlara və müəllimlərə qarşı səmimi, mehriban, həssas, qayğıkeş olmağı tələb edirdi. Peyqəmbər başqa bir kəlamda bilik öyrədən adamı, bilik öyrətdiyiniz adamı da yüksək tutmağı, şəxsiyyətinə hörmət etməyi vacib hesab edirdi. O bilikli adamın təkəb-

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Pcyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh. 154.

burdən, lovğalıqdan uzaq olduğunu deyərkən biliyi ilə öyünən adamı düşmən hesab edirdi.

Məhəmməd Peyğəmbər avaralığı, boş vaxt keçirməyi, tənbəlliyi insan həyatı üçün ən pis, ən mənfur bir iş olduğunu deyərkən, zəhmətkeş adamı, bilik sahibi olanları mədh edib onları xoşbəxt adamlar adlandırırdı. Bu münasibətlə deyirdi:

"Nə xoşbəxtdir alimlər, nə xoşbəxtdir ibadət edənlər (yəni vaxtını boş keçirməyənlər), yazığım gəlir küçələrdə veyil-veyil gəzənlərə"[1] Peyğəmbər savad öyrənib elmi biliklərə yiyələnənləri, biliklərə şüurlu sahib olanları xoşbəxt adamlar hesab edərək deyirdi: "Nə xoşbəxtdir savadsızlığın daşını atıb elm öyrənən, bununla üstünlük qazanan, ədalətlə mühakimə edən"[2].

Peyğəmbər insan üçün xüsusən də müəllim, tərbiyəçi üçün sözlə əməlin vəhdət təşkil etməsini vacib şərt hesab edərək deyirdi: "Yazıq o adama ki, bir şey bilmir, yazıqdır o adam ki, bildiyinə əməl etmir"[3]. Peyğəmbər ağıl yaşda deyil, başdadır kəlamına müvafiq bilik almaq üçün yaşlının cavandan utanmaması, ümumiyyətlə bilik almaq üçün bütün vasitələrdən məharətlə istifadə etməyi məsləhət görürdü. "Bir gəncdən müəyyən bir şey öyrənmək, bilik əldə etmək istəyən yaşlı adam utanmadan, çəkinmədən həmin gəncin hüzurunda oturmalıdır". Peyğəmbər eləcə də bilik mənbələrinin hamısı ilə maraqlanmağı lazım bilərək "Maraqlanıb soruşmaq bilik əldə etməyin yarısıdır" deyirdi. Biliklə əlaqədar Peyğəmbərin hədislərində deyilirdi:

1. Bilikli adamlar yer üzünün işıqlarıdır, peyğəmbərin xəlifələridir, mənim varislərimdir.

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990 səh 150.

[2] Yenə orada səh 150.

[3] Yenə orada, səh 154.

2. Elmdən baş çıxaran və biliklərini rəhbər tutanların yeri cənnətdir.
3. Bilikli adam və biliyə yiyələnməyə çalışan, günahı olsa da cənnətə gedir.
4. Vaxtını biliklərə yiyələnməyə sərf edən adam müsəlmanlığın dirəyidir.
5. Bilik sahibi olub rahat yatmaq, biliksiz olub namaz qılmaqdan xeyirlidir.

Peyğəmbər hədislərində biliyi tükənməz xəzinə hesab edirdi və bu xəzinənin açarını soruşmaq, sual-cavab aparıb öyrənməyi hesab edirdi. O, deyirdi ki, rəhmət olsun elm adamlarına. Peyğəmbər sorğunu yüksək qiymətləndirərək bu prosesdə 4 adama rəhmət düşür 1) soruşan 2) öyrədən 3) dinləyən 4) onları sevənə. Peyğəmbərə görə bilik meşəyə bənzəyir. Onun dərinliyinə getdikcə odun çoxalır. Peyğəmbər belə hesab edirdi ki, insana elə elm verilməlidir ki, o, onun əməli fəaliyyətində lazım olsun. Peyğəmbərə görə insanın aldığı elm onun şüurunu dəyişdirib, zənginləşdirməli, onda yüksək mənəvi keyfiyyətlər əmələ gətirməli və bu biliklər insanın özü ilə bərabər xalqı da faydalandırmalıdır. O deyirdi: "Biliyi ilə xalqı faydalandıran bir alim 70 il ibadət edən adamlardan xeyirlidir"[1].

Peyğəmbərə görə əhali arasında yayılmayan biliklər, yoxsulların yolunda istifadə edilməyən bilik, kimsəyə faydası dəyməyən xəzinəyə bənzəyir.

Peyğəmbər hər gün bilik almağı, bilik yolunun acı, daşlıkəsəkli olduğunu söyləyərkən insanın qüvvəsinə böyük inam bəsləyərək deyirdi ki, adamlar bilik almağa, öyrənməyə çalışırlar. İslam insanları bilikdən doymamağa çağırırdı. O, deyirdi "Hər bir bilik sahibi bilik üçün acdır". "Üç şey var ki; ondan doymaq olmaz -göz baxmaqdan, yer yağışdan, alimbilikdən". İnsanları xarakterizə edərkən peyğəmbər deyirdi:

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh. 152.

"2 şəxs doymak bilməz. Elm təşnəsi və dünya malından". Peyğəmbər təlimdə uşaqların bilikləri unutmaması və uzun müddət yadda saxlaması üçün deyirdi "Biliklərinizi yazın, itirib batırmayın".

Peyğəmbər biliyi ancaq müsəlmanlara deyil, bütün öyrənmək istəyən millətlərə lazım bilərək deyirdi: "Yanınıza başqa xalqın bəzi nümayəndələri gəlib sizdən bilik öyrənmək istəyəcəklər. Onları gördünüzmü, tanrı elçisinin vəsiyyətinə əsasən onlara xoş gəlmisiniz deyin, onların arzularına əməl edin"[1].

Pedaqoji prinsiplərdən biri də alınmış bilikləri möhkəm yadda saxlamaq olduğundan peyğəmbər bu prinsipi vacib şərt hesab edərək deyirdi; "Alimin bədbəxtliyi bildiyini unutmaqdır": Peyğəmbər eləcə də biliklərin möhkəmlənməsi barədə yazırdı: "Bir şey tikəndə bünövrəsinə haram daş qoymayın, çünki tikintinizin dağılmasının təməlidir o daş"[2].

Əqli təhsil sahəsində Məhəmməd Peyğəmbərin kəlamları bu gündə öz əhəmiyyətini itirməyən dərin düşünülmüş, insanı irəliyə aparan, yeni xaruqələr yaratmağa sövq edən, bilikləri möhkəm, əsaslı, şüurlu öyrənməyi irəli sürən kəlamlardır.

Təlim və tərbiyə məsələlərinə xüsusi diqqət yetirən Peyğəmbər deyirdi: "İnsan özündən sonra 3 xeyirli şey qoyub gedir: "Özünə dua edən, təmiz və yaxşı övlad ona daima rəhmət oxutduran və sədəqə verən. Özündən sonra xalqı faydalandıran bilik".

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh. 157.
[2] Yenə orada, səh 169.

İslam gənc nəslin ahəndar inkişaf etməsi və xalqa yararlı olması üçün təkcə əxlaqi və əqli tərbiyəni verməklə kifayətlənməyib, həm də gənclərin əmək tərbiyəsinə dair olduqca maraqlı, bu gün üçün çox vacib olan tövsiyyələr vermişdir. İslamda göstərilir ki, cəmiyyəti əmək vasitəsilə inkişaf etdirmək olar.Halal ruzi qazanmaq yolunu arayıb axtarmaq əslində mübarizədir və hər müsəlman üçün vacibdir.

Peyğəmbərə görə ailə tərbiyəsini əmək üzərində qurmaq lazımdır. Çünki gənc nəsil gələcəkdə cəmiyyəti inkişaf etdirənlərdən biri olacaq. Əməyə yüksək qiymət verən Peyğəmbər deyirdi: "Görülən işlərin ən üstünü, halal yolla ruzi qazanmaqdır. Qazançın ən təmizi, insanın öz əməyi ilə əldə etdiyi qazancdır"[1].

İslam tənbəllik, və bekarçılığı, avara həyat sürməyi tənqid edərkən, onun insanın ağlını və cismaniliyini süsgünləşdirdiyini göstərirdi.

Peyğəmbər deyirdi: "Halal ruzi qazanmaq yolunu arayıb axtarmaq əslində mübarizədir və bu hər bir müsəlman üçün vacibdir".

Peyğəmbər insanların halal yaşamasını, xoşbəxt olmasını və səadətə çatmasını zəhmət və əməkdə görürdü. Özü zəhmətkeş olan Peyğəmbər haqqında belə bir rəvayət söyləyirlər".

"Günlərin birində bir nəfər Peyğəmbərə "Heç bir şeyim yoxdur, mənə kömək göstərin" deyə müraciət edir.

Peyğəmbər cavabında:

"-Ola bilməz ki,sənin heç nəyin olmasın".

Kişi yenidən and-aman edir ki, bircə qazandan başqa heç nəyim yoxdur.

Peyğəmbər deyir: "Qazanı sat, puluna balta al, odun doğra sat və özünə çörək

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh. 133.

Pulu qazan". Peyğəmbər zəhmətin, əməyin insan üçün böyük nemət olduğunu vurqulayarkən onun həm də insanlara xeyir və bərəkət gətirdiyini deyirdi: "Bir müsəlman bir şey əksə, yaxud ağac basdırsa, əkdiyi şeyin, basdırdığı ağacın məhsulundan bir quş, bir insan yaxud bir heyvan yesə, o həmin adamın ehsanıdır və yaxud "Bir adamın basdırdığı ağac nə qədər meyvə verərsə, Allah o adama da o qədər savab verər[1]. Peyğəmbər insan əməyinə xor baxan, onu qiymətləndirməyənləri töhmətləndirərək deyirdi: "Allah lənət eləsin ağac kəsənlərə"[2]. Əmək barədə Peyğəmbərin bu kəlamları bu günkü gənclərimizin tərbiyəsi üçün çox lazımlı və önəmli fikirlərdir. Peyğəmbərə görə əmək insanı təkcə iqtisadi cəhətdən təmin etmir, həm də onu asılılıqdan, köləlikdən yaxa qurtarmağa sövq edir.

Peyğəmbər deyirdi: "Həqiqətən ulu tanrı bekar qalmamağı, işləməyi lazım bilirdi. Odur ki, çalışın işləyin". Peyğəmbər eləcə də əməklə, zəhmətlə məşqul olarkən, sənət öyrənərkən ona dərindən sahib olmağı tələb edirdi. "Çalışın bir işdən yapışın, kim hansı işə layiqsə, o işdən yapışmalıdır".Allah qulunun peşəyə yiyələnməsini, bir işlə məşqul olmasını sevər"[3].

Peyğəmbərin kəlamlarınm təsiri nəticəsində sonralar böyük şair və yazıçılar öz əsərlərində bu fikri yaymağa çalışmışlar. Türk şairi Nizami deyirdi:

*Kamil bir palançı olsa da insan,*
*Yaxşıdır yarımçıq papaqçılıqdan.*

Peyğəmbərə görə insan əmək, səy, çalışqanlıqla kamillik dərəcəsinə çata bilər. İslam əməyə mənəvi dəyər kimi baxır. Peyğəmbərin əmək tərbiyəsi ilə əlaqədar söylədiyi fikirlər və kəlamlar bu gün gənclərimizin ahənqdar inkişafında böyük əhəmiyyət kəsb edə bilər.

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh. 134.
[2] Yenə orada səh 134.
[3] Yenə orada səh 136.

*Estetik tərbiyə*

Estetik tərbiyə insanların davranışında, hərəkətlərində, ahəngdarlıq yaratdığından bu məsələ gənc nəslin hərtərəfli inkişafında mühüm əhəmiyyət kəsb edir. İslam dəyərləri nəyin gözəl olduğu və nə üçün gözəl olduğunu duya bilmək üçün çox dəyərli, maraqlı göstərişlər verir. İslam təkcə zahiri gözəlliyi deyil, mənəvi gözəlliyin də olmasını şərt hesab edərək, onları qoşa tərbiyə etməyi zəruri hesab edir. Ulu peyğəmbər deyirdi: "Saç gözəlliyi sərvətdir, sima gözəlliyi sərvətdir, dil gözəllıyi sərvətdir, sərvətin özü də sərvətdir[1]. Bu hədislərdən gənc nəslin tərbiyəsində istifadə edərək onların təmiz, gözəl, mənən saf olmağını öyrətməliyik və biz onlara öyrətməliyik ki, əgər zahiri gözəllik sərvətdirsə onda daxili gözəllik 2 qat artıq sərvətdir. Peyğəmbər düz yolla gedəni, xeyirxah işlər görəni,doğru danışanı, zəhmətli həyat sürəni də gözəllik hesab edirdi. O, hədislərin birində deyirdi. "Gözəllik doğru sözləri dilə gətirməkdir, yetkinlik isə xeyirli işlər görməkdir"[2].

İnsanların xarici görünüşlərinə diqqət yetirməsi üçün peyğəmbər yerində və qaydasında sürmə çəkməyi, yaşıllığı seyr etməyi, gözəl hüsnü camala baxmağı, təmiz geyinmək, yuyunmaq, dişləri təmiz saxlamağı da gözəllik hesab edərək deyirdi. "Saçlarınıza qulluq edin, darayın, səliqəyə salın, ətirli şey sürtün,"Dişlərinizi təmiz saxlayın" "Cümə günü gəldi, mütləq çimin"[3].

Peyğəmbər eləcə də estetik tərbiyə üçün çox vacib olan insanın gözəl xasiyyətini gözəllik adlandıraraq deyirdi. "İnsanın gözəlliyi gözəl xasiyyətə sahib olmağıdır" "Gözəl xasiyyət insanın xoşbəxtliyi, pis xasiyyət isə bədbəxtliyidir" və yaxud

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh. 169.

[2] Yenə orada səh. 169.

[3] Yenə orada səh 169.

"Kimin xasiyəti pis isə özünü əzaba salar, dərdi çox, sıxıntısı çox olanın bədəni rahatlıq tapmaz, xəstələnər. İnsanlarla çəkişənin böyüklüyü itib gedər, adamlığı qalmaz"[1] Peyğəmbər özü üçün və cəmiyyət üçün faydalı işlər görəni gözəllik hesab edirdi. "İnsanların xeyirlisi və gözəli insanlar üçün ən faydalı olanlardır".

## *Quranda fiziki tərbiyə*

İslam 5 əsas üzərində qurulmuşdur. 1. Kəlmeyi Şəhadəti təsdiq etmək, namaz qılmaq, oruc tutmaq, zəkat vermək, həccə getmək. İslamın bu əsasları qəti şəkildə tərki dünyalıq olmayıb insanları sağlam, mənəviyyatlı tərbiyə etməyə və böyütməyə yönəlmişdir. Məsələn Qurana görə həddi buluğa çatan hər bir müsəlman gənci gündə 5 dəfə namaz qılmalıdır. Namaz insanları təmiz olmağa, qəlbini qüvvətləndirməyə və intizama dəvət edir. Namazı qılmaq üçün olan şərtlər həqiqətən insanları cismən və rühən zahirən və qəlbən saflandırır və onu cəmiyyət üçün yararlı adama çevirir. Namaz insanı fiziki cəhətdən sağlam edir. Məlum olduğu kimi həyatda olan xəstəliklərin çoxu fiziki təmrinlər vasitəsi ilə müalicə olunur. Namaz isə beş dəfə müxtəlif vaxtlarda idman deməkdir. Heç bir adam gündə 5 dəfə idman etmədiyi halda, namaz insanları məcbur edir.

1. Sübh namazı - Hələ gün çıxmamış durmağa və yuyunmağa vərdiş etmiş adamın sağlamlığı qane olar. El misallarında deyilir: "3 gün erkən qalxan yeni bir gün qazanmış olur". Peyğəmbər bir gün ətrafdakılarına sual vermişdir. Qapısı önündə axan bir çayda gündə 5 dəfə yuyunmuş bir insanın bədənində kir olarmı? "Xeyr" cavabı aldıqdan sonra" "namazda belədir" demişdir.

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh. 164-165.

2. Zöhr və ilkindi namazı -Yorucu işlərdən sonra bədənin iş qabliyyəti azadlığı bir vaxtda yorğunluğu aradan qaldırır və insanı gümrahlandırır.

3. Axşam xüftən namazı - İş günündən sonra əmələ gəlmiş yorğunluğu aradan qaldırmaq və insanın itirdiyi enerjini bərpa etmək üçün çox faydalıdır. Belə halda insanda qan dövranı normallaşır,tənəffüs orqanları saflaşır. Qarın və kürək əzələləri möhkəmlənir, mədə divarlarında əmələ gəlmiş piylər əriyir, ayaq əzələləri möhkəmlənir, bağırsağın fəaliyyəti yaxşılaşır, qanın bədənə bərabər paylanması yaranır, sinir sistemi sakitləşir, yuxusuzluq aradan qalxır.İnsanın fiziki sağlamlığı üçün təmizlik əsas şərtdir. Quranda deyilir "Allah pak olanları sevir (tövbə 108)

4. Təmizlik üçün əsas şərt quranda dəstəmaz və qüsuldur. Orada deyilir "Ey iman gətirənlər! Namaz qılmağa durduğunuz zaman üzünüzü və əllərinizi dirsəklərə qədər yuyun, Başmızı məsh edin, ayaqlarınızı topuğunuza qədər yuyun". (maddə 6) soyuq su ilə yuyunmağı təklif edən quranın elmi, tibbi müddəalara əsalandığı görsənir. Belə ki, soyuq su qan durğunluğunu aradan qaldırır, ürək döyüntüsü və tənəffüsü tənzimləyir. Ağız və buruna soyuq su çəkmək tənəffüs yollarını mikroblardan təmizləyir, damaq və boğaz iltihabının qarşısını alır, insanları çirk və tərdən əmələ gəlmiş ekzema, göbələk xəstəliklərindən qoruyur. Peyğəmbər bu xüsüsda deyirdi: "Təmizliyə riayət etmək, göstərir ki ömrün uzun olsun". Peyğəmbər bir gün ətrafdakılarına sual vermişdir. Qapısı önündə axan bir çayda gündə 5 dəfə yuyunmuş bir insanın bədənində kir olarmı? "Xeyr" cavabı aldıqdan sonra "namazda belədir" demişdir.

İnsanın fiziki sağlamlığından bəhs edən peyğəmbər quranda dişləri təmizləmək, dırnaqları kəsmək, saçlara qulluq etməyə də xüsusi diqqət yetirmişdir. O deyirdi ki "Həddi buluğa çatmış insan üçün hər cümə günü yuyun-

maq, diş fırçasından istifadə etmək və gözəl ətir sürtmək dini bir vəzifədir". Gənc nəslin fiziki tərbiyəsində orucun da danılmaz rolu var. Oruc, ömrü uzadır. Oruc tutan müddətdə bədən fiziki cəhətdən dincəlir, bədəndəki zərərli maddələr, zəhər və toksinlər məhvə gedir. Oruc ən azı bir dəfə orqanizmə istirahət etmək və insanın iş qabliyyətini bərpa etmək imkanı verir. Belə halda insanın orqanları sağlamlanır, insanın iş fəaliyəti və qabiliyyəti uzun müddət fəal qalır. Oruc sadəcə ac qalmaq deyil o həm də insanın mənəviyyatını tərbiyələndirir. Oruc insan nəfsini möhkəmləndirir. Onu yemək, içmək, papiros çəkmək, nəfsinə hakim olmağa alışdırır. İnsanda aclığa susuzluğa, dözümlülüyə, iradəlilik yaradır. Oruc insanı səbr etməyə alışdırır.Oruc qorxu, sinir və şüur pozğuntularının yaranmasına yol vermir. Peyğəmbər insanın normal fiziki inkişafına mane olan , insanın əqlini kütləşdirən alkoqol içkilərin zərərini də xüsusi vurğulayaraq deyirdi: "Ey insanlar şərab da qumar da, bütlər də, fal da Şeytan əməlindən olan murdar bir şeydir." (maddə: 91) Bəziləri içkini az içməyin xeyirli dərman olduğunu sübut etməyə çalışırlar. Peyğəmbərimiz isə deyirdi: "Bu məlumdur ki, içki dərman deyil, əksinə mərəzdir". İçkini fiziki inkişafın qəddar düşməni hesab edən Peyğəmbər deyirdi: "səndən içki və qumar haqqında sual edənlərə söylə ki, onlarda həm böyük günah, həm də mənfəət vardır. (dünya mənfəəti, gəlir gətirmək) lakin günahı(zərəri) mənfəətindən daha böyükdür" (Bəçərə 219) Qurani Kərimdə insanın formalaşmasında əqli, əxlaqi, əmək, ekoloji, estetik dəyərlərlə yanaşı fiziki tərbiyə vasitəsi ilə, Vətəni sevmək onun ərazi bütövlüyünü saxlamaq, qüvvətli, qüdrətli, sağlam, mərd qoçaq, igid olması üçün də bir sıra dəyərli məsləhət və kəlamlar var. Vətən təhlükə altında olarkən hamını birləşməyə, silaha sarılmağa sövq edən və Vətənin müdafiəsinə çıxmağa çağıran Peyğəmbərin kəlamında de-

yilir: "Ey iman gətirənlər! Ehtiyatı əldən verməyin silahı götürün, ya dəstə-dəstə, ya da hamınız bir yerdə çıxın". (cihada) (nisa 71). O gənc nəslin hər cür əzab və əziyyətə dözməsi, yaxşı, mərd, məğrur əsgər olmaq üçün hədislərin birində deyirdi: "Ox atmaqla məşğul olması boş yerə keçiriləcək vaxtın ən xeyirlisidir" və yaxud "Oğlanlarınıza ox atmağı öyrədin, çünki bu düşməni qət edən peşədir, həm də bədəni sağlam edir". Peyğəmbər fiziki tərbiyəni ancaq oğlanlara deyil, qızlar üçün də vacib sayıb deyirdi: "İman sahibi olan qadının, qızın evində yun əyirməsi nə gözəl məşğuliyyətdir[1].

***Quranda ekoloji tərbiyə.***

Qurani Kərimdə insanlığa xidmət edən hava, su, torpağı qorumaq kimi ekaloji məsələlərdən də geniş və əhatəli danışılır. Qurani Kərim göstərir ki, insanlar təkcə öz həyatlarını deyil təbiətdəki bütün canlıları qorumalıdırlar. Əgər biz su, hava torpağı qorusaq deməli, təbiətdəki heyvanları, bulaqları, meşə və çayları da qorumuş olarıq. Qurani Kərimdə göstərilir ki, yeriyən heyvan və uçan quşlar da insanlar kimi yaşamaq istiyən bir canlıdır. Onlara ehtiramla yanaşmaq lazımdır. Çünki onların südlərindən içir, ətindən yeyir, yunundan isə paltar geyinirik. Qurani Kərimdə bu münasibətlə deyilir : "Heyvana işgəncə və əzab verənə Allah lənət eləsin" Təbiət Allahın insana əmanətidir. Əgər ətraf mühit çirklənsə deməli insanlar təbiəti sevmir və təbiətin onlar üçün necə faydalı olduğunu başa düşmürlər. Qurani Kərimdə deyilir: "Çardağlı və çardağsız üzüm bağları yaradan Allahdır. Ləzzətli cürbəcür meyvə və tərəvəzi, xurma, zeytun və narı bir-birinə oxşar və oxşamaz şəkildə yaradan da odur." Qurani Kərimdə deyilir ki, "Allahın verdiyi məhsuldan yeyirsinizsə

---

[1] O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər Həyatı və kəlamları. Bakı, 1990, səh. 171.

məhsulun yığıldığı gün onun haqqını zəkat verməyə çalışın, gulluğunuzu və xidmətinizi əsirqəməyin".

Son XX əsrdə texniki tərəqqi geniş vüsət aldı. Kosmosa uçuş, televizor, kompyuterlərin kəşfi küllü miqdarda maşınların istehsal olunması insanların tərəqqisi üçün nə qədər geniş yol açdısa da, o qədər də insanlığa mənfi təsir göstərdi. Havanın çirkələnməsi torpaqların yararsız hala gəlməsi, yetişən məhsulların zəhərlənməsi, bir çox insanların müxtəlif növlü xəstəliklərə tutulması və s. Bu problemlərin əmələ gəlməsinin əsas səbəbkarı insandır.

İnsandan ehtiyatlı olmaq, kəşf olunmuş bir şeyin müsbət və mənfi tərəflərini öyrənmək, zəhərli maddələrə qarşı zərərləşdirici maddələr tapıb, yeni, insanları qoruya biləcək daha effektli yol axtarıb tapmaq tələb olunur. Quranda deyilir: "İnsanların öz əlləri ilə etdiyi pis əməllər üzündən suda və quruda fəsad, pozuntu əmələ gəlir. Allah da bəlkə geri dönərlər deyə, edtiklərinin bir qismini özlərinə daddırar. (Rut 41)

Bütün bu problemləri həll etmək üçün Qurani Kərimdə elmi bilikləri dərindən öyrənmək və elmi insanların rifahına vermək məsləhət görülür. Quranı dərindən bilən və onun əsas problemlərini əsərlərinin mövzusu edən Şəhriyar ekaloji tərbiyə ilə əlaqədar yazırdı:

*Təbiət o böyük ağ saçlar, ata,*
*Bizi bəxş edəndə bu kainata,*
*Can verdi, qan verdi, qeyrət verdi ki,*
*Onu qoruyaq, ona qayğı göstərək.*
*Bizə əl verdi ki, imdada çataq.*
*Yıxılan bir kəsin qolundan tutaq*
*Bizə ağıl verdi, vicdanlı, mətin,*
*Dərk edək dərdini bəşəriyyətin*
*Sussun o ürək ki, buzdan soyuqdur.*
*Üzülsün o qul ki, yardımı yoxdur*[1].

---

[1] M.Şəhryar seçilmiş əsərləri Bakı "Elm" nəşriyyatı ,2000, səh 338.

Təbiəti qorumaq barədə quranda belə deyilir: "7 göy yer və onlarda olan bütün məxluqat Allahı təqdiş edir. Elə bir şey yoxdur ki, Allaha tərif deyib ona şükr etməsin, lakın siz onların təqdisini anlamasız (İzra 44).

Quranda deyilir ki, bizi əhatə edən heyvanat və bitki aləmi birlikdə canlıdır. Canlını öldürmək isə nsanlıqdan kənar bir şeydir. Allahı dərk edən bir adam, təbiətə zərər verməməlidir. Quranda göstərilir ki, təbiətdə hər şey ölçü, qayda, qanun, müvazinat şəklində yaradılmışdır..

"Qəmər" surəsinin 49-cu ayəsində göstərilir ki, şübhəsiz ki, biz hər şeyi müəyyən bir ölçüdə yaratdıq. Daha sonra "Hiçir" surəsini 19-ci bəndində deyilir. "Biz yer üzünü döşədik. Orada möhkəm dayanan dağlar yerləşdirdik, hər şeydən müəyyən ölçüdə yetişdirdik".

Qurani Kərimdə əxlaq və elm ilə əlaqədar söylənilmiş fikirlər bütün İslam Dünyasınm, xüsusən də türk bölgələrinin Şair və Yazıçılarrının əsərlərinin əsas mövzusu oldu. Aşağıda onlardan bir neçə nümunə verilir.

# İMAM QƏZZALİNİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

Qurani Kərimin meydana çıxmasından sonra Şərq nəsrinin və Nəsihətnamələrinin əsas mövzusu əxlaq məsələləri oldu.

Məşhur islam Ulamalarından olan İmam Qəzzali Hicri tarixi ilə 455-ci ildə doğulmuşdur. 484-cü ildə Bağdadın Nizamiyyə mədrəsəsində müdərrisliyi qəbul etmişdir. İlk təhsilini Tus və Nişanpurda almışdır. 484-cü ildə Həccə getmiş və 505-ci ildə vəfat etmişdir. İmam Qəzzali "Əhya-ül-Ülüm", "Cavahürül Quran", "MƏŞKAVƏTÜL Ənvər", "Kimbə Səadət" "Xoşbəxtlik iksiri" və s. kimi bir sıra böyük həcmli əsərlərin müəllifədir.

Qəzzali "xoşbəxtlik iksiri" əsərində insan təbiətini dörd yerə bölürdü: heyvani, yırtıcı, şeytan və mələk. O, yazırdı ki, heyvani keyfiyyətdə ehtiras və tamah olduğundan, orada acgözlük, çox yemək, yırtıcıda qəzəb olduğundan vurmaq, öldürmək, əl və dil ilə hücum etmək, şeytanda hiyləgərlik, fitnə, mələkdə isə ağıl, elm, düzlük, şər işlərdən qacmaq, haqqi taalanı dərk etməyə şad olmaq, cahillik və nadanlıqdan utanmaq vardır.

Qəzaliyyə görə müsəlman davranış rukiləri də dörddür:

Qəzali 1-ci rukiyə etiqad, elmə çatmaq, namaz qılmaq, oruc tutmaq, həcc və s. Kimi dini ayinləri yerinə yetirmək;

2-ci rukiyə – yemək qaydaları, nigah, sənətkarlıq və ticarət, halallıq, söhbət qaydaları, adamları xeyirxahlığa sövq etmək, bəd əməllərdən çəkindirmək;

3-cü rukiyə – nəfsi cilovlamaq, qəzəb kin, və həsədi aradan qaldırmaq, mənsəbpərəstlik, şöhrətpərəstlik, təkəbbür və lovğalığı, qəfləti aradan qaldırmaq;

4-cü rukiyə – düzlük, hərəkətlərinə diqqət yetirmək düşünməni daxil edirdi.

Tərbiyə məsələlərinin bütün sahələrinə toxunan Qəzzali tərbiyənin əsas məqsədini pis keyfiyyətləri uşaqların təbiətindən çıxarmaq, yaxşıları isə onların həyatı tələbatına çevirməkdə görürdü. Qəzzali əsərlərində gənc nəslin tərbiyəsini bu dörd keyfiyyət ətrafında mərkəzləşdirərək uşaqların keyfiyyətləri irsən gətirmədiklərini sübüt edir və yazırdı ki, insanda müxtəlif xasiyyətlər var. Onların bəzisi pisdir və onu məhvə aparır, bəzisi isə yaxşıdır onu xoşbəxtliyə aparır. Qiymətli məxluq olan uşağa hər nə aşılasan ona meyl edər, xeyirə alışdırsan xeyirli, zərər aşılasan zərərli məxluq olar. Qəzzali " Ehya-ül-Ülüm (həyat verən elm) əsərində yazırdı: "Kim uşağını xeyirə öyrətsə onun axirət dünyası savablı olar, hər iki dünyada ata- ananın üzü ağ olar". İnsan şəxsiyyətinin formalaşmasında təlim və tərbiyənin böyük rolunu görən Qəzzali yazırdı ki, uşaqları pis vərdişlərdən uzaqlaşdırmaq üçün təlim və tərbiyə vermək, gözəl şeylər öyrətmək lazımdır. İnsan bütün elmləri öyrənməyə və sənətlərə yiyələnməyə qadirdir. Qəzzali uşaqların mənəviyyatını korlayan, onların əqlini lüzumsuz biliklərlə dolduran, əxlaqını pozan zinət şeylərindən uzaq olmağı məsləhət bilirdi. O, yazırdı ki, uşaqların avara, veyil boş vaxt keçirməsinə imkan vermək olmaz.

İmam Qəzzaliyə görə uşağın tərbiyəsinin ilk əlifbası onda həya hissi tərbiyə etməkdir. Uşağın bəzi şeylərdən həya etməsi onun ağıllı olmasına dəlalət edir. Qəzzaliyə görə həyalı uşaq pis və yaxşını bir-birindən ayırır, çirkin şeylərdən utanmağa başlayır, bu isə onun təbirincə əxlaq tərbiyəsi üçün hədiyyədir. Qəzzaliyə görə pisə ikrah, yaxşıya meyl etmək uşağın tərbiyəsidir.

Qəzzali uşaqlara mədəni vərdişlərin aşılanmasından danışarkən yazırdı ki, uşaqlarda acgözlüyə, hərisliyə, nifrət hissi oyatmaq lazımdır. Uşağa sağ əli ilə yeməyi öyrətmək lazımdır. Yeməyə başlayarkən uşaq "Bismillah" deməlidir. Uşaq yeməyi öz qabağından yeməli, süfrənin arxasında oturanlardan qabaq əlini yeməyə uzatmamalıdır.

Tez-tez yeməməlidir. Uşaqlara öyrətmək lazımdır ki, yemək zamanı əlini və paltarını bulaşdırmasın. Uşaqlara səliqə ilə yeyənləri, gözü tox olanları mədh etmək, nümunə göstərmək lazımdır.

Qəzzali mədəni vərdişlərdən danışarkən uşaqların özlərini məktəbdə və ictimai yerlərdə necə aparmaları barədə də bir sıra gərəkli tövsiyyələr vermişdir. Qəzzaliyə görə adamlar içərisində tüpürmək, burnunu bərkdən silmək, böyüklər qarşısında ayağını ayağının üstünə, əlini çənəsinin altına, başını qolunun üzərinə qoymağın ədəbsiz hərəkət olduğunu uşaqlara başa salmaq lazımdır. Qəzzali uşaqların mənəviyyatını zəhərləyən pul, gümüş, qızıldan uzaqlaşdırmağı lazım bilirdi.

Qəzzali uşaqları istər doğru, istərsə də yalandan and içmək vərdişindən uzaqlaşdırmağı lazım bilirdi. O, daha sonra yazırdı ki, uşaqlara lazım gələndə susmağı bacarmaq, sözü kəsməmək, özündən böyüyə yer vermək kimi məsələləri də öyrətmək lazımdır.

Qəzzali uşaqların, xüsusən də oğlan uşaqlarının mətin, dözümlü olması üçün müəllim və valideynlərdən tələb edirdi ki, dözümlü adamları mədh edib onları nümunə göstərsinlər. Qəzzali belə hesab edirdi ki, uşaqlar şəriət qanunları çərçivəsində haram, halal, yalan, xəyanət, ikiüzlülüyün nə olduğunu bilməlidirlər. Qəzzali bu keyfiyyətləri uşaqlara aşılayarkən onların yaş xüsusiyyətlərini nəzərə almağı lazım bilirdi. Əgər öyüd-nəsihət hər uşağın yaşına müvafiq izah edilmirsə, söylənilən fikir, uşaqlara təsir göstərə bilməz.

Qəzzali tərbiyənin bir vacib məsələsinə də xüsusi diqqət yetirirdi. Qəzzaliyə görə uşaqlar məktəbdən sonra əyləncəli işlərlə məşğul olmaq istəyirsə, onları bu işlərdən məhrum etmək olmaz. Çünki hər şeydə məhrumiyyət uşaqlarda yalançılıq, hiyləgərlik, dərsdən küsmə və s. kimi mənfi meyillər yarada bilər.

İmam Qəzzali uşaqların geyimindən danışarkən geyimin təmiz, səliqəli, bər-bəzəksiz olmasını qızlarla oğlanların geyimləri arasındakı fərqi uşaqlara başa salmağı lazım bilirdi. Qəzzaliyə görə uşaqların pis meylinin qarşısı vaxtında alınmasa onlar gələcəkdə özündən razı, xudpəsənd, ikiüzlü, hiyləgər, həsədçi və xəbərçi adamlar ola bilərlər. O, yazırdı ki, uşaqlarda əxlaqi sifətlər və xeyirxahlıq aşılamaq üçün onları məktəbə göndərmək lazımdır. Qəzzali uşaqlara yaşlarına müvafiq olmayan məlumatı verməyi zərərli hesab edirdi. Qəzzaliyə görə tərbiyə nöqteyi nəzərindən yararsız təlim materialı uşaqlarda fəna fikirlər yarada bilər. Qəzzali uşaqların tərbiyəsində doğru yol tutmaq üçün onlarda olan pis cəhətləri islah etməklə yanaşı uşağın təbiətində özünü büruzə verən müsbət hadisə, hərəkət və davranışındakı cəhətləri mədh etməyi və bu keyfiyyətlər vasitəsilə uşaqları tərbiyə etməyi lazım bilirdi. İmam Qəzzali yazırdı ki, əgər uşaqda əxlaqi nöqsan birinci dəfə baş verirsə və uşaq bunu pərdələməməyə çalışırsa tərbiyəçi səhvi şişirtməməli, uşağın üzünü açmamalıdır. Tərbiyəçi elə hərəkət etməlidir ki, uşaq duysun ki, müəllim onun mənfi hərəkətini hiss edib. Qəzzaliyə görə belə bir üsul uşağı cəsarətləndirər və yaxşı addım atmağa təhrik edər. Qəzzaliyə görə tərbiyəçinin xırdaçılığı, hər balaca xətadan ötrü hay-haray salması uşağın təbiətini pozar və onun qəbahətli hərəkətlərinin günü-gündən artmasına səbəb olar.

İmam Qəzzali tərbiyə prosesində valideynlərin roluna da böyük əhəmiyyət verirdi. Qəzzaliyə görə ata uşağı ilə səmimi, eyni zamanda ciddi dolanmalıdır. O, tərbiyədə tələblə məhəbbəti birləşdirməyi, valideynlərin uşaq üçün nümunə olmasını çox vacib hesab edirdi. O, belə hesab edirdi ki, ata uşağın gözündə əzəmətli, yüksək, qüvvətli olmalıdır. ananın vəzifəsinə gəldikdə isə, Qəzzali belə hesab edirdi ki, ana daima uşaqların gözündə atanı şöhrətləndirməlidir. Ana uşaqlarını həm də pis meyllərdən qorumalıdır. Qəzzali valideynlərin vəzifəsindən danışarkən cəza məsələsinə də toxunmuşdur. O, belə hesab

edirdi ki, valideynlərin verdiyi cəza ciddi olmalıdır. Uşaqların tərbiyəsində rəğbətləndirmə məsələsi də Qəzzalinin nəzərindən qaçmamışdır. Qəzzaliyə görə hər xırda şey üçün uşağa hədiyyə və mükafat verilməməlidir. Mükafat təntənəli günlərdə və təntənəli şəraitdə təqdim edilməlidir.

Qəzzali uşaqların gün rejimini yaratmağı onlar üçün gümrahlıq, sağlamlıq və mütəşəkkillik hesab edirdi. O, belə hesab edirdi ki, uşaqların yuxusu normal olmalıdır. Qəzzali uşaqların erkən durmasını, vaxtında dərsə getməsini vacib şərt hesab edirdi.

Qəzzali uşaqların fiziki tərbiyəsinə xüsusi diqqət yetirir və göstərir ki, fiziki tərbiyə uşaqlarda mərdlik, təkidlilik, özünü ələ almaq, hərəkətlərini idarə edə bilmək kimi keyfiyyətlər yaradır.

Qəzzali belə hesab edirdi ki, uşaqları fiziki cəhətdən möhkəmlətmək üçün bərk çarpayıda yatırtmaq, sərt həyat şəraitinə öyrətmək və qida məsələsində uşaqların nazı ilə oynamamaq lazımdır. O. belə hesab edirdi ki, uşaqlar daima hərəkətdə olmalıdır. Onlar yüyürməli, at çapmalı, ox atmalıdırlar. Biz bu fikirlərə Qəzzalidən bir neçə əsr sonra yaşamış İngilis filosovu pedaqoqu Con Lokkun (1632-1704) nəzəriyyəsində rast gəlirik.

Qəzzalidə insana, onun güc və qüdrətinə böyük inam var idi.O, adamların bir-birinə insani münasibət göstərməsini, dost yaşamasını lazım bilirdi. Ona görə də bu keyfiyyətləri uşaqlara kiçik yaşlarından öyrətməyi vacib hesab edirdi. Qəzzaliyə görə uşaqlara öz oyuncaqlarını yoldaşları ilə bölüşdürməyə, yoldaşınm yaxşı işindən iftixar hissi duymağa, yoldaşlarına qarşı hörmətli olmağa, dostla şirin danışmağa, dostdan təmənna ummamağa, öz nəfsini, heysiyyətini, məğrurluğunu saxlamağa öyrətmək lazımdır. Qəzzali yazırdı ki, bir parça çörək üçün yoldaşa xəyanət etməyin insan üçün ən alçaq, ən qəbahətli hal olduğunu uşaqlara başa salmaq lazımdır.

## İBN QAFİLİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

İslam alimi, filosofu İbn Qafil "Təbiət insanı" adlı əsərində pedaqoji məsələlərə dair olduqca qiymətli fikirlər söyləmişdir. Bu əsərdə o, özündən əvvəlki ədib və pedaqoqlardan bir az da irəli gedərək tərbiyə prosesində uşaqların fikri fəallığını artırmaq, müşahidəçilik qabiliyyətini inkişaf etdirməyi irəli sürmüşdür. İbn Qafilin "Təbiət insanı" adlı əsəri zəmanəsində o qədər geniş yayılmışdır ki, o nəinki Şərqdə, hətta Avropada da, İngilis, Alman dillərinə tərcümə edilərək dünya pedaqoji fikrinin inkişafına təkan vermişdir. Əsərin məzmunu belədir. Bir kral uzaq bir adaya sürgün edilir. Adada kralın oğlu olur. Kral uşağı sürgündən azad etmək məqsədi ilə onu qutuya qoyub dənizə atır. Dalğalar qutunu başqa adaya gətirib çıxarır. Bu adada uşağı bir ceyran götürüb əmizdirir və böyüdür. Uşaq adada heyvanlarla gəzib dolaşır, fiziki cəhətdən möhkəm, sağlam böyüyən uşaq həyat uğrunda mübarizə aparır və bu prosesdə uşaq özünə geyim şeyləri ixtira edir. Sonra uşağın hiss və əqli inkişaf etməyə başlayır. 21 yaşında ikən gənc oğlan nəbatət və heyvanat aləmini, daşları, onların quruluşunu müşahidə edərək elmi nəticələrə gəlir. O, müşahidə etdiyi şeylərin elmi köklərini araşdırır. Uşaq yaşa dolduqca daha yüksək və məramlı işlərlə məşğul olur. İbn Qafilin qəhramanını elmə gətirən ilk addım həvəs olduğundan İbn Qafilin təlimdə birinci pedaqoji nəticəsi marağın yaradılması nəzəriyyəsi idi. İbn Qafil belə hesab edirdi ki, həvəssiz maraqsız öyrənilən bir şey heç vaxt uşaqların əməli fəaliyyətində gərəkli ola bilməz. Əsərin qəhrəmanında oyanan ilk həvəs od, alov, ildırım kimi (təbiət hadisələrini müşahidə etməklə) fizika elmi olmuşdur. Daha sonra İbn Qafilin qəhrəmanı məvhumlar dünyasına qapılmış və onun sonuncu tərbiyəçisi dini ruh olmuşdur.

İbn Qafilin bu əsəri demək olar ki, Daniel Defonun "Robinzon Kruzo" əsərinə oxşayır. Heç şübhəsiz ki, Jan Jak Russo da "Elm və yaxud tərbiyə haqqında" əsərinin

əsas mövzusunu və bu əsərdəki uşağın yaradıcı qabiliyyətini inkişaf etdirmək kimi pedaqoji ideyaları İbn Qafildən götürmüşlər. Alman alimi doktor Karl Şmidt " Tərbiyə tarixi adlı" əsərində İbn Qafili Ərəblərin Russosu adlandırmışdır". Halbuki, Russodan çox-çox qabaq yaşamış çox mütərəqqi, orijinal fikirlər söyləyən İbn Qafili Russodan yüksək qiymətləndirməmək insafsızlıq olardı. Belə demək daha doğru olardı: "Russo Avropanın İbn Qafilidir".

Fransız alimi Albert Çampolor "Səlahəddin islam qəhrəmanlarının möhtəşəmi" adlı əsərində yazırdı: "Ümumiyyətlə Şərq Qərbin məhsulları (iqtisadi həyatında S.F.) üzərində əsaslı dəyişikliklər əmələ gətirdiyi kimi Avropa , Şərq mədəniyyətindən dərs almışdır".

Məhəmməd Peyğəmbərin Quranının təsiri altında yazılan pedaqoji, nəsihətamiz, tərbiyəvi əsərlər müxtəlif türk müsəlman ölkələrində də yaranmağa başladı. Məsələn, Yusif Xan Hacibin "Kutadqu-bilik" əsəri özünün tərbiyəvi məzmunu ilə İslam aləminin diqqətini cəlb edən pedaqoji əsərlərdən biri oldu.

## XAS HACİBİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

Yusif Balasaqunlu 1019-cu ildə anadan olmuşdur və 1077-ci ildə vəfat etmişdir. O, öz üzərində qətiyyətlə işləmiş və daha geniş fəaliyyət dairəsi əldə etmək məqsədi ilə o zaman Qaraxanlı dövlətinin mərkəzi olan Kaşkara gəlmişdir. Burada o əvvəllər başlamış olduğu " Kutadqu-bilik" əsərini yazıb tamamlamışdır. Əsər tamalandıqdan sonra müəllif onu Qaraxanlı hökmdarı Taftac Uluğ Buğra xana göndərmişdir. Əsəri bəyənən hökmdar müəllifə və vəzirdən sonra üçüncü ad (titul) olan Xas Hacib adını vermişdir. Şair tarixdə bu adla da məşhur olmuşdur.

"Kutadqu-bilik" əsəri "xoşbəxtlik nəsib edən", "elm", "uğurlu məlumatlar verən kitab deməkdir. Hacibin bu əsə-

ri Uyğur türk missionerləri tərəfindən Nəstüri yazısı ilə qələmə alınmış və Uyğur türkləri arasında geniş yayılmışdır. "Kutadqu-bilik" dastanı 6645 beytdən ibarətdir. "Kutadqu–bilik" kitabı insanlara xoşbəxt olmaq yollarını göstərir, dövrün hökmdarlarına nəsihətlər verir və gənc nəslə hansı əxlaqi sifətlərin verilməsini göstərir. Bu əsərdə 4 nəfər ədalət təmsil edənlərin adı çəkilir:

1. Xaqan - "Gün doğdu".
2. Bəxti, dövləti təmsil edən "Ay doldu".
3. Ağılı təmsil edən Vəzirin oğlu "Öyüdülmüş".
4. Qənaət və aqibət təmsilçisi Vəzirin qardaşı "Odqurmuşdur".

Hacib bu şəxslərin dialoqunda yaşadığı dövrünün ictimai siyasi quruluşu, dövlət təşkilatı haqqında da müəyyən faydalı məlumatlar verir. Bununla yanaşı əsərin məzmunu oxuculara Türk xalqlarının tərbiyə tarixi ilə yaxından tanış olmaq imkanı verir.

Yusif Xas Hacib elmə, biliyə yüksək qiymət verərək yazırdı: "Bütün yamanlıqların anası cəhalətdir". O xalq üçün ən dəyərli məsələnin elm, təlim və tərbiyə olduğunu yazarkən dövlət başçılarına belə məsləhət verirdi. "Əlinizin altında olan valideynlər və onların ailə üzvlərinin oxumasına, tərbiyə verilməsinə nail olun". Hacib insana, onun zəkasına, ağıl və kamalına yüksək qiymət verərək yazırdı ki, ən hörmətli və yaxşı o adamlardır ki, onlar elmlidir. Hər şeydən baş çıxaranlar qabiliyyət və zəkalı adamlarır. O yazırdı : "Nə vaxt olursa olsun, bu günə qədər ən uca yer bilikliyə qismət olmuşdur" və yaxud:

*Harda idrak olsa, orda ululuq olar,*
*Kimdə bilik olsa, o böyük olar.*

Hacibə görə qabiliyyət müəyyən bir şeyi qavramaq, elmi isə onu idarə etmək üçün lazımdır. İnsana, onun yaradıcı qüvvəsinə inam bəsləyən Hacib yazırdı ki, hər kəs öz təşəbbüskarlığı, inadı və iradəsi ilə hansı bir işə başlasa ona müvəffəq ola bilər. Çünki, insan yazı ilə kitab oxuyur, şer əz-

bərləyir, Astranomiya, Tibb Riyaziyyat və həndəsə elmləri haqqında məlumat toplaya bilir. Hacibə görə təlim insanda şən əhvali-ruhiyyə yaratmalıdır. O, adamlara ox atmaq, şahmat oynamaq, qılınc işlətmək kimi cəldlik tələb edən fiziki işlərə və əqli işlərə də həvəs oyada bilər.

Hacib təhsil alan gənclrərdən müstəqil fikir söyləmək, rəvan danışmaq, natiq olmağı tələb edirdi. O yazırdı ki, insan öyrəndiyini nə qədər gözəl ifadə edirsə, deməli bir o qədər də bilikli və həyata hazırlıqlıdır. Elm, bilik və bacarığa yiyələnməkdə, yazıya müstəsna əhəmiyyət verən Hacib deyirdi ki, yaxşı yazan, qələm sahibi olan, adamlar həm də yaxşı peşə sahibi və sənətkar olurlar.

Hacib gənclərə dövləti idarə etmək məsələlərini vacib hesab edərkən birinci növbədə onlara vətənin ərazi bütövlüyünü qoruya bilmək üçün müdafiə sənətini öyrətməyi lazım bilirdi. Müharibə sənətini öyrənmək üçün elmi biliklərə sahib olmağı vacib sayırdı. Savadsız adamın müharibə aprmağını mümkün saymırdı. Hacib yazırdı ki, elmli, alim adamlar dövlətin mədəniyyətini inkişaf etdirdikləri qədər də onun müdafiə qüvvəsini möhkəmlətməyə çalışmalıdırlar.Ona görə də Hacib dövlətin, vətənin idarəsini elmli, yüksək savadlı, natiq, xalq ruhunu duyan adamlara tapşırmağı lazım bilirdi.

Vətənpərvərlik tərbiyəsinə yüksək qiymət verən Hacib gəncləri fiziki cəhətdən möhkəm, cürətli, siyasətçi, düşmənə qarşı qəddarolmaq ruhunda böyütməyi lazım bilərək yazırdı: “İgiddə bir neçə nişan gərək, yağıya qarşı üz tutanda, səfərə çıxanda, düşməni görüncə gərək aslan ürəkli olsun, gərək pələng biləkli olsun. Qaban kimi inadkar, qurd kimi qüvvətli, ayı kimi azğın, buğa kimi kinli, qırmızı tülkü kimi hiyləgər, erkək dəvə kimi qisasçı, sağsağan kimi ayıq, qaya quzğunu kimi sərrast gözlü, aslan kimi dönməz, amansız, bayquş kimi gecələr yatmaz olsun.

Hacib əxlaqi sifətlərdən danışarkən gəncləri hərisliyə, tamahkarlığa nifrət ruhunda tərbiyə etməyi lazım bilərək yazırdı: “Xəsislik və tamah insanı daima kasıb edər. Belə adamları

dünyanın heç bir varı, dövləti doydurmaz". O, bu nəsihətləri verərkən deyirdi: "Ey insan! İnsanlıq et, böyük insan ol,insan bu yolla insanlığa qovuşur və insan adına layiq olur".

*Acgöz adam bütün dünyanı əldə etsə də,*
*Ona heç vaxt varlı demək olmaz.*

Hacib uşaqlarda, doğruluq, düzlük tərbiyə etməyi lazım bilərkən ikiüzlülük, kobudluq, yalan kimi sifətlərin insan həyatı üçün təhlükə olduğunu belə ifadə edirdi... "Yalançı adamdan vəfa, etibar umma, bu illərlə sınanmış həqiqətdir".

*Yalançı-insanların pisidir,*
*Pislərin pisi isə sözündən qaçandır.*

Hacib "Kutadqu-bilik" əsərində dövrün qadın tərbiyəsi haqqında olduqca maraqlı məlumat verir. Məlum olduğu kimi qədim türk tayfalarında qızlar azad, qoçaq igid, öz namusunu qorumağı, bacaran adamlar kimi tərbiyə edilmişdir. İslamın qəbulu ilə əlaqədar Budda dövründən qalmış olan qadına qarşı təhqiramiz hərəkətlər aradan qaldırıldı. İslam qadınlar qarşısında bir sıra tələblər qoydu. Bu tələblər İslamdan əvvəlki dövrə nisbətən mütərəqqi olsa da islam dövrünün Türk qızları üçün müəyyən mənada qapalılıq demək idi. Hacib yazırdı: "Bir kişinin qızı olursa, onu kənarda deyil, evdə tərbiyə etmək lazımdır. Qızları vaxtında ərə verməli, onları lüzumsuz yerə evdə saxlamaq lazım deyil, əks təqdirdə peşman olarsınız". Hacib yazırdı ki, "qadının məziyyəti, yüksəkliyi onun adındadır. Ona görə onu ərə gedənə qədər evdən buraxmamaq və evdə tərbiyə etmək lazımdır". Hacib qızları məktəbdə yox, evdə tərbiyə etməyi vacib bilirdi. Hacibə görə qızların tərbiyəsini cahil valideynlərə deyil, namuslu, doğrucul, təmiz, mehriban dayələrə tapşırmaq lazımdır. Bu dayələr uşaqlara elə ədəb qaydaları və elm öyrətməlidir ki, valideynlərin həm bu dünyada, həm də o dünyada, üzü ağ olsun. Hacibin qadın tərbiyəsində belə mühafizakar mövqe tutması bir tərəfdən yaşadığı dövrün, mühitin təsiri, digər tərəfdən isə İslamın qadın hüquqlarını dərindən mənimsəməməsindən irəli gəlirdi. Ona görə də Hacib islamın qadın tərbiyəsii sahəsindəki mütə-

rəqqi cəhətlərini görə bilməmişdir. Hacibin fərdi təlim ideyası, uşaqların xüsusi dayələrə tapşırılması və s. kimi fikirləri ondan 9 əsr sonra yaşamış Fransa burjua inqilabının ideoloqlarından biri, böyük maarifpərvər J.J.Russonun (1712-1778) pedaqoji nəzəriyyəsinin əsasını təşkil etmişdir. J.J. Russo yazırdı: "Valideynlərin pis əməllərinin uşaqlarına keçməməsi üçün onlara fərdi dayələr tutub, elm, tərbiyə vermək faydalıdır". Russoda da Hacib kimi uşaqları ailənin təsirindən, ana məhəbbəti və ata əzmindən uzaqlaşdırıb fərdi tərbiyə vermək ideyası doğru olmasa da, istər Hacibin, istərsə də Russonun yaşadıqları dövrlərində mövcud olan cəmiyyətin təzadlı gəlişi ilə yaranan ailə və məişətdəki pozğunluq, hər 2 pedaqoqu fərdi tərbiyə ideyasına gətirib çıxarmışdır. Peşəyə yüksək qiymət verən Peyğəmbərin fikirlərini əsas götürərək Türk xalqları gənc nəslin peşə hazırlığına xüsusi diqqət yetirmişlər. Hətta öz peşəsini uşaqlarına ləyaqətlə öyrətməyən valideynlər cəza tədbiri kimi peşəsindən ömürlük məhrum edilmişlər. Türklər peşəni öyrətmək, onun nəticəsini yoxlayıb sınaqdan keçirməyə xüsusi diqqət yetirmişlər. Türk xalqlarının bu ənənəsini davam etdirən və yüksək qiymətləndirən Hacib "Kutadqu-bilik" əsərində yazırdı: "Cocuqlara hər xeyirli, dəyərli sənətlər öyrədilməlidir. Təcrübə göstərir ki, peşə, sənət hər zaman qazanc gətirir. Öz uşaqlarına heç bir sənət öyrətməyən valideynlər onları boş tarla kimi həyata atır. Bu tarlaların xeyirindən çox zərəri vardır".

Zəmanəsində tərbiyə məsələlərinin pozulmasından narahat olan Xas Hacib yazırdı:

***Yusif Xas Hacibin əsərlərindən parçalar***

*Ey alim indiki zəmanəyə diqqət et,*
*İşlər tamamilə dəyişmişdir*

*Ölkədə pis adamlar çoxdur,*
*Həlimlər ayaq altında qalıb.*

*Bilikli həqir olub, bir yanda düşüb qalıb,*
*Ağıllı lal olub, susub durur.*

*Şərabla üzünü yuyan, ibadət etməyənlər,*
*İndi igid sayılır, istədiklərini edirlər.*

*Fəsad və Hiylə işlədənlər mərd sayıldı,*
*Şərab içməyənlər xəsis hesab edildi.*

*Halal büsbütün ortadan qalxdı, haram çoxaldı,*
*Haram yeyənin könlü qara kirlə qapandı.*

*Halalın ancaq adı qaldı, özü yoxdur,*
*Haramı qapışdırdılar, hələ də doymurlar.*

*Dünyanın təbiəti tamam dəyişdi,*
*İnsanların könlü ilə dili başqa-başqadır*

*Xalqdan vəfa keçdi, cəfa çoxaldı,*
*İnanılacaq adamı tapa bilməzsən.*

*Qohumlardan yaxınlıq, qardaşlıq uzaqlaşdı,*
*Artıq səmimi dostluq qalmadı.*

*Kiçiklərdə tərbiyə, böyüklərdə bilik yox,*
*Qabalar çoxaldı, zəriflər ortadan qalxdı,*

*Adamlar pul üçün bir-birinə yaxınlaşdılar,*
*Doğruluq və həqiqət uğrunda iş görən yoxdur.*

*Əmanətin adı var, ona sədaqət yoxdur,*
*Nəsihətin sözü qalıb, özünü eşidən kimdir.*

*Bilikli öz sözünü doğru-dürüst demir,*
*Qadınlardan həya getdi, üzlərini örtmürlər.*

*Doğruluq getdi, yerinə əyrilik gəldi,*
*Allah xətrinə iş görən kimsə qalmadı.*

*İnsanların hamısı pula qul oldu,*
*Gümüş kimdədirsə ona boyun əyirlər.*

*Dünya başdan – başa pozuldu,*
*Bunu görüb heyrət edən bircə adam varmı?*

*Ürəklər daşlaşdı, dillər yumşaldı,*
*Doğruluq qeyb oldu, ancaq qoxusu qaldı.*

*Oğul ataya atalıq edir,*
*Oğul bəy, ata isə qul oldu.*

*Dünyanın sonu gəldi, nizam pozuldu,*
*Yaxşılar pislərə baxıb dəyişdilər.*

*Oğul-qız ataya hörmətdən əl çəkdi,*
*"Qoca" sözü insana həqarət oldu.*

Xas Hacibin Peyğəmbərin kəlamları ilə tərbiyə məsələlərinə nə dərəcədə yüksək qiymət verdiyini daha əyani göstərmək üçün onun hikmətli kəlamlarının bir neçəsini də hörmətli oxucularımıza təqdim etmək istərdik. Hacibin özü bu kəlamlar barədə belə yazırdı

*Bu kitab əziz bir kitabdır*
*Qananlar üçün elm dəryasıdır.*

*Bunların hamısında hikmətli sözlər*
*İnci kimi sıra ilə düzülmüşdür (K.B.səh 5)*

*Kitabın qədrini bilənlər bilər*
*Ağılsız adamdan nə gözləyirsən (K.B.səh 6)*

*Düzlük, hörmət və mömünlük kimi*
*Təmizlik və alimlik də ona xas imiş. (K.B.səh 8)*

*Sözünə diqqət elə, başın getməsin*
*Dilini saxla , dişin sınmasın. (K.B.səh 28)*

*Bax, doğulan ölür, söz diri qalır*
*Sözünü yaxşı söylə , ölməz ol. (K.B.səh 29)*

*Məndən sənə gümüş və altun qalsa*
*Sən onları bu sözə bərabər tutma*

*Gümüşü xərcləsən, axır qurtarar*
*Sözümü xərcləsən, gümüş qazandırar. (K.B.səh 29)*

*Biliksiz bilikliyə yağı oldu*
*Biliksiz bilikliyə qarşı vuruşur. (K,B, səh 29)*

*Pisə söyürlər, yaxşını öyürlər,*
*Gör hansını seçirsən. (K.B, səh 33)*

*Kamalın bəzəyi dil, dilin bəzəyi sözdür,*
*İnsanın bəzəyi üz, üzün bəzəyi gözdür. (K.B, səh 35)*
Hacibə görə insana bir neçə şey zərərlidir:
1. Dil yalanı
2. Sözündən yayınmaq
3. İçki düşgünlüyü
4. İnadkarlığı
5. Kobudluq (K.B. səh 140)

dir. Kaşkari Divanında türkün bu dəyərlərini açıqlamaqla yanaşı, türk xalqlarının bu yüksək əxlaqi sifətlərini gənc nəslə aşılamağı vacib hesab edirdi. Kaşkari əsərlərində gənclərin əxlaq tərbiyəsi üçün çox vacib olan gənc nəsli elmə, ədalətə, yüksək zövq, insani duyğulara səsləyən və bu gün də özünün əhəmiyyətini itirməyən çoxlu kəlamlar, atalar sözü, şer xalq hikməti vermişdir. Kaşkari Peyğəmbərə istinadən nəsihətlərinin birində təhsilə yüksək qiymət verərək deyirdi: "Ey oğul? Oxu ki, özündə olan səfaləti yox edəsən. Qoyut unu olan bir kimsə onu bəhməzə qatar. Ağıllı olan kəs nəsihəti qəbul edər".

Elmə, təhsilə yüksək qiymət verən Kaşkari yazırdı: "Oğlum, sənə fəzilət və ədəb arzulayıram. Ağıllı elmli adamla rastlaşdıqda ona yaxınlaş və ondan faydalan. O, yazırdı: "Səni yaşlı adam səsləyirsə get, quraqlıq illərində millətə kömək et, el haraya gedirsə sən də get" Kaşkari elmli adamlara yaxınlaşmağı, onlardan öyrənməyi, xalq adamı olmağı lazım bilib və özü oxuyub başqalarına heç nə verməyənləri, qardaşını tanımayan, insanlıq ləyaqətini gözləməyən, var-dövlətə susayan adamları sümüyü başqalarından qoruyan itə bənzədirdi.

Gənc nəslin əxlaq tərbiyəsinə yüksək qiymət verən Kaşkrari gənclərdə mərdlik, yoldaşlıq, yüksək insani sifət, şər işlərdən uzaq olmaq, yalan danışmamaq, böyüklərə hörmət göstərmək, ləyaqətli danışmaq, ədəbli oturmak kimi əxlaqi sifətləri aşılamağı lazım bilərək yazırdı: "Zülm qapıdan girərsə, mərhəmət bacadan çıxar". Buzdan su damar, sənə pislik edən adama sən yaxşılıq et, çünki sənin yaxşılığın onu qul edər, baharın gözəlliyinə inanma, suda dayanma, şər işlərdən uzaq qaç, dilindən yaxşı sözlər çıxart, gizli sevgi ayrılıq çağında bilinər, kiçik igid olsa da ağsaqqala gücü çatmaz, əsilsiz danışan əsir olar. Yayda insanın atı, çarığı və qüvvəti onun azığıdır. Kaşkari gəncləri ləyaqətli, özünə və başqalarına hörmət edən adamlar kimi tərbiyə etmək üçün yazırdı:

*Paltar gözəldirsə, özüncün götür*
*Aşın ləzzətlisin qonağa ötür*
*Hörmət göstərdiyin hər bir müsafir*
*Sənin şöhrətini yayan səfirdir.*

Və yaxud pinti adamın işi baş tutmaz, dəyirmanda doğulan siçan göy qurultusundan qorxmaz, söyüdə quş gələr, adama söz, tənbəl adama bulud da yük olar və s.

Kaşkarinin "Divani–Lüğəti–İt-Türk" əsəri türk dilinin qrammatikasını qaydaya salmaq, onu sistemləşdirmək, elmiləşdirmək, dilin qanun və qanunauyğunluqlarını yaratmaq işində olduqca böyük əhəmiyyət kəsb etmişdir. Kaşkarinin yazdığı kimi, o, qrammtikanı isim və fellər olmaqla 2 yerə bölüb . Əvvəlcə isimləri, sonra felləri öyrətməyi lazım bilirdi. Lüğətdə Kaşkari təkcə sözlərin mənasını açmaqla kifayətlənməyib, onların işlədilmə qaydasını, hər sözlə əlaqədar Türk xalqlarının folkloru, ədəbiyyatı, elmi barədə də geniş izahatlar verib. O, gətirdiyi misalları, sözləri, müxtəlif ərazilərdə yaşayan türk dillərinin qrammatik quruluşları, şivələri, tələffüz qaydaları, ədəbiyyatı ilə müqayisə edərək göstərməyə çalışmışdır ki, türk xalqlarının şivələrində müxtəlifliyin olmasına baxmayaraq, onlar eyni kök, soydan yaranmışlar.

Kaşkarinin əsərlərinə nüfuz etdikdə orada ki, elm, əxlaq məsələlərinin Peyğəmbərin kəlamları ilə həmahəng olduğu aydınlaşır.

## NİZAMİ GƏNCƏVİNİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

Nizami Gəncəvi də əsərlərində Qurani Kərimdə olan elm, əxlaq məsələlərinə böyük yer verərək insanları zəhmət, əmək həyatına çağırırdı. Nizaminin əsərlərində tərbiyənin elə bir sahəsi yoxdur ki, ona toxunmasın Nizami belə hesab edirdi ik, tərbiyə uşaqlara lap kiçik yaşlarından verilməlidir. O yazırdı:

*Kim ki, zülmün evini bərbad edib indidən,*
*Öz sabahkı evini abad edir indidən.*

Və yaxud:

*Əvvəl əyri bitən bir cavan budaq,*
*Zənn etmə qocala, düzgün olacaq*

Həzrəti Peyğəmbər deyirdi:"Sizə salam verildiyi zaman, onu daha gözəl alın və qaytarın. Salamı almamaq hörmətsizlik etinasızlıq əlamətidir. Bu münasibətlə Nizami deyirdi:"Salam ver məndən hörmətlə salam al".

Nizaminin əsərlərində zülmkarlıq və ədalət dostluq, mərdlik tənbəllik, söz və sənətkarlıq, məhəbbət və sədaqət, ilqar və dönüklük təlim və tərbiyə, sir saxlamaq, hərislik, acgözlük, ədalətsizlik və s kimi əxlaqi ifadələr, atalar sözləri, zərbi-məsəllər işlədilmişdir. Bunların hamısı Qurani Kərimə istinadən verilmiş kəlamlardır, məsələn

*Hər kəs öyrənməyi bilməyirsə ar,*
*Sudan dürr, daşdan da kövhər çıxarar*
*Elmi yüksək qiymətləndirən Nizami yazırdı:*
*Kim ki ibrət dərsi alıb dünyadan*
*Sözün lövhəsini öyrənən zaman*
*Eləmiş sənəti elmə xəzinadar,*
*Dünyanın müşkülü belə açılır.*

O Peyğəmbərin "Həqiqətən ulu tanrı bekar qalmamağı, işləməyi lazım bilirdi. Odur ki, "çalışın işləyin" kəlamına müvafiq" əsərlərində əmək tərbiyəsinə xüsusi əhəmiyyət vermişdir "kərpic kəsən qoca" şerində yazırdı:

*"Kərpiç kəsmək işi yetişmiş kamil adam işidir*
*Minnətçilik işi isə qullarındır.*
*Bu sənətə əl atdığım nə üçündür?*
*Bir gün sənə əl açmamaq üçündür.*
*Kimsəyə mal üçün mən heç əl açmam,*
*Əmək verib, yeyərəm, işdən də qaçmam.*
*Bu sözləri bizim igid eşitmiş,*
*Qızarmış , ağlamış, çəkilmiş getmiş."*

Nizami Gəncəvi başqa əsərlərində də əmək, elm, hövsələ, təhsil məsələlərinə xüsusi diqqət yetirərək yazırdı.

***Nizami Gəncəvinin əsərlərindən parçalar***
***Söz və Şərhçi***

*Xəzinələrin açarları*
*Söz bilənin dilindədir.*
*Taxtların vəziyyəti*
*Yürür sözün əlindədir.*
*Şərhçi qoyun bir bülbülü,*
*Kim ona bənzəməkdədir?*
*Tutuşduqda düşüncəsi*
*Mələklər ölçüsündədir.*
*Söz söyləmək məharəti*
*Peyğəmbərin özündədir.*
*Tanrı yanındakı mərtəbə*
*Peyğəmbərdə, həm şairdədir.*
*Hər ikisi bir dost tanıyır,*
*Bir ruh iki bədəndədir.* ***("Mahzən-i Esrar" dan...)***
*Siz deməyin ki, Şərhçilər öldülər,*
*Yalnız sözün dəryasına girdilər.*
*Çağırsanız adlarıyla onları,*
*Balıq kimi sudan çıxar başları.*
*Sözdən gözəl övladı,*
*Dünyamız doğmadı.*

*Nə etdisə yaradan,*
*Qalan bir sözdür ondan.*
*Bilir duyulmazlığı,*
*Oxuyur yazılmayanları.*
*İnsandan bir yadigar,*
*Sözdür ancaq məxrəs.* ***("Həft-Peykər" dən..)***

***"Sirlər xəzinəsi"***

*...Əlinə , ürəyinə, zərər yox batsa tikan,*
*Tənbəlliyi burax, tut bir işdən ol çalışqan.*
*Yaxşı olar özünü işə öyrətsən bir az.*
*Onda inan ki, əlin özgələrə uzanmaz.*

*...Qaranlıq gecələrdə qatlan zəhmət yükünə,*
*Zəhmətin çox olarsa, çatarlar köməyinə.*
*Vəfa əhlindən hər kim gəldi bir yerə çatdı,*
*Zəhmət onunçun belə bir məqamı yaratdı.*

*...Zəhmətdən fəryad etmə, olsun qoy səndə qərar,*
*Zəhmətin axırında rahatlıq var, şadlıq var.*
*....Rahatlığa göz dikib oturmaq dinclik deyil,*
*O, bu azca ömürlə ələ gəlməz düşün bil.*

*...Çalışmaq güzgüsünü alıb qoy qabağına,*
*Özün öz qeydinə qal, bax öz qaş-qabağına.*
*Üzri özündən istə, qəbulunu allahdan,*
*Qəzaya təslim olma, səyinlə iş gör hər an.*

*...Toxumu şuma səpib becərər əkinçilər,*
*Vaxt gələr əkdiyindən bar dərər əkinçilər.*

*...Hər üzrün, yalvarışın-hiylə , kələk aldanış,*
*Quru sözdən nə çıxar? İşdən, əməldən danış.*

*...Əzaba qatlaşmaqla hər niyyətə çatarsan,*
*Zəlillikdən qurtarıb ülviyyətə çatarsan.*

***Xosrov və Şirin***

*...Cütçü saf tum əksə torpağa əgər,*
*Şübhəsiz, torpaqdan saf tum göyərər.*

*Pak adam gövhəri saxlasa təmiz,*
*Gövhər də bulaşmaz torpağa hərgiz.*

*...İnsan səbr etməklə yetər kamına ,*
*Yavaş-Yavaş çatar dilaramına.*

*...Ustanın əlinə keçənə qədər*
*Adətdir ki. hər iş çətin görünər.*

*Polad yüz dağ olsa yenə də insan,*
*Vurub parça-parça dağıdar insan.*

*...Halal ye, tərlantək, halal ov ara,*
*Bənzəmə leş üstə qonan quşlara.*

*...Səbr etməklə kişi zindandan çıxar,*
*Səbr ilə açılar bağlı qapılar.*
*İş çətinə düşsə səbr açar bağı,*
*Gecə danında var sübhün çırağı.*

*...Meyvə kal olduqda böyüyər, artar,*
*Yetişən zamanda yerə düşər bar.*

*...Tərpətməzsə onu bir insan əli,*
*Hərəkət eləməz cəhrə də, bəlli.*

*...Zəhmətlə açarsan bağlı tilsimi,*
*Açdın, xəzinə çıxar aydın gün kimi.*

*...Sabaha çox da sən ümid bağlama,*
*İşi lap bu gecə düzəlt, saxlama.*

***Leyli və Məcnun***

*...Nə şəhvət, nə yuxu, nə də ki yemək*
*Həyatın mənası olmasın gərək.*

*...Dövran şadlıq bəzmi qurandan bəri,*
*Qovdu məclisindən boş gəzənləri.*

*...O, candır, can üçün çalışmayanlar*
*Həmişə borc geyər əyninə paltar*
*...Öz adına layiq işlər gör ki, sən*
*Axırda utanma xəcalətindən.*

*...Kamil bir palançı olsa da insan.*
*Yaxşıdır yarımçıq papaqçılıqdan*
*...İşə kömək etsə təmkinlik əgər*
*Sonunda daima işlər düzələr.*

*...Qarışqa birliklə göstərər hünər,*
*Özündən çox böyük şeylər sürüyər.*

*...Bacarsan hamının yükünü sən çək,*
*İnsana ən böyük şərəfdir kömək*
*Sən də əldən düşüb yorulsan əgər,*
*Sənin də yükünü bütün el çəkər.*

*...Sənin də səbrində qoy olsun qərar,*
*Gövhəri səbr ilə qazanmaq olar.*

*İradəsiz olma, iradəsizlər*
*Ayaqsız qurd kimi yerdə sürünər.*

*...Yaşa ki, dünyada işıq verəsən,*
*Torpağa göz tikmə ilan kimi sən.*

*...Dünyada səbr elə hər şeydən əvvəl,*
*İradə mülkünün hakimi ol, gəl*
*Bəsdir, az dərd çəkib şikayət eylə,*
*Cəfaya dözməyi, gəl, adət eylə.*

*...Kəndlinin dənini udsa da torpaq,*
*Yenidən gözərir, sən buna, gəl bax*
*Xurma ağacında bu gün imkan var,*
*Sabah yetişəcək şirin xurmalar.*

*...Görürsən torpağam, gəl, məni bəslə,*
*Könlümün tozunu, gəl, sil həvəslə.*
*...Bahara dönərəm bəsləsən məni.*
*Pis baxsan, dərdlərə salaram səni.*

*...Torpağa mərhəmət xeyirdir, inan,*
*Lütf etsən gül verər, zülm etsən tikan.*

*...Gəl yad süfrəsindən it kimi əl çək,*
*Özgə süfrəsinə baxma pişiktək.*
*Məşəltək əlinin muzduyla dolan,*
*Şam kimi sən də öz xəzinənlə yan.*

*...Mədəsi ac olan işsiz bir köpək*
*Boş-boş oturmaqla taparmı çörək?*

*Bu dünya səsiylə səslə sənindir,*
*Dövranla düz gəlsən, dövran sənindir.*

*...Əzəldən dünyanın bir qaydası var*
*Bal tutan barmağı arılar sancar.*

*...Əlini vurmasa oda bir nəfər,*
*Odun istisini necə hiss edər?*

*...Ömrün ixtiyarı öz əlindəykən,*
*İşini gör, qurtar hamıdan erkən.*

***Yeddi gözəl***

*...İnan, zirək adam mələkdir, mələk,*
*Zirəklik gözəldir, əcəbdir gerçək.*

*...Hər halda sən çalış, həyat əməkdir,*
*Cənnət kahışığı nəyə gərəkdir,*

*...Çalış öz xalqının işinə yara,*
*Geysin əməlindən dünya zərxara*
*...Nə qədər çəkməyib yuxu gözümə,*
*Əməyi eyləyim sənət özümə.*

*...Dünyada keçməsin boş cavan çağın,*
*Yol get ki , güclüdür indi ayağın*

*...Zəhmətdən incimə, yeni mədən aç!*
*Bu dünya əhlinə xəzinələr saç!*

*...Çəkdiyi əməyin barıdır, albət,*
*Tapdı cavahirat, qaldı səlamət*

*...Dönmədi bir gün də öz qərarından,*
*Hər işi bacarar işlək bir insan.*

*...Bir gün bar götürən ağac əkənlər,*
*Xəzinə aparar əmək çəkənlər.*
*Tənək ağlamasa vaxtında zar-zar,*
*Yetirməz axırda sevinclərlə bar.*

*...Çalış ayağına tikan batsa da,*
*Tənə bəhanəsi olmasın yada,*
*Bu deməsin : ömrün yetibdir başa,*
*O gülməsin: başın dəyibdir daşa*

*...İnsan etsə əgər bir işə vərdiş,*
*Çətin olsa belə, görülər bu iş.*

***İskəndərnamə***

*...Hazıram budumdan kabab yeməyə,*
*Günəştək getməyim dilənçiliyə.*

*...Quruda, dənizdə kim çəksə zəhmət,*
*Balıqdan dürr alar, öküzdən sərvət.*

*...Aslan artığını tülküdür yeyən,*
*Bulud ağlamasa gülərmi çəmən?*
*Əliboş adamlar olarmı maldar?*
*Hansı bir ayağla qaçar çolağlar?*
*...Mən meydan əriyəm, sən də bir kişi,*
*Meydanda seçilir hər mərdin işi.*

*...Düşkünlər, dilsizlər tapacaq aman,*
*Qurtulmaz əlimdən boş yeyib yatan.*

*Vücudu sağlamlar bunu bilməli,*
*Sənətdən gərək boş qalmasın əli.*

*...Hər şeyi özünçün əkmək nə yarar?*
*Dünyada hesabsız ruzi yeyən var.*
*Keçənlər zəhmətlə əkdiyi bağdan*
*Gələnlər meyvəni dərmiş hər zaman.*
*Keçənlər bir çox şey əkmişdir bizə,*
*Biz də əkməliyik gənc nəslimizə.*
*Dünya bir tarladır, diqqətlə baxsaq,*
*Hamı bir-birinə cütcüdür ancaq.*

*...Arpa çörəyinə edib qənaət,*
*Buğda çörəyinə çəkmərəm minnət.*
*Evdə bir arpası olmayan bir kəs,*
*Yarım arpa qədər minnət götürməz .*

*...Qarınqulu adam olsa da qoçaq,*
*Qarnı doyan kimi tənbəl olacaq*

*...Bu nə tənbəllikdir? Girmiş bir işə,*
*Bikarlıq insanı sıxar həmişə!*
*Özgənin əliylə qazdırma mədən,*
*Özün bir əl tərpət, əgər dirisən.*
*Əl ayaq qulundur, işlətsən yəqin,*
*Çıxmazlar heç zaman əmrindən sənin.*

*...Heç salma altına özgə kilimi,*
*Öz dərin üstündə yat aslan kimi.*

*...Ancaq öz varınla ol coşqun umman,*
*Götür öz faydanı öz varlığından.*

*...Biri yem daşıyır hey axşam - səhər,*
*O biri gizlincə o yemdən yeyər.*
*Bal verən arının bircəsi yəqin,*
*Yuzündən yaxşıdır bal yeyənlərin.*

## ABBASQULU AĞA BAKIXANOVUN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ[1]

Abbasqulu Ağa Mirzə Məhəmməd oğlu Bakıxanov 1794-cü il iyul ayının 3-də Bakının Əmirhacıyan kəndində xan ailəsində anadan olmuşdur.

A.Bakıxanov 1846-cı ilin martında Məkkə ziyarətinə getmişdir. O, Təbriz, Tehran, İstanbul, Misir marşurutu ilə arzusunda olduğu müqəddəs məkana yetişir. 1847-ci ilin əvvəlində Məkkə ziyarətindən qayıdarkən 52 yaşında Vadiyi-Fatimə deyilən yerdə vəba xəstəliyindən vəfat etmişdir.

Bakıxanovun "Nəsayeh" (nəsihətnamə) və "Təhzivi-əxlaq" əsərləri demək olar ki, Quranda əxlaq və elmə verilən yüksək qiymətin təhlilidir. Orada insan mənəviyyatını yüksəldən bütün məsələlərə toxunulmuşdur Bakıxanov "Hikmətin fəziləti" mənzum hekayəsində elmin əhəmiyyətindən, düz yol ilə gedənlərin həmişə müvəffəqiyyət qazanacağından, "Ümüdun boşa çıxması" hekayəsində Qurani-Kərimin məziyyətini göstərək gənc nəslə ondan faydalanmağı məsləhət görür. O, "Xeyirli işin faydası" hekayəsində zəhmətin xoşbəxtlik olduğunu, gəncləri əmək həyatına hazırllamağı məsləhət görərkən "Əkdilər yedik və əkdik ki, yesinlər" deyirdi. "Məlamət əlaməti" hekayəsində isə insanın iqtisadi cəhətdən təmin olunması üçün iki şeyi; bir balta almağı və bir də Quranı öyrənməyi məsləhət görürdü. Bu nəsihətamiz hekayələr bir daha göstərir ki, Qurani- Kərim pedaqoji fikrin inkişafına və tərbiyə məsələlərinin həllinə necə böyük təsir göstərmişdir.

---

[1] Professor Xeyrulla Məmmədov və Ağahüseyn Həsənovun tərtib etdikləri "Azərbaycan uşaq ədəbiyyatı müntəxabatı kitabı.

*Nəsayeh (nəsihətnamə)*

Rəhm edən Allahın adı ilə başlayıram. Mən nə qədər axtardımsa, uşaqların təlimi üçün elə bir kitab tapa bilmədim ki, o asan və anlaşılan bir dil ilə onların əxlaq gözəlliyinə dəlalət etsin. Bəzi işlənməkdə olan kitablar o qədər qarışıq-dolaşıq ibarələrlə yazılmışdır ki, müəllimlərin çoxu özləri onları dərk edə bilmirlər. Bəzi kitablar isə o qədər uzun və pərakəndədir ki, onları anlamaq çox çətindir. Bu kitablarda "Uşaqlıqda öyrənilən elm daşa qazılmış şəkil kimidir" zərbülməsəlinin məzmunundan qəflət olunur. Uşaq yaşlarında hər zamandan daha artıq əxlaq gözəlliklərini onlara öyrətmək lazımdır. Pis xasiyyətlər təkrar olunduğu zaman adətə çevrilib uşaq təbiətinə daxil olduqdan sonra, onlara elm və ədəb öyrətmək müşkül olar.

Beləliklə, hicrətdən 1252-ci il keçən bir zamanda "Nəsayeh" adlı aydın və sadə, anlaşılan müxtəsər bir kitab yazdım. Ümid edirəm ki, bu əsər uşaqlara faydalı olub, onların tərbiyəsinə getdikcə daha artıq təsir etsin.

Uşaqlara üz tutub deyirəm:

Ey mənim əzizim! Sən insansan. İnsan dünyada hər şeydən üstün yaranmışdır. Görmürsənmi ki, heyvanlar o qədər böyük bədən və güc ilə insanın əlində əsirdirlər. Bu isə işi yaxşı bacarmaq səbəbindəndir. İnsanlar arasında hər kəs çox bilikli və iş bilən olsa, həmişə hörmətli olar. Deməli, gərək iş bilmək və yaxşılıq etmək qaydalarını o adamlardan öyrənmək lazımdır ki, onlar həyatda təcrübəli və qabiliyyətli olmuşlar. Belə adamların sözləri bizə nəsihətdir.

-Hər kəs vəzifədə, elmdə və yaşda səndən böyüksə, ona hörmət elə, ta ki, səndən kiçiklər də sənə hörmət etsinlər.

-Hər kəsi görən zaman ona salam ver. Əgər o sənə bir söz desə, ədəb və təvazölə ona cavab ver ki, hamı səni sevsin.

-Elə adamlarla otur-dur ki, böyüklər onları yaxşı hesab edirlər. Əclaf və hərzə danışan adamlardan kənar gəz ki, sən də onlar kimi olmayasan.

Bir adamı ehtiyac içində görəndə nə qədər bacarırsan ona kömək et ki, sənin bir şeyə ehtiyacın olanda başqaları da sənə kömək etsin.

-Heç kəsin pisliyini başqasına söyləmə. Çünki əgər o şəxs sənə düşməndirsə, bu sözləri həmin adama çatdırar. Əgər dosdursa, sənin haqqında pis fikrə düşər.

-Yalan danışmaqdan çəkin. Çünki hər kəs sənin bu xasiyyətini bilərsə, doğru sözünə də inanmaz.

-Hər kəs başqasının eyibini sənə açıb desə, ondan uzaq ol. Çünki o, sənin də eyibini başqasına söyləyər.

-İnsan qəzəbli olanda onun ağlı yerindən oynayır. Elə hallarda özünü hər şeydən çəkindir və hər işi acığın keçəndən sonra icra elə.

-Sənə tapşırılmayan işi görməyə çalışma. Çünki, ondan xeyir görməzsən və öz işindən də geri qalarsan.

-Tənbəllikdən qorx ki, o bütün eyiblərdən daha pisdir. Çünki, bu dünyada heç bir şey izsiz deyildir.

-Bir şey o biri olmadan yaşaya bilməz. Sən də onlardan birisən. Əgər işsiz qalsan, daş və palçıq səndən daha yaxşıdır. Çünki, onlar bir ev tikməyə yarayırlar.

-Elm və kamalı əldə etməyi hər şeydən daha əziz tut. Çünki hər şeyi onların vasitəsilə əldə edirlər.

-Başqasına pislik etməyə çalışan bir adama yaxşılıq eləmə. Bu pislərə yaxşılıq etmək, yaxşılara pislik etmək kimi bir şeydir.

-Hər sözü eşidən kimi inanma. Çox ehtimal, o sözü deyən adamın bir qərəzi var və ya o özü işin həqiqətindən xəbərsizdir. Həman eşitdiyi sözün düzgün olduğunu başqa yerdən də öyrənməyə çalış.!

-Unutma, çox olur ki, biz bir işin necəliyinə inanırıq, amma sonra məlum olur ki, məsələ başqa cürdür.

-Şuxluq və boş zarafatı özünə adət eləmə ki, nəzərlərdə yüngül görünərsən və istehza etdiyin mövqedə xalq səndən inciyər və haqqında pis fikirlərə düşər.

-Mübahisə zamanı əgər birisinə qalib gəlsən, elə etmə ki, onun nadanlığı orada oturanlara məlum olsun. Çünki belə olduqda o ürəyində sənə kin bəsləyər və intiqam almaq üçün fürsət axtarar.

-Söhbət zamanı başqalarının danışığına mane olma. Mümkündür, hiyləgər bir şəxs səhv edib öz sirrini aça və düşmən sənin xeyrini deyə. Amma sən çox danışsan belə nöqsanlar sənin tərəfindən baş verər.

-Rahatlıq vəziyytin yaxşılığındadır, mal, dövlət və vəzifədə deyildir. Çox olur ki, bir kasıb zəhmətlə bir parça çörəyi tapıb rahatlıqla yesin, amma dövlət və cəlal sahibi öz işlərinin dolaşıqlığı üzündən möhnət və qorxu içində yaşasın.

-Sənə bir müsibət üz versə, döz! Çünki əldən gedən bir də darıxmaq və təəssüflə geri dönməz. Amma iztirab üzündən gələcək işlərin tədbirindən də qafil olarsan.

-Öz dərdini başqalarına söyləmə ki, əgər düşmən olsalar, sənə rişxənd edib qüvvətlənərlər, əgər biganə olsalar, onların nəzərində hörmətdən düşərsən və əgər dost olsalar onların qəmlənməsinə səbəb olarsan ki, bu da sənin dərdini təzələr..

-Xəsis adam dolanacağın çətinliyi qorxusundan ağır həyat keçirər. Təkəbbürlü adam xalqın nəzərində xar olar və xudbin adam xəcalət çəkməkdən qorxub başqalarının məzhəkəsinə alət olar. Qəzəbli adam başqalarınm günahları üzündən özünə əzab verər.

-Paxıllıq qabiliyyətsizlik əlamətidir. Öz hünərinə inananlar başqalarından çox müvəffəqiyyət əldə edər. Hünərsiz tərəqqiyə çatmağı bacarmadığı üçün başqalarının tənəzzülünü arzulayar ki, onunla bərabərləşsin.

-Paxıllıqdan daha betər yandırıcı od yoxdur. Paxıl adamlar heç vaxt rahat yaşaya bilməz. Onun öz dərdi və başqalarının şadlığı hər ikisi ona müsibət olar.

-Xəsis adam həmişə kədərli olar. Çünki, o nə qədər dövlət qazansa, elə bilər ki, azdır.

-Düşmənin təvazökar və mehribanlığına inanma, ehtimal et ki, o səni aldadır və ya zəifdirsə, fürsət vaxtını gözləyir.

-Başqalarının səni tərifləmnəsi ilə sən istedadlı olduğunu zənn etmə, bəlkə onun bir məqsədi vardır və bu təriflərlə öz müddəalarını pərdələmək istəyir.

-Hər mənsəbdə olsan öz həddini bil ki, özünü olduğundan nə aşağı tut, nə də yuxarı.

-Xalq sənin əhvalının necə olmasından tez xəbər tutmaz. Sənin öz dilindən çıxan sözlərlə onlar sənin yaxşı və ya pis halda olduğunu öyrənirlər. Belə ki, dilini yaxşı saxla və deyilməsi lazım gəlməyən sözlərdən özünü çəkindir.

-Hər işi öz ağlının təsdiqi ilə gör..

-Bilmədiyin bir işi inkar etmə!

-Bil ki, təvazökar və şirindilli adamın dostları da çox olar.

-Dostu çox olan adamlar xoşbəxtdirlər. Dostun sənin dərdinə şərik olmağından yaxşı nə var? O sənin nöqsanlarını göstərər və ehtiyac zamanı kömək edər.

-Dünya malını sevən və mövqe axtarmağa həris olan adam dostluğa yaramaz. Çünki o həmişə öz xeyrini güdüb, başqalarına ziyan verməyə çalışar.

-Hər işdə qərəz sahibi olmayan, özündən ağıllı adamlarla məsləhətləş. Tək adamın ağlı hər işin səlahını tam bilə bilməz..

-Yaxşılıq vasitəsilə azad xislətli adamı özünə bəndə edə bilərsən, amma əziyyət verdiyin zaman hamı səndən qaçar.

-Çox yeməkdən özünü qoru ki, bədənin sağlamlığına və ağla ziyanı vardır.

-Hər ürəyin istəyəni eləmə, bəlkə ağlın istəyəni icra et. Çünki ancaq ağıl yaxşı və pisi bir-birindən ayıra bilər.

-Ağıldan və elmdən daha yaxşı bir dövlət yoxdur. Çünki, onlar həmişə səninlə olar heç kəs onları sənin əlindən ala bilməz.

-Bir adama nəsihət vermək istəyib, onun işinin səlahını demək istəsən, xəlvətdə de ki, xalq arasında qəbul etməz. Hələ bəlkə səndən inciyər də.

-Hər nə vədə vermişsənsə, onu yerinə yetirməyə çalış ki, başqa vədə verəndə onun icra ediləcəyinə də inansınlar.

-Nə qədər imkanın varsa başqasının verdiyi şeyi qəbul eləmə. Çünki bu zaman sən onun yanında alçalarsan, o isə böyük görünər.

-Bu gün görə biləcəyin işi sabaha qoyma, bəlkə sən sabah onu edə bilmədin.

-Düzlüyü özünə şüar elə. Hər kim əyriliyə qurşansa, onun həyası və dini əldən gedər və xalq içində rüsvay olar.

-İnsanın şərafəti öz qabiliyyəti ilədir, nəslinə görə deyildir ki, qabil övladın ona ehtiyacı yoxdur. Naxələf övlad isə nəslinin adını batırar.

-Özünə rəva görmədiyin bir işi başqasına rəva görmə ki, onun əvəzində bir başqasından cəza alarsan.

-Hər bir sözü desən və ya işi görsən arxayın olma ki, sən xəlvətdəsən və heç kəs ondan xəbər tutmaz. Çox olar ki, o söz və ya əməlin üstü açılar. Belə ki, hər pis işi görən haman cür düşünürsə də çox çəkməz rüsvay olar.

-Heç kəsə zərər verməyə razı olma və öz hesabında pak ol, əmanətə xəyanət eləmə ta allahın qəzəbinə düçar olub xalq içindən qovulmuş olmayasan.

-Qohum qardaşla və onlara bağlı olan adamlarla mehriban olub, onlara kömək etməyə çalış ki, onlar da sənə mehriban olsunlar.

-Qonşularla və yerli əhali ilə yaxşı davran, ta ki səninlə də o sayaq müdara etsinlər. Bil ki, sən təksən, onlar isə çoxdurlar. Birin çoxa ehtiyacı aydındır.

-Bədməzaçlardan və bədməzaçlıqdan həzər elə ki, bütün gözəl xasiyyətləri heçə endirər. Bədməzaç adam öz xasiyyətindən əzab çəkdiyi halda, xalqdan nə gözləyə bilər?

-Bir adama yaxşılıq etdinsə, ona kinayə edib boynuna minnət qoyma ki, bununla etdiyin yaxşılıq öz əhəmiyyətini itirər və xoşluq əvəzinə aralıqda küdurət baş verər.

-Ağıllı adam odur ki, öz eyibini başqalarının eyiblərindən artıq görə və öz hünərini başqalarının hünərindən az hesab edə.

-Heç kəsin ədavətini ürəyində saxlama ki, qəlb rahatlığını və dinini pozar.

-Sənin haqqında bir kəsin pis danışdığını eşitdikdə tezliklə haman adama bunu çatdır ki, sözün düz və ya yanlışlığı onun öz hərəkət və sözlərindən məlum olar.

-Mal-dövləti sərf edərkən israfa yol verilməməlidir. Çünki başqa daha vacib yerdə sərf etmək lazım gəldikdə əldə olmaz.

-Sən pis iş görəndə ondan heç bir mənfəət görməzsən, əvəzində bədnamlıq sənə qalar.

-Yaxşı əməldən iki dəfə zövq alarsan, birincisi, onu edəndə, ikincisi, onun əvəzi sənə çatanda.

-Öz ömrünü elə bir işdə tələf etmə ki, axırda onu tərk etməli olasan.

-Bir işi görəndə əvvəlcə yaxşı düşün və sonra icrasında ehmallıq etmə. Çünki bir işi dərk etmək üçün çox vaxt lazımdır, amma icrası üçün fürsət qənimətdir.

-Kasıblıqdan və biçarəlikdən şikayətlənmə ki, səndən daha çox kasıb və daha böyük biçarələr vardır. Onlar çox sevinərdilər ki, sənin vəziyyətində olsunlar.

-İnsanlar surət və səsdə müxtəlif olduqları kimi, elm və əxlaqda da bir-birindən fərqlidirlər. Biz allahı hakim bilirik və irad tutmaq olmaz ki, nə üçün o birini belə, digərini elə yaratmışdır.

-Hər istədiyin bir iş baş tutmazsa yaxşı fikirləş, bəlkə sən özün ona səbəb olmuşsan. Çox olmuş ki, biz işləri ağlımızın göstərdiyi kimi etmirik və sonra başqalarından şikayət edirik..

-Hər halda etiqada riayət etmək lazımdır. Belə ki, hər fikirdə israfa yol versək xeyir görmərik. Mehribanlıq gözəl xasiyyət olsa da, bəzən qəzəb də öz yerində bəyənilər. Deməli, ağıllı adam odur ki, hər işdə orta vəziyyəti özünə adət etsin.

-Bir günahkarı ona verilmiş layiqli cazadan xilas etməyə çalışma. Çünki belə olduqda başqaları da günah etməyə cürət edib, yazıqlara əziyyət verərlər.

-Əgər bir günahsızı nahaq cəzalandırırlarsa, mümkün qədər çalış onu bəladan xilas et!

-Bədbəxt o adamdır ki, başqasına yaxşılıq etmək əlindən gəlirsə, onu etməyə.

-Hər işin varsa, özün onu yerinə yetirilməsinə nəzarət elə. Çünki, heç kəs sənin mənfəətini öz mənfəətindən üstün tutmaz.Bundan başqa səliqələr müxtəlif olduğu üçün çox çətindir ki, başqası o işi sənin istədiyin dərəcədə hər cəhətdən yaxşı icra etsin.

-Köməksiz bir işi görmək mümkün deyildir. Çünki, bir adam hər işi tək icra edə bilməz və bəlkə o işin xırdalıqları ilə məşqul olub, mühüm cəhətləri unudar.Demək lazımdır ki, hər işi bir adama tapşıranda özün də onu necə icra olunmasına nəzər yetirəsən.

-Öz qüvvət və istedadının dərəcəsində boynuna iş götür, nəinki nəfsin istədiyi qədər. Məlumdur ki, adam çox dalınca qaçdıqda azdan da əli çıxar.

-Hər kəsə öz halına münasib yaxşılıq elə. Çox olmuş ki, cüzi bir şey böyük şeydən daha çox bir adamın karına gələr...

***Hikməntin Fəziləti***

*Qədim bir kitabda verilmiş xəbər-*
*İranda bir həkim varmış mötəbər*

*Ümidi yox ikən onun sabaha,*
*Belə bir sifariş göndərdi şaha:*

*"Onun üzüyünü böyük hökmdar,*
*Ən müdrik adama versin yadigar".*

*Şah bu vəsiyyəti icra edərkən,*
*Ehtiyat edirdi divanələrdən.*

*Çünki hər dövlətli, kasıb , hər gəda*
*Özünü ən müdrik bilir dünyada.*

*Nəhayət, hamını çağırtdırdı şah,*
*Onları mətləbdən eylədi ağah.*

*Dedi : - Üç suala istərəm cavab*
*Kim daha düz desə olsun intixab.*

*Əvvəl, ən xeyirli nədir müxtəsər?*
*Tamahkar olanlar dedilər ki: Zər !*

*Vergi toplayanlar dedilər: Xərac!*
*Tacirlər dedilər: Alver və Rəvac*

*Şah dedi : -Uzaqdır bunlar mətləbdən,*
*Orada bir qoca durmuşdu , həmən .*

*Söylədi : Hər şeydən xeyirli-Hünər!*
*Hünərsiz heç bir şey olmaz müyəssər.*

*Şah qəbul eylədi, soruşdu yenə:*
*-Dünyada hər şeydən yaxşı deyin, nə?*

*Yüksəldi müxtəlif səslər saraydan:*
*Şahın razılığı.. şadlıq..firavan.*

*Yenə də o qoca –dedi bu sözü:*
*-Hər şeydən yaxşıdır, yaxşılıq özü.*

*Çünki yaxşı sifət olarsa səndə,*
*Afərin söyləyər dost da, düşmən də.*

*Şah dedi: -Ən lazım nədir insana?*
*Yenə də çox fikir çıxdı meydana.*

*Şah qalxıb qocaya eylədi təzim,*
*Üzüyü hörmətlə eylədi təqdim.*

*Əmr etdi saraydan getməsin bir an,*
*Ki,alsın hər işdə məsləhət ondan.*

*Nəhayət, oldu o şahın vəziri,*
*Ölkəni düzəltdi onun tədbiri.*

*Nə yaxşı olardı hər ölkədə ah,*
*Olaydı belə bir vəzir ilə şah.*

*Ey Qüdsi, hikmətdən varsa xəbərin,*
*Yaxşı adamlarda olsun nəzərin.*

***Ümidin boşa çıxması***

*İş bilən, ağıllı qoca bir dehqan,*
*Bir gecə söylədi belə bir dastan:*

*Ki, Həsən adında bir kəndli vardı,*
*Bağbanlıq edərək rahat yaşardı,*

*Dünyanın qəmindən ürəyi azad,*
*Əkindən başqa şey eyləməzdi yad.*

*O, məhsul alardı, çüzi,bir qədər,*
*Xərcinə çatardı güclə, bir təhər.*

*Xeyirxah bir qərib Həsəni gördü,*
*Ona çox qəribə bir toxum verdi.*

*Həsən əkdi onu , çəkdi çox zəhmət,*
*Yetişdi bir neçə alma, nəhayət.*

*Heç kəs belə alma görməmiş yəgin,*
*Onda ətri vardı gözəl güllərin.*

*Bir yanı qırmızı, sarı bir yanı,*
*Var idi fərəhdən, dərddən nişanı.*

*Aşiqlə məşuqdur guya bu sayaq,*
*Birləşib oturmuş qucaqlaşaraq.*

*Həsən çox dəyərli gördükdə barı,*
*Bilmədi nə etsin bu almaları.*

*Əqlinə gəlirdi onun min xəyal,*
*Şah dedi: - Ver yesin qoy əhli-əyal.*

*Şah dedi : -Gəl göndər dosta ərməğan,*
*Qalsınlar belə bir almaya heyran.*

*Gah da pul qazanmaq gəldi niyyətə,*
*Dedi ki, sataram baha qiymətə.*

*Axırda o gəldi belə qərara:*
*-Layıqdır bu alma hökmdarlara.*

*Qəlbini bəzədi min rəngli xəyal,*
*Sudakı köpük tək coşdu ehtimal.*

*Zənn etdi, sevinər buna hökmdar,*
*Eləyər ölkədə onu bəxtiyar.*

*Belə xoş ümidlə, yüksək xəyalla,*
*Yönəldi şəhərə, gördü cəlalla.*

*Şah çıxır səfərə. Tələsik Həsən,*
*Şaha təqdim etdi almaları şən.*

*Şah fərman verdi, o, sarayda qalsın,*
*Qayıdan zaman bir mükafat alsın.*

*Lakin xadimləri bədcinsdi tamam,*
*Həmişə avara, nəməkbəhram.*

*Nə xalq, nə də dövlət düşürdü yada,*
*Bir qızıl-gümüşdü məqsəd dünyada.*

*O uca qapıda çox alçaqdılar,*
*Xidmətdə daima zalim, cəfakar.*

*Belə alçaqların əlində ikən,*
*Gör necə bəlaya rast gəldi Həsən.*

*Saxlayıb müxtəlif evlərdə miskin,*
*Evindən saldılar onu didərgin.*

*Yorulub belə bir işdən, nəhayət,*
*Zindana salaraq oldular rahət.*

*Həsən, o binəva, o yazıq Həsən,*
*Sonsuz əzab çəkdi, qəlbində şivən.*

*Gün keçdi ay keçdi, gəldi hökmdar,*
*Həsənin halından olub xəbərdar.*

*Əmr etdi hüzura gəlsin o bağban,*
*Təəssüf eyləyib bu işə sultan.*

*Hökm etdi açsınlar ta xəzinəni,*
*Salsınlar oraya təkcə Həsəni.*

*Könlü nə istəsə götürsün dövlət,*
*Bəlkə yaddan çıxa çəkdiyi zillət.*

*Girdi xəzinəyə tək-tənha Həsən,*
*Heyrətə düşdü, bu xəzinədən.*

*Bircə şey alsaydı ömrünə bəsdi,*
*Lakin daş-qaşlardan tamahı kəsdi.*

*Götürdü iki şey ancaq oradan:*
*Biri balta idi, biri də Quran.*

*Bu xəbər çatdıqda şaha qaldı mat,*
*Çağırıb danladı, etdi iltifat.*

*Dedi: - Ey divanə, bu fürsət bir də,*
*Əlinə düşərmi sənin ömürdə?*

*Sonralar bu işdən olsan peşiman,*
*Bir fayda gətirməz bu sənə, inan!*

*Fürsəti itirməz ağıllılar bil,*
*Qayıt xəzinəyə , gözlərini sil!*

*Qiymətdə ən böyük bir cəvahir al,*
*Gedib öz dərdinin əlacına qal!*

*Şaha təzim edib söylədi Həsən:*
*-Bunlardan özgə şey istəmirəm mən.*

*Baltayla kəsərəm ağacı əvvəl,*
*Ki, odur gətirən başıma əngəl.*

*Deyərəm and içsin nəslim Qurana,*
*Ümid bağlamasın heç bir sultana.*

*Nə arzu etmişdim , noldu, nəhayət,*
*Qoy onlar halımdan alsınlar ibrət.*

*Kim razı qalmasa öz xoş halından,*
*Varına qənaət etməyən insan,*

*Tamahla , həsədlə yaşasa ancaq,*
*Şadlığı dəyişib əzab olacaq.*

*Ey Qüdsi, səndə gəl bundan ibrət al,*
*Bu sonsuz arzunu bir hüduda sal.*

*Gəl etmə bu mənsəb, çəlala nəzər,*
*Kim çatdı arzuya sonuna qədər?!*

*Belə tamahkarlıq nəyə gərəkdir?*
*Səadət əlinə düşməyəcəkdir.*

*Özünə nə lazım bu zülmü sifət,*
*Çox pay istəyənə ruzi olar kəm.*

*Qaç bu pozğunluqdan, canını qurtar,*
*Yaşamaq şəklində ölümdür bunlar.*

*Üzünə , məcazi olan bu dastan,*
*Həqiqət qapısı açsın hər zaman.*

*Həsən bir ruh idi, ağac da xislət,*
*Qəribə bar verər üzə gülsə bəxt.*

*Sonra bu bar sənə məğrurluq verər,*
*Qəflət zindanına çəkib gətirər.*

*Yoxsulu sınayan xəznəni atsan,*
*Xislətin ağacı kəsilər asan.*

*Qurana and içsən , dilşad olarsan,*
*Qulluq həlqəsindən azad olarsan.*

***Xeyirli işin faydası***

*Bir qocanı gördü cavan bir əmir,*
*Ki, bağında zəhmət çəkib qoz əkir.*

*Gülüb dedi: - Ey zavallı biləsən,*
*Dərd qalacaq sənə bunca zəhmətdən.*

*Başqa ömür lazımdır ki, bu ağac,*
*Meyvə verib, dərdinə olsun əlac.*

*Qoca dedi : - Ey şöhrətli hökmdar,*
*Başqaları əkdi, yedik nə olar?*

*İndi də biz zəhmət qəbul edərək,*
*Nəsillərçin qoz ağacı beçərək.*

*Yaxşılığın budur rəsmi dünyada,*
*Yaxşılıq et, səni salsın el yada.*

*Əmir onun sözlərini xoşladı,*
*Neçə dinar çıxarıb bağışladı.*

*Qoca dedi : -Çoxu əkdi və illər-*
*Gözlədi ki, əkdiyi versin səmər.*

*Mən əkirdim başqalarçın, güldü baxt,*
*Məhsul aldım zəhmətimdən əkən vaxt.*

*El üçün kim girişərsə bir işə,*
*Özü dəxi xeyir görər həmişə.*

*Qüdsi, bu xoş sözlərin nə xeyri var,*
*Dediyini işdə eylə aşikar.*

***Məlamət Əlaməti***

*Çox gözəl həkayət yadıma düşdü,*
*Ya da bir şikayət yadıma düşdü.*

*Bir fəqir gələrək yüz ahü zara,*
*Şikayət edərək bir hökmdara.*

*Dedi ki, bu kənddə var bir bostanım,*
*Onunla dolanır, bil, xanımanım.*

*Qonşunun camışı girib bostana,*
*Onu ayaqlayıb edib virana.*

*Hakimsə danlayıb yazıq kişini,*
*Dedi : - Sən tutaydın möhkəm işini.*

*Bir hasar çəkmədin bostana nədən?*
*Tikanla örtmədin hasarını sən?*

*Dedi ki, camışa bunlar nə edər,*
*Hasar, tikan ona edərmi əsər?*

*Dırnağı , buynuzu möhkəmdir onun,*
*Zoru çox, şüuru çox kəmdir onun.*

*Dağıdar önünə nə çıxsa haman,*
*Özünə yol açar bu qanmaz heyvan.*

*Qüdsi, mən heyrətəm, ki, hər bişüur,*
*Hər şeydə işlədir qanmazlıqla zur.*

*Soxulur önünə çıxsa ev, bostan,*
*Tapdayıb eyləyir yer ilə yeksan.*

*Dindirsən, deyir ki, qorxan deyiləm,*
*Yəni ki, camışam, insan deyiləm.*

## SEYİD ƏZİM ŞİRVANİNİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

Seyid Əzim Seyid Məhəmməd oğlu Mir Cəfərzadə 1835-ci ilin iyul ayının 10-da Şamaxı şəhərində dindar ailədə anadan olmuşdur.

1888-ci ilin 20 mayında qəflətən vəfat etmişdir. O, Şamaxıda Şəhxəndan qəbristanlığında dəfn olunmuşdur.

Seyid Əzim Şirvani oğluna nəsihətlərində və digər şer hekayələrində bisavad dindarların Quranı necə təhrif etdiklərini tənqid edərkən Peyğəmbərimizin elmə, biliyə, təhsilə necə yüksək qiymət verdiyini göstərməyə çalışmışdır.

*Mir Cəfərə Xitab*

*Cəfər , ey qönçeyi-gülüstanım!*
*Ey mənim bülbüli-xoşəlhanım!*
*İki yüz yetmiş üçdə ,bəd həzar,*
*Mötədil fəsl idi, zəmani bahar,*
*Səni həq mən fəqirə qıldı əta,*
*Kəbeyi –qəlbimə yetişdi səfa.*
*On beş ildir ki, ey ətayi-əzim,*
*Sənə adab eylərəm təlim.*
*Yetibən əqlə sərfəraz oldun,*
*Dəxi məndən ki, biniyaz oldun.*
*Əql peyğəmbərin qılıb rəhbər;*
*Öyrən adabi-məxhəbi –Cəfər!*
*Demirəm mən gedən təriq ilə get,*
*Əql tut, ol gözəl rəfiq ilə get.*
*Sənə bürhan deyil təriqi-pədər,*
*Gör nə yol getdi zadeyi-Azər.*
*Demirəm rus, ya müsəlman ol,*
*Hər nə olsan get, əhli-ürfan ol.*
*Demirəm sünnü ol və ya şiə,*

*Tək hədəf olma tiri-təşniə.*
*Demirəm şeyxi ol və ya babi,*
*Hər nə olsan tək olma qüllabi.*
*Mən özüm şiəyəm, budur sifətim,*
*Leyk əshabə yox müxalifətim.*
*Gər Əbubəkrlə Ömər, Osman,*
*Zülm ediblərsə, həqq edər divan.*
*Oların barəsində etmə güman,*
*Edər imanə suyi-zənn ziyan.*
*Zülm ediblərsə, filməsəlşahə,*
*Onları vagüzar et allahə.*
*Dilüvü saxla lənət etməkdən,*
*Qeyri şəxsə şəmatət etməkdən.*
*Neçə illər Əliyyi-İmranə,*
*Əhli - İran deyirdi əfsanə,*
*Sonra nöqsaqların bilib naçar,*
*Etdilər cümlə tövbə- istiğfar.*
*Olmaya ruzi –həşr, ey müztər,*
*Ola xəsmin cənab peyğəmbər.*
*İstəyirsən əgər təriqi –nicat,*
*Ali-əthar söylə sən səlavət.*

* * *

*Ey gözüm nuru, ey ətayi-xuda,*
*Sənə Şirvanda oldu nəşvü nüma.*
*Lilləhül-həmd, xitteyi-Şirvan*
*Saniyi – İsfəhandır əlan.*
*Gərçi viranə oldu zəlzələdən,*
*Çıxmayıb mərifət bu mərhələdən.*
*Vardır hər güşədə yüz əhli-kəmal,*
*Hər biri əhli-elmü sahibi-hal.*
*Xassə kim, abü xakinin əsəri*
*Qabili-tərbiyət qılır həçəri.*
*Xassə kim, padşahi-kişvəri-Rus*
*Edəli təxti-ədlü dadə cülus,*

*Eləyib tərbiyət kəmal əhlin,*
*Gətirib halə hər məhal əhlin.*
*Hər vilayətdə açdı məktəblər,*
*Çatdılar feyzə əhli-mənsəblər.*
*Oxunur onda müxtəlif dillər,*
*Həll olur onda cümlə müşküllər.*
*Ey oğul, bu dəlili-bişəkdir*
*Adəmi-bisavad eşşəkdir.*
*Rəmzi " Həl yəstəyi" müdəllət imiş,*
*Bilməyəndən bilən kəs əfzəl imiş.*
*Həqq buyurmuş ki, ixtilafi-Lisan,*
*Nemətimdəndir, ey güruhi-cavan!*
*Kim ki , bəs bir dil eyləsə hasil,*
*Oldu bir nemətə o kəs vasil.*
*Cəhd qıl neməti-təmamə yetiş,*
*Elm təhsil qıl, məqamə yetiş.*
*Ey oğul, hər lisanə ol rağib,*
*Xassə ol rus elminə talib.*
*Onlara ehtiyacımız çoxdur,*
*Bilməsək dil, əlacımız yoxdur.*
*Çatmayır şərdən bizə bu xəbər-*
*Ki, ərəbdən siva dil oldu hədər.*
*Nə ərəbdir xuda, nə rum, nə zəng,*
*Nə həbəşdir, nə zəngbarü firəng,*
*Xah boq, xah tanrı, xah xuda*
*Birdi mənada, ey dürri-yekta.*
*Ləfz edirsə ifadə mənanı,*
*Sərt edər mərifət anı.*

***Oğluma nəsihət***

*Cəfər, ey neməti- xudayi-cahan,*
*Olsa bir şəxs əgər sənə mehman,*
*Elə ol şəxsə ehtirami-təmam,*

*Xidmətində dolan bəsani-qulam.*
*Nə qısa xahiş etsə, övladır,*
*Demə bu ziştdir, o zibadır..*
*Ey oğlul, olsa süfrədə nanın,*
*Tikəsin sayma mərdi-mehmanın.*

**Alimlərə Hörmət haqqında moizə**

*Cəfər, ey nuri-dideyi –Seyyid,*
*Qönçeyi-növrəsideyi-Seyyid,*
*Üləma həqqini rəayət qıl,*
*Əhli- elmə həmişə hörmət qıl.*
*Demə bu kafər, ol müsəlmandır,*
*Hər kimin elmi var-o, insandır.*
*Elmsiz adəmi xudayi-cəlil,*
*Dedi: -"Ən amü bəl əzəllü səbil".*
*…Elmdən oldu həzrəti Loğman,*
*Hikmət ilə sərамədi –dövran.*
*Elm bir nur, cəhl zülmətdir,*
*Cəhl düzəxdir, elm cənnətdir.*
*..Alimə kim ki, eyləməz hörmət*
*O deyildir peyğəmbərə ümmət.*
*Sənə hər kimsə elm edər təlim,*
*Ona vacibdir eyləmək təzim.*
*Harda görsən, ona səlam eylə.*
*Baş əyib qul tək ehtiram eylə.*
*Qeyrini vəsf qılma yanında,*
*Sən dur, ol söyləyən zamanında.*
*İznsiz etmə xidmətində gülüş,*
*Olma zəcrindən, ey pəsər, məyus.*
*Adəm ol, incimə qiraətdən,*
*Çubi-molla çıxıbdı cənnətdən.*
*"Gülüstan" icrə bülbüli-Şiraz*
*Farsilə edib bu nəğməni saz:*

*"Padşahi pəsər beməktəb dad,*
*Löhvi –siminş dər kənar nəhad.*
*Bər səri –lövhi-u nəviştə bezər;*
*Gövri –ustad beh zimehri-pədər".*
*Bil ki, ustadın ey rəşid pəşər,*
*Sənə ruhaniyətdə oldu pədər.*
*Pədərin bir mənəm, bir ustadın,*
*Cəhd qıl yaxşı çıxmağa adın,*
*Səy qıl, aqi-valideyn olma,*
*Ziştü mərdudi-xafiqeyn olma.*
*Eylə ustadüvə həmişə dua,*
*Məğfirət qıl tələb xudadən ona.*
*Olma ol tifl kimi sən bədzat-*
*Ki, öz ustadına dilərdi məmat.*

### Oğluma Xitab

*Ey oğul, alim olsa rəbbani,*
*Sən onun ol dərində dərbani.*
*Mən özüm kim, zəmanə sərvəriyəm,*
*Üləmanın kəminə çakəriyəm.*
*... leyk bir parə mərdi-hiylətgər,*
*Eyləyir dərs üçün İraqə səfər.*
*Kimisi şəhri-İsfəhanə gedir,*
*Kimisi Yəsdü Bəhbəhanə gedir.*
*Kimisi Kərbəlaye azim olur,*
*Neçə şeylər ona mülazim olur.*
*Oxuyur hər biri beş-altı vərəq,*
*Sonradan saqqala verir rövnəq.*
*..Günzü sigəni edər əzbər,*
*Gecələr nazəninə həmbəstər.*
*"Nəfərə minküm" ayəsin oxuyur,*
*Çoxusun sinədən yalan toxuyur.*
*Qurtarır puli çün olur məğlub,*

*Vətən əhlinə göndərir məktub –*
*Ki, əya sakinani –əhli-vətən,*
*Çəkmişəm on beş il riyazət mən,*
*Edirəm kəsbi – elm leylü nəhar,*
*Gündüzüm dərsdir, gecəm təkrar.*
*Həmdəmim şəb "Üsuli-Kafi" dir,*
*Sizə ancaq bu elm kafidir.*
*Şöhrətim gün təki cahanı tutub,*
*Rüfətin ərzü asimanı tutub.*
*Elmə əllameyi-zəmanət mən,*
*Ələmi-xəlqi-kun-fəkanəm mən.*
*Olmuşam elmü fəzldə mümtaz,*
*Fəxri-Razi deyil mənə həmraz.*
*Elm ilə hər məkanda adım var,*
*Gözüvüz aydın, ictihadım var.*
*Gəlməyimdə əgərçi var təxir,*
*Edirəm mən risaləmi təhrir.*
*Mənə bir qəbr pul edin irsal,*
*Ləşkəri-fəqrə olmuşam pamal.*
*Gecələr şəmə tapmıram bir pul-*
*Ki, yazam şəhri-müşkülati-üsul.*
*Çox gecəm var ki, şamsız yatıram,*
*Çaysız, həm təamsız yatıram.*
*Bu pəyamı eşitcək əhli-vətən,*
*Alışıb, od tutub çi mərdü çi zən.*
*Bir qədər cəm eyləyib zərü sim,*
*Göndərirlər ki, hiç eyləmə bim,*
*Pul gəlir hər qədər ki, sən qalasan,*
*Təki sən sahibiçtihad olasan.*
*Pul ki, çatdı cənab tüllabə,*
*Yenə verdi əzəlki mis qabə.*

## HACI SƏİD ƏFƏNDİ ÜNSİZADƏNİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

Hacı Səid Əbdürrəhman əfəndi oğlu Ünsizadə 1839-cu ildə Şamaxı şəhərində ruhani ailəsində anadan olmuşdur.

Hacı Səid Əfəndi Ünsizadə başqa Türk ülamaları, yazıçı və şairləri kimi Quranı dərindən bilən bir mütəfəkkir kimi onun mütərəqqi cəhətlərini üzə çıxarmağa çalışmışdır. O, Peyğəmbərin "Cənnət anaların ayağı altındadır" kəlamında müvafiq övladların, Ana, Ataya münasibəti valideynlərin övladlarına münasibəti kimi, çoxlu tərbiyyəvi məqamları verməklə cəmiyətin tərbiyyə məsələlərini doğru qurmağa təkan verməyə çalışmışdır.

Quranı mükəmməl bilən və uzun illər ruhani məclisinin üzvi olan Hacı Səid Üsnizadə Quranın tərbiyə imkanlarından istifadə edərək gənc nəslin əxlaq tərbiyəsinə təsir göstərməyə və xalqı maariflənməyə çağırmışdır. O bu məqsədlə "Təlimül-ətraf", "Təhzibi-əxlaq", "Töhfətül-müəllimin", "Təlimi-ətfal" əsərlərini yazmışdır. Hacı Səid Ünsizadə –1905-ci ildə İstanbul şəhərində vəfat etmişdir

Aşağıda Hacı Səid Əfəndi Ünsizadənin tərbiyyə nöqteyi nəzərindən çox qiymətli olan və Məhəmməd Peyğəmbərin kəlamları ilə səsləşən əsərlərindən qısa parçalar veririk. Əsərlərdən parçalar.

### *Ana*

Ey uşaqlar, görürük ki, mehriban və mərhəmətli olan analar nə qədər zəhmət, məşəqqətlər ilə övladlarını doğandan sonra yenə onların nə mərtəbədə zəhmətini çəkib, əmizdirmək, bələmək, qucağında saxlamaq və sairə murdarların yuyub, isti və ya soyuqdan mühafizə eləməkdən başqa gecə və gündüz onların istirahətində öz istirahətlərini tərk edib, uzun gecələr yuxusuz qalırlar və özlərində olan şəfqət və mərhəmətə görə uşaqla-

rına bir az kefsizlik və naxoşluq üz verəndə pərvanə kimi onların başına dolanıb, öz nəfslərindən ziyadə övladlarını çox istəyirlər. Və uşaqlar heç bir kəsdən görmədikləri ülfət və rəftarı analarından görürlər. Bu surətdə bizlər uşaq olan vaxtda dəxi analarımız bizim zəhmətlərimizi çəkib, bizi tərbiyə edə-edə bu boya yetiriblər. Buna görə bizlərə qayətdə lazımdır ki, heç bir vaxtda analarımızın rizasından çıxmayıb, həmişə əmrlərinə itaət etmək ilə xeyir-dualarını alıb dünya və axirətdə üzü ağ olaq. Əlalxüsus, bu barədə peyğəmbərimiz Məhəmməd Əl-Mustafa səllillahi-əleyh və sələm buyurubdur ki, anası özündən razı olmayan kəslər cənnətə daxil olmazlar. Pəs, öz borcunu və lazimısini fəhm edən uşaqlar böyük olan vaxtda dəxi özünü əmcək əmən uşaq hesabında bilsə, analarının barəsində qayətdə ədəb və yumşaqlıq ilə müamillə və rəftar edərlər. Və bu xidmətin öhdəsindən gəlməyi özləri üçün xoşbəxtlik hesab edib, xeyir-dualarını almaq ilə qayətdə məmnun və fərəhnak olarlar.

### *Ata*

Atalarımız bizi və anamızı rahat eləməkdən ötrü gecəni gündüzə qatıb çalışırlar. Yeməyimizi, içməyimizi, paltarımızı və evimizi tədarük edib, hər bir qeydimizə qalan atalarımızdır. Qan-tərə bata-bata və təlaş eləməyi bizdən ötürüdür. Bizə dəxi zəmdir ki, atalarımıza şükür edib, xidmət və itaətində qüsurluq etməyək. Atalarımız qocalan vaxtda əlimizdən gələn miqdarı onların haqqında riayət və kömək etmək bizə qayətdə lazımdır. Övladların ana və atalarına şəfqət və mərhəmət edib, müti ilə bəd müamilə elənib, qəlbləri bizdən sınsa dünya və axirətdə böyüklər düçar olmağımıza səbəb olar.

### *Övladın ata və anasına itaəti*

Ata və anamızı və qohum və əqrəbamizi sevdiyimzdən bizə lazımdır ki, həmişə onları fərəhnak edib, onlar nifrət edən

şeylərdən nəhayət mərtəbədə etiraz və onları qəmgin edən şeylərin cümləsindən ictinab edək. Hər bir vaxtda onlardan xoş və hicab etmək bizə qayətdə lazımdır. Amma gərəkdir ki, bu günə qorxmaqlıq qorxaqlıq sifətindən əmələ gəlməyib, bəlkə, atamıza, anamıza qəm və küdurət gətirən nalayiq hərəkətlərdən qaçmaq sifətindən əmələ gəlmiş ola.

Bu günə qorxaqlıq eyib deyildir, bəlkə bizə görə böyük bir şərafətdir.

Çünki bu qorxaqlıq ədavətdən zühurə gəlməyib, bəlkə ata və anamızın məhəbbətindən əmələ gəlmiş bir namusdur. Ata və analarımız hərçənd bəzi kiçik təqsirlərimizdən keçib, əfv və mərhəmət ilə müamilə eyləsələr də gərəkdir ki, biz azıb yoldan çıxmayaq. Bəlkə daha artıq hicab edib, qorxmağımızı artırmaq lazımdır. Və onların ehtiramını buraxmaq cayiz deyildir. Və onlara kədər gətirən şeyləri zühura gətirməmək ilə onları hər bir istədiklərini gülər üz ilə əmələ gətirib, istəmədikləri şeylərdən ictinab eləməkdən ibarətdir. Xülasə, uşaqlar ata və analardan nə qədər nəsihətlər, acı-acı sözlər, döymək və söymək görsələr də cümləsini özləri üçün yaxşılıq hesab edib kamali-itaət ilə qəbul və əməl edələr. Çünki ata və ananın və sair əqrabanın uşaqlar haqqında göstərdikləri dürüştlük məhz məhəbbətdən naşidir. Və onların bu qism müamilələri və uşaqların yaxşı olmağından ötrü və doğru yola aparmaq üçün ğecə və gündüz bu fikirdədirlər ki, övladları əqilli və tərbiyəli və ədəbli olsun. Buna görə uşaqlar böyüklərdən nə qədər dürüştlük görsələr xoşnud olub və itaət göstərib təvazei əldən buraxmayalar və sərkeşlik ilə cavab verməyələr.

Və hərgah xudanəkərdə ata və anasına və sair mürəbbi olan əqrəbasına sərkeşlik edib ağ olsalar, dünyada böyük bəlaya mübtəla olub, axirətdə dəxi əzab olunarlar. Bu surətdə uşaqlara ata-anası və sair əqrəbası nə qədər tərbiyə edib, əziyyət və azar versələr, haman tənbehə özlərini müstəhəqq və layiq bilib tövbə olsun. “Biz dəxi bu günə yaman işə məşqul olmarıq”- dan başqa bir söz deməyələr.

Ata –ananın və sair əqrəbanın uşaqlara tərbiyə eləməyi məhəbbət və tərbiyədən naşi olmağında şəkk və şübhə yoxdur və hərgah onlar övladlarının qüşur və xətalarını görməkdə və onlara tərbiyə eləməkdə müzayiqə eləsələr, övladlarına ihanət edib tərbiyə barəsində xəyanətkar olmuş olarlar.

Ey uşaqlar, bizlər müqəssir olanda ata və anamızın bizə verdiyi... o cəzadan zənn etməyin ki, onlar bizi sevməyirlər. Bəlkə, bizim yaman hərəkətlərimiz onlara əsər edib, kəmali-şəfqət və mərhəmətlərindən tərbiyə eləməyə naçar olublar. Biz gərək bu barədə çox şərməndə olaq ki, yaman hərəkətlərimiz ilə onları özümüzdən narazı qıldıq.

Ey uşaqlar, az itaətdən az razılıq, çox itaətdən çox razılıq əmələ gələr. Və lakin itaət eləməməkliyin azı və çoxu narazılığa səbəb olmaqda bərabərdir. Və bəzi vaxtda saymaz və kahil olmaqdan və hər bir işə diqqət ilə qulaq asmamaqdan balaca itaətsizlik dəxi əmələ gəlir ki, böyük bir təqsir hesabında olar. Çünki, bu günə xasiyyət qulağı ağırlıqdan və laübalilikdən əmələ gəldiyindən hər halda pəhriz etmək vacibdir.

Ona görə deyiblər ki, hər kəs öz mürəbbisindən nə qədər nəsihətlər və sözlər eşitsələr, diqqətilə qulaq asıb və qulaqlarına sırğa edib heç bir vaxtda fəramuş etməyələr. Ələlxüsus ki, uşaqların uşaq olmaqlarına görə fəhm və fərasəti az olduğundan hər bir şeyin səbəbini və hikmətini fəhm edə bilməzlər və yaxşı və yamanı təşxis və təmiz eləməyə qadir olmazlar, hər şeyin hüsn və qübhünü bilməzlər. Və lakin onların ata və anası və sair əqrəba və mürəbbiləri əql və təcrübə ilə şeylərin hüsn və qübhünü xeyir və zərərini dərk etdiklərindən uşaqlara lazımdır ki, hər halda onların sözlərinə itaət göstərsələr və yəqin etmək ki, ata və analar övladları barəsində hər nə eləsələr cümləsi onların mənfəətindən ötrüdür.

...Qəbahətləri və yaman hərəkətləri olmayan uşaqlar və olsa da tez peşman olub, tövbə edənlər özlərini xalqın

və ata və anasının nəzərində yaxşı göstərdiyindən hər yerdə tərif olunmaqdan başqa böyük olanda dəxi xəta və xətərlərdən əmin olub, ömrünü hörmət və izzət və istirahət və dəyanət ilə keçirib həm xalq yanında məqbul və pəsəndidə olalar. Əlbəttə, əqilli uşaqlar bu günə sifətləri qazanmağa iqdam edib, lazım olan səylərini dəriğ tutmazlar.

### *Ata və anasının sözünə qulaq asmayan uşaqlardan neçələri neçə-neçə bəlalara giriftar olmaqları barəsində bəzi əhvalat*

Bir nəfər uşaq qızılça çıxardan da ata və anası onun üstə həkim gətirib gecə və gündüz onun mühafizəsində çalışırlar və həkim tapşırır ki, bu uşaq lazımdır ki, soyuqdan hifz oluna. Məzkur uşaq bir az itaətsiz və sözə ,baxmayan olduğundan anası həmişə onun yanında oturub vaxt bivaxt üstünü örtər və qoymaz ki, külək və soyuq dəysin. Və həmişə ona nəsihət verir ki, üstünü açmasın. Və deyir ki. hərgah özünü saxlamasan, axırda bundan sənə naxoşluq qalar. Bir gün uşağın anası beş-on dəqiqə onun yanından durub özgə işlə məşğul olur. Bu əsnada həmin uşaq pəncərəni açıb küləyə qarşı oturar . Nə isə anası içəri girib oğlunu pəncərənin qabağında küləyə qarşı oturan görəndə mərhəmət ilə deyir ki, nə üçün yerindən durdun və özünü küləyə verdin? Tez pəncərəni örtüb uşağı öz yerinə gətirir. Amma çifayda həmin saatda demə ki, soyuq ona təsir edib karın görübmüş. O, saatdan onun hər iki gözündə illət və ağrı zahir olub, sonra nə qədər dava və dərman elədilərsə də hərçənd lap kor olmadı, amma gözündə o qədər zəiflik əmələ gəldi ki, yazıb oxumaq nemətindən məhrum və binəsib qaldı.

Bu hekayədən qanmaq olar ki, hərgah haman uşaq anasının sözünə baxıb, özünü həkim deyən sayaq ilə mühafizət eləsəydi, əlbəttə, göz kimi yaxşı nemətdən məhrum qalmazdı.

Tacirlərdən birinin gördüm ki, gözü kordur. Əsnayi-söhbətdə özü nəql elədi ki, onun bir quşu varmış ki, qayətdə onu sevərmiş və həmişə əlində saxlayıb üzündən və gözündən öpərmiş. Və həmişə ona anası deyərmiş ki, ehtiyat elə, amma o qulaq asmırmış. Axırda yenə bir gün quşun oynadıb, üzündən, gözündən öpən vaxtında quş dimdiyi ilə vurub gözünün birini çıxardıbdır.

*Veylağac oynamaqdan nə qədər uşaqların gözü çıxıbdır. Və divara və ağaca çıxıb quş balası çıxardanda nə qədər uşaqlar yıxılıb tələf olubdur.*

*Bir uşaq həmişə aquşkadan küçəyə baxmağa adət elədiyindən anası nə qədər manea edirsə də gargər olmayır. Axırda bir gün pəncərədən yıxılıb tələf olur.*

*Bir uşaq bicaq ilə oynamağa çox həvəsnak olduğundan bir kərə biçaq əlində yüyürən vaxtda yıxılıb, biçaq qarnına batmaq ilə ölüb tələf oldu. Nə qədər kiçik uşaqlar olub ki kibrit alışıb kiminin əli və kiminin paltarı və kimsənin üzü-gözü yanıbdır.*

Çıraq, lampa və barıt və piston ilə oynayan uşaqlardan neçələri bir qəzaya uğramağını həm görmüşük və həm eşitmişik. Bədəstur qorxulu çay, dərya, quyu və hövzə kənarında oynayan uşaqlar nə qədəri suya qərq olubdur. Və nə qədər dam kənarından, atdan və eşşəkdən uşaqlar yıxılıb ya şikəst, ya tələf olublar.

Buna görə uşaqlara lazımdır ki, hər bir əməldə ata və analarının nəsihətlərinə baxıb əsla və mütləq onların əmrlərindən çıxmayalar. Və nə qədər xətərnak iş olsa, cümləsindən pəhriz edələr. Xülasə, ata və anasınm sözünü eşitməyən və nəsihət qəbul etməyən qanmaz uşaqların bəlaya düşməklərinin cümləsini yazsaq, neçə cild kitab olmağında şübhə yoxdur. Ümid ki, qanacaqlı və mərifətli uşaqlar bu günə qissələrdən hissə alıb, az sözdən çox mətləb götürərlər.

*Təlim və tərbiyə*

Təlim və tərbiyə insanlar üçün bir lələ və nəsihətçi kimidir ki, həmişə onlara doğru yol göstərib, əxlaqi-həmidə və övsafı-cəmilə sahibi olmağa tərğib və təhriz edər və məhsəl kimi onların üstə qurub qoymaz ki, rahi-rastdan və təriqi-istiqamətdən bərkənar olsunlar.

Tərbiyəli olan kəslər hərəkət və sükunətlərindən və sair müamilə və rəftarlrından məlum və müşəxxəs olarlar. Tərbiyəli olan kəslər riyakarlıq ilə rəftar eləməzlər və boş adamlar kimi əzilib-büzülməzlər və səbəbsiz bica kübr və qəzəb eləməzlər. Və məclislərdə oturan vaxtda aram və vüqar ilə oturub əlləri və gözləri ilə buna və ona işarə eləməzlər və yaltaq adamlar kimi hər gördüklərinə ikiqat olmazlar. Başlarını mütəkəbbir adamlar kimi yuxarı tutmazlar. Və heyvanlar kimi lap aşağı dəxi sallamazlar Bəlkə öz vücudlarını təbiəti təqazə edən sayaq üzrə həddi-vaxtda saxlarlar. Və bir yerə qədər vaxtda məclisin yuxarı və aşağısın axtarmazlar. Və qeyrilərdən yuxarı oturmaq fikrində və sədri-məclis olmaq xəyalında dəxi olmazlar. Və öz vücudları ilə oturduqları yerləri şərafətli hesab edərlər. Və oturduqları yerlər ilə şərafətli olmağı istəməzlər. Və oturan vaxtda ğiədəbanə oturmazlar. Və təbəxxütüranə əyləşməzlər. Və bu qayda ilə oturub səbəbsiz vəzələrini dəyişdirməzlər. Və bu qism müvəddəb olmağı öz vücudlarına lazım bilib qeyrilərə nisbət eləməzlər. Və tez-tez qalxıb oturmaqdan və xifftə dəlalət edən hərəkətlərdən pəhriz edərlər. Sair adamlar ayaq üstə duran vaxtda onlara təzimdən ötrü tərbiyəli adamlar dəxi oturmayıb ayaq üstə qalxarlar. Və oturduqları yerdə narahat olsalar, öz vəzələrini qayətdə üsul ilə dəməzlər. Bu qism ədəbə müğayir olan şeylər məclisdə olan cəmiyyəti saymamazlıqdan zühurə gəldiyindən pəhriz edərlər.

*Bir para nəsihətlər*

Allah–təalaya ki, iman gətirdik və onun peyğəmbəri Məhəmməd Əl-Mustafa səllallahu əleyhi və sələmə ki, inandıq, allah təalanın bəndəliyində və Məhəmməd əleyhissəlamin ümmətliyində sabit qədəm ol.

*Məhəmməd əleyhissəlamın allah təala tərəfindən gətirdiyi şeylərə dilin ilə qərar edib, qəlbin ilə təsdiq elədiyin kimi əməlin ilə dəxi onu möhkəm edib isbat et.*

*Quran başdan ayağa allah təalanın kəlamıdır. Heç kəs bacarmaz ki, onun üstə bir şey artıra və ya əskildə. Həmişə onu müqəddəs saxlayıb haqqında itaət və ehtiram əmələ gətirmək cümləmizə fərzdir.*

*Peyğəmbərimiz Məhəmməd Əl-Mustafa səllallahi aliyə və səlləmdən rəvayət olunan hədislərin kitablarına və müctəhidlərimiz tərəfindən nəql olunan şəriət hökmünün kitablarına dəxi itaət və ehtiram olunmaq lazımdır.*

*Təhti-hökümətində olduğun səltənət və hökümətə müxalifət etmə və onların rəyinə xilaf olan işləri əmələ gətirmə.*

*Sənin övladın sənin ilə nə qism rəftar eləmək lazım isə sən də gərək öz valideynin ilə o cürə rəftar edəsən.*

*Haqq sözü və doğru mətləbi islah təriqi ilə deməkdən həya etmə. Nə çox tünd və təlx və nə çox mülayim olma. Hər birini üslubi-həkimanə ilə öz yerində istemal elə.*

*Sənin ilə sətizəlik edənlərə sətizəlik göstərmə. Mümkün olan miqdarı həmvarlıq ilə rəftar et.*

*Qeyrilərin eybini açma və xalq arasında məqbul və pəsəndidə olmayan sözü danışma.*

*Bir işə iqdam edəndə süst və kahil olma, fürsət vaxtını fövt eləmə.*

*Çox bil az danış və sözü yersiz danışma.*

*Sözünə qulaq asan, danış vəillah sakit ol.*

*İstəsən el, xalq sənin yaxşılığını zikr eləsin, xalqa bədğu və bədxah olma.*

*Mümkün olan miqdari and içmə. Və and içməyi özünə adət eləmə.*

*Öz nəfsinə rəva görmədiyin şeyləri qeyrisinə rəva görmə.*

*Heç bir kəsə düşmənlik izhar etmə.*

*Nadanlara və axmaqlara və sahillərə yoldaş olma. Onların xasiyyəti sənə sirayət edər. Kibrli olma, xalq səndən uzaq qaçar.*

*Bədhaqq olan kəslər ilə müamilə eləmə. Və axırında ədavətə çəkən işlərdən pəhriz elə.*

*Ziri-dəstində olanları rəncidə eləmə. Və mümkün olan miqdarı onları xoşnud eləməyə səy elə.*

*Mümkün olan miqdarı küdurət gətirən işlərdən pəhriz elə.*

*Özgəyə kağız yazanda elə yaz ki, sonra sənə hüccət olmasın.*

*Qiymətini kəsməmiş heç bir şey alma. Əmələ və muzdur və nökər saxlayanda qiyməti məlum olmamış qəbul eləmə.*

*Nökəri və xidmətkarı və əcnəbi olan kəsləri küflət içinə daxil olmağa izn vermə. Əlǝlxüsus, onların fasiq olanlarından pəhriz elə.*

*Mümkün olan miqdarı əfv elə və inaət ilə rəftar eləməyi özündə xasiyyət elə.*

*Hafizi - səhhət və təhzibi - əxlaqa çalışmaq barəsində hərçənd yazılmağı münasib olan növbənöv hekayələr və nəsihətlər varsa da, amma o uşaqların məzacına siqlət gətirməməkdən ötrü bu qədərin cəm və tərtib etmək ilə iktifa olundu. Bu halda "Təfhmül-müəllimin - təlimül tifl" risaləsi ilə qız uşaqlarının oxumağına lazım olan "Vəzayifül-nisaye" risaləsinin tərtibinə mübişir olduğumuzdan ümid ki, onlardan sonra özgə səliqə ilə hekayələrə şamil olan səyaqında əlahiddə bir risalənin dəxi tərtibinə hümətgüzar olar.*

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Ziya Göyalp. Türkçülüyün əsasları. Maarif nəşriyyatı 1991.
2. Rafiq Özdək. Türkün qızıl kitabı. Birinci kitab. Bakı, Yazıçı, 1992
3. Rafiq Özdək. Türkün qızıl kitabı. İkinci kitab Bakı, Yazıçı, 1993.
4. İslam (qısa məlumat kitabı). Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1985.
5. Məhəmməd Peyğəmbərin həyatı. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1990.
6. Bahəddin Öqəl. Böyük İlin imperiyası. Cild 1. Bakı, Gənclik, 1992.
7. Bahəddin Öqel. Böyük İlin imperiyası. Cild2. Bakı, Gənclik, 1992.
8. Pənah Xəlilov Türk xalqlaının və şərqi Slavyanların ədəbiyyatı Birinci kitab. Bakı maarif nəşriyyatı, 1994.
9. Yusif Balasaqunlu, Kudatku bilik (xoşbəxtliyə aparan elm). Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.
10. Lev Qunilyev, Qədim türklər. Bakı, Gənclik 1993.
11. Fəzlullah Rəşidaddin. Oğuz Namə Bakı, "Elm" 1987.
12. A.Miller. İstoriya İslama. Peterburq 1985.
13. Baxtin Məhəmmədin həyatı. "Nauka i jizn", jurnal 11-12, 1988.
14. Hacı Sabir Həsənli Müsəlman bayramları.
15. Bilgiz Ələddin Məhəmməd Peyğəmbərin hekayəsi. Bakı, Gənclik,1991.
16. Vasilyeva, "Mudrıe Zapovedi narodnoy pedaqogiki". Moskva, Pedaqogika 1983
17. Aydın Xəlilov. İlk Azərbaycan kitabı. The first Azerbaijan book. Bakı 1995.
18. Əliheydər Haşimov, Pedaqogika kursunun tədrisində xalq pedaqogikasının antologiyası. Bakı, 1993.
19. Əliheydər Haşimov, Fərahim Sadıqov. Azərbaycan xalq pedaqogikasının antologiyası. Bakı 1993.
20. Ə.U.Seyidov. Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən, "Maarif " nəşriyyatı, bakı, 1987.
21. Şeyxülislam Allahşükür, Paşazadə Qafqazda İslam Bakı 1991.
22. Əliheydər Haşimov, Pedaqogika kursunun tədrisində xalq hikmətlərindən istifadə, Bakı, "Maarif", 1991.
23. Ə.Seyidov "Pedaqogika tarixi" Maarif Nəşriyyatı, Bakı, 1968.
24. Ə.Seyidov Azərbaycanda pedaqoji fikrin nkişafı tarixindən Bakı, Azəməşr, 1965
25. Heydər Bammat-Qərb mədəniyytinin inkişafında müsəlmanların rolu Bakı 1994.
26. Həmid Məhəmməd İbn Məhəmməd Əl-Qəzzali-"Xoşbəxtlik iksiri" (kimya səadət) Tərcümə edəni Həsənağa Məhəmməddir.
27. Əl Qəzzali – Ehya-Ulum-Moskva. Nauka nəşriyyatı 1980 (rus dilində)
28. Kaşkarli Mahmud. Divani-Lüqat–İt-Türk rebureni Besim Atalay Türk Tarih Kurumu–Basımcbi Ankara Atalay, cild.1